www.vivo-book.com

ÇİNGİZ ABDULLAYEV

# Əclafların qanunu



*Bu kitabda, öz təsiri ilə bütün keçmiş nəhəng dövləti əhatə edən və indi yeni, transmilli hücumları nümayiş etdirən güclü milli mafiyaların fəaliyyətini göstərməyə və danışmağa cəhd olunub. Çox vacib bir şərtə oxucuların diqqətini çəkmək istərdim. "Milli mafiya" sözü ilə, tullantısı bu quldurlar olan xalq sözünü səhv salmaq olmaz. Pis xalq olmur, bu elementar həqiqəti hələ bir çoxları dərk etməyib. Cinayətkar, milliyyətindən asılı olmayaraq cinayətkar olaraq qalır. Zərurət olarsa, onlar razılığa gələrək birgə fəaliyyət göstərə bilirlər. Bu kitabı oxuyanların hamısının yadında qalsın. İnsana onun əməksevərliyinə, ağlına və şərəfinə görə; xalqa onun tarixinə, mədəniyyətinə və ənənələrinə görə; özünüzəsə primitiv milliyyətçilik səviyyəsinə düşməyərək başqalarına hörmət bacarığına görə hörmət edin. Nəticə etibarilə, insan olmaq o qədər çətindir ki.*

*Çingiz Abdullayev*

# I hissə

Hərdən adama elə gəlir ki, dağlarda zaman dura bilir. Keçən min il ərzində gözlə görünən bir dəyişiklik baş verməyib. Təpələrin yamaclarında hələ də bu nəhəng qayalar arasında tər otlaqlar axtaran qoyun və keçi sürüləri gözə dəyir. Gündüz saatlarında günəş əvvəlki kimi bu dağları və onun sakinlərini yandırmaq istəyirmiş kimi yenə də şiddətlə işıq saçır. Gecələrsə külək sanki insanları canavarların gəlişi haqda xəbərdar edirmiş kimi xoşagəlməz tərzdə vıyıldayır. Və yenə böyük yun kürklərdə olan qara bığlı çobanlar nəhəng itlərin müşayiətilə adətən öz əlləri və ənənəyə uyğun olaraq sol böyürdən asılan bıçağın köməyilə sürülərini qoruyurlar. Bəzi çobanlarda ya bu əsrin əvvəllərindən, ya da keçən əsrin sonlarından möcüzə nəticəsində qorunub saxlanan köhnə tüfənglərə də rast gəlinirdi. Və görünür, bu, sivilizasiyanın indiki zamanlara gəlib çatan yeganə irəliləyişiydi. Çobanlar əvvəlki kimi Allahın bu dağlara göndərdiyi sadə qida ehtiyatıyla

keçinirdilər. Və onlar bu ahəngli həyatlarından, sanki müdrikcəsinə qurulmuş bu məişətlərindən razı və xoşbəxtdirlər.

Bu gün qoca Qurban adətən olduğundan azca gec oyanmışdı. Artıq dağların arxasından qalxan günəş onların dünən, nəhayət ki, öz qoyunları üçün yem tapdıqları dərəni tam işıqlandırmışdı. Həmkəndliləri tərəfindən Qurbana tapşırılmış sürüdə min başdan artıq qoyun və demək olar ki, iki yüz quzu var idi. Şükürlər olsun ki, onlar aşağılardakı bir-birilə vuruşan tərəflərin yanından keçib sürünü başlamaqda olan atışmadan ötürə bildilər. Qurban qoyunları bu qədər karıxdıran atışmanın onlara necə təsir etdiyini bilirdi. Üç il əvvəl atışmaya düşüb cəmi beş qoyun itirəndə ona elə gəlirdi ki, ən pisi arxada qalıb. Yalnız payızda səhv etdiyini anlamışdı. Üç yüz quzu gözlədikləri yerdə bunun heç yarısını da almamışdılar. Qurban öz uzun ömrü boyunca minlərlə qoyun yemişdi. Onların təqribən yarısını öz əllərilə kəsmişdi. O, heç vaxt düşünməmişdi ki, bu sakit heyvanların əsəbləri ola bilər. Onların harda yerləşdiyini bilmirdi – ürəyində, ya bəlkə başında. Hərçənd qoyunun içalatından

cız-bız adlanan əla yemək bişirirdilər. Başınısa dili və gözlərilə birlikdə qaynadıb delikates hazırlayırdılar. Və heç bir yerində sinir yox idi. Atışmaya qədər ona elə gəlirdi. Atışmadan sonrasa artıq bu lənətə gəlmiş sinirlərin hardasa olduğunu anlayırdı. Baxmayaraq ki, qoyunun ruhu olduğu fikrini hörmətsizlik və kafirlik sayır, hərdən özünün qoyunlarla balaca uşaqla olduğu kimi danışdığını hiss edirdi.

Şəhər anlayışına görə o, çox qoca adam sayılırdı. Artıq səkkizinci onilliyi gedirdi. Dağ anlayışına görəsə bu, yetkin kişi yaşıydı. Onun qonşusu Piri yetmiş iki yaşında evlənmişdi. Doqquz aydan sonrasa onun qırx yaşlı arvadının qucağında artıq Pirinin oğlu ciyildəyirdi. Dağlarda hər şey nisbidir.

Burda yüz yaşa çatmaqda olan adamlara qoca deyirdilər. Yetmiş yaşdasa ata olmaq və ağızdakı dişlərin demək olar ki, hamısını saxlamaq mümkün idi. Bəlkə də səhərlər ağzını yaxaladığı, dişgöynədən dağ suyu kömək edirdi. Burda heç vaxt diş fırçaları və dişləri mümkün xəstəliklərdən qoruyan məcunlar haqda eşitməyiblər. Buna

baxmayaraq ətraf kəndlərin bir çox sakinləri ölənə qədər qalan möhkəm dişlərilə fəxr edə bilərdilər.

Qurbana adətən, üç il onunla dağlara çıxan nəvəsi kömək edirdi. Amma bu il nəvəsini uzaq dağ kəndinə göndərməli olmuşdu. Rayon mərkəzindən adamlar gəlib Qurbanın nəvəsinin hərbi komissarlığa gəlməyini tələb etmişdilər. Busa qocanın heç xoşuna gəlməmişdi. Qurbanın ailəsində vətəni müdafiə etmək hər bir kişinin müqəddəs borcuydu. Onun qardaşını Belorusiyada öldürmüşdülər, özüsə Yaponiyaya qarşı müharibədə iştirak edib, hətta Port-Arturda da olmuşdu. Amma onun nəvəsi artıq əsgərlikdə olmuşdu. Hələ vahid ordu və nəhəng dövlətin mövcudluğu zamanında özünə düşən ikiillik xidmətini çəkmişdi. İndisə nəvəsini kiçik ölkənin yerli ordusuna çağırırdılar. Yerli hərbi komissarın iyirmi beş yaşlı oğlunun hələ də orduda olmadığı, rayon administrasiyasının yerli rəhbərinin uşaqlarının çoxdan respublikadan getdiyi və şayiələrə görə Türkiyədə yaşadığı, prokurorun oğlunun mağaza açıb rayon mərkəzində vuruq da olsa, xarici maşında gəzdiyi nəzərə alınsa, Qurban özlüyündə haqlıydı. O, nəvəsini bu avaraların

əvəzinə ikinci dəfə orduya göndərmək istəmirdi. Və ailə yığıncağında qərar verildi ki, oğlanı Qazaxıstandakı qohumlarının yanına göndərsinlər. İndi Qurbana qonşunun on beş yaşlı oğlu Əli kömək edirdi. Dağlarda zaman subyektiv məfhum idi. Buranın qanunlarına görə o artıq kişi sayılırdı və Qurbana çətin işində kömək edə bilərdi.

Əli artıq sürünü daha sahmanlı kütləyə yığmağa çalışaraq geri qalan qoyunları haylayırdı. Qurban bulağa yaxınlaşıb yuyundu, ağzını yaxaladı, adəti üzrə Allaha yaxşı gün üçün şükür gətirib keçi yunundan olan yapıncısını geyinərək Əlinin köməyinə tələsdi. Bütün sürünü Qurbanı çox yaxşı anlayan və onunla sanki bir bütöv halında olan üç böyük itin mühafizəsi altına yığmaq lazım idi. Yalnız bundan sonra səhər yeməyinə oturmaq olardı.

Adətən olduğu kimi danışmadan səhər yeməyini təzəcə bitirirdilər ki, Əlinin iti gözünə qonşu dağın yaxın yamacında arxa çantaları olan bir dəstə adam sataşdı.

– Deyəsən, yad adamlardır, – o, uzaqlara baxaraq təşvişlə dedi. Qurban qorxmadı. Onların kəndində qorxaq çoban sadəcə olaraq yox idi. Amma ehtiyatlandı. Aşağıda

müharibə gedirdi və bu tamamilə əks tərəfin əsgərləri ola bilərdi. Onda heç bir güzəşt olmayacaqdı.

– Daşlar tərəfə get, – o, Əliyə dedi, – əgər mənə nəsə olsa, sürünü kəndə özün qaytararsan.

Oğlan başını tərpətdi. Hər şey əvvəldən danışılmışdı. Və burda nə süni hiss-həyəcana, nə də qəhrəmanlıq meyillərinə yer yox idi. Onların kəndi üçün sürü çobanların həyatından daha vacib idi.

Əgər özümüzünkülərdirsə, Əli geri qayıdacaq, əgər yad adamlardırsa, deməli, onların qurbanı qoca Qurban olacaq. Onlar, əlbəttə ki, bir az xoruzlanacaqlar, bir neçə qoyunu vuracaqlar, məzələnmək üçün bir neçəsini güllələyəcəklər. Amma bütün sürüyə dəyməyəcəklər. Minlərlə qoyuna ilişmək onların nəyinə lazımdır ki? Sürünü hara qovacaqlar ki? Onda Əli qaranlığı gözləyərək sağ qalan sürünü qabağına qatıb kəndə geri qayıtmalıdır.

Əli qocayla başla sağollaşıb dərənin kənarında olan böyük daşlara tərəfə tələsdi. O, dağın kölgəsindən istifadə edərək əyilib gedirdi ki, kənar adamlar onu görməsin.

Qurban öz əşyalarını balaca bir bağlamaya qoyub bağladı. Ən üstdən köhnə tüfəngini qoydu. Dağlarda insanlar qaçılmaz olanı sakit bir şəkildə gözləyən fatalistə tez çevrilirdilər. Yad adamlar yaxınlaşırdılar. O artıq onların geyiminin detallarını, böyük çantalarını, çiyinlərindən asılan avtomatlarını görə bilirdi. Onlar beş nəfər idilər. Qurbanın köhnə tüfəngi, hətta üç iti beş avtomatla heç nə edə bilməzdi. Bunu bildiyindən qaya parçalarından birinin üstündə oturub sakitcə onların yaxınlaşmağını gözləyirdi. Gələnlər də artıq yavaşca dağın kölgəsinə sıxlaşan qoyun sürüsünü və sakitcə oturub onları gözləyən qoca çobanı sezmişdilər.

Məsafə qısalırdı və nəhayət, silahlılar çobanın yüz metrliyinə çatdılar. Qurban yavaşca nəfəsini dərdi. Deyəsən, bu dəfə keçdi. O, tanış nitq eşitdi, gələnlərin üzünü görməyə başladı. Amma arxada gedən iki nəfərin üzü dərhal xoşuna gəlmədi. Onlar yad idilər və o, bunu dərhal hiss etdi. Bəlkə də buna görə Əlini geri çağırmadı. Səbirlə yad adamlarla görüşün necə bitəcəyini gözləməyə başladı.

Kənar adamlar artıq lap yaxına gəlmişdilər. İtlər onları ehtiyatla, amma hələ ki sakit qarşılayırdılar. Onlar sahiblərinin jest və sözlərini izləyirdi. Yaxşı bilirdilər ki, dağlarda yad ancaq canavarlar, nadir hallarda insanlar olur. Amma sonuncuların yad olub-olmadığını sahib qərarlaşdırmalıydı. O isə susurdu. Böyük it, demək olar ki, qara Şeytan sahibinə yaxınlaşıb onun yanında oturdu. Diqqətlə gələn adamlara baxırdı, sanki bütün görkəmiylə çobanı sakitləşdirirdi: qorxma, mən səninləyəm. Qabaqda gələn qırx yaşlarında, böyük furajkanı qulaqlarına qədər çəkən kişi dayanıb nəfəsini dərdi.

– Salam qoca, – o, rusca dedi.

– Salam, – Qurban rus dilini hələ əsgərlik vaxtlarından pis bilmirdi və onu bu dağlarda unutmamışdı. Arxasınca gələn, açıq-aşkar azərbaycanlı olduqları sezilən iki nəfər yaxına gəldi. Biri balaca, çevik, oynaq gözləri olan oğlan idi. Daim gülümsəyən siması var idi. Digəri ortaboylu, enlikürək idi. Qalın qara bığları var idi.

– Əleyküm salam, – qara bığlı salamlaşdı.

– Və əleyküm salam, – Qurban cavab verdi, – əyləşin, qonağımız olun.

– Çox sağ ol, ata. – Görünür, onlar uzaqdan gəlirdilər. – Burdan sərhədə çox qalıb?

– Yox, bir günlük yoldur, – Qurban sakit cavab verdi. Dağlarda artıq suallar vermək olmazdı və o, bunu yaxşı bilirdi. Ona görə sərhədin onların nəyinə lazım olduğunu soruşmadı. Amma arxadakı iki nəfər onun necə də xoşuna gəlmirdi! Düzdür, onlar gözlərini yayındıraraq susurdular, amma Qurban onların təlaşını duyurdu. "Onlar niyə belə həyəcanlanır? – Qurban özlüyündə təəccübləndi. – Onlardan biri mənə tanış gəlir. Mən onu harda görə bilərəm?"

– Qarşıda hansısa post var? – rusca danışan başçıları müraciət etdi.

O, furajkasını başından götürdü, cib dəsmalını çıxardıb böyük, keçəl başını silməyə başladı.

– Bilmirəm, əzizim, – Qurban çiyinlərini çəkdi, – müharibə gedir. Bəlkə var, bəlkə də yoxdur.

Onun tərəfə heç baxmayan o iki nəfər necə də xoşuna gəlmirdi!

– Yaxşı, – qara bığlı əlini yellədi, – sağ ol, çoban. Hələ yolumuz uzundur. Bəs sən sürünü tək otarmağa qorxmursan?

– Mən tək deyiləm, – bu sözü sakitcə deyən Qurban beşinin də ehtiyatlandığını sezdi, – mənim üç dostum var. Şeytan və onun qardaşları.

O, itin qulaqlarını nəvazişlə tumarladı.

– Hə, əlbəttə, – qara bığlı gülümsədi, – bunlar əsl köməkçilərdir. Gedək, – o, yol yoldaşlarına dedi.

Bayaqdan susanlardan biri qəfil avtomatını düzəldib Qurbana sarı döndü. O dərhal bu xarakterik burnu, dodaqları və gözləri tanıdı. Qarşısındakı Vazgenin oğlu Armen idi. Bu lənətə gəlmiş müharibəyə qədər onların evində çox olmuşdu.

– Armen, – Qurban güclə eşidiləcək şəkildə dedi.

Oğlan çoban tərəfə dönməyə cürət etməyərək yerində dondu. Yanında kimsə avtomatın rəzəsini dartdı.

– Lənətə gələsən, qoca, – qara bığlı təhdidlə dedi, – nahaq onu tanıdın.

Qurban çevrildi. O, heç nə başa düşmürdü. Aşağıdakı dərədə artıq beş il idi ki, amansız müharibə gedirdi. Və bu

yaxınlara qədər qonşu olan ermənilər və azərbaycanlılar bir-birini qəddarlıqda və hiyləgərlikdə keçməyə çalışaraq öldürürdülər. Burdasa, dağların başında o, ikisi erməni, ikisi azərbaycanlı olan dəstənin dostcasına harasa getdiyini görürdü. Bəlkə, nəhayət, çoxdan gözlənilən sülh yaranmışdı? Bu, onun sonuncu fikriydi. Avtomat darağı onu dəlik-deşik etdi. Və o ona tərəf cuman oğlanı görə bildi.

– Yenə də boşuna deyil, – Qurban sakitcə dedi, – köhnə çörək unudulmur.

Oğlan onu tutmağa macal tapana kimi Qurban öldü. Şeytan qəzəblə yad adamın üstünə cumdu. Qara bığlı əlini tutaraq çığırdı.

– Vurun, – o, ümidsizcəsinə bağırırdı, – tez olun! Bu heyvan əlimi qoparacaq.

Armenin ortağı tapançanı çıxarıb onlara yaxınlaşdı və Şeytana düz yaxından atəş açdı. Yalnız beşinci güllədən sonra it düşmənin əlini buraxıb bir neçə metr sürünərək öldürülən sahibinin yanında öldü.

– Lənətə gəlmiş axmaqlar, – keçəl qışqırdı, – niyə atəş açdınız? Bunsuz keçinmək olmazdı?

– O bizim adamlardan birini tanıdı, – qara bığlı özünə haqq qazandırdı.

– Hə, – Armen təsdiqlədi, – o, məni tanıdı. Atamın tanışı olub.

Onlar, demək olar ki, bir-birilərinə bitişik halda çobanın başının üstündə dayanmışdılar. Bu vaxt sürü tərəfdən iki itin mırıltısı eşidildi. İtləri yaxına buraxmamaq üçün beşi də atəş açmalı oldu.

İtləri öldürəndən sonra hamısı yenidən Qurbana baxdı. O, yerdə uzanaraq sanki başı üzərində dayanan rus, azərbaycanlı və ermənidən ibarət dəstənin beynəlmiləl birliyinə təəccüblənmişdi. Onların beşi də artıq vicdanını çoxdan itirmiş və normal adamla qulduru ayıran sərhədi çoxdan tapdalamışdılar. Amma indi qoca çobanın cəsədi üzərində dayanan Armen nəsə bir narahatlıq hiss edirdi. Sanki bu qocanın ölümü onun taleyində nə cürsə öz əksini tapa bilərdi.

– Cəsədi neyləyək? – balacaboy azərbaycanlı soruşdu.

– Burda saxlayacağıq, – dəstə başçısı əlini yellədi.

– Sonra da azərilər deyəcək ki, ermənilər onların çobanını öldürüb, – Şeytana atəş açan erməni etiraz etdi.

– Guya ermənilər azərbaycanlılara atəş açmır, – Ömər qəzəblə dedi.

– Amma bu qocanı sən güllələdin, – Armen hirsləndi, – bizim üstümüzə atmaq lazım deyil. Vartan, orda deyəsən, daşların dalında kimsə gizlənib.

– Cəld ora, – qrup rəhbəri əmr etdi.

Vartan yenə tapança çıxardıb daşlara tərəf cumdu. İki atəş səsi gəldi.

Vartan daşların arxasından çıxdı.

– Oğlan idi, – o, gülümsəyərək qışqırdı, – indi hesab bərabərləşdi. Birini mən öldürdüm, birini Ömər. Qoy desinlər ki, ermənilər atəş açıb.

– Əclaf, – Ömər bağırdı, – bizim oğlanı öldürdün.

– Daha bir söz desəniz, mən atəş açmağa başlayacağam, – başçı qəzəblə dedi, – tez burdan gedək. Dağlarda atəş səsləri uzaqdan eşidilir.

Yenidən sıraya düzləndilər və onların kiçik dəstəsi tezliklə üfüqdə görünməz oldu.

Daşların arxasından inilti səsi gəldi. Bütün söhbəti eşidən ağır yaralı Əli hələ sağ idi. Çoxlu qan itkisinə baxmayaraq, növbəti günün axşamı qonşu kəndin çobanları onu tapana qədər anlaşılmaz şəkildə, demək olar ki, bir sutka dözə bilmişdi. Əli hələ də sağ idi. Onu təcili rayon mərkəzində yerləşən xəstəxanaya göndərdilər. Hərçənd, oğlanın şansı çox az idi. Bunu qocalar deyirdi.

## II HİSSƏ

Bu gün xoşagəlməzliklər səhər tezdən başlamışdı. Əvvəlcə jurnaldan zəng edib iki gün əvvəl verilmiş məqaləni bitirməyi xahiş etmişdilər. Nəşriyyata bir az kağız daxil olmuşdu və baş redaktor öz jurnalının birinci növbədə çıxmağına nail olmuşdu. O onsuz da, demək olar ki, bir il gecikirdi.

Sonra avtodayanacaqda öyrəndi ki, maşınının akkumulyatoru ölüb. Bu, kifayət qədər böyük xoşagəlməzlik idi. Bu il akkumulyator qıtlığı var idi. Olanlarsa yalnız dollara satılırdı. Və nəhayət, öz evinə yaxınlaşanda üzərində müşahidə sezdi.

Müşahidəçini ələ keçirmək üçün məcburən yoxlama dairəsi vurdu. Müşahidəçi döngədən qaçarkən onunla üz-üzə gəldi.

– Hə, cavan oğlan, – Dronqo gülümsədi, – məni niyə izləyirsiniz?

– Siz Dronqosunuz? – otuz yaşlarında olan oğlan soruşdu. O, "r" hərfini bir qədər yumşaq səsləndirirdi.

– Tutaq ki. Nə olsun?

– Mən regional müfəttişin köməkçisiyəm, – cavan oğlan özünü təqdim etdi.

– Hə? – o artıq təəccüblənmirdi. – Mən elə bilirdim, sizi peşəkar yararsızlığa görə ləğv ediblər.

– Bizi niyə ləğv etməliydilər ki? – cavan oğlan heyrətləndi.

– Bəs siz Avropada xeyirli nə iş görə bildiniz ki? Yuqoslaviyada müharibəyə imkan verdiniz? Bəlkə Afrikada daha böyük uğurlarınız olub? Hərçənd, şəxsən sizin buna nə dəxliniz var? Bu mənim yaşıma görədir, bağışlayın. – O çevrilib binanın girişinə daxil oldu. – Siz mənimlə gəlirsiniz? – Dronqo başını döndərmədən soruşdu.

– Əlbəttə, – cavan oğlan tələsdi.

– Sizin qəribə ləhcəniz var, – Dronqo pilləkənləri qalxaraq düşüncəli tərzdə dedi, – siz slovaksınız, yoxsa çex?

– Macar, – cavan oğlan cəld cavab verdi, – atam macardır, anam ukraynalı. Ona görə rus dilini belə yaxşı bilirəm.

– Adınız nədir? – onlar artıq növbəti mərtəbəyə qalxırdılar.

– Dyula.

– Məşhur macar adı. Əsl adındır, yoxsa sənəddəki?

Oğlan bir qədər karıxdı.

– Əsl, – yuxarı mərtəbədən səs gəldi.

Yuxarı meydançada tünd saçları olan, möhkəm bədənli, ortaboylu, əlində tənbəki çubuğu tutan bir kişi dayanmışdı. Çənəsində, görünür, cavanlıqdan qalan dərin çapıq gözə dəyirdi. Onun qırx-qırx beş yaşı olardı.

Dronqo diqqətlə nəzər yetirdi. Şübhə yox idi.

– Cənab Lauton, – o, məmnuniyyətlə dedi, – bu sizsiniz, cənab Cerald Lauton?

Kişi başını tərpədib çubuğu yığışdırdı və əlini qaldırdı. Dronqo yuxarı tələsdi. Bir dəqiqə sonra onlar bir-birini möhkəm qucaqlamışdılar.

– Bilirdim ki, məni dərhal tanıyacaqsan, – Lauton həyəcanla danışırdı.

– Əlbəttə, sənin çapığını unutmaq mümkün deyil. Şüurum özümə gələndə gördüyüm ilk şey Dyunuanın yumru bədəni və sənin dəhşətli çapığın idi. Sonra qalan hər şeyi xatırlamağa başladım.

Dyula maraqla iki köhnə dostun görüşünü seyr edirdi. Dronqo qapını açıb qonaqları birinci buraxdı. Daha bir neçə dəqiqə sonra onlar dərin kreslolarda oturub yeddi il əvvəl baş vermiş hadisələri xatırlayırdılar.

O vaxt Nyu-Yorkda Dronqo və dostları ABŞ və SSRİ prezidentlərinə qarşı təşkil olunmuş sui-qəsdin qarşısını ala bilmişdilər. Amma Dronqo özü ölümcül yaralanmış və möcüzə nəticəsində sağ qalmışdı. O günlərdə həkimlər onun heç bir şansı olmadığını deyirdilər. BMT-nin xüsusi ekspertlər qrupunun rəhbəri Pyer Dyunua onun yanından bir an belə çəkilməmişdi. Onlar Lautonla birlikdə möcüzəyə

ümid edərək yaralı yoldaşlarının başının üstündə növbə çəkmişdilər. Və möcüzə baş verdi. Dronqo sağaldı. Amma evə qayıdandan sonra uzun müddət aktiv fəaliyyətdən uzaqlaşdırılmışdı. Sonra doxsan birin avqustu gəldi, SSRİ süqut etdi. Onu, son dərəcə çətin tapşırıqlar verməklə Moskvada iki dəfə xatırladılar. Hər ikisində də dostlarını və yaxınlarını itirərək möcüzə nəticəsində evə qayıda bilmişdi. Həyatında çoxsaylı möcüzələr olub. Və Lautonun onun şəhərində, onun evinin pilləkənində peyda olması bu möcüzələrdən biridi.

Keçmiş xatirələri yada salıb qurtarandan sonra nəhayət, Dronqo maraqlandı:

– Siz yalnız bizim keçmişimizi xatırlamağa gəlmisiniz? Yoxsa sənin başqa bir tapşırığın var?

Lauton Dronqonun kinayəsini qiymətləndirdi.

– Hə, – o, gülümsəyərək dedi, – mənim sənin üçün xüsusi tapşırığım var.

– Sən indi İnterpolla əməkdaşlıq edirsən? – Dronqo soruşdu.

– Əlbəttə. Bu cavan oğlanın köməkçisi olduğu Zaqafqaziya üzrə həmin regional müfəttiş elə mənəm. – Lauton Dyulanı göstərdi.

– Qibtə etməzdim, – Dronqo yavaşca donquldandı, – məncə, indiki zamanda bu, dünyanın ən qəliz regionlarından biridir. Bəs niyə məhz səni göndəriblər? Burda yerli kadrlar çatmır?

– Hansı yerli kadrlar? – Lauton heyrətləndi, – Gürcüstanda İnterpolun bürosu iki ildən artıq iflic vəziyyətindəydi, Ermənistanda, demək olar ki, işləmirdi. Azərbaycandasa yerli şöbənin rəhbərini növbəti çevrilişdə iştirakına görə sadəcə olaraq həbs ediblər. Kifayətdir?

– O, doğrudan çevrilişdə iştirak edib? – Dronqo maraqlandı.

– Bəs özün bilmirsən?

– Mənə sənin fikrin maraqlıdır.

– Ən azından o, bu ittihamla həbs olunub. Biz yoxlamışıq, bizim işlərlə heç bir əlaqəsi yoxdur, sırf siyasətdir. Bizsə, sənə məlum olduğu kimi, siyasətə qarışmırıq.

– Rahat mövqedir, – Dronqo burnunun altında dedi.

– Başa düşmədim.

– Heç nə. Sadəcə olaraq bunun üçün burda uzun müddət yaşamaq lazımdır. Davam et.

– Biz Zaqafqaziyadan Avropaya nəzarətsiz daşınan böyük narkotik yüklər haqda məlumatlardan narahat idik. Azərbaycan və Ermənistan arasındakı müharibədən, Gürcüstandakı qeyri-sabitlikdən istifadə edən yerli cinayətkar klanlar Pakistan və əfqan işbazlarıyla sıx əməkdaşlıq qurublar. Hərçənd, İranın islam hökuməti bu gur axına mane olmağa heç olmasa, cəhd göstərir. Buna baxmayaraq onların uğurları o qədər də gözə çarpmır. Və ya ümumiyyətlə, əhəmiyyəti olmur. Amerikanın narkotiklərin yayılmasıyla mübarizə idarəsi yerli hüquq-mühafizə orqanlarıyla sıx əməkdaşlıq yaratmaq üçün öz nümayəndəsini Gürcüstana göndərmişdi. Amma o öldürüldü. Gürcülər sonradan əmin edirdilər ki, bu, tamamilə təsadüfdür. Bizim üçün Azərbaycan və İran arasındakı sərhədin ən təhlükəli hissəsi Dağlıq Qarabağın vuruşan erməni hissələri tərəfindən işğal olunub. Orda

ümumiyyətlə, heç bir nəzarət yoxdur. Yeri gəlmişkən, bunu həm Azərbaycan, həm də erməni mənbələri göstərmişdi. Sərhəd sadəcə olaraq dağıdılıb və ona heç kim nəzarət etmir. Bizdə olan məlumata görə böyük miqdarda yüklər məhz ordan Gürcüstan limanlarına, ordansa Avropa və Türkiyəyə göndərilir.

– Ona görə burdasan? – Dronqo soruşdu.

– Yox, mənə qədər bura İnterpolun türk nümayəndəsi Namiq Aslan göndərilib. Onun Bakıya gəlişi haqda hökumət dairəsindən yalnız bir neçə adam bilib. Sonra nə baş verdiyini ehtimal edə bilirsən?

– Bilirəm, – Dronqo sakitcə cavab verdi, – qəzetlərdən türk iş adamı Namiq Aslanın ölümü haqda oxumuşam. Onu mehmanxananın yanında güllələmişdilər. Qatil hələ də tapılmayıb.

– Doğrudur. Bu isə o deməkdir ki, burda bizim məlumatların yerli narkobaronlara ötürülməsi ehtimalı var. Razılaş ki, bununla ciddi məşğul olmaq lazımdır.

– Buna görə gəlmisən?

– Tək buna görə yox, – Lauton çapıq görünən çənəsini xarakterik jestlə sığallayaraq başını buladı. – Məlum olduğu kimi, çeçen müharibəsi zamanı Rusiya Azərbaycan və Gürcüstanla sərhədi bağlamışdı. Qara dənizdə rusların keşikçi sərhəd mühafizə gəmiləri peyda olub. Amma bu, narkotik yüklərin maneəsiz şəkildə Gürcüstandan keçməsinə, eləcə də, Şimali Qafqaz vasitəsilə Ukraynaya yol tapmasına mane olmayıb. Başa düşürsən, söhbət nədən gedir?

– Hər şey satın alınıb, – Dronqo gözlərini yumaraq yorğun halda dedi, – bu elə maraqsızdır ki. Burda hamı satın alınır – siyasətçilər də, hərbiçilər də, polis də, yerli təhlükəsizlik əməkdaşı da, sərhədçi də, gömrükçü də. Bu, Rusiyada da belədir, Gürcüstanda da, Azərbaycanda da. Elə Ermənistanda da. İnsanları durduran heç nə qalmayıb. Cəzalandırılmaqdan çoxdan heç kim qorxmur – həmişə pulla qurtulmaq olar. Mənəvi kateqoriyalarsa hesaba alınmır. Hər şey doğrudur, elə bunu da gözləmək lazım idi, cənab Lauton. Bilirsən, maraqlı paradoks yaranır – amerikalılar və qərbi avropalılar SSRİ-ni uğurlu bir şəkildə

dağıtdıqlarına görə hələ min dəfə peşman olacaqlar. Əvvəllər "dəmir pərdə" çərçivəsində olan bütün zir-zibil geniş sərbəstliyin olduğu və əsl pulların dövr etdiyi "azad dünyaya" tökülüşüb.

Rus mafiyası problemin yalnız bir hissəsidir. Milyonlarla mühacir yaxşı həyat ardınca Qərbə üz tutub. Və onların arasında o qədər yaramaz və əclaf var ki, öz kütlələrində bəlkə də çoxluq təşkil edirlər. Silah, narkotik, Avropa fahişəxanalarına ucuz qızların ixracı... Eh, sizə necə də pis olacaq.

– Sən elə bil ki, sevinirsən, – Lauton incidi.

– Yox, mən ağlayıram, – Dronqo ayağa durdu, – gedim, sizə çay dəmləyim. Burda çay içmək qəbul olunub, qəhvə yox.

O, mətbəxə keçdi, qonaq otağında baş verənlərə diqqət kəsildi. Hər iki həmsöhbəti susurdu. Tünd çay dəmləyib stəkanlara süzdü. Bütün bunları podnosa yığıb otağa qayıtdı.

– Buyurun, – o, qonaqlara təklif etdi.

– Çox sağ ol, – Lauton əlini stəkana uzatdı.

Dyula nəyəsə gülümsəyib öz stəkanını götürdü.

– Hə, harda qalmışdıq? – Dronqo soruşdu. – Mənim sevincimdə. Zaqafqaziya respublikalarında orta əməkhaqqının nə qədər olduğunu bilirsiniz? Bir-iki dollar. İndiki hər üç müstəqil dövlətdə. Amma bura keçmiş Sovetlər İttifaqında ən zəngin diyar idi. İnsanlar aclıq çəkməyə başlayıblar, distrofiyadan ölürlər. Bir çoxları intihar edirlər. Heç kim heç bir perspektiv görmür. Və siz tox, inkişaf etmiş, hər cür təminatı olan ölkələrdən belə yerlərə gəlib təəccüblənirsiniz ki, burda niyə bu qədər cinayət var, niyə hər şey satılır və alınır? Bəs bu bədbəxtlər nəylə yaşasınlar? Nümunə istəyirsiniz? Gürcüstan, Ermənistan və Azərbaycanın prokurorlarının aylıq əməkhaqqı sizin ölkələrinizin istənilən yoxsulunun bir günlük qazancından azdır. Müdafiə nazirisə yaxşı bir bayramlıq mundir almağa çatmayacaq qədər pul alır. İnandırıcıdır?

– Bəs onlar necə yaşayırlar? – Dyula təəccübləndi.

– Oğurlayırlar, cənablar, hamı oğurlayır. Rüşvət alır, oğurlayır, satış qiyməti olan hər şeylə ticarət edirlər. Ən

ucuz qiymətə şəxsi vicdan olduğundan onu uyğun qiymət təklif olunan hamı çoxdan satıb.

– Sənə elə gəlmir ki, sən pessimistsən? – Lauton qaşlarını çatdı.

– Mən hələ optimistəm. Nazirlər və prokurorlar təkcə rüşvət alsaydılar, yaxşıydı. Yox, onlar eləcə də, reket dəstələrinə, qaçaqmalçılara, onlara müdafiə üçün müəyyən faiz ödəyən fırıldaqçılara rəhbərlik edirlər. Yoxsa yaşaya bilməzlər.

– Prokurorlar? – Lauton zarafat etdi.

– Nazirlər də, – Dronqo ciddi tərzdə cavab verdi, – ümumiyyətlə, Zaqafqaziya respublikalarını artıq vətəndaşlar özləri badımcanlıq və ya limonluq adlandırırlar. İnsanların inamı qalmayıb. Gələcəyə də heç bir şans yoxdur.

– Kədərlidir, – Lauton çaydan bir qurtum aldı. – Qaynardır, – o, narazılıqla dedi.

– Çayı çox qaynar içirlər, – Dyula izah etdi, – mən artıq bu adəti bilirəm.

– Deməli, bizim burda nəyisə qaydasına salmağa heç bir şansımız yoxdur? – Lauton birbaşa soruşdu.

– Sözün düzü – demək olar ki, yox.

– Necə yəni “demək olar ki?”

– Bu o deməkdir ki, əgər siz bu şərtlərdə təhqiqat apara bilsəniz, ən yuxarılara çıxış əldə edə bilərsiniz. Bu halda Zaqafqaziya respublikalarının rəhbərləri öz ölkələrinin imicini qoruyub saxlamaq üçün bir dəstə quldur aradan götürüb onları digəriylə əvəz etməklə sərt tədbirlər görəcəklər. Amma əgər siz təkbaşına uğur əldə edə bilsəniz. Heç bir köməyə ümid bəsləməyin. Burda “əclafların qanunu” hökm sürür, Cerald, sizə çox çətin olacaq.

– Heç vaxt belə bir qanun haqda eşitməmişəm, – Dyula təəccübləndi, – bu nə deməkdir?

– Əsas qayda çox sadədir, – Dronqo həvəslə izah etdi. – Dostun səni ələ verməzdən əvvəl sən onu satmağa macal tap. Öz vicdanını münasib qiymətə satmağa imkan tap, nə qədər ki, bunu sənin şəriklərin etməyib. Bir sözlə, xəyanət etməyə macal tap, yoxsa bunu başqaları edəcəklər.

– Fransızların belə bir sözü var: yalnız özününkülər xəyanət edirlər, – Dyula xatırladı.

– Hə, – Dronqo təsdiqlədi, – amma onlar bunu arasında satqınların da olduğu kəşfiyyatçılar haqda deyiblər. Mindən biri. Burdasa nisbət əksinədir.

– Deməli, bizim az da olsa, şansımız var, – Lauton yenə çənəsini sığalladı, o həyəcanlanırdı.

– Minimal. O da ona görə ki, burda təkamül qanunu işləyir. Böyük yaramazlar daha kiçiklərini yeyirlər. Öz hakimiyyətlərinin qeydinə qalan və onu qoruyub saxlamağa çalışan siyasətçilər öz ətraflarından həddən artıq mənfur fiqurları qurban verməli olurlar. – O, birdən Lautonun sözlərinə diqqət yetirdi. – İndiki halda "bizim" sözü nəyi bildirir? – Dronqo maraqlandı.

– Bizim, – Lauton sakitcə təkrarladı. – Mənim, Dyulanın və sənin.

Otağa sükut çökdü.

– Deyəsən, mən hələ öz razılığımı verməmişəm, – Dronqo yavaşca xatırlatdı.

– Sən axı mənim niyə gəldiyimi dərhal anladın. Biz yerli adətləri bilmirik, bizim lazımi ustalığımız yoxdur. Sənin bu işdə iştirakın taleyin hədiyyəsi kimidir.

– Mən heç vaxt bu regionda işləməmişəm, – Dronqo xatırlatdı.

– Nə olsun? – Lauton heyrətləndi.

– Mən burda yaşamalıyam. Heç nəyə baxmayaraq, mən bu yerləri, içində bu qədər çirkinliklər olan şəhəri sevirəm. Arasında çoxlu tanışlarım və dostlarımın da olduğu bu bədbəxt insanları sevirəm. Siz daha sonra çıxıb gedəcəksiniz, əlbəttə ki, əgər biz nəsə edə bilsək. Amma mən burda qalmalıyam. Əgər bizim indi az da olsa şansımız varsa, sizin gedişinizdən sonra mənim heç bir şansım olmayacaq. Heç bir. Mən daha burda yaşaya bilməyəcəyəm. Bu mənə həddən artıq baha başa gələcək, Cerald, mənsə bunu istəmirəm.

– Sən söhbəti elə qurursan ki, mən heç israr edə bilmirəm, – Lauton donquldandı.

– Heç lazım deyil, Cerald. Mən sizə həmişə məsləhətlərimlə, lazımlı adamları tapmaqla, əlaqələri təmin etməklə kömək edə bilərəm. Amma ondan artığına ümid bəsləməyin. Mən bu çirkin oyunlardan artıq yorulmuşam. Əlbəttə, mən zir-zibil içində yaşayıram. Amma bu mənim

zibilimdir, Lauton və mən ona artıq alışmışam. Məni başa düşməyə çalış.

– Təəssüf, – Lauton ah çəkdi, – biz sənin razılığına ümid edirdik.

– Razılıq ola bilməz, – Dronqo inadla söz güləşdirdi, – sən axı İnterpolun “mələklərinin” əsas qaydalarından birini xatırlayırsan – möhkəmlənmən lazım gələn yerdə heç vaxt əməliyyat aparma. Mənsə burda möhkəmlənmək istəyirəm, cənab Lauton. Mənim başqa vətənim yoxdur. Və onu belə çətin zamanda tərk etmək fikrim yoxdur.

– Bağışla, – Lauton ayağa durdu, – amma mən səni anlayıram. Sənin səbəblərinə də hörmət edirəm. Deməli, təkbaşına fəaliyyət göstərəcəyik. Amma düşünürəm ki, məsləhət verməkdən imtina etməzsən?

– Heç vaxt. Və dost axşamlarından da. Mənim köhnə valyuta ehtiyatlarım var. Ona görə sizi axşam restorana dəvət edirəm. Siz hansı mehmanxanada yaşayırsınız?

– Bu bizim ünvanımızdır. Rəsmi olaraq, İnterpolun xəttilə sənədləşdirmişik, – Lauton öz kartını uzatdı. – Dünən biz hüquq-mühafizə orqanlarının nümayəndələrilə görüşənə

kimi bütün günümüzü itirdik. Ona görə sənin ölkəndəki tənəzzülü öz təcrübəmizdən də bilirik. Sağ ol.

O, əlini uzatdı. Dronqo onun əlini möhkəm sıxdı. Başqa heç bir söz deyilmədi.

Dyula sağollaşarkən Dronqonun əlini sıxaraq ona şən halda göz vurdu. Deyəsən, o, belə bir nəticəyə hazır idi.

Qonaqların ardınca qapını bağlayandan sonra Dronqo pəncərəyə yaxınlaşdı. Lauton və Dyula qonşu uşaqların diqqətli baxışları altında onların böyük marağına səbəb olan parlaq, qırmızı rəngli cipə oturdular.

Getməzdən qabaq Lauton bir daha pəncərəyə baxdı. O, pərdənin arxasındakı Dronqonu görə bilməzdi. Amma Dronqo onu görür və özünü çox pis hiss edirdi. O özünü dostlarını çətin anda atan xəyanətkar sayırdı. İndi Ceraldın onun yatağı başında günlərlə keşik çəkdiyi zamanları xatırlamaq ona əzab verirdi. Sanki həyatında ilk dəfə olaraq öz dostlarını aldatmaqla əxlaqsız hərəkət etmişdi. Lauton hər şeyi doğru anlamışdı, amma bu vəziyyəti yüngülləşdirmirdi. Elə bu an telefon zəng çaldı...

# III HİSSƏ

Onun növbətçiliyi dövründə rayon ərazisində orta hesabla beş-altı cinayət hadisəsi baş verirdi ki, bunların da biri-ikisi özünün şəxsi iştirakını tələb edirdi. Prokurorluqda adam çatışmadığından müstəntiqlər adətən olduğundan daha çox növbəyə qalırdılar. Elə indi də növbəti cinayət haqda məlumat aldıqdan sonra maşını çağırdı ki, hadisə yerinə getsin.

Müstəntiq Yevgeni Çijov gənc və şöhrətpərəst idi. Məhz buna görə xüsusi səy göstərir, hər bir cinayətin xırdalığına gedərək həqiqəti üzə çıxarmağa çalışırdı. Cəsədin yarılmasında da, zərərçəkənin öz iştirakıyla zorlanmış adamın paltarına baxış keçirəndə də bu prosesdə sakitcə iştirak edən sönük və arsız həmkarlarından fərqli olaraq, o, xeyirin təntənəsinə və qanunun ədalətinə inanaraq az da olsa uğur əldə etməyə çalışırdı. Hərçənd, prokurorluqda işlədiyi müddət ərzində illüziyaları gündən-günə yaz qarı kimi əriyirdi. Amma onun cəmi iyirmi səkkiz yaşı var idi.

Uzağa gedəsi deyildi. Bu dəfə qətl hadisəsi Moskvanın Qərb inzibati dairəsində, onların Kiyev rayonu ərazisində yerləşən "Ukrayna" mehmanxanasında törədilmişdi. Daxili İşlər İdarəsindən yola çıxan qrup artıq öldürüləni tapıb və dərhal prokurorluğa təcili məlumat göndərmişdi. Əlbəttə, DİN müstəntiqləri çətin işdən yaxa qurtardıqlarına görə sevinirdilər: qanuna görə, arasında sözsüz ki, qətllərin də olduğu ən ağır cinayətlər prokurorluq müstəntiqləri tərəfindən təhqiq olunmalıydı.

Çijov hadisə yerinə çatanda hava artıq işıqlaşırdı. Səhər saat altı idi. Narazı, qaşqabaqlı növbətçilər və iki milis nəfəri onu onuncu mərtəbəyə qalxmalı olduğu liftə ötürdülər. Müşayiətçilərə əlini yelləyib liftə tək daxil olub düyməni basdı. Burda onu artıq gözləyirdilər. Qrup rəhbəri olan Kiyev Daxili İşlər İdarəsinin mayoru Mixeyevi Çijov artıq iki il idi, tanıyırdı. Konstantin İqnatyeviç Mixeyev milis orqanlarında iyirmi ildən artıq işləmişdi və öz işinin peşəkarıydı. Amma ictimai həyatda iştirak etmirdi. Əvvəlki rejim zamanı kommunist partiyasına otuz yaşa çatanda, özü də partkomun təzyiqiylə daxil olmuşdu. İndiki hakimiyyət

zamanı hökumət dairələrinə, şəhərdəki və ölkədəki öz rəhbərliyinə ikrah dolu münasibətini də gizləmirdi. Doxsan üçün oktyabrında, "Ukrayna" mehmanxanası önündə tanklar Rusiya parlamentini gülləbaran edəndə o, milis zabitlərinə xas olmayan bir işlə məşğul olurdu: gülləbarandan qaçan insanları xilas edib onlara gizlənməyə kömək edirdi. Doğrusu, dəqiq faktlar yox idi və onu şanlı "asayiş keşikçiliyindən" elə-belə qova bilməzdilər. Buna görə bütün instansiyalardan keçən qərarla ona düşən podpolkovnik rütbəsini vermədilər. Və Kiyev rayonunun Cinayət-Axtarış Şöbəsinin rəisi bu vəzifədə yeganə mayor olaraq qaldı.

Şəhər Cinayət-Axtarış İdarəsi və Kiyev rayonu Daxili İşlər İdarəsi rəhbərliyindən onu dəyişməkdən qəti şəkildə imtina etdilər. Mayor Mixeyev həddən artıq dəyərli və lazımlı işçiydi. Korrupsiyanın demək olar ki, normaya çevrildiyi, rüşvətxorluğa görə ittiham olunan hər dörd nəfərdən birinin hüquq-mühafizə orqanı əməkdaşı olduğu bir ölkədə o, satılmayan və şərəfli bir insan nümunəsiydi ki, hələ də tam dağılmamış sistem bunun üstündə dayanırdı.

Məhz buna görə Çijov mayor Mixeyevi görəndə bərk sevindi.

Onunla işləmək maraqlı və ən əsası da rahat idi. Əvvəldən bilmək olardı ki, heç kim mayora təzyiq göstərərək zəruri anda istintaqın taktikasını dəyişdirib əsl günahkarları zərbə altından çıxarmağa məcbur edə bilməyəcək.

Mixeyevin üzü saqqallıydı. O, əynində köhnə, əzik palto, ağzında yandırılmamış siqaretlə dayanmışdı. Siqareti atmağa qərar verəndən sonra iş yoldaşları yarım il idi ki, onu bu halda görürdülər. Alışqanı çıxarmağa iradəsi, siqareti tamamilə yığışdırmağasa vərdişi mane olurdu.

– İşlər necədir, Jenya? – Mixeyev soruşdu. – Səni gecə vaxtı narahat ediblər?

– Eybi yox, Konstantin İqnatyeviç, – Çijov gümrahlıqla cavab verdi, – deməli, belə lazımdır. İşimiz budur.

– Hə, – Mixeyev mızıldadı, – onda getdik. Sən hələ gəncsən, Jenya, çox gəncsən! Ona görə də bu zir-zibilin içində eşələnirsən. Gedək mənimlə. Onun işi budur...

Çijov Mixeyevin deyingənliyinə adət etdiyindən mütiliklə Cinayət-Axtarış İdarəsi rəisinin arxasınca gedirdi. Bu zaman mərtəbədə növbə çəkən qadının və dəhlizə siqaret çəkmək üçün çıxan operativ qrupun yorğun əməkdaşlarının qorxudan ağarmış üzlərini də sezə bildi.

Nömrədə cavan bir oğlan, öldürülən adamın başı üzərində çömbəlib cibindən çıxan əşyaları diqqətlə öyrənirdi.

– Nəsə tapmısan? – Mixeyev ondan soruşdu.

– Heç nə, – Mixeyevin işçisi ayağa qalxdı, – yalnız dollar bükümü və iki Amerika istehsalı olan qoruyucu. Qoltuq cibindəydi. Görünür, lazımi anda tətbiq etmək üçün həmişə özüylə gəzdirirmiş.

– Ehtiyatlı olub, – Mixeyev cəsədin üzərinə əyildi, – ekspert baxıb?

– Baxıb, – oğlan təsdiqlədi, – o dünən axşam ölüb. Deyir, cəsəd burda ən azı beş saat qalıb. Axı növbətçi qadın təsadüfən nömrəyə girib, deyir ki, onun bu günə kimi hesabı ödənibmiş. Səhər saat dörd üçün Şeremetyevo aeroportuna taksi sifariş verib.

– Taksini dünən özü sifariş verib? – Mixeyev soruşdu.

– Özü. Zəng edib sifariş verib. Sonra sifariş üçün beş min rubl saxlayıb.

– Bunun kim olduğu artıq məlumdur? – Çijov da cəsədin üzərinə əyildi.

– Əlbəttə. Mixail Quramoviç Moseşvili. Otuz beşinci ildə Tiflisdə doğulub.

– Bircə hansı doğum evində doğulduğunu deməyin qaldı, – Mixeyev deyindi, – harda və nə vaxt doğulduğu vacib deyil. Onun pasport məlumatlarından başqa daha konkret nəsə aydınlaşdırılıb?

– Moskvaya üç gün əvvəl gəlib. “Ukraynanın” daimi qonağıdır. Onu burda çoxları yaxşı tanıyır. Deyirlər ki, ezamiyyətə gəlib. Tiflisdə qeydiyyatdadır. “PAK” və “Ampeks” kommersiya firmalarının rəhbəridir. Qızı var, bu haqda pasportda yazılıb.

– Bax, Jenya, – ayağa duran Mixeyev oğlanı göstərdi, – neçə dəfə beyinlə işləməyin zərurətindən danışasan? O isə gedib anketə baxır, pasportu açır və bizə lazımi məlumatı

verir. Yeri gəlmişkən, tanış olun. Bu işlə elə o məşğul olacaq. Baş leytenant Viktor Steklov.

Oğlan Çijova başını yellədi. O sanki Mixeyevin iradlarından heç incimədən onu diqqətlə dinləyirdi. Hamı bilirdi ki, İqnatyeviç ədalətli adamdır. Deyinməyi xoşlasa da, heç vaxt tərəf verməz. Həmişə də lazım olanda kömək edər.

Çijov yataq otağına nəzər saldı. Öldürülən adam üç otaqdan ibarət "lüksdə" qalırdı. Yataq səliqəylə yığılmışdı.

– O, bu gecə yatmayıb, – Çijov dedi.

– Doğrudur, – Mixeyev başını tərpətdi, – analitik təfəkkür budur. Yatmayıb. Deməli, saat doqquz, ya onda öldürüblər. – Qapı cırıldadı.

– Cəsədi aparmaq olar? – kimsə soruşdu.

– Məncə, hə. Sizin etirazınız yoxdur ki? – Mixeyev Çijovdan nəzərə çarpacaq dərəcədə nəzakətlə soruşdu.

– Yox, – Yevgeni gülümsədi. – Bəs başqa nəsə aydınlaşdırmısınız? – o artıq Steklovdan soruşdu.

– Öz kartotekamız üzrə sorğu göndərmişik. Orda növbətçilər yatırdı, – Steklov bir qədər günahkarcasına

cavab verdi, – amma söz veriblər ki, onun bizim kartotekadan keçib-keçmədiyini dəqiqləşdirəcəklər. Görünür, biznesmendir. Növbətçi əmin edir ki, onun həmişə çoxlu qonaqları olub. Dünən kimin gəldiyinisə görməyib. Mərtəbədə liftdən iki çıxış var. Lifdən çıxıb dərhal sola getmək olar. Onda növbətçi dəhlizdə kimin olduğunu görür. Amma sağa da dönmək olar. Onda növbətçi heç nə görməyəcək. Daha sonrasa dəhlizlər birləşir və düz bizim nömrəyə aparır.

– Bəlkə qatil başqa mərtəbədən qalxıb? – Çijov soruşdu.

– Oxşamır, – Steklov etiraz etdi. – Bizim nömrənin qarşısındakı pilləkən qapısı dünən bağlı olub. Ordan heç kim gələ bilməzdi. Yalnız dəhlizdən. Amma növbətçi heç nə görməyib.

– Onları nəyə görə saxlayırlar ki? – Çijov təəccübləndi. – Onlar daim yuxuludurlar.

– Müdiriyyət üçün pul qazanırlar, – Mixeyev acı-acı dedi, – sakinləri qızlarla təmin edirlər, nömrələri sənədsiz verirlər, qaydaların pozulmasına göz yumurlar, bir

sözlə, hər şeydən pul çıxarmaq olar. Adi mehmanxana biznesi. Hələ indi nisbətən qayda-qanun yaradılıb. Əvvəllər əsl yaramazlar yuvasıydı. Burda o qədər murdar adam yaşayırdı ki.

Nömrəyə daxil olan bir neçə adam cəsədi götürmək üçün xərəyi ehtiyatla yerə qoydu.

– Gözləyin, – Mixeyev dedi. – O, cəsədin üzərinə əyilib çətinliklə onun barmağındakı iri üzüyü çıxardı. – İndi apara bilərsiniz.

Xərəyi nömrədən çıxardıqları vaxt Çijova izah etdi:

– Pataloq-anatomların yanına aparacaqlar, sonra cəsədi meyitxanada saxlayacaqlar və üzük mütləq itəcək. Belə hallar çox olub. Sonra belə məlum olacaq ki, bu çox vacib dəlil imiş. Ya da ölənin qohumlarına xatirə ola bilər. Ona görə mən həmişə hətta nişan üzüklərini belə götürürəm. Meyitxanada kimlərin işlədiyi məlumdur. Son zamanlar tamam vəhşiləşiblər, cəsədlərin qızıl dişlərini də çıxarırlar.

– Zəmanə belədir, – Çijov cavabdan yayındı.

Mixeyev heç nə demədi. Artıq çeynənmiş siqaretini tüpürüb yenisini dişlərinin arasına qoydu.

– Ölənin bədənində odlu silahdan açılmış iki yara var, – o qısaca Çijova məlumat verdi, – güllənin biri ürəyi, digərisə ağ ciyəri dəlib. Mənim fikrimcə, atəş açanlar peşəkarlar olublar. Əlbəttə ki, səsboğucudan da istifadə olunub. Yoxsa atəş səsləri bütün dəhliz boyu eşidilərdi. Görünür, qəfildən hücum ediblər. Hərçənd, qatil tək olmalıydı, çünki bu axşam iki nəfəri ümumiyyətlə, görməyiblər. Mənim uşaqlarım dünənki növbətçiləri bir daha sorğu-sual edəcəklər. Bundan başqa, aşağıda mağazalar da var. Bəlkə satıcı qızlar nəsə görüblər.

– Onun əşyalarına baxmısınız? – Çijov soruşdu.

– Onun iki çamadanı olub, – Mixeyev izah etdi, – kilidləri də çox qəlizdir. Həm açarla bağlanır, həm də kodu var. Fransız çamadanı olan “Delsey”dir. Mən onları qırmaq istəmirəm. Onları özümlə götürmək fikrindəyəm. Orda ehtiyatla açıb içindəkilərə baxarıq.

– Hə, – Çijov razılaşdı, – belə daha düzgün olar.

– Gedək, – Mixeyev təklif etdi, – mənim uşaqlarım hadisə yerinə baxış protokollarını sənədləşdirəcəklər. Onsuz da ölənin əl izlərindən başqa heç bir iz yoxdur. Özüm şəxsən

baxmışam. Peşəkarların işidir. Bəlkə hətta sifarişli qətldir. Hərçənd, öldürülən kommersant olub. Çətin ki qapını kimə gəldi açardı.

– Bəlkə o, qapını, ümumiyyətlə, bağlamayıb? – Çijov ehtimal etdi.

– Dəqiq bağlayıb, – Mixeyev izah etdi, – özüm yoxlamışam. Burda dilcik pərçimlənir. Qapını azca örtən kimi kilid avtomatik bağlanır. Deməli, öz qatilinə və ya qatillərinə qapını Moseşvili özü açıb. Bu isə çox vacibdir. Bəlkə onun tanışı olub, bəlkə də dostları. Bu versiyanı da yoxlamaq lazım gələcək. Onu mehmanxanaya kimin qəbul etdiyini öyrəndin? – Mixeyev Steklovdan soruşdu.

– Hələ yox, – baş leytenant bir qədər günahkarcasına cavab verdi, – orda hələ hamı yatır.

– Belə olmaz, – Mixeyev başını buladı, – belə hallarda cəld işləmək lazımdır. Burda qətllər hər gün baş vermir. Yuxulu adamların başı yaxşı işləmir, nəyisə gizlətmək onlara çətin olur. Anlayırsan?

– Hə, – Steklov gülümsədi, – hər şeyi başa düşdüm.

– Özün də gülümsəmə. Gör nə gülərüzdür. İkinci gecədir yatmır, amma hələ də gülümsəyir. Dünən bir dəstəni tutmuşuq, – o, Çijova izah etdi, – əməkdaşımız Petya Varlamovu ağır yaralayıblar. Bu gün növbədə o olmalıydı. Ona görə Viktor onun yerinə işləyir.

– Mən heç nə bilmirdim, – Çijov təəccübləndi.

– Belə də olmalıdır, – Mixeyev qeyd etdi, – boşuna hay-küy salmaq lazım deyil. Dünən prokuror sənin raportunu alıb. Narahat olma, kağızlarla bağlı bizdə hər şey qaydasındadır. Sadəcə olaraq mən fikir vermişəm, hazırlanan hücum haqda məndən və uşaqlarımdan başqa, kimsə biləndə, xəbər mütləq qırağa sızır. İncimə, əlbəttə ki, mən səni nəzərdə tutmuram. Ona görə bir qədər mövhumatçı olmuşam, əməliyyatın nə vaxt başlayacağını yalnız özüm bilirəm. Belə daha etibarlıdır, inan mənə.

Dəhlizə çıxıb liftə tərəf getdilər. Orda artıq onları saçlarını sarı rəngə boyamış, qırx beş yaşlarında növbətçi qadın gözləyirdi.

– Dəhşət! – o, yalandan gözlərini yumaraq dedi.

– Vətəndaş, bu dəhşət deyil. Bu, adi cinayətdir, – Mixeyev quru tərzdə qeyd etdi, – amma sizin mehmanxananızda baş verənlər doğrudan da dəhşətdir.

– Mənim bu işə nə dəxlim var? – növbətçi dərhal mərhumu unutdu.

– Heç bir. Elə-belə, sözgəlişi dedim. Yeri gəlmişkən, Lenanı mehmanxanada işləməyə axı siz gətirmisiniz.

– Bunu sizə kim deyib? – növbətçi qadın hirsləndi. – O yaramaz?

– Kim lazımdır, o deyib. Sizsə vətəndaş Semyonova, bəsdir kələk gəldiniz. Burda bazar açmaq lazım deyil, – Mixeyev ciddi tərzdə qeyd etdi, – bir də belə şey görsəm, müdiriyyət qarşısında məsələ qaldıracağam.

– Mən heç nə bilmirəm, – qadın ağladı, – mənim bura nə dəxlim var? Mən Moseşvilinin yanına kimin getdiyini heç görməmişəm. Düzünü deyirəm, görməmişəm.

– Bəs əvvəllər kimin gəldiyini öyrənə bilərsiniz? – Mixeyev soruşdu.

– Məncə, hə, – qadın cəld cavab verdi, – onun dostlarının çoxunu üzdən tanıyıram. O, tez-tez bizdə qalırdı.

– Sabah Daxili İşlər İdarəsinə gələrsiniz. Harada olduğunu bilirsiniz?

– Əlbəttə, bilirəm.

Mixeyev daha heç bir kəlmə kəsmədən liftə daxil oldu. Çijov da onun ardınca girdi. Mixeyevin daha bir əməkdaşı iki çamadanı daşıyırdı.

– Ciddi adamsınız, Konstantin İqnatyeviç, – Çijov başını buladı.

– Burda ciddi olmalısan, – Mixeyev donquldandı, – o, varlı müştərilərə qız tapır. Birinə artıq hansısa yoluxucu xəstəlik keçirib. Bunlarınsa heç nə vecinə deyil, təki pul olsun.

Onlar boş vestibüldən çıxıb küçəyə çıxdılar.

– Çamadanları maşına yüklə, – Mixeyev əlini yellədi.
– Bizimlə gedəcəksən? – o, Çijovdan soruşdu.

– Əlbəttə.

Maşında heç nə danışmadılar. Yalnız Mixeyev ikinci siqareti atıb üçüncünü çıxardı və yenidən çeynəməyə başladı.

Onlar Dİİ-nin binasına yenicə çatmışdılar ki, binadan sıçrayan növbətçi əlini yelləməyə başladı.

– Ürəyimə dammışdı, – Mixeyev hirsləndi, – yenə nəsə olub.

Tələsmədən maşından düşdü.

– Yenə nə olub? – o, növbətçi mayordan soruşdu.

– Öldürülən adam haqda məlumat gəlib, Konstantin İqnatyeviç, – mayor bir vərəq uzatdı. – Uşaqlarınız dedi ki, təcili sizə çatdırım.

Bu, informasiya mərkəzinə göndərilən sorğunun cavabıydı. Gecə olmasına baxmayaraq, növbətçilər dərhal Moseşvili haqda məlumat tapa bilmişdilər. Və bunda təəccüblü heç nə yox idi.

1935-ci ildə doğulmuş Mixail Quramoviç Moseşvili dəfələrlə məhkum olunmuş qanuni oğruydu. Hesabında səkkiz hökm və ümumilikdə iyirmi iki illik həbsxana həyatı

vardı. İki dəfə qaçmağa cəhd edib. Gürcüstanda Mixo ləqəbiylə tanınıb.

– Belə-belə işlər, – Mixeyev kompüter çıxarışını Çijova uzatdı, – indi böyük qalmaqalları gözlə. Çoxdandır, belə bir avtoriteti öldürmürdülər. Görünür, Moskvada kimsə yeni müharibə başlamağa qərar verib.

Çijov Mixail Quramoviçin "şanlı" bioqrafiyasını heyrətlə oxuyurdu.

## IV HİSSƏ

Prokuror bu cinayət işini müstəntiq Mirzə Cəfərova həvalə etməyə qərar verdi. Son iki ildə onun iyirmiyə yaxın belə cinayət işi olmuşdu və bilirdi ki, onların açılması yaxın gələcəkdə nəinki real deyil, demək olar ki, mümkün deyil. Qarabağda amansız müharibə gedirdi və qanuna görə respublikanın bu və ya digər vətəndaşının qətlinə görə cinayət işi açılmalıydı. Sivil dövlətlərdə qəbul olunduğu kimi. Amma əvvəla, müharibə gedirdi və qətllərin törədildiyi bir çox ərazilər düşmən tərəfindən işğal olunmuşdu. İkincisi, Dağlıq Qarabağın erməni sakinləri özlərini Azərbaycan vətəndaşları saymırdılar və

respublikanın qanunlarına boyun əymək fikrində deyildilər. Bakıdasa öz növbəsində Dağlıq Qarabağ ərazisində yaşayan erməniləri öz həmvətənləri kimi de-fakto tanımasalar da, onların müstəqil Azərbaycan ərazisində olduğunu de-yure tanıyır və prinsipial olaraq istənilən zorakılıq hadisəsinə görə cinayət işi qaldırmaqda davam edirdilər. Hərçənd, indiki halda sərhəd rayonunda qoca çoban öldürülmüş və onun gənc ortağı ağır yaralanmışdı. Prokurorluqda belə hesab edirdilər ki, cinayəti, əlbəttə, erməni quldurları törədib və Mirzəyə növbəti dəfə tapşırılmışdı ki, ağır yaralı şahidi dindirsin, cinayət işi açsın və... bu yerlərdə istintaq aparmaq qeyri-mümkün olduğuna görə onu unutsun. Onsuz da cinayətkarlar da hadisə yerində oturub prokurorluq işçisinin gəlişini gözləyən deyildi.

Ağır yaralı Əli Novruzovu artıq həkimlərin naçar qaldıqları rayon mərkəzindən gətirmişdilər. Oğlanı möcüzə xilas etdi. Aralarında məşhur cərrah Kristian Andrenin də olduğu Qırmızı Xaçın Cenevrədən olan missiyası Bakıdaydı. O, səkkizsaatlıq əməliyyat nəticəsində xəstəni xilas edə bildi. İndi xəstənin həyatına görə narahat olmağa dəyməzdi

və xüsusi vacib işlər üzrə müstəntiqə formal cinayət işi qaldırmaq üçün onu dindirmək tapşırılmışdı.

Xəstəxanada adi natəmizlik, nizamsızlıq və səliqəsizlik hökm sürürdü. Xəstənin palatasını çətinliklə tapan Cəfərov ora girəndə bir-birinə çox yaxın məsafədə uzanmış altı xəstə gördü. Əvvəllər, yaxşı dövrlərdə burda normaya görə iki ağır yaralı qalırdı. İndisə qızdırılan palataların çatışmazlığına görə xəstələri bir palataya yığırdılar. Mart ayı olmasına baxmayaraq, hava kifayət qədər soyuq idi.

Novruzovun çarpayısını tapan müstəntiq ona yaxınlaşdı. Boş stul olmadığından çarpayının qırağında əyləşdi. Oğlan təşvişlə ona baxırdı.

– İşlər necədir? – müstəntiq yorğun halda soruşdu. Əlbəttə ki, gülümsəmək lazım idi, amma onun belə təntənələrə gücü yox idi.

– Çox sağ olun, hər şey yaxşıdır, – oğlan sakitcə cavab verdi.

– Həkimlər deyir ki, yaşayacaqsan, – Cəfərov şablon ifadəni səsləndirdi, – elə hesab elə ki, ikinci dəfə dünyaya gəlmisən.

– Çox sağ olun, – oğlanın kifayət qədər miskin görkəmi var idi.

– Danış görək, hər şey necə olub, – Cəfərov kitabça və qələm çıxardı. Onların artıq maqnitofonları yox idi. Olanlar da çoxdan qırılmışdı.

– Onlar Qurban kişini öldürdülər, sonra da mənə atəş açdılar, – Əli sakitcə dedi, – deyəsən iki dəfə.

– Sənə kimin atəş açdığını gördün? – Cəfərov dəqiqləşdirdi.

– Əlbəttə.

– Ermənidi?

– Hə.

– Hansısa təfərrüatı xatırlayırsan?

– Yox. Deyəsən, adı Vartan idi. Armen də ordaydı.

– Sənə Vartan atəş açdı?

– Hə.

– Onu təsvir edə bilərsən?

– Saqqallı, möhkəm bədənli kişiydi. Başqa heç nə xatırlamıram.

– Aydındır, – Cəfərov ah çəkdi. “Hər şey adəti üzrə olduğu kimidir, – o düşündü. – Evə gedib üzümü qırxmalıyam”.

– Qurbanı da həmin erməni vurdu? – o artıq kitabçasını bağlayaraq soruşdu.

– Yox, – Novruzov sakitcə dedi, – o yox.

– Bəs kim? – o artıq kitabçasını portfelinə qoymuşdu.

– Azərbaycanlı, – oğlan çox sakitcə cavab verdi ki, qonşuları eşitməsin.

– Nə azərbaycanlı? – Cəfərov qəzəbləndi. – Axı orda hamısı ermənilər olub!

– Azərbaycanlı da olub, – oğlan etiraz etdi.

– Ermənilərlə birlikdə? – Cəfərov digər xəstələrə əhəmiyyət vermədən bərkdən dedi. – Dəli olmusan? Sən sayıqlayırsan.

– Yox, – oğlan etiraz etdi. – Orda iki nəfər azərbaycanlı var idi. Birinin adı Ömər idi. Digərinin adını xatırlamıram. Amma dəqiq azərbaycanlıydı.

Palatadakı digər xəstələr öz aralarında yavaşca söhbətləşməyə başladılar. Cəfərov qəzəbləndiyinə görə peşman oldu.

– Onlar birlikdəydilər? – o, sakit tərzdə soruşdu.

– Hə. İki azərbaycanlı, iki erməni. Biri də rus idi. Yekə, keçəl kişiydi.

– Onun adını eşitmədin?

– Yox, onlar onun adını çəkmirdilər.

– Bəs qocanı niyə öldürdülər?

– O, ermənilərdən hansınısa tanımışdı. Onun adını çəkdi, onda azərbaycanlı arxadan onu avtomatla güllələdi.

– Onlar hamısı belədir, – yanında uzanmış, görünür, ayağının birini cəbhədə itirmiş əlil bərkdən dedi, – satqın əclaflar.

– Mane olma, – Cəfərov ciddi tərzdə dedi, – görürsən, işləyirik. Bura ona görə gəlmişəm ki, belə əclafları üzə çıxaraq. Xalq döyüşür, onlarsa alverlə məşğuldurlar.

– Alverlə yox, – bədbəxt Novruzov bir daha etiraz etdi.

– Bəs nəylə? – Cəfərov astadan soruşdu.

– Onlar sərhəd tərəfə gedirdilər. Onların böyük arxa çantaları var idi. Postlar barədə soruşurdular. Dağlarda bu şəkildə adətən narkotik keçirirlər.

– Çox danışırsan, – Cəfərov qaşlarını çatdı. – Deməli, azərbaycanlının adı Ömər idi. Onu təsvir edə bilərsən?

– Ortaboylu, qarabığlıydı, daim gülümsəyirdi. İkincisi, balacaboy idi. Üz-gözü tük içində olduğundan onu yaxşı görə bilmədim.

– Əcəb işə saldın bizi, – Cəfərov pıçıldadı. – Yaxşı sən sağal, mənsə bu xainləri tapmağa çalışaram. Bəlkə onlar bələdçilər olublar. Sənin yanına yenə gələcəyəm.

Müstəntiq palatadakı dərin sükuta əhəmiyyət vermədən cəld qapıdan çıxdı. “Bütün günüm məhv oldu”, – o düşündü. Evə gedib üzünü qırxmalı olacaq. Sonrasa şöbə rəisinin yanına gedib qoca çobanın qətli haqda məruzə etməlidir. Doğrudanmı oğlan haqlıdır və orda ermənilərlə birlikdə azərbaycanlılar da olub?! On il əvvəl bu faktda qeyri-adi heç nə olmazdı. Amma indi... Onların ölkələri arasında müharibə getdiyi, Dağlıq Qarabağda bir nəfər də olsun azərbaycanlının qalmadığı bir vaxtda bu çox

qəribəydi. Bəs onlar niyə sərhədə tərəf gediblər? O bilirdi ki, son zamanlar respublikanın şimal-qərbində, Azərbaycan-erməni sərhədində keçid halları tez-tez baş verir. Müharibəyə baxmayaraq, alverçilər və qaçaqmalçılar gəlirin şərəf və vətənpərvərlik hisslərindən asılı olmadığını sübut edərək öz bizneslərini davam etdirirdilər. Quldurlar, "əsl beynəlmiləlçilər" idilər, hətta müharibə apardıqları ölkəylə müqavilələrdən belə çəkinmirdilər. Tez-tez sərhəd rayonu olan Qazaxdan ermənilərə benzin satırdılar. Daha sonrasa erməni tankları Azərbaycan benziniylə Azərbaycan kəndlərini gülləbaran edirdi. Bu müharibəni mənasız qardaş qırğını hesab edən şərəfli insanlar heç cür anlaya bilmirdilər ki, benzini və silahı necə satmaq olar (müharibədə!), cəsədləri necə dəyişmək, girovları pulla necə almaq olar. Əxlaqsızlığın ümumi atmosferi insanları həyasız və talançıya çevirirdi.

Bu yaxınlarda müharibədə qohumunu itirən Cəfərov belə faktlara ürəkdən hiddətlənirdi. Amma başa düşürdü ki, belə şeylərə qarşı vuruşmağın mənası yoxdur. Quldurların hər iki tərəflə böyük əlaqələri var idi.

Bu dəfə hadisələr ölkənin cənubunda, İran sərhədində baş vermişdi və indi işin təhqiqatı ondan asılıydı. O, demək olar ki, heç bir şansının olmadığını anlayırdı, amma peşəkar qüruru geri çəkilməyə izin vermirdi. Və o, xəstəxana palatasındakı altı əlilin, sanki onun qorxaqlığına və səhlənkarlığına ikrah bildirən dərin sükutunu da anlayırdı.

Üzünü qırxıb məruzə üçün şöbə rəisinin yanına yollandı. Onun birbaşa rəhbəri olan İmran Kazımov prokurorluq orqanlarında otuz ilə yaxın müddətə işləmişdi və öz tündxasiyyət həmkarlarından anlaşılmaz sakitliyi və xeyirxahlığıyla seçilirdi. Bəlkə bunun səbəbi onun köklüyüydü. Kazımovun çəkisi artıq çoxdan yüz kiloqramı keçmişdi və deyilənlərə görə o hər il iki-üç kiloqram da kökəlirdi. Müharibə dövrü olmasına baxmayaraq, prokurorluq işçiləri adi vətəndaşlardan xeyli yaxşı yaşayırdılar. Ümumi özbaşınalıq və nəzarətsizlik atmosferi onlara yaxşı məbləğ qarşılığında istənilən cinayət işini bağlamağa imkan verirdi. Son üç ildə aralarında üçü prezident olmaqla beş ali rəhbər dəyişmişdi. Və bu da

prokurorluq nəzarətini puç edərək onu mənasız vurnuxmaya çevirmişdi.

Kazımov dinmədən öz işçisini dinlədi. O, müstəntiqlərinin işlə bağlı hər şeyi ətraflı danışmaqlarını xoşlayırdı. Cəfərov danışığını bitirəndən sonra o dərindən ah çəkib siqaret çıxardı. Həkimlər ona siqaret çəkməyi çoxdan qadağan etmişdi. Amma öz kabinetində tüstüləməyə adət etdiyindən nə eskulapların təhdidinə, nə də arvadının gileyinə əhəmiyyət verirdi.

– Deməli, azərbaycanlılar olub, – Kazımov qaşlarını çataraq dəqiqləşdirdi.

– Oğlan əmin edir ki, olub. Hətta görünüşlərini də təsvir edir. Birinin adı Ömər olub. Razılaşın ki, bu adda erməni olmur, – Cəfərov dedi.

– Əlbəttə, olmur, – Kazımov fikrə getdi. – Bunun harada baş verdiyini xəritədə göstərə bilərsən?

– Əlbəttə, – Cəfərov, Kazımovun arxasında divardan asılmış respublikanın böyük xəritəsinə yanaşdı, – təqribən burdadır, demək olar ki, sərhəddə.

– Maraqlıdır, – Kazımov fikirli halda dedi, – mən axı o yerlərdənəm.

– Bilmirdim, – Cəfərov başını yellədi, – mən ümumiyyətlə, kimin hansı rayondan olmasıyla az maraqlanıram.

– Ona görə sən indiyə qədər yalnız müstəntiqsən, – Kazımov xeyirxahlıqla qeyd etdi, – amma Azərbaycanda lazımi yerdə doğulmağın əsas məsələ olduğunu öyrənmək vaxtıdır. Və lazımi vaxtda.

– Neyləmək olar, – Cəfərov gülümsədi, – mən artıq ikinci dəfə dünyaya gələ bilməyəcəyəm.

– Əmin olma, – Kazımov gülümsündü, – bir çox adamlar tanıyıram ki, yeni liderin kimliyini təxmin edərək doğulduqları yerə görə pasportlarını dəyişiblər.

– Bu, mənlik deyil.

– Bilirəm, – Kazımov gülümsədi.

Cəfərov öz yerinə qayıdıb Kazımovla üz-üzə əyləşdi.

– Məsələ burasındadır ki, Qarabağ və onun ətraf rayonlarında əsasən şiələr yaşayırlar, – Kazımov xatırlatdı, – və əhali arasında Ömər adlı adamı tapmaq çətin deyil. Orda

sünnilərin yaşadığı cəmi üç kənd var. Ona görə sənin tapşırığın xeyli asanlaşır. Əgər qatil yerlilərdəndirsə, – yerli olmayan adam çətin ki dağlarda istiqamət tapa bilərdi – onda onu tapmaq çətin olmaz.

– Başa düşdüm, – Cəfərov həvəsləndi, – mən də bu haqda düşünmüşdüm.

– Ezamiyyət götürüb ora get, – Kazımov icazə verdi, – respublika prokurorunun müavininə özüm məruzə edərəm. Elə hesab et ki, mən sənə razılıq verdim, amma çox ehtiyatlı ol. Böyük ehtimal ki, narkotik yük keçiriblər. Bu isə kirli işdir, qoy onunla milis məşğul olsun. Bizim işimiz onsuz da çoxdur. Əgər belə bir adamın doğrudan da rayonda yaşadığı təsdiqlənsə, onu yaxasından tutub bura gətirərsən. Əclaf, müharibə vaxtı görən nə işlə məşğuldur. Əlbəttə ki, biz də müqəddəs deyilik, amma övladlarımızı o zəhrimarla zəhərləməyəcəyik. Bilirsən, son zamanlar gənclər arasında narkotik istifadəsi nə qədər artıb? Mənə də İsayev danışıb, milisdə o qədər iş var ki, danışmaq belə qorxuludur.

İsayev, prokurorluğun milis orqanları üzərində nəzarət şöbəsinin rəisiydi. Kazımovla onları uzun illərin dostluğu bağlayırdı.

– Sən bir həyasızlığa bax! – Kazımov odlandı. – Müharibə gedir, onlarsa öz bizneslәriylə məşğuldurlar! Nə azərbaycanlı, nə də erməni olmayan başçılarıyla ciddi məşğul olmaq lazımdır. Bəlkə o əcnəbidir. Əgər rusca danışırsa, bu o demək deyil ki, rusdur. Yerli hüquq-mühafizə orqanlarıyla əlaqə yaratmaq lazımdır, bəlkə onlarda hansısa bir məlumat var. Sən get, mənsə Vəliyevdən xahiş edərəm ki, Milli Təhlükəsizlik Nazirliyinə zəng etsin. Qoy özününkülərə yerində tapşırıq versinlər ki, hər şeyi ətraflı aydınlaşdırsınlar. Əgər nəsə öyrənsən, dərhal mənə məruzə et, mənsə rayon rəhbərliyinə zəng edərəm. Eldar Qasımov çox yaxşı oğlandır. Onu uzun illərdir ki tanıyıram. O sənə kömək edəcək.

– Çox sağ olun, – Cəfərov kağızları yığmağa başladı.

– Ehtiyatlı ol, – Kazımov sağollaşarkən məsləhət gördü, – indi situasiyanın necə olduğunu özün bilirsən. Heç kimə güvənmə. Əgər onlar belə həyasızcasına fəaliyyət

göstərirlərsə, deməli, həm milisdə, həm də hüquq-mühafizə orqanlarında öz xəbərçiləri var. Oranın prokuroru təzə təyin olunub, onu bu yaxınlarda Gəncədən ora keçiriblər. Mən onu yaxşı tanımıram, ona görə onunla ehtiyatlı ol. Deyirlər ki, o, baş nazirin adamıdır, amma heç kim bundan başqa heç nə deyə bilmir.

– Aydındır, – Cəfərov ayağa qalxdı, – mən nə vaxt çıxa bilərəm?

– Sabah, – Kazımov ayağa durmadan böyük əlini ona uzatdı. – Sağlıqla qal. Bu gün silah götürməyi də unutma. Orda lazım ola bilər. Tapşırıq verərəm ki, onu sənə versinlər.

Müstəntiqin arxasınca qapı bağlanandan sonra Kazımov dərindən ah çəkib daxili iş telefonunun dəstəyini qaldırdı.

– Yanınıza gələ bilərəm? Vacib işim var.

– Gəlin, – respublika prokurorunun müavini Ənvər Vəliyev icazə verdi.

Kazımov ağır-ağır ayağa qalxdı, boşalmış qalstukunu bərkidib kabinetdən çıxdı. Vəliyevin qəbul otağında heç kim yox idi. O, katibəyə başını tərpədib kabinetə girdi.

– Salam, – Vəliyev Kazımovu görüb ayağa qalxdı. Onlar əl sıxıb dərin kresloda əyləşdilər. Kazımov kresloya zorla yerləşdi, sanki nəfəsi tıxanırdı.

– Nəsə olub? – Vəliyev soruşdu.

O, respublika prokurorunun müavini vəzifəsinə yenicə təyin olunduğundan hamıya bərabər və xeyirxahlıqla yanaşaraq öz demokratlığını nümayiş etdirirdi.

– Füzuli rayonunda, demək olar ki, sərhəddə bir çoban öldürülüb, – təngnəfəs Kazımov qısaca məruzə etdi. – Onun yanında gənc köməkçisi olub. Ona atəş açıblar, amma o sağ qalıb. İndi oğlan əmin edir ki, azərbaycanlıların və ermənilərin birləşdiyi bir dəstə sərhədi keçib. Onların başçısı hansısa əcnəbi olub. Oğlan belə hesab edir ki, onlar narkotik yük daşınmasıyla məşğul olublar.

– Bəs siz necə hesab edirsiniz? – Vəliyev əlli yaşı olmağına baxmayaraq, idmançı bədən formasını və demək olar ki, gənc üzünü qoruyub saxlaya bilmişdi. Görkəmini

yalnız onun yaşını büruzə verən çallaşmış saçları korlayırdı. Bahalı protezini göstərirmiş kimi sanki qərblilər kimi gülümsəyirdi.

– Biz hələ dəqiq bilmirik, – Kazımov cavabdan yayındı, – amma mən sabah ora öz müstəntiqimizi göndərmək fikrindəyəm. Qoy yerində axtarsın. Bəlkə nəsə öyrənə bildi.

– Cəbhə xəttinə kimi məsafə uzundur? – Vəliyev soruşdu.

– O qədər də yox. Siz ki bilirsiniz, Füzulinin böyük hissəsi düşmən tərəfindən işğal olunub. Təhqiqatı Beyləqandan aparmaq olar. Bu, yeganə çıxış yoludur. Yerli administrasiya rəhbərini mən tanıyıram. Ondan xahiş edərəm ki, bizim müstəntiqə kömək etsin. Amma bizə sizin köməyiniz lazımdır.

Vəliyev sakitcə Kazımovu dinləyirdi. Başını tərpədərək onu həvəsləndirirdi.

– Milli Təhlükəsizlik Nazirliyiylə əlaqə saxlamaq lazım olacaq, – Kazımov xahiş etdi, – onlar öz adamlarına

tapşırıq versinlər ki, bizim müstəntiqə zəruri köməkliyi göstərsinlər.

– Deyərik, – Vəliyev vəd etdi, – başqa?

– Hələ ki bu kifayətdir.

Vəliyev yüngülcə yerindən qalxaraq hökumət telefonuna yaxınlaşıb Milli Təhlükəsizlik Naziri müavininin nömrəsini yığdı.

– Salam, Rasim Paşayeviç, sizi Vəliyev narahat edir. Bizə sizin köməyiniz lazımdır. Bir əməkdaşımız bu gün Beyləqana gedir. Bəlkə öz əməkdaşlarınıza tapşırıq verəsiniz ki, bizim müstəntiqə kömək etsinlər. Hə, hə, çox sağ olun.

– Müstəntiqin soyadı nədir? – Vəliyev Kazımovdan soruşdu.

– Cəfərov, – Kazımov Vəliyevin möhkəm bədən quruluşuna həsədlə baxaraq cəld cavab verdi. Deyirdilər ki, o, gəncliyində voleybolla məşğul olub.

– Cəfərov, – Vəliyev müstəntiqin soyadını təkrarladı, – çox sağ olun. Yox, yalnız çoban öldürülüb. Sadəcə olaraq sərhədə çox yaxın yerdədir, demək olar ki, Horadiz

stansiyası yaxınlığında. Siz özünüz ora gedirsiniz? Niyə belə uzağa? Nə baş verib? Maraqlıdır. Yox, mən bu haqda eşitməmişəm. Yox, birinci dəfədir, eşidirəm. Məlumata görə sağ olun.

O, dəstəyi qoyub bir neçə saniyə susdu. Sonra sanki Kazımovun otaqda olduğunu xatırlayıb geri çevrildi.

– Nə olub? – İmran Kazımov soruşdu.

– İki gün əvvəl sərhəddəki İran şəhəri olan Aslandüzdə atışma olub, – Vəliyev qısaca dedi, – öldürülən qaçaqmalçılar var. İranlılar bizim nümayəndəmizdən xahiş edirlər ki, cəsədləri onlara verək.

– Ora özü gedəcək? – Kazımov soruşdu.

– Hə, – Vəliyev başını yellədi və düşüncəli tərzdə əlavə etdi: – Görünür, bunlar sizin şübhəlilərinizdir. İki nəfər öldürülüb. İranlılar israr edirlər ki, onlardan biri erməni, digərisə azərbaycanlıdır. Amma heç bir sənəd tapılmayıb. Maraqlıdır, onlar öldürülənlərin milliyyətini sənədsiz necə təyin edə biliblər.

– Çox sadə, – Kazımov gülümsədi, o doğrudan da müstəntiqlər arasında respublikada ən yaxşılardan idi və

haqlı olaraq istintaq şöbəsi rəisi vəzifəsinə təyin olunmuşdu, – bunun üçün sənəd lazım deyil.

– Başa düşmədim, – tabeliyində olan adamın hazırcavablığı Vəliyevin xoşuna gəlmədi.

– Onların şalvarını çıxarmaq kifayətdir, – Kazımov kreslodan durmağa çalışaraq izah etdi.

– Şalvarın bura nə dəxli var?

– Müsəlman ənənəsi. Azərbaycanlı müsəlman mütləq sünnət olunur, xristian ermənisə yox. Bu da bütün sirr.

Vəliyev gülümsədi.

– Bu qədər sadə, – o, burnunun altında dedi, – və heç bir sənəd lazım deyil. Yaxşı düşünürsünüz, İmran Quliyeviç.

– Çox sağ olun, amma burda xüsusi bacarıq tələb olunmur. Sadəcə, bir qədər diqqət lazımdır. Bəlkə bizim müstəntiq Rasim Paşayeviçlə birlikdə getsin?

– Yaxşı çıxmaz, – Vəliyev etiraz etdi, – qoy sizin Cəfərov ora gedib yerində nə etmək lazım olduğuna qərar versin. Rasim Paşayeviç yerli təhlükəsizlik orqanları tərəfindən kömək olunacağına söz verdi. Qalan şeylərisə qoy

Cəfərov özü həll etsin. Nəticə etibarilə, bu, təsadüf də ola bilər.

– Onlar düz Aslandüzə gediblər, – Kazımov sakitcə etiraz etdi. – Düşünürəm ki, bu məhz bizim axtardıqlarımızdır.

– Onda qoy bu işlə Milli Təhlükəsizlik Nazirliyi məşğul olsun. – Vəliyevin əhvalı tamamilə pozuldu. – Hər şey sabah bilinəcək, onda danışarıq. Qoy, müstəntiqiniz bizə daim məlumat versin. Orda baş verən hər şeyi bizə məruzə etsin. Ya sizə, ya mənə. Bu işi ciddi nəzarətdə saxlamaq lazımdır.

– Mən ona belə də əmr etmişəm, – Kazımov, nəhayət ki, kreslodan dura bildi. – Sabah axşam onun fəaliyyəti haqda sizə məruzə edəcəyəm.

– Danışdıq. – Vəliyevin əhvalı tamamilə korlandığından işçisini qapıya qədər ötürməklə öz demokratikliyini göstərməyi lazım bilmədi. Öz kreslosunda oturub Kazımova quru tərzdə başını tərpətdi.

Vəliyevin qəfil niyə belə qəzəbləndiyinin səbəbini anlamayan Kazımov tələsmədən bufetə tərəf getdi.

Otaqda tək qalmış Ənvər Vəliyevsə masa arxasında oturub təmiz vərəqə diqqət kəsilmişdi.

Birdən daxili rabitə aparatı səsləndi. O diksindi, amma dəstəyi götürmədi. Telefon bir neçə dəfə çalıb susdu. Vəliyev hökumət telefonunun dəstəyini qaldırıb özünə tabe olmayan barmaqlarla üç nömrə yığdı və ilk sözünü dedi:

– Köpək...

## V HİSSƏ

O, həmkarlarının oturduğu cipin necə uzaqlaşdığına baxırdı. Telefonsa çalmaqda davam edirdi. Nəhayət, dəstəyi götürdü.

– Salam, – çox nəzakətli səs dedi.

– Eşidirəm, – bu saxta yumşaq bariton onun heç xoşuna gəlmədi.

– Dostlarınız artıq gedib? – dəstəkdəki naməlum səs soruşdu.

– Məncə, hə, – belə hallarda sakit olmaq lazım idi, o bunu yaxşı bilirdi.

– Onlara kömək etməyə razılaşdınız? – bariton soruşdu.

– Sizcə?

– İndiki halda məni sizin cavabınız maraqlandırır.

– Yəqin özünüz eşitmisiniz. Əgər mənim telefonumu və görüş yerini tapa bilmisinizsə, deməli, söhbəti də dinləməliydiniz, – o, sakit qalmağı bacarırdı.

– Bura Amerika deyil, Dronqo, hətta Avropa da deyil. Bizdə hələ belə mükəmməl texnika yoxdur, – bariton kifayət qədər açıq danışırdı.

– Gələcək üçün nəzərə alaram. Niyə zəng etmisiniz?

– Siz mənim sualıma cavab vermədiniz – siz İnterpoldan gələnlərlə əməkdaşlıq etməyə razılıq verdiniz?

– Mən cavab verməliyəm?

– Düşünürəm ki, hə. Daha sonra sizə öz motivlərimi izah edəcəyəm.

– Mən imtina etdim. – Ehtimal etmək olardı ki, burda işləyənlər də yalnız axmaqlar deyil. Əgər onlar onu tapa və

Lautonun məhz kiminlə görüşdüyünü belə tez öyrənə bilmişdilərsə, deməli, yerli milli təhlükəsizlik xidməti də işə qoşulmuşdu.

– Biz belə də təxmin edirdik. – Baritonun səsində bir məmnunluq duydu.

– Sizə nə lazımdır? – Onun səbri tükənməyə başlayırdı. Belə gözlənilməz zəng üçün onsuz da kifayət qədər dözmüşdü.

– Cənab Lautonun hədsiz aktiv davranışı bizim xoşumuza gəlmir. Razılaşın, bu demək olar, daxili işə qarışmaqdır. Və əlbəttə ki, onun respublikamızdakı tanışları arasında sizin kimi peşəkarın olması da bizi məmnun etmir, Dronqo. Mənə elə gəlir, siz anladınız ki, biz sizin cənab Lautonla gələcək görüşlərdən mümkün qədər qaçmağınızı istərdik.

– Kiminlə danışdığımı öyrənə bilərəm?

– Bu sizin üçün çox əhəmiyyətlidir? Deyək ki, mən sizin keçmiş uğurlarınıza rəğbətlə yanaşan bir dostam. Öz əyalətimizdə biz də nəsə eşitmişik. Əgər siz xaricdə məhsuldar işləmək istəyirsinizsə, canınız sağ olsun. Bu sizin

hüququnuzdur. Əgər bizimlə əməkdaşlıq etmək istəyirsinizsə, çox gözəl. Hərçənd, düşünürəm ki, siz bu təklifdən də imtina edəcəksiniz. Deməli, bizim sizinlə yeganə çıxış yolumuz var – siz könüllü olaraq şəhəri tərk etməlisiniz. Və mümkün qədər tez.

– Maraqlı perspektivdir, – Dronqo burnunun altında dedi, – siz motivləriniz haqda danışmağa söz vermişdiniz.

– Düşünürdüm ki, mənim sözümə inanacaqsınız. Axı deyəsən, şəhərdə sizin bacınız və onun iki azyaşlı uşağı yaşayır. Doğrudanmı, siz bu nüansı vacib saymırsınız?

– Maraqlıdır! – Həyatında çoxdandır belə bir zəhlətökən çatmırdı, hətta ovda olduğu kimi çox yaxına gəlmişdi, indi ən vacibi başlayırdı: – Düşünmürdüm ki, siz məni təhdid edərsiniz.

– Bu, təhdid deyil, – həmsöhbəti etiraz etdi, – sadəcə olaraq, ağıllı təhlükəsizlik tədbiridir. Razılaşın ki, sizin kimi peşəkarla insanın əlində daha bir kozırın olmağı mane olmur.

– Siz nişanlanmış kartlarla oynamırsınız ki? – Dronqo özünü saxlaya bilmədi.

Naməlum adam zarafatı dəyərləndirə bildi, onun yüngül gülüşü eşidildi. Amma Dronqonun daha nə deyəcəyini gözləyərək heç bir söz demədi. Ona elə gəlirdi ki, bütün kozırlar onun əlindədir. “Onlar nahaq məni təhdid edirlər, – Dronqo təəssüflə düşündü. – İndi bu işi ələ almalı olacağam. Nəticə etibarilə, mən işlərin belə gedişindən qaçmaq üçün əlimdən gələni elədim. Nahaq bu gülünc yaramaz mənə zəng etdi. O, heç ağlına belə gətirmir ki, necə böyük risk edir. Növbəti dəfə o mənim yanımda güləcək. Əlbəttə ki, əgər ona gülməli gəlsə”.

– Mən nə etməliyəm? Həmişəlik getməliyəm? Amma mənim daha nə pulum, nə də yaşamaq üçün yerim var, – Dronqo yalan dedi.

Onun pulu hələ qalmışdı. Və yerli anlayışlara görə çox böyük pulu var idi. Yaşamaq üçün yerisə dünyanın istənilən yerində tapa bilərdi. Bunun üçün böyük pullar və əlaqələr lazım deyildi. Köhnə tanışlarını xatırlamaq kifayət idi. Amma naməlum adam bunu bilməməliydi.

– Biz bunu da nəzərə almışıq, – bariton dərhal dedi, – siz yarım saatdan sonra səhər reysinə bilet və min dollar

alacaqsınız. İki ay Moskvada və ya bizim yerlərdən daha uzaqda yaşayın. İki aydan sonrasa qayıda bilərsiniz. Yeri gəlmişkən, öz qohumlarınızı sağ-salamat görəcəksiniz. Və daha bir vacib şərt – hər üç gündən bir bizə, zərfdə olan telefon nömrəsinə zəng edəcəksiniz. Əgər heç olmasa bir gün geciksəniz, bu o deməkdir ki, müqaviləmiz ləğv olunub. Nəticələri asanlıqla təsəvvür edə bilərsiniz. İki aydan sonra dostlarınız artıq burada olmayacaqlar. Onların viza müddəti bitəcək.

“Nahaq o, belə danışır”, – Dronqo bir daha düşündü. Ani qərar vermək lazım idi. Əslində, belə hallar üçün hər şey çoxdan düşünülüb. Maraqlıdır, görəsən, Lauton köhnə əlaqə sistemlərini xatırlaya biləcəkmi? Başqa yol sadəcə yoxdur. İndi oyuna başlamaq lazım idi.

– Yaxşı, – o razılaşdı, – sizin səsiniz mənim xoşuma gəlmir. Təhdidləriniz də heç xoşuma gəlmədi. Amma əgər siz belə israr edirsinizsə. Üstəlik, pul da təklif edirsinizsə, mən razı olmağa məcburam. Kuryerinizi göndərin, mən sabah uçuram.

– Bilirdim ki, dil tapacağıq, – bariton məmnunluqla dedi, – siz ağıllı adamsınız, Dronqo. Siz qayıdandan sonra mənə elə gəlir ki, qarşılıqlı əməkdaşlığımız haqqında da razılığa gələ biləcəyik. Bu sizin də marağınızdadır.

– Bax, bu heç vaxt olmayacaq. Belə tryuklardan çox yorulmuşam. Lautonu elə buna görə rədd etdim, ona görə sabah səhər uçuram. Özünüz də başa düşürsünüz ki, əgər qalmaq istəsəydim, nəsə uydurardım.

– Təşəkkür edirəm. – Əclaf həddən artıq mədəniydi, pis vəziyyətdə qalacağını anlamırdı. "Təşəkkür edirəm" deyən əclaflar az olur. Onu tapmaq asan olacaq.

– Sağ olun, – Dronqo dəstəyi asdı.

İndi cəld və qəti hərəkət etmək lazım idi. O, kitabça çıxarıb qısa məktub yazdı, sonuncu cümləni vurğulayıb kağızı zərfə qoyaraq evdən çıxdı. Qonşu mənzildə iki yeniyetmə oğlu olan ailə yaşayırdı. Uşaqlar Dronqonu öz kumirləri hesab edərək onu çox sevirdilər. Zəngi basdı. Qapını qonşu qadın açdı.

– Salam, – Dronqo gülümsədi, – Alik evdədir?

Bu, oğlanlardan böyüyü idi.

– Hə, – qadın da gülümsədi. Bu sakit, nəzakətli, amma hələ də evlənməmiş qonşu onun da xoşuna gəlirdi. O, oğlunu çağırdı:

– Alik!

Otaqdan on yeddi yaşlı gənc çıxdı. Sızanaqlı üzünü maraq bürümüşdü – qonşu onlara o qədər də tez-tez gəlmirdi. Oğlanınsa qardaşıyla birlikdə onlarda qonaq olmaqdan xoşu gəlirdi. Orda çoxlu sayda heyrətamiz kitablarla yanaşı uşaqların marağına səbəb olan bir çox şeylər var idi.

– Salam, – Alik nəzakətlə salamlaşdı, – mən elə sizdən karateylə bağlı kitab istəyəcəkdim.

– Mən onu sənə hədiyyə edəcəyəm, – Dronqo gülümsündü, – o mənə lazım deyil. Qulaq as Alik, bu zərfi təcili İnturist mehmanxanasına aparmaq lazımdır. Keçmiş İnturistə, əlbəttə ki. Sahildəki. Oranı tanıyırsan?

– Əlbəttə, – oğlan başını yellədi.

– Şəxsən cənab Lautona verərsən. Yalnız ona, başqa heç kimə. Başa düşdün?

– O hansı nömrədədir?

– Altı yüz ikinci. Burda hər şey yazılıb. Elə indi gedə bilərsən.

– Bircə gödəkcəmi geyinim.

Anası başını buladı:

– Kiçiyi yenə dalaşıb. Yaxşı ki, onlar hərdən sizdə oturub kitablara baxırlar. Bu, küçələrdə veyllənməkdən yaxşıdır.

– Hə, yəqin ki, – Dronqo nəzakətlə razılaşdı.

Əlbəttə ki, onun müşahidəçiləri bu oğlanı hesaba almamışdılar. Hərçənd, məktubu ələ keçirsələr belə, onu oxuya bilməyəcəklər. Orda onların bugünkü görüşünün qeyri-mümkünlüyü barədə bir cümlə var idi. Amma əgər Lauton köhnə kodu xatırlayırsa, o, mütləq hər şeyi anlayıb doğru qərar verə biləcək.

O öz mənzilinə qayıdıb əşyalarını yığmağa başladı. Nəzərə almaq lazım idi ki, o burda olmayan vaxt mənzilində mütləq çağırılmamış qonaqlar peyda olacaq. Ona görə keçmiş fəaliyyəti ilə bağlı lazımsız sübut qoymamaq üçün bütün kağızlarını diqqətlə yoxlayırdı.

Zəng etməyə qərar verəndə hava artıq qaralırdı. O, yaxşı bilirdi ki, telefonu dinlənilir. Bu dəfə də bəxti gətirdi, dəstəyi Cerald özü qaldırdı.

– Cənab Lauton, – əsas odur ki, Cerald bu söhbətin vacibliyini anlasın, – mən sizin xahişinizə görə zəng etmişəm.

Naməlum adam onun Lautonla şəxsən tanış olduğunu bilə bilməzdi. Bunu öyrənmək olmazdı.

– Sizi eşidirəm, – Lauton onun oyununu qəbul etdi, deməli, məktubu düzgün oxuya bilmişdi.

– Biz bu gün səhər sizinlə danışıb şərtləşmişdik ki, mən sizə yenidən zəng edərəm. Bağışlayın, cənab Lauton, amma mən imtina etmək məcburiyyətindəyəm. Redaksiyanın işləriylə əlaqədar olaraq mən sabah Moskvaya gedirəm və iki aydan sonra dönəcəm. Yəqin, siz belə uzun müddət gözləyə bilməyəcəksiniz.

– Əlbəttə, – Lauton hətta səsinə bir qədər əsəbilik də qatdı, – çox təəssüf, biz sizin köməyinizə ümid bəsləyirdik. İnterpolun on ikinci şöbəsində bizi əmin etmişdilər ki, siz razılaşacaqsınız. Görünür, onların psixoloqları işləyə

bilmirlər. Biz sizi də işə qoşmaq istəyirdik. Hətta sizin BMT-nin ekspertlər şöbəsinin əməkdaşı olduğunuza dair köhnə vəsiqənizi də gətirmişdim. Hətta sizin nömrənizi də saxlamışıq. Çox təəssüf.

Dronqo gülümsədi. Yoxlanılmış məktəb. Lauton lazım olan hər şeyi deyə bildi. İndi onlar o nəzakətli təhdidçiylə haqq-hesab çürüdə biləcəkdilər. İndi kozırlar onun əlindədir və oyun bərabər səviyyədə gedir.

– Sağ olun, – Dronqo sağollaşdı.

İndi hər şey aydın idi. Nyu-York vaxtı ilə sabah gecə saat 12-də, Moskva vaxtı ilə axşam saat 8-də köhnə nömrəylə BMT-nin xüsusi komitəsinin ekspertlər şöbəsinə köhnə nömrədən zəng edib lazımi təlimat və tapşırıqları alacaq. Öz növbəsində o da Lautona bir gündən sonra gələcəyini və məktubda göstərilən yerdə görüşəcəklərini bildirə bildi. Adi, tamamilə nəzakətli məktubda üç kodlaşmış cümlə var idi. Birinci, məktubu göndərənin son dərəcə böyük təhlükə altında olduğunu göstərirdi. İkinci, görüş yeri haqda məlumat verirdi. Üçüncü, zamanı göstərirdi. İndiki halda "iki aydan sonra qayıdacağam"

“birisi gün görüşərik” demək idi. “Çox təəssüf edirəm” ifadəsisə təhlükənin səviyyəsini vurğulayırdı. Məktubun sonunda onun yazılma tarixinin qeyd olunduğu nəzərə alınsa, Lauton anlamalıydı ki, məktub haqda danışmaq lazım deyil. Telefon danışığı müddətində o belə də etdi. “Onlar nahaq məni bu işə qoşdular” – Dronqo öz rəqibləri haqda düşündü. Bu məzəmmət müəyyən dərəcədə, təhqiqatda iştirak üçün ən qiymətli agenti belə ehtiyatsızlıqla gözə soxduqlarına görə İnterpol əməkdaşlarına da aid idi.

Növbəti səhər, təqribən saat 6-da onu qısa zəng səsi oyatdı. Dronqo qapını açarkən içində bilet və pul olan bir zərf gördü. Yarım saatdan sonra o artıq evdən çıxırdı. Bu səhər saatlarında küçə xeyli sakit idi.

“Diletantlar, – Dronqo üz-gözünü turşutdu, – nəzərə almayıblar ki, bu saat küçədə demək olar ki, heç kim olmur və mən müşahidəçini tez görəcəyəm”.

Onun müşahidəçiləri heç gizlənmək fikrində deyildilər. Onlar nəzakətli bir şəkildə, tünd-qırmızı “09”-da yüz metrlik məsafədən izləyir və məsafəni qısaltmamağa çalışırdılar. Hətta dayanıb Dronqonun yol maşınını

saxlamasını da gözlədilər. Bir anlığa beynindən şuluq bir fikir də keçdi: özünü və bu subyektləri aeroporta aparmağı xahiş etmək olardı. Onun şəhərində artıq çoxdan yumoru başa düşmürdülər. Daimi müharibələr və qiyamlar insanlara gülməyi unutdurmuşdu.

Nəhayət, köhnə "Moskviç"i saxladıb sürücünü avtobus stansiyasına aparmaq üçün dilə tutdu. Pis dərrakəli, yuxulu, cavan oğlan yalnız Dronqo normal qiyməti ikiqata qaldırandan sonra razılaşdı. Avtobusdan "09"un onları düz aeroporta kimi izlədiyini görürdü. Bir an onlar məsafəni xeyli azaltdılar. Bu vaxt avtomobilin şəxsi nömrəyə malik olduğunu gördü.

Aeroportda bütün formal prosedurları keçib sonuncu sərhəd nəzarətinə gələndə geri çevrildi. Dağınıq fizionomiyalı iki naməlum adam xeyli məmnun idi. Obyekt özünü sakit aparmışdı, qeyri-adi heç nə baş verməmişdi. Daha sonra milis nəzarəti gəlirdi. Burda sərnişinlərin üzərində silah, partlayıcı və digər arzuolunmaz əşyaların olub-olmadığı yoxlanılırdı. Onları dərhal avtobusa mindirmədilər, bir neçə dəqiqə pis isidilən böyük anqarda

donmaq məcburiyyətində qaldılar. Ona elə gəldi ki, orda ümumiyyətlə, isidici yoxdur.

Təyyarəyə qalxarkən bir daha geri çevrildi. Onun hər iki müşahidəçisi anqarın yanında dayanıb gərgin halda təyyarəyə göz qoyurdular. Sərhəd, gömrük və milis nəzarətinə baxmayaraq, onlar keçə bilmişdilər.

"Diletantlar, – Dronqo artıq neçənci dəfə düşünürdü. – Burda əsl peşəkar işin nə olduğunu unudublar". Ona zəng edən bariton xoş istisnaydı. Təyyarə yerdən qalxdı və o heç cür yerləşə bilməyən sərnişinlərin vurnuxmasına baxmayaraq, dərhal yuxuya getdi.

## VI HİSSƏ

Səhər adəti üzrə olaraq, "Ukrayna" mehmanxanasında baş verən qətl haqda məruzə yazırdı. Moseşvilinin bioqrafiyasından artıq məlum olan faktları da əlavə etdi. Qaydaya görə, gecə növbəsindən sonra o evə getməliydi,

amma əməkdaşlar çatmırdı. Onların iş yerlərində hələ də boşluqlar var idi və iki nəfərin yerinə işləməli olurdular. Ona görə Çijov öz otağında üzünü qırxıb prokuror onu çağırana kimi cari məsələlərlə məşğul olmağa başladı.

Rayon prokuroru bütün Moskvada kifayət qədər tanınmış adam idi. İri gövdəli, özündənrazı Vyaçeslav Nikolayeviç Morozov ölkənin baş nazirinin müavinlərindən birinin yaxın qohumuydu. Təkcə bu nüans onun əhəmiyyətini bütün qalan hər şeydən daha çox artırırdı. Bundan əlavə o, şəhər rəhbərliyinin sevimlisiydi. Bir çoxları belə hesab edirdi ki, şəhər prokuroru növbəti dəfə dəyişərkən Morozovun bu yüksək vəzifəyə təyinolunma şansı çox böyükdür. Morozov insanların xoşuna gəlməyi bacarırdı. Hətta yayda belə dəyişməz olaraq tünd, yaxşı tikilmiş kostyum geyinən, ciddi eynək taxan iri gövdəli kişi prokurorluğun özünə ona xas olmayan möhtərəmlik və nüfuz gətirirdi. Onu həvəslə bütün mümkün rəyasət heyətlərinə seçir və idarəetmə işlərinə cəlb edirdilər. Şəkilləri tez-tez mərkəzi qəzetlərdə görünürdü. Populyar televiziya proqramı "İnsan və qanun" isə Kiyev rayon

prokurorluğunun işinə bütöv bir veriliş həsr etmişdi. Hərçənd, bədxahlar belə hesab edirdilər ki, televiziya rəhbəri belə bir proqramı baş nazir müavininin zəngindən sonra hazırlatmışdı. Amma bunlar yalnız şayiə idi və onu populyar prokurorun artan təsir gücündən narahat olan bədxahları yayırdılar. Morozov Çijovu öz kabinetində, masa arxasında qəbul etdi. Onun qarşısında ağır, melxior çərçivəli büllur stəkan var idi. O, çayı məhz belə stəkanlarda içməyi xoşlayırdı. Yerdənkənar həyatın nümunələrindən biri də prokurordan solda duran böyük yaşıl lampa idi. Dəyişən zaman və epoxalara rəğmən, bu lampalar hələ də ali hakimiyyəti simvolizə edir və yalnız respublika miqyaslı adamların kabinetində olurdu. Morozov nə yollasa, belə bir lampanı tapa bilmiş və bununla son dərəcə qürur duyurdu.

– Əyləş, – Morozov stəkanı azca kənara çəkib stulu göstərdi.

Çijov kabinetdəki dəri stullardan birində oturdu.

– Məlumatını oxudum, – Morozov qısaca bildirdi, – düzü, heç nə başa düşmədim. Həmişəki kimi qarışıq və qeyri-konkret yazırsan. Amma kimi öldürdüklərini mən

dərhal anladım. Hətta kiməsə zəng də etdim. Bilirsən, nə miqyasda insan idi?

Bu, Morozovun sevimli ifadəsiydi. O, hər şeyi “miqyasla” ölçürdü.

Çijov təbəssümünü boğdu.

– Təsəvvür edirəm. Əgər qanuni oğru və belə bir avtoritetdirsə.

– Heç nəyi təsəvvür etmirsən, – Morozov qaşlarını çatıb əlini yellədi, – bu çox məşhur adam olub. Çox, – o yenə vurğuladı.

– Mixeyev mənə deyib, – Çijov təsdiqlədi.

– Mixeyev kimdir ki. – Prokuror Cinayət Axtarış İdarəsinin inadkar rəisini açıq-aşkar xoşlamırdı. – O axtarandır. Onun işi – tutdu, atəş açdı, apardı, həbs etdi. Sənin işin düşünməkdir. Bu daha çətindir. Sən heç təsəvvür etmirsən necə bir insanı öldürüblər, – prokuror yenə dedi.

Bu dəfə Çijov susdu və Morozov daha iltifatla davam etdi:

– Moseşvili Gürcüstanın ən varlı və tanınmış adamlarından biriydi. Moskva hakimiyyətində mənə belə

dedilər. Onlar artıq qətl haqda bilirlər. Bu gün axşam bütün qəzetlər bu haqda yazacaq. Televiziyadan mənə zəng edib təhqiqatı kimin apardığını soruşmuşdular. Dedim ki, bu qalmaqallı qətlin təhqiqat qərargahına özüm rəhbərlik edirəm.

Bu, tamamilə Morozova uyğun hərəkət idi. Telekameralar qarşısında özünü göstərməyi sevirdi. Onun üçün bu ən böyük mükafat idi.

“Əcəb işə düşdük”, – Çijov məyusluqla düşündü.

– Mixail Moseşvili sadəcə qanuni oğru deyildi, – prokuror davam edirdi, – o, üç il əvvəl Eduard Şevarnadzeyə hakimiyyətə gəlməyə kömək edənlərdən biri olub. Amma daha sonra yola getməyiblər və o, Moskvaya köçüb. Moseşvili ən məşhur artistlərlə, rəssamlarla, bəstəkarlarla dostluq edirdi. Sən səhərdən belə bir şeyi aydınlaşdıra bilmirsən?

– Mən raport yazmışam, – Çijov özünü təmizə çıxarmağa çalışdı, – bu təhqiqatı kimə verəcəyinizi bilmirdim.

– Raport, – Morozov əlini yellədi, – başdan eləmək istəmisən. Burda belə bir qətl var, sənsə – raport yazırsan. Mən artıq səhərdən öz təhqiqatımı aparıram. Hərçənd, mən bu işlə məşğul olmamalıyam. Sən də raportdan danışırsan. Belə işləmək asandır. Başından oldu, vəssalam. Yox, düşünmək lazımdır, əsas olanı görmək lazımdır.

Morozov özü belə hesab edirdi ki, o, əsas olanı görə bilir və indi öz müstəntiqini öyrədirdi. Digər tərəfdən, o artıq yarım saat idi ki, bu təhqiqatı Çijova, yoxsa başqa, daha yetkin bir adama tapşırmaq üzərində baş sındırırdı. Burda Morozovu çox narahat edən bir nüans var idi. Yaşlı müstəntiq təhqiqatın bütün uğurunu mənimsəyə və ya onun ümumi görkəmini bir qədər korlaya bilər. Amma gənc Çijovun bu sahədə heç bir şansı yox idi. Heç kimin ağlına gəlməyəcək ki, belə səs-küylü qətlin təhqiqatını bu südəmər aparıb. Əlbəttə, hamı düşünəcək ki, təhqiqatı, öz uğurları barədə təvazökarcasına susan Morozov özü aparıb. Və bu, Çijovun xeyrinə əsas dəlil oldu. Bütün bunları ətraflı düşünən Morozov gənc müstəntiqi çağırıb yüngülvari

sıxışdırandan sonra qətlin təhqiqatını ona tapşırmağa qərar vermişdi.

Morozov bilirdi ki, gəncliyinə baxmayaraq, Çijov perspektivli işçiydi. Qatili tapmağasa ona Mixeyevin özü kömək edəcək. Bu zaman bir gülləylə iki quş vurmuş olacaq. Əgər Mixeyev və Çijov qatili tapa bilsə, qalibiyyət yenə prokurorun adına yazılacaqdı. Əgər tapmasalar, Çijov yüngülvari cəza alar. Nəticə etibarilə, o, təhqiqat aparmağa borcludur, qatili tapmağa yox. Amma bu inadkar Mixeyevdən birdəfəlik yaxa qurtarmaq olar. Morozov bütün bunları ətraflı düşünəndən sonra Çijovu çağırmışdı.

– Mən istəyirəm ki, siz təhqiqatın əhəmiyyətini başa düşəsiniz, – prokuror davam edirdi. – Sizə təzyiq göstərəcəklər, hətta təhdid də edəcəklər. Heç nədən qorxmayın. Həmişə xatırlayın ki, mən sizinləyəm. Və sakitcə, məqsədyönlü şəkildə təhqiqatınızı aparın. Mən Daxili İşlər İdarəsi rəisinə zəng edib xahiş edəcəyəm ki, bu işlə şəxsən mayor Mixeyev məşğul olsun. O sizə zəruri köməyi göstərəcək. Mən sizi başqa işlərdən azad edirəm. General Seleznyovun mənzilini qarət edən dəstənin işini

Vostrikova verin. Və yalnız Moseşvilinin işiylə məşğul olun. İndi bu, bizim üçün ən vacibidir. Xatırlayın ki, Çijov, söhbət bizim prokurorluğumuzun şərəfindən gedir. Bizim rayonda belə qətllər hər gün olmur.

– Başa düşürəm, – Çijov məyusluqla cavab verdi. Bu Moseşvilini lənətə gəlsin! İndi Morozov onu təngə gətirəcək. Prokurorun şəxsi şöhrətiylə bağlı məsələlərdə onun aktivliyi hamıya məlum idi. Çijov anladı ki, qarşıda onu çətin günlər gözləyir.

– Gedə bilərsiniz, – Morozov icazə verdi, – məni daim məlumatlandırın.

Çijov hələ öz kabinetinə çatmamışdı ki, Morozov ona yenidən zəng etdi.

– Mətbuata heç bir məlumat vermirsən, – prokuror ciddi tərzdə dedi, – sizin işiniz işləməkdir, müsahibə vermək yox. Bunu unutmayın.

Yalnız rayon prokurorunun yanından çıxandan sonra Çijov rahat nəfəs ala bildi. O yalnız indi bu cinayətkar avtoritetin qətliylə bağlı necə bir həngaməyə düşdüyünü

anladı. Kabinetinə daxil olub Konstantin İqnatyeviçə zəng etdi.

Onun əhvali-ruhiyyəsi yaxşı deyildi.

– Sizin boşboğaz artıq səni çağırıb? – Mixeyev soruşdu.

– Çağırıb, – Çijov məyusluqla dedi.

– Təsəvvür edirəm, özünü necə gözə soxacaq, – Mixeyev rayon prokurorunu Çijovdan pis tanımırdı. – Bu axı onun dilinin əzbəridir. Belə bir cinayət. Biz səninlə necə bir işə düşmüşük, oğlan. Bu Mixo böyük avtoritet imiş, mənim uşaqlarımın çoxu onu tanıyır. Elə mən özüm də gərək onu ilk baxışdan tanıyaydım. Sadəcə olaraq cəsədə baxa bilmirəm. Bu, məndə anadangəlmədir, neyləmək olar.

– Çamadanları açdınız? – Çijov soruşdu.

– Açdıq. Bir neçə məktub, yüzdollarlıq əsginazların üç dəsti. Qeyri-adi heç nə.

Doğrudan da, Moskvada kapitalizmin gur inkişafı dövründə çamadanda tapılmış otuz min dollar adi hal idi. Nyu-York və ya Los-Anceles polisi miqyasında ağlasığmaz olan bu məbləğ Moskva hüquq-mühafizə orqanları

əməkdaşları üçün adi hal idi. Burda banklara və kredit kartlarına güvənmirdilər. Burda bütün işləri nağd pulla görməyi xoşlayırdılar.

– Morozov mənə dedi ki, Moseşvili artıq çoxdan Moskvaya köçüb. Bəs o, niyə mehmanxanada yaşayıb, – Çijov maraqlandı, – bunu yoxlamadınız?

– Artıq yoxlamışıq. Onun Moskva ətrafında bağ evi var. On yeddi otaqdan ibarət böyük bir villadır. Amma gəlişləri zamanı mehmanxanada yaşayırmış. Yeri gəlmişkən, aydınlaşdırdıq ki, bu lüks nömrə daimi olaraq vətəndaş Moseşvili üçün ayrılıbmış. Onun prezident olduğu “Ampeks” firması nömrənin pulunu bir il əvvəldən ödəyirmiş. Ona görə bu gün səninlə iki yerə getməliyik – Moseşvilinin bağ evinə və firmasına.

– Qəribədir ki, belə bir adamın cangüdəni olmayıb, – Çijov təəccübləndi.

– Qəribə heç nə yoxdur. Avtoritetlər arasında demək olar ki, heç kimin cangüdəni yoxdur. Əlaltı nə qədər desən var, amma cangüdən yox. Qanuni oğrunun özünü qoruya bilməməsi yaxşı çıxmır. O, adi kommersant və ya bankir

deyildi, bir qrup müəssisənin rəhbəriydi. Məndə olan məlumata görə onun dəfninə Moskvanın yarısı gələcək. Minlərlə insan onun bir sözündən asılıydı. Belə bir qətli yalnız ondan heç də zəif olmayan başqa bir avtoritet təşkil edə bilərdi. Yeri gəlmişkən, sənin yanına hələ cəsədi tələb etmək üçün heç kim gəlməyib?

– Yox, – Çijov təəccübləndi, – gəlməlidirlər?

– Mərc gələrəm – bu gün gələcəklər. Bu, mötəbər publikadır. Yeri gəlmişkən, onlar bizə kömək edəcəklər. Bircə bilsələr ki, biz Moseşvilinin qatilini axtarırıq, yanımızda onlarla könüllü köməkçi peyda olacaq. Buna hazır ol və əsəbiləşmə. Bu gündən etibarən səni 24 saat izləyən xüsusi cangüdənlərin də olacaq.

– Maraqlı perspektivdir. Bir tərəfdən Morozov, digər tərəfdən Mixonun keçmiş həmkarları.

– Elədir. Onlar bizə axtarışlarda kömək etməyə hazır olacaq. Amma əgər biz hansısa bir şəkildə qatili tapa bilsək – hərçənd, mən buna çox şübhə edirəm – onlar onu burnumuzun dibindən götürüb aparacaqlar. Onları incidənlə haqq-hesab çürütməyə adətən özləri üstünlük verirlər,

şahidsiz. Hərçənd, düşünürəm ki, Moseşvilinin qatili çoxdan ölüb. Belə bir adamı əsla saxlamaq olmaz. Onu tapşırığı yerinə yetirən kimi dərhal aradan götürməliydilər.

Nə Mixeyevin, nə də Çijovun ağlına belə gəlməzdi ki, onların bütün danışığı rayon prokurorluğunun binasının qarşısında dayanmış ağ Mersedesdən dinlənilir. Maşında oturan şərqlilərə məxsus xarici görkəmli üç nəfər diqqətlə Mixeyevin sözlərinə qulaq asırdı. Onlardan biri – arxa oturacağa yayılmış dolu bədənli cənab qəzəblə dedi:

– Eşidirsiniz, nə deyirlər? Mən də belə düşünürəm. Amma təkcə onlarla axtarmaq lazım deyil. Vaja, bizim bütün adamları işə qoş. Elan et ki, Mixonun qatilini tapana kimi bütün fəaliyyətimizi dayandırırıq. Məni başa düşürsən?

Qabaqda, sürücünün yanında əyləşən burnuqırıq, enlikürək, idmançı bədənli gürcü başını tərpətdi. O, hamıdan artıq qanıqaraydı. Dünən axşam Mixo qadın gözlədiyini deyib özü onu buraxmışdı. Səhərsə onun yanına gələndə bu dəhşətli qətl haqqında öyrənmişdi.

Mixeyev Çijovla sağollaşıb dəstəyi asdı. Arxa oturacaqda əyləşən adam qurcuxdu.

– Gedək, – o, maşından düşüb Vajaya əmr etdi.

Onlar ikilikdə prokurorluğun binasına girib Çijovun kabinetinə yönəldilər. Gənc müstəntiq bilmirdi ki, elə aparatlar var ki, onların vasitəsilə pəncərə şüşələrinin vibrasiyasına əsasən və ya kabellə istənilən xəttə qoşulmaqla danışığı dinləmək olur. Belə texniki yeniliklər heç DİN-in mərkəzi aparatında və Respublika Prokurorluğunda belə yoxdur.

– Olar? – naməlum adam Çijovun kabinetinin qapısını azca aralayıb soruşdu.

– Buyurun, – müstəntiq gələni xoş üzlə qarşıladı.

Hər iki qonaq kabinetə daxil olub stulda əyləşdi. Çijov ikincinin yöndəmsiz fizionomiyasına baxıb baxışını birinciyə yönəltdi.

– Quram Xotivari, – o özünü təqdim etdi, – mən dünən gecə "Ukrayna" mehmanxanasında öldürülən Mixail Quramoviç Moseşvilinin işiylə bağlı gəlmişəm.

"Operativdirlər", – Çijov ah çəkdi. Bax belə işləyirlər.

– Eşidirəm sizi, – o, nəzakətli olmağa çalışırdı.

– Bu onun bütün dostları üçün böyük dərddir, – Xotivari ah çəkdi, – onun arvadı və qızı var. Onlar bu haqda heç nə bilmirlər. Onun cəsədini vermək üçün sizin razılığınızı almayıncaya qədər onlara bu haqda xəbər vermək istəməzdik.

– Siz hardan bilirsiniz ki, o öldürülüb?

– Mehmanxanadan. Biz səhər gələrkən bu dəhşətli xəbəri eşitdik, – Xotivari ah çəkdi. – Rəhmətlik yaxşı adam idi.

– Siz cəsədi meyitxanadan aparmaq istəyirsiniz, – Çijov anladı. – Bu gün günorta biz yarılma haqda protokol alacağıq, onda gələrsiniz, mən icazə verərəm.

– Yox, əzizim, sən başa düşmədin, – Xotivari gülümsədi, – şəxsən bizə icazə lazım deyil. Sən bu kağızı meyitxanaya göndər ki, onlarda sənin razılığın haqda şəhadətnamə olsun. Biz yaxşı adamları pis vəziyyətdə qoymaq istəməzdik. Bunu axşam da edə bilərsən, biz səni tələsdirmirik.

– Bəs sizin özünüzə razılıq lazım deyil? – heç nə başa düşməyən Çijov soruşdu.

– Yalnız dul qadını sakitləşdirmək üçün hər şeyi qanunla etmək lazımdır, genatsvale, siz onu narahat etməyəsiniz deyə, – Xotivari izah etdi, – bizə isə sənin razılığın lazım deyil. Cəsədi biz artıq götürmüşük.

– Necə götürmüsünüz, – Çijov özünü itirdi, – milis meyitxanasından?

– Gəncsən, genatsvale, amma belə yüksək işdə işləyirsən. Tanrının köməyilə daha da yüksəklərə qalxasan, – Xotivari dedi, – cəsədisə götürmüşük. Orda mənim yazım var. Məncə, bu kifayətdir.

– Axı mən yarılma haqda aktı almamışam, – Çijov qəzəbdən qızararaq sakitcə dedi.

– Bu da sənə akt, – Xotivari bütün zəruri sənədləri masanın üzərinə qoydu, – biz onu səhər almışıq, onu bura gətirməyə qərar verdik ki, sən narahat olmayasan.

Çijov kağızlara nəzər saldı. Onlar tam qaydasındaydı. Qrebnev özü bütün sənədləri imzalamışdı. Doğrudanmı, onlar Arkadiy Fyodoroviçi də satın ala bilmişdilər? Çijov onu həmişə ən düzgün adamlardan sayırdı.

– Siz başa düşürsünüz ki, belə etmək olmaz? – Çijov soruşdu.

– Başa düşürük, ona görə özümüz bura gəlmişik, – Xotivari başını yellədi, – sən də başa düş ki, əzizim, kimi öldürüblər. Necə bir adamı. Bütün Moskvanı ayağa qaldıracağıq, amma qatili tapacağıq. Bunu sənə mən deyirəm – Quram Xotivari.

Çijov susurdu. O görürdü ki, mübahisə etməyin mənası yoxdur.

– Sən narahat olma, – Xotivari davam etdi, – nə lazımdırsa, ediləcək. Əgər mümkündürsə, hələ bağ evinə getmə, imkan ver dul qadın ərini basdırsın. Onsuz da orda heç nə tapmayacaqsan.

– Bu artıq bizim işimizdir, – Çijov meydan oxuyurcasına dedi.

Xotivari gülümsədi. Gənc müstəntiqin dəlisov şücaəti onun xoşuna gəlirdi.

– Telefonu ver, – o, Vajadan xahiş etdi.

O, cibindən telefonu çıxarıb Xotivariyə uzatdı.

Telefonu götürən Xotivari təbəssümlə kiminsə nömrəsini yığdı.

Bərkdən səs eşidildi:

– Eşidirəm sizi.

– Vyaçeslav Nikolayeviç, – Xotivari ciddi şəkildə dedi, – sizinlə danışan Quram Xotivaridir. Mənimlə bağlı sizə Moskva merliyindən zəng ediblər?

– Hə, mənə dedilər ki, siz zəng edəcəksiniz. Sizə necə kömək edə bilərəm?

Ən dəhşətlisi o idi ki, Çijov Morozovun səsini eşidirdi. Xotivari nəyisə qurdalayandan sonra prokurorun səsi kabinetdə aydın eşidilirdi.

– Bizim bir xahişimiz var – öləni rahat bir şəkildə basdırmaq. Sizin adamlarınız onun bağında peyda ola bilərlər, amma belə bir vaxtda bunu etmək etik deyil.

– Yaxşı, – Morozov razılaşdı, – mən müstəntiqimə tapşıraram ki, axtarışın vaxtını dəyişsin. Başqa hansısa bir xahişiniz var?

– Yox, təşəkkür edirəm. Sağ olun.

Xotivari telefonu söndürüb Vajaya qaytardı.

– Biz gedə bilərik? – o soruşdu.

Çijov donmuş halda oturmuşdu. Sadəcə, başını tərpətdi.

– Narahat olmayın, yoldaş Çijov, – Xotivari birdən dedi, – bu işdə biz sizin tərəfinizdəyik.

Onlar kabinetdən çıxıb qapını möhkəm örtdülər. Onlar heç dəhlizin sonuna çatmamışdılar ki Morozov Çijova zəng etdi.

– Qulaq as, Çijov, – prokuror özünün ənənəvi himayədar – laqeyd tonuyla dedi, – Moseşvilinin işiylə bağlı çox hoppanıb-düşmə. Sabah onu basdıracaqlar, hələ ki onun bağ evinə getmə. İmkan ver, camaat özünə gəlsin. Onsuz da çətin ki sən orda nəsə tapasan. Başa düşdün?

– Başa düşdüm, Vyaçeslav Nikolayeviç. – Çox istərdi ki, Xotivarinin ona məhz haradan zəng etdiyini desin. Amma bunu etmək olmazdı. Morozov belə bir rüsvayçılığı bağışlamazdı. Və Çijov dişlərini qıcayaraq susdu.

Nəhayət, dəstəyi yerinə qoyandan sonra masanın üstündəki yarılma protokoluna və ekspertlərin imzasıyla

qoşma məktuba nəzər yetirdi. O, qəfil telefonu özünə tərəf çəkib Qrebnevin nömrəsini yığdı.

– Arkadi Fyodoroviç, – dedi, – sizi narahat edən Çijovdur. Kiyev rayonu prokurorluğundan. Siz bu gün öldürülən Moseşvilinin cəsədinin pataloqanatomik yarılmasını aparmısınız?

– Hə, – qoca ekspert təsdiqlədi, – nə olub ki?

– Yarılmada siz özünüz iştirak etmisiniz?

– O qədər də yox, – Qrebnev bir qədər duruxdu, – mənə səhər tezdən zəng edib xahiş etdilər ki, gəlim. Mən də imtina edə bilmədim. Mən gələndə yarılma artıq bitirdi. Amma protokol həqiqidir, orda hər şey düz yazılıb – iki güllə yarası. Buna mən cavabdehəm.

– Bəs sizdən gəlməyi kim xahiş etmişdi?

– Bu sizin təhqiqatınız üçün vacibdir?

– Düzünü desəm, çox.

– Polkovnik İzotov. Şəxsən zəng etmişdi, burda pis nə var ki? O, tez-tez məndən gəlməyi, baxmağı xahiş edir. Burda heç bir kriminal görmürəm.

– Cəsədin verilməsinə razılığı siz vermisiniz?

– Əlbəttə, yox, – Qrebnev hətta hirsləndi də, – siz ki bilirsiniz, mənim bunu etməyə ixtiyarım yoxdur. Onda niyə soruşursunuz?

– Bağışlayın, Arkadi Fyodoroviç, mən sizi incitmək istəmirdim. Minnətdaram. Sağ olun.

Dəstəyi qoyub on beş dəqiqə sənədlərə baxaraq sakit oturdu. Polkovnik İzotov Moskva şəhəri Daxili İşlər İdarəsi rəisinin birinci müaviniydi və cinayət axtarışı işini şəxsən idarə edirdi. O heç bilmirdi ki, bundan sonra Mixeyevə zəng etməyə dəyərmi. Nəhayət, qərar verdi. Nömrəni yığdı. Dəstəyi Mixeyev özü götürdü.

– Konstantin İqnatyeviç, – o, ölgün səslə dedi, – Moseşvilinin bağ evinə gediş təxirə salınır.

– Niyə? – Mixeyev sakitcə xəbər aldı. O, hadisələrin belə dəyişməyinə hazır idi.

– Gəlib danışaram, – Çijov söz verdi.

– Yaxşı, – Mixeyev soyuqqanlılıqla razılaşdı və birdən əlavə etdi: – Mən ki demişdim, bu iş hələ çox qanımızı qaraldacaq.

Ağ "Mersedes"də hələ də onların hər sözlərini eşidirdilər.

## VII HİSSƏ

Cəfərov rayon mərkəzinə böyük çətinliklə çatdı. Qonşu İmişli rayonuna gedən avtobusu gözləməli oldu. Avtobus şəhərdən üçsaatlıq gecikməylə yola düşdü və iki dəfə də yolda dayandı. Daha sonra İmişlinin rayon prokurorluğunda oturub Beyləqana gedən yol maşını tapılana kimi gözləməli oldu. Nəhayət, günortaya yaxın bir yük maşını tapıldı. Onlar təzəcə yola düşmüşdülər ki, mühərrik tüstülənməyə başladı və Beyləqanda heç bir işi olmayan sürücü daha yarım saat pis idarə olunan maşınla əlləşməli oldu. Onlar tərpənəndə artıq saat 5 idi. Saat yarımdan sonra rayon mərkəzinə çatdılar.

Əvvəllər rayon "böyük rəhbərin" tərəfdaşı və silahdaşı olan yoldaş Jdanovun adıyla adlanırdı. Hərçənd,

yoldaş Jdanov Azərbaycanın bu sərhəd şəhərciyini öz gəlişiylə şərəfləndirməsə də, Moskvada və Bakıdakı rəhbərlik rayonu məhz onun şərəfinə adlandırmağı mümkün və düzgün hesab etmişdilər. Böyük hərəkatın digər tərəfdaşlarından fərqli olaraq Jdanovun bəxti daha çox gətirmişdi. O vaxtında öldü və Azərbaycanda başlanan çevriliş dalğası onu coğrafi xəritədən atana kimi tarixdə daha qırx il qala bildi.

Əlbəttə ki, rayon mərkəzində Cəfərovu heç kim gözləmirdi. Bu zaman prokurorluqda Bakıdan gələn müstəntiqin nə istədiyini düz-əməlli başa düşməyən yuxulu növbətçi oturmuşdu. Yerli İcra Hakimiyyətinə gedəsi oldu. Orda bəxti daha çox gətirdi. İcra başçısı Eldar Qasımov artıq onun Bakıdan gəlişindən xəbərdar edilmişdi. O, qonağı mehribanlıqla qarşıladı, çay təklif etdi.

Ənənəvi olaraq böyüklərə hörmət olunan Azərbaycanda Qasımov bağışlanılmaz dərəcədə cavan idi. Onun qırx üç yaşı var idi. Əlavə olaraq onun bir çatışmazlığı da var idi. O, çox cavan görünürdü. Sanki rayon icraiyyə komitəsinə təsadüfən gəlmiş keçmiş komsomol

rəhbərlərindən biriydi. Qasımov doğrudan da on il əvvəl rayon komsomol komitəsinə rəhbərlik etmiş və o vaxtdan həmişəlik olaraq işdə fədakar coşqunluğu və inadkarlığını qoruyub saxlaya bilmişdi.

Bu hündürboy, yaraşıqlı, cavan adam dərhal Cəfərovun xoşuna gəldi. Təqribən, Mirzə ilə eyni yaşda olduğundan onlar tez bir zamanda dil tapa bildilər.

– Orda vəziyyət necədir, – Qasımov təşvişlə soruşdu, – sakitçilikdir?

– Hələ ki hə, – Cəfərov ah çəkdi. Son zamanlar Bakıda hər il çevrilişlər olurdu – iki dəfə cəhd olmuşdu, iki dəfə ona oxşar nəsə. Ölkənin dağılmasından sonra respublika əhalisi dörd il ərzində üç prezident, iki prezident səlahiyyətlərinin müvəqqəti icraçısı, ona yaxın baş nazir və bir o qədər də hökumət görmüşdü.

Bu dəyişikliklər Cəfərovun taleyinə az təsir göstərsə də – o, müstəntiq olaraq qalmışdı – Qasımov üçün çox əhəmiyyətliydi. Bir prezidentin hakimiyyəti dövründə onu işdən çıxarmışdılar, digərində hətta həbs etmişdilər, üçüncünün dövründəsə rayon icra hakimiyyətinin başçısı

təyin etmişdilər. O yaxşı bilirdi ki, Bakıda hakimiyyət dəyişsə, onun istefası qaçılmazdır. Hər yeni lider öz komandasını gətirirdi. Əlbəttə, bu yalnız Qasımovun ağlına gəlmirdi. Respublikada hər bir yerli rəhbər, hər bir nazir, iri və ya xırda məmur başa düşürdü ki, hakimiyyət dəyişilsə, növbəti liderin gəlişiylə onlar hər şeyi itirə bilərlər. Ona görə hamının ilkin şüarı bu idi – zənginləşin. Nəyin bahasına olursa olsun bu gün, elə indi zənginləşin, yoxsa sabah gec olacaq. Ümumi hərc-mərclik, demək olar ki, oyuncaq çevrilişlər insanları fırıldaqçı, acgöz, tamahkar və dağıdıcıya çevirmişdi. Məmurların bu yırtıcı azğınlığının fonunda Qasımov əxlaqlı adam idi. Rayon sakinlərinin taleyi haqda bütün sələflərinin hamısından daha çox düşünürdü. Bu o demək deyildi ki, Qasımov ideal insan idi. On dollarlıq maaşla heç bir halda yaşamaq mümkün deyildi. Sadəcə olaraq o, respublikada deyildiyi kimi insaflıydı və doğrudan da, kömək edə biləcəyi və etməli olduğu yerdə zorakılıqla məşğul olmurdu.

– Yəqin Kazımov artıq sizə zəng edib, – Cəfərov ehtimal etdi.

Qasımov başını yellədi:

– Amma o demədi ki, konkret hansı işlə bağlı gəlmisiniz.

– Döyüş bölgəsində, dağlarda çoban Qurban kişi öldürülüb. Cavan bir oğlan şahid qalıb. Biz yoxlamışıq, şahid əmin edir ki, çobanı ermənilərlə birgə fəaliyyət göstərən azərbaycanlılar öldürüb. Görünür, birləşmiş dəstədir. Mən də bunu yoxlamaq istəyirəm.

Qasımov qaşlarını çatdı.

– Nə Allaha inanırlar, nə İsaya, – o, əsəbiliklə dedi, – müharibə gedir, onlarsa talan edirlər, öldürürlər, oğurlayırlar. Belə əclafları güllələmək lazımdır. Bilirsən, İrana keçirmək üçün sərhədə nə qədər mal aparıblar? Hər şey satın alınıb – ordu da, gömrük də, sərhədçilər də, milis də, sizin prokurorluğunuz da. Mən adamları dəyişirəm, Bakıdan yeniləri göndərməyi xahiş edirəm. Onlarsa əvvəlkilərdən daha pis imiş. Beləliklə, biz necə kömək edə bilərik?

– Şahidin dediyinə görə qatillər arasında Ömər adlı adam olub. Biz ehtimal edirik ki, bu, yerlilərdən biri olub.

Əksəriyyəti şiə olan qonşu Füzuli rayonundasa belə bir ad çətin ki ola. Biz də ona görə yoxlamaq istəyirik. Kazımov deyir ki, onların rayonunda sünnilərin yaşadığı üç kənd olub.

– Maraqlıdır, – Qasımov gülümsədi, – doğrudan da, şiələrdə belə ad olmur. Bu kəndlərdən kimisə tapmaq lazım olacaq. İş ondadır ki, kəndlərdən ikisi işğaldadır və indi o biri tərəfdədir. Üçüncü kənd isə Horadizə yaxındır. Orda bizim istinad postumuz var.

– Bəs o iki kəndin əhalisi haradadır? – Cəfərov soruşdu.

– Onlar da burdadır, – Qasımov fikrə getdi, – mən tapşırıq verərəm ki, səni qaçqınların kompakt yaşadığı düşərgəyə aparsınlar. Danışdıq?

– Çox sağ ol, – Cəfərov ayağa qalxaraq dedi.

Amma Qasımov onu buraxmaq fikrində deyildi.

– Otur, bir yerdə gedib nahar edərik. – Onlar hiss olunmadan, bir-birilə şərtləşmədən “sən”ə keçmişdilər. Yalnız maşında Qasımov birdən soruşdu:

– Sən prokurorla görüşmüsən?

– Rəhimovla? Hələ yox. Getmişdim, orda heç kim yox idi. Bircə növbətçiydi, o da məncə milisdən idi.

– Görəcəksən, necə bir tip olduğunu, – Qasımov burnunun altında dedi. – O qədər qanımızı qaraldır ki. Bakıda nüfuzlu qohumlarının olmasından istifadə edib özbaşınalıq edir. Mənsə heç nə edə bilmirəm. Hərçənd, sizin prokurorluğa iki dəfə yazıb onu geri çağırmağı xahiş etmişəm. Amma görünür, onun əlaqələri haqda sənin rəislərin də bilir. Yaramazın yeri möhkəmdir.

– Sən onu təriflməyə başla, – Cəfərov təklif etdi, – bəlkə onun əlaqələrinin buna bir köməyi dəyə bilər. Daha yüksək vəzifəyə irəli çəkərlər. Sənin üçün də yaxşı olar – belə bir düşmənin olmaz, ona da xoş olar, qabağa gedər.

– Bacarmaram, – Qasımov başını buladı, – həddən artıq xoşagəlməz tipdir. Prezident Aparatına yazmaq lazım gələcək, amma uşaqlıqdan xəbərçiləri sevmirdim.

Daha bu mövzuda danışmadılar.

Nəhayət, Qasımov, Mirzəni keçmiş rayon partiya komitəsinin qonaq evinə apardı. Onunla sağollaşıb yenidən icra hakimiyyətinin binasına qayıtdı.

Mirzə soyunub əşyalarını stulun başına qoydu. Otaqda sakitlik idi, bura küçədən səslər gəlmirdi, pəncərəsi bağa açıldığından yalnız su səsi eşidirdi – hardasa qab yuyurdular.

Birdən telefon zəng çaldı. Bunun kim ola biləcəyinə təəccüblənən Cəfərov dəstəyi götürdü.

– Salam, – kiminsə amiranə səsi gəldi, – məni görməməzliyə vurmaq üçün çox gəncsən. Gələn kimi icraiyyə komitəsinə qaçmısan. Məni niyə gözləməmisən?

– Kimdir danışan?

– Danışan Rəhimovdur. Gözləyə bilərdin. Sizdə, Bakıda hamı belə səbirsizdir? Səhər düz 9-da yanıma gəl. Öz rəhbərliyinəsə de ki, növbəti dəfə müstəntiq göndərəndə xəbərdarlıq etsinlər. Bura sərhədyanı rayondur, – o elə belə də dedi "sərhədyanı", – kimi gəldi buraxmırıq.

– Nəzərə alaram, – Cəfərov quru tərzdə dedi. O, qanacaqsızları sevmirdi, amma onlarla münaqişəyə girməməyə çalışırdı.

– Nəzərə al. Sabah da mənim yanıma gəl.

Rayon prokuroru dəstəyi asdı.

“Niyə onlar hamısı özlərindən belə razıdırlar? – Cəfərov məyusluqla düşündü, – elə bil eyni inkubatordan çıxırlar”.

Daha bir zəng gəldi.

“Ümid edirəm, bu Rəhimov deyil”, – Mirzə dəstəyi qaldırarkən düşündü.

– Yatmırsan? – o, Qasımovun tanış səsini eşitdi. – Sənə danışmağı tamam unutmuşam. Sənə danışdığım həmin iki kənd lap yaxında yerləşir. Orda bir kolxoz var idi. Həmin kolxozun sədri indi bizdə, icra hakimiyyətindədir... Onu görən kimi sən yadıma düşdün. Bəlkə onu sənin yanına göndərim?

– Əlbəttə, – Mirzə sevindi, – çox sağ ol. O mənə çox lazımdır.

– Mən də elə düşündüm. O, sabah səhər çıxıb gedir, ona görə indi göndərirəm. Sağlıqla qal.

Yenidən geyinməli, qələm və kitabçasını hazırlamalı oldu. Şahidlərin dindirilməsi üçün blanklar çoxdan yox idi: respublikada kağız çatmırdı. Hər yerdə açılan türk mağazalarından alınan ağ vərəqlər verirdilər. Onu da bir

dəstə kağızın dəyərində olan maaşlarından almalı idilər. Bunu hamı bilir, amma susmağa üstünlük verirdi.

Kolxoz sədri on beş dəqiqədən sonra gəldi. Bu, ortaboylu, şişkin, sanki ölüvay gözləri olan yaşlı adam idi.

Otağa daxil olub çəkmələrini səliqəylə çıxarıb corabla masanın arxasına keçdi.

– Vaqif Hümbətov, – kolxoz sədri özünü təqdim etdi, – mənə əmr etdilər ki, sizin yanınıza gəlim.

Onda hələ xahişin əmr hesab olunduğu keçmiş dövrlərin vərdişləri qalmışdı. Prokurorluq müstəntiqinin yanına gedişsə həmişə böyük xoşagəlməzliklər gətirə bilər.

– Əyləşin, – Cəfərov onu masa arxasına dəvət etdi, – mən sizinlə söhbət etmək istərdim.

Hümbətov ehtiyatla stulun kənarında oturdu. O, bir qədər qorxmuş kimiydi, Cəfərovun görməyə alışdığı kolxoz sədrlərinə heç oxşamırdı.

– İşləriniz çətindir? – birdən Mirzə soruşdu. – Qaçqınlardan ibarət bütöv bir kolxoz. Hamısını yedirmək, geydirmək lazımdır.

Belə bir başlanğıcı gözləməyən Hümbətov müstəntiqə qorxa-qorxa nəzər saldı.

– Biz bütün inəkləri xilas etmişik, uşaqları südlə təmin edirik, – o dedi.

– Narahat olmayın, mən sizi buna görə çağırmamışam, – Cəfərov təbəssümünü güclə boğub deyə bildi, – sadəcə olaraq mənə sizin köməyiniz və məsləhətiniz lazımdır.

– Əlbəttə, – Hümbətov qorxaq gözlərini müstəntiqdən çəkməyərək canlandı. Bu, sədrin gözlərində əksini tapa bilən yeganə hiss idi – qorxu.

– Bu yaxınlarda dağlarda çoban öldürülüb, – Cəfərov başladı. – Biz yoxlama apardıq və birdən məlum oldu ki, onu azərbaycanlılar öldürüb. Ən təəccüblüsü odur ki, onlar ermənilərlə birgə fəaliyyət göstərirmişlər.

– Burda təəccüblü nə var ki? – birdən Hümbətov soruşdu.

– Bəs siz təəccüblü heç nə görmürsünüz? – öz növbəsində Cəfərov da heyrətləndi.

– Mən artıq heç nəyə təəccüblənmirəm, – Hümbətov cavab verdi. – Bağışlayın, sizin adınız necə oldu?

– Mirzə...

– Hə, hörmətli Mirzə müəllim, mən həyatımda elə şeylər görmüşəm ki, daha nəyəsə təəccüblənmirəm. İndi mən hər şeyə inanıram. Bəyəm kimsə düşünə bilərdi ki, Sovet İttifaqı dağılacaq? Məgər kimsə ehtimal edə bilirdi ki, kommunistlər olmayacaq? Bizim nə vaxtsa ermənilərlə döyüşəcəyimizi və mənim bütün kolxozçularımın öz torpağında qaçqın olacağını mən yatıb yuxumda görə bilərdimmi? Bunlardan sonra mən daha heç nəyə təəccüblənmirəm. Bağışlayın, mən çox uzun danışdım.

– Yox-yox, eybi yox. Axı özünüz deyirsiniz ki, bu inanılmazdır – belə müharibə, belə bir düşmənçilik, indi də belə bir dəstə.

– Heç bir düşmənçilik yoxdur, – Hümbətov birdən etiraz etdi. – Bilirsiniz, biz bu lənətə gəlmiş Qorbaçova qədər necə yaşayırdıq! Qonşu rayonda toy çalınırdı. Biz necə mehriban idik! Martunidən mənim yanıma kolxoz sədri Aşot Avetisyan gəlirdi. Özüylə də əlli nəfər gətirirdi. Biz də

hamını xoşüzlə qarşılayırdıq. Daha sonra mən əlli nəfər dostumu götürüb onun yanına gedirdim. Onlar da bizi elə qarşılayırdılar. Lənətə gəlsin bu müharibə! Biz ermənilərlə qardaş kimi yaşayırdıq. İndi bunu xatırlamağı sevmirlər. Məni tikə-tikə doğrasalar da, deyəcəm: biz mehriban yaşayırdıq, qonşu kimi, dost kimi. – Hümbətov hiddətlənmişdi, görünür, bu mövzu ona rahatlıq vermirdi, dərk olunmamış ağrı kimi onu həyəcanlandırırdı. – Bu müharibə kimə lazım idi? İstəyirsiniz, mən deyim: pul qarət edib məsuliyyətdən qorxan hər cür istismarçıya, fırıldaqçıya, əclafa. Deyirlər, ermənilər azadlıq uğrunda ayağa qalxıblar. Doğru deyil. Bu söhbətlər başlanandan sonra biz hələ uzun müddət gecələr görüşürdük. Onlar mənə belə deyirdilər: bizə heç nə lazım deyil, necə yaşamışıq elə də yaşamaq istəyirik. Qoy bizə rahat yaşamağa imkan versinlər. Amma vermədilər. Nə o tərəfə, nə bu tərəfə.

– Sizin əcəb fəlsəfi fikirləriniz varmış, – Cəfərov dedi.

– Siz mənimlə düşərgəyə gəlin, baxın görün, mənim camaatım necə yaşayır, – Hümbətov lap ürəkləndi, – xəstələr, yaralılar, uşaqlar, qocalar torpağın üstündə, çadırda

yaşayırlar. Uşaqlar yarım ildir ki, məktəbə getmirlər. Mən sizdən soruşuram, bu müharibə kimə lazım idi? Mən bütün həyatım boyu burda yaşamışam, Qarabağ müharibəsi haqda nəsə bilmək üçün mənə qəzet oxumaq lazım deyil. Hə, bizim üçün çox çətindir. O qədər öldürülən, o qədər itkin düşən var, evlərimiz dağılıb. Bəyəm ermənilərin vəziyyəti yaxşıdır? Onlar indi bu torpaqlarda yaşayırlar? Heç də yox. Onlar da yaşamır, çıxıb gedirlər, daimi müharibədə yaşamaq istəmirlər, başa düşürlər ki, burda daha sülh olmayacaq.

– Bu müharibəni birinci biz başlamamışıq, – Cəfərov quru tərzdə qeyd etdi. O artıq bu mövzuya toxunduğuna peşman olmuşdu. Amma Hümbətovu saxlamaq o qədər də asan deyildi.

– Əskəranda bizim iki oğlanımızı öldürəndə mən təklif etmişdim: Stepanakertə gedib xoşluqla razılığa gələk. Biz itlə pişik kimi yaşaya bilmərik, qonşuyuq axı, neçə illərdir yan-yana yaşayırıq. Amma hamı elə bil başını itirmişdi. Sonra Sumqayıt hadisələri oldu. Mən onda da deyirdim, elə indi də deyirəm – cinayətkarın milliyyəti olmur. Bunu dərhal demək lazım idi. Daha sonra

azərbaycanlıları Dağlıq Qarabağdan və Ermənistandan qovmağa başladılar. Hər şeyi elə onda dayandırmaq olardı, amma təhrik edirdilər, ədalət haqda çığırırdılar, insanları mitinqlərə səsləyirdilər. Bəs müharibəni kim istəyirdi – Stepanakertdə oturub milyonlarını xilas etmək istəyən adamlar. Daha sonra onlara müharibədən qazanc əldə edə biləcəklərini dərhal anlayan Bakıdakı əclaflar da qoşuldu. Siz doğrudan, bu müharibə ərzində nə qədər adamın milyoner olduğunu bilmirsiniz? Doğrudan bilmirsiniz?

– Bunun işə dəxli yoxdur, – Cəfərovun səbri tükəndi, – gəlin, konkret bizim işimiz haqda danışaq.

– Danışaq, – Hümbətov yenidən sönükləşdi və birdən dedi: – Bilirsiniz, bu yaxınlarda nəyi başa düşmüşəm? İstənilən müharibə, hətta ən ədalətlisi belə sonradan öz xalqını da buna sövq edən yaramazlar tərəfindən başladılır. Ümumiyyətlə, istənilən müharibə əclafların şərəfli insanlara qarşı dilbirliyidir. Bu, yaramazların sizə və mənə qarşı müharibəsidir. Mən belə deyərdim.

Cəfərov üzünü çevirdi. Ürəyində o, Hümbətovla razıydı və onun hiddətini də anlayırdı. Qaçqınlar doğrudan da qeyri-insani şərtlərdə yaşayırdılar.

– Deməli, dağlarda hər iki tərəfdən birləşmiş dəstə ola bilər? – Cəfərov dəqiqləşdirdi.

– Əlbəttə, olar. Dəstə olmağı da vacib deyil. Hərdən əxlaqlı insanlara da rast gəlinir. İtkin düşən qohumları haqda öyrənmək, ölənlərin cəsədini götürmək üçün də gəlirlər. Bunda pis heç nə yoxdur. Amma əgər çobanı öldürüblərsə, deməli, quldurlar olub. Son vaxtlar onların sayı yaman çoxalıb, hər iki xalqın bədbəxtliyindən istifadə edirlər.

– Siz bilmirsiniz, bu kim ola bilər?

– Bilmirəm. Bəlkə onun tanışıdır. Bu mənim çobanım deyil, ona görə mən onun bütün tanışlarını tanıya bilmərəm.

– Qatillərin arasında Ömər adlı bir azərbaycanlı da olub. Beləsi haqda da eşitməmisiniz? Bu yerlər üçün bu ad kifayət qədər nadir sayılır.

– Bəs soyadı necədir? Bizim kolxozda iki Ömər olub, on beşə yaxın adamın da soyadı Ömərov idi.

– Yox, belə görünür ki, bu, onun adıdır. Soyadını bilmirəm. Qarabığlı, daim gülümsəyirmiş. Yanında başqa bir azərbaycanlı da olub, bəstəboylu. Sizinki deyil?

– Ola bilməz, – Hümbətov karıxmış halda dedi, – Ömər Bakıya getmişdi, bizə ordan zəng etmişdi.

– Sizdə belə bir Ömər olub?

– Oxşayır. Qarabığlı. Mən onun valideynlərini tanıyıram. Atası əvvəllər yeger olub, öz tüfəngiylə bütün bu dağları keçib. Oğlu da yeger olmaq istəyirdi.

– O, dağları yaxşı tanıyırdı?

– Hə. Amma o, Bakıya gedib, – Hümbətov təkrar etdi.

– Deməli, qayıdıb, – Cəfərov sakitcə dedi. – Onun şəklini hardan tapmaq olar?

– Bilmirəm. Çətin ki ailəsi evdən qaçarkən albom götürə. O hayda olmayıblar.

– Vaqif müəllim, bəs bu Ömər nə işlə məşğul olub?

– Mən eşitdiyimə görə Bakıda hansısa kommersiya firmasında işləyib. Dəqiq heç nə bilmirəm. Valideynləri və bacısı bizim düşərgədə yaşayır. Çox yaxşı insanlardır.

– Bəs ikincinin adını deyə bilmirsiniz? Ömərin bəstəboy dostu olmayıb?

– Yadımda deyil, amma məncə olmayıb. O çobanı Ömər özü öldürüb?

– Belə görünür ki, hə. O qorxub ki, qoca onları tanıyar.

– Biabırçılıq! Yazıq anası. Bəlkə bir səhv var? – Hümbətov ümidlə soruşdu.

– Bilmirəm. Biz bunu yoxlamalı olacağıq. Siz sabah düşərgəyə gedirsiniz? Olar mən də sizinlə gedim?

– Əlbəttə, olar. Səhər saat 7-də ardınızca gələrəm.

– Danışdıq. Köməyə görə çox sağ olun, Vaqif müəllim.

O, kolxoz sədrinə əlini uzatdı. Kişi onun əlini sıxdı.

– Bağışlayın, – Hümbətov sağollaşarkən dedi, – sadəcə, bu müharibə haqda sakit danışa bilmirəm. Dünən bizim düşərgədə bir oğlan öldü. Difteriyaya görə peyvənd edə bilməyiblər. Dərman yox idi. Bakıdasa şəhərin yarısı “Mersedes”lərdə gəzir. Sağ olun.

Onun gedişindən sonra Cəfərov uzun müddət yata bilmədi. O deyirdi ki, istənilən müharibə əclafların şərəfli insanlara qarşı dilbirliyidir. Nəhayət, Mirzə yuxuya getdi və ilk dəfə olaraq yuxusunda il yarım bundan əvvəl həlak olmuş qardaşı oğlunu gördü. O, nəyə görəsə gülümsəyirdi.

## VIII HİSSƏ

Moskvaya gəlib çatandan sonra, demək olar ki, yarım gün bir neçə cavan oğlanın qırsaqqız marağından yaxa qurtarmağa çalışdı. Onları başından eləmək problem deyildi, o, müşahidədən asanlıqla yayına bilərdi. Amma onun üçün vacib olan öz müşahidəçilərinin hazırlıq səviyyəsini, onun hərəkətlərinə adekvat reaksiyasını və proqnozlaşmış davranışlarını yoxlamaq idi. Bütün məlumatları əldə edəndən sonra sakitcə müşahidədən uzaqlaşdı. Müşahidəçiləri onun hara yoxa çıxdığını heç başa düşə bilmədilər. Sanki havada həll olunmuşdu.

Təyin olunmuş vaxta bir neçə saat var idi. O, nahar etməyə və telefon stansiyasına getməzdən qabaq bir qədər gəzişə də bildi. Nyu-Yorkla danışığı sifariş verməli oldu, əlaqə o qədər də pis deyildi. Demək olar ki, dərhal on beşinci kabinaya keçmək təklif olundu. O tərəfdə dəstəyi Pyer Dyunua qaldırdı.

– Salam Dronqo, – Dyunua şən tərzdə dedi, – səni belə adlandırdığım üçün bağışla, ağzımdan çıxdı. Narahat olmaya bilərsən, mən aparat qoşmuşam, bizi dinləyə bilməzlər.

– Axşamın, daha doğrusu, vaxtın xeyir, – köhnə dostunun səsini eşitmək ona xoş idi, – yoldaşınız necədir?

– Sən elə bunu öyrənmək üçün zəng etmisən? – Dyunua güldü. Gülüşü əvvəlki kimiydi, uşaq kimi gülürdü.

– Artıq nə baş verdiyini bilirsiniz?

– Bilirəm, Lauton mənə danışıb. Belə görünür ki, sənin böyük problemlərin var. Narahat olma. Mən artıq İnterpolun Moskvadakı milli bürosuyla əlaqə saxlayıb sənin haqda onları xəbərdar etmişəm. Bu nömrəyə zəng edə

bilərsən... – Dyunua nömrəni diktə etdi, – orda sənə sənəd veriləcək, həm də nə lazımsa, edəcəklər.

– Mən geri qayıdım?

– İlk üç gün yox. Sən axı hər üç gündən bir özünü bildirməlisən. Lauton sənin məlumatının şifrəsini düzgün açıb?

– Hə. Amma məncə, onlara təklikdə çətin olacaq.

– Narahat olma. Onlar tək olmayacaq. Biz lazımi köməkliyi göstərəcəyik. Sən belə hesab edirsən ki, sizin respublikadakı məmurlarla əlaqə yaratmaq lazım deyil?

– Əsla, orda hər şey satın alınıb.

– Amma bizə istənilən halda rəsmi şəxslərdən kimsə lazımdır. Yerli hakimiyyəti tamamilə görməməzliyə vuraraq işləmək olmaz.

– Onda qoy Milli Təhlükəsizlik nazirinə müraciət etsinlər. O, digərlərindən daha əxlaqlı insana oxşayır. Həm də bu yaxınlarda təyin olunub, hələ böyük əlaqələr qurmağa macal tapmayıb.

– Onu məsləhət görürsən?

– Düşünürəm ki, hə. Mən artıq bu variantı düşünmüşəm. Amma onu da xəbərdar etmək lazımdır. O, peşəkardır, hər şeyi düzgün anlayacaq.

– Danışdıq. Bizim təlimatımızı sənə çatdıracaqlar. Risk etməməyə çalış.

– Bu artıq məndən asılı deyil. Onlar birinci başladılar, – Dronqo sağollaşarkən dedi.

Binadan çıxarkən iyirmi dəqiqə yoxlama dairələri vurdu ki, yeni "quyruqların" peyda olub-olmadığını yoxlasın. Yalnız bundan sonra deyilən ünvana zəng etdi. Daha yarım saat sonra o lazımi yerdəydi.

Gəldiyi mənzildə onu evin içində cilalanmış, ağır əsayla gəzən, altmış yaşlarında bir kişi qarşıladı. Dronqo evə girən kimi ev sahibinin əsasına diqqət yetirdi, amma heç nə soruşmadı. Görünür, bu, İnterpolun çətin işində onlara kömək edən, DİN və ya DTK-nın təqaüdə çıxmış keçmiş əməkdaşlarından idi.

Mənzildə ev sahibindən başqa heç kim yox idi və Dronqo uzun müddət onun mətbəxdə çay və peçenye hazırlamaq üçün qurdalanmağını gözləməli oldu. Nəhayət,

onlar peçenye və digər bişmələrlə çay içməyə oturdular. Və bu zaman söhbət başladı.

– Sizin fəaliyyətiniz haqda eşitmişəm, – ev sahibi qısaca bildirdi. – Məni Vladimir Vladimiroviç kimi çağıra bilərsiniz. Sizə zəruri sənədləri hazırlamışam. İndi siz, Melburndan olan Avstraliya vətəndaşı Robert Krousunuz. Rusiyada çeçen müharibəsindən sonra istənilən Qafqaz milliyyəti arzuolunmaz emosiyalar yaradır. Qafqazın özündəsə ümumiyyətlə, heç bir milliyyət yazmaq olmur. Osetinlər inquşlarla vuruşur, abxazlar gürcülərlə, ermənilər azərbaycanlılarla. Sizəsə hərəkət azadlığı lazımdır. İndi əcnəbilər – mən MDB-yə daxil olmayan dövlətlərin vətəndaşlarını nəzərdə tuturam – bu dövlətlərin vətəndaşlarından daha çox hərəkət azadlığına malikdir. Məncə, siz mənimlə razılaşarsınız. Jurnalist vəsiqəsisə sizə hər yerə girməyə imkan verəcək. Qarşıdakı əməliyyatın çox çətin olacağını nəzərə alsaq, bu xeyli vacibdir.

Dronqo həmsöhbətinin sözünü kəsməyərək onu diqqətlə dinləyirdi.

– Sizə məlum olduğu kimi, Azərbaycan-erməni konflikti keçmiş SSRİ dövlət sərhədinin xeyli hissəsini müdafiəsiz qoyub. Mahiyyət etibarilə, ora indi “keçid zona” sayılır. Erməni tərəfi yalnız öz sərhədini qoruduğunu göstərərək ondan imtina edir. İşğal olunmuş Füzuli rayonusa Dağlıq Qarabağ komandanlığına tabedir. Onlar da öz növbəsində bildirirlər ki, bütün sərhədi nəzarətdə saxlamaq imkanları yoxdur. Azərbaycan tərəfisə rayonun iki il əvvəl hərbi əməliyyatlar nəticəsində işğal olunduğunu əsas gətirərək bu zonaya nəzarət etmir. Rus hərbiçiləri, xüsusən də sərhədçiləri orda, ümumiyyətlə, yoxdur. MDB hərbiçiləri haqda orda heç eşitməyiblər. Beləliklə, geniş bir dəhliz əmələ gəlib. Qaçaqmalçılar da bundan istifadə ediblər. Əvvəllər İrandan narkotik daşımaq çox çətin idi. İranlılar bu zəhərin yayılmasına qarşı qətiyyətli mübarizə aparırdılar. Amma indi bu dəhlizin yaranmasından sonra hər şey daha asan olub. İran tərəfindən sərhədin bu hissəsinə nəzarət etmək kifayət qədər çətindir. Orda bütöv sərhəd xətti yoxdur. Və böyük partiya narkotik yük Azərbaycandakı keçmiş İran-sovet sərhədindən Qarabağ və Ermənistan

vasitəsilə Gürcüstana gedir. Ordan da Avropaya və Türkiyəyə göndərilir. Məncə, siz bunları bizdən daha yaxşı bilirsiniz.

Dronqo heç nə demədi, yalnız qeyri-müəyyən şəkildə başını yellədi. O artıq adəti üzrə situasiyanı analiz edirdi.

– Nəticədə, – Vladimir Vladimiroviç davam edirdi, – Zaqafqaziyada qaçaqmalçılardan və narkotik alverçilərindən ibarət güclü bir cinayətkar qrup formalaşıb. Onlar artıq Hollandiyaya, Yunanıstana, İtaliyaya, Fransaya bilavasitə yük göndərməklə Avropanın bir çox ölkələriylə əlaqə yaradıblar. Beləliklə, gürcü, erməni, azərbaycanlı və ruslardan ibarət əsl cinayətkar "beynəlmiləl" əmələ gəlib. Bizdə olan məlumata görə azərbaycanlılar İran-Azərbaycan sərhədində aktiv fəaliyyət göstərərək yükləri sərhədə çatdırmağa cavabdehdirlər. Daha sonra yük Gürcüstana göndərilmək üçün erməni tərəfə keçir. Ordasa gürcü mafiyasının nəzarəti altında yüklər limanlara və daha uzağa göndərilir. Gəlir əlbəttə ki, tən bölünür. Birgə hərəkət çox yaxşı təşkil olunub. Bizim işimiz bu nizamlı mexanizmi az da olsa, dayandırmaqdır. Bizdə olan məlumata görə bu

“beynəlmiləl”in Yerevanda, Bakıda və Tiflisdə çox yaxşı əlaqələri var. Bu da bizim tapşırığımızı ancaq çətinləşdirir. Qafqazdakı ümumi qeyri-sabitlik, Çeçenistanla uzun sürən münaqişə bu hərc-mərcliyi daha da gücləndirir. Siz ki başa düşürsünüz, Yeltsin Gürcüstan və Azərbaycanla sərhədi bir qrup yaraqlının və ya silah dolu maşının gəlməyinə görə bağlamayıb. Zaqafqaziya respublikalarının özündə silah çatışmır. Yox, əsas səbəb Zaqafqaziyadan axınla gələn narkotik və saxta pullardır. Hətta hərbi vəziyyət şəraitində ora yeni hərbi birləşmələr göndərsə də, Şimali Qafqaz şəhərlərini Zaqafqaziyadan qoparsa da, Rusiya bu problemə təklikdə çözüm tapa bilmədi. Ona görə İnterpol və BMT-nin xüsusi ekspertlər qrupunu da işə qoşmaq qərarı qəbul edildi. Gördüyünüz kimi, tapşırığımız çox çətindir.

– Mən situasiyanı təqribən belə də təsəvvür edirdim, – Dronqo başını yellədi, – hamısı bu qədərdir, yoxsa hansısa təfərrüatlar qalıb?

– Əlbəttə, qalıb. Bizim məlumatımıza görə bu cinayətkar “beynəlmiləlin” – bu yaxşı sözü murdarlamaq məcburiyyətindəyik – dağılması kiməsə sərf etmir. Biz

bunun kim olduğunu bilmirik, amma məlumatımız var ki, təsir dairəsi uğrunda mübarizə başlayıb. Kənardan və ya çox ola bilsin ki, daxildən kimsə yaranmış tarazlığı pozmağa qərar verərək gəlirin böyük hissəsini mənimsəmək fikrinə düşüb. Burda söhbət çox böyük məbləğdən gedir. Ona görə bu naməlum tərəf "bizim tanışlarımıza" müharibə elan edib. Özü də görünür, ciddi müharibədir. Dünən Moskvada ən məşhur gürcü avtoritetlərindən biri, gürcü mafiyasının tacsız kralı sayılan Mixo – Mixail Moseşvili öldürülüb. Onun heç şəxsi mühafizəsi də olmayıb. Belə bir adama ilişmək inanılmaz görünürdü. Onun qətli çox narahatedici siqnaldır. Buna qədər biz də müxtəlif xəbərdarlıqlar almışıq, dəstənin sıravi üzvləriylə haqq-hesab aparmalar da olub, amma belə cinayət olmamışdı. Gürcü mafiyası, Moskvada və MDB-də ən güclü mafiyalardan biridir. Onlar elan ediblər ki, Mixonun qatili tapılmayınca çoxsaylı partnyorlarıyla bütün əməliyyatları dayandırırlar. Tiflisdə Moskvaya əsl müharibəyə başlamaq üçün yaraqlılar gəliblər. Amma bu cinayətə kimin qərar verdiyini hələ nə onlar bilir, nə biz.

– Mənim bəzi əlaqələrim var, – Dronqo təklif etdi, – zərurət yaranarsa, mən gürcü mafiyasının kifayət qədər ciddi rəhbərlərinə yol tapa bilərəm.

– Bu yaxşıdır, – Vladimir Vladimiroviç cibindən hansısa dərmanı çıxarıb dilinin altına qoyaraq onu soyumuş çayla içdi. – Ürək, – o, elə narazılıqla dedi ki, sanki bu orqan öz sahibinin qarşısında günahkar idi. – İndi başqaları haqda. Azərbaycan və Ermənistan arasındakı müharibə hər iki respublikanın cinayətkar qruplaşmalarına Moskvada və bütün MDB-də sıx əməkdaşlıq etməsinə mane olmur. Bununla yanaşı narkotiklə ənənəvi olaraq, Azərbaycan mafiyası məşğul olur. Onun rəhbəri kifayət qədər ciddi adam olan, məşhur heykəltəraş Rafael Bağırovdur. Siz onun haqda eşitmisiniz?

– Tanıyıram, – Dronqo təsdiqlədi, – o çox məşhur şəxsiyyətdir. Parlamentin deputatı və SSRİ Dövlət mükafatı laureatı olub. Onun işləri dünyanın bir çox muzeylərində sərgilənib.

– Daha yaxşı. Erməni mafiyasının başçısı “Kontinental” bankın rəhbəri Artur Sarkisyandır. O da çox

tanınmış adamdır. Lujkovun yaxın dostudur. Seçki kampaniyası zamanı hər ehtimala qarşı “Rusiyanın seçimi” və Jirinovskinin Rusiya Liberal Demokrat partiyasına yatırım qoyub. Şəkli qəzetlərdə tez-tez görünür.

– Bunu da bilirəm, – Dronqo ah çəkdi. – Adama ağır gəlir. Moskvada o qədər əxlaqlı, şərəfli azərbaycanlı və erməni yaşayır ki. O qədər məşhur adamlar var ki. Amma bu xalqlar haqqında mafiyaya görə, öz xalqını rüsvay edən bir neçə yaramaza görə fikir söylənilir.

– Bu bizim bəlamızdır, – Vladimir Vladimiroviç ah çəkdi, – Moskvada rus mafiyası da fəaliyyət göstərir. Sadəcə olaraq, slavyan qruplaşmaları əlaqəsizdir və özünəməxsus tərzdə yerlibazlıq edən Zaqafqaziya klanları qədər həmrəy deyil.

– Bəs gürcü mafiyasında Mixonu kim əvəz edib? – Dronqo soruşdu.

– Hələ ki üç namizəd var. Onun bütün yaxın adamları. Onlardan birincisi Quram Xotivaridir. O öz şefinin qətlinin təhqiqatına kifayət qədər aktiv şəkildə qoşulub. Hətta bu cinayəti təhqiq edən DİN və prokurorluq telefonlarına da

qoşula bilib. Onun kompüter texnikası sahəsində çox gözəl mütəxəssisləri var. O, Amerikadan özü üçün daha bir mühəndis gətirib. Və ona Detroytda qazandığından daha çox maaş verir.

– Rəqabət, – Dronqo razılaşdı.

– Elədir və onlarla çox ehtiyatlı olmaq lazımdır. İkinci namizəd Zurab Axvledianidir. Onun yeri Tiflisdədir. Onun kozırları və əsas gücü ordadır. Amma son zamanlar o, Ukraynada və Baltikyanı ölkələrdə güclü irəliləyə bilib. Buna baxmayaraq şansı azdır. Orda hələ bizim baş çıxara bilmədiyimiz hesablaşmalar gedir. Üçüncüsü, ən təhlükəlisi, amansız qatil, qanuni oğru Arçil Qogiyadır. Bəziləri ona "velosipedçi" deyir. O, oyun evlərinin çoxuna, demək olar ki, bütün oğurluq avtomobillərin yerdəyişməsinə nəzarət edir.

– Bunu bilirəm, – Dronqo başını tərpətdi, – onun Gürcüstanda David Qogiya adlı qardaşı var. O da tanınmış şəxsdir.

– Siz onları hardan tanıyırsınız? – Vladimir Vladimiroviç heyrətləndi.

– Yarım il əvvəl, – Dronqo izah etdi, – Moskvada onun oğlu yoxa çıxmışdı. O vaxt kömək üçün mənə müraciət etmişdi. Mən oğlanı tapana kimi məni az qala güllələmişdilər. Şükürlər olsun ki, onu sağ-salamat tapa bildim. O vaxtdan onlar mənim dostlarımdır, hətta "borclularım" da sayıla bilərlər.

– Qogiyanın işiylə siz məşğul olmusunuz? – Vladimir Vladimiroviç dərhal soruşdu.

– Hə. O vaxt məni Fogelsonun adamları tutmuşdular, sonra da general Mironovun əmriylə az qala güllələyəcəkdilər. Yaxşı ki, o vaxt Mark Abramoviç məni xilas etdi.

– Mən o səs-küylü qalmaqalı xatırlayıram, – ev sahibi dedi, – təəssüf ki, Fogelson özünü güllələmişdi. Amma rəhmətlik yaxşı mütəxəssis idi. – O güldü. – Lənət şeytana, yenə ağzımdan çıxdı, mən demək olar ki, on il Kanadada yaşamışam, xaçpərəst olmuşam, o vaxtdan bəzi vərdişlərim qalıb.

– Mən sizin əsanıza diqqət yetirdim, – Dronqo dedi, – onu harda sifariş etdiyinizi də bilirəm. Kanada tərəfdən,

Niaqara şəlaləsinə çatmamış Uellend adlı yerdə balaca bir usta dükanı var. Belə əsaları orda düzəldirlər, mən onu dəstəyindən tanıdım.

– Maraqlıdır, – ev sahibi gülümsündü, – düşünmürdüm ki, kimsə əsanı tanıya bilər. Dəyişməli olacağam.

– Mən orda bir neçə dəfə olmuşam, – Dronqo da cavabında gülümsədi.

– Yenə də, təəssüf, onu dəyişməli olacağam. Sizdən başqa da orda kimsə ola bilər, – Vladimir Vladimiroviç təəssüflə dedi. – İndi ən vacibi, – ev sahibi davam etdi. – Sizin tapşırığınız Batuma gedib yükləri limandan məhz necə göndərdiklərini aydınlaşdırmaqdır. Ehtiyatlı olun, sizi heç kim tanımamalıdır, yoxsa əməliyyat pozula bilər.

– Mən hər üç gündən bir zəng etməliyəm, – Dronqo xatırlatdı, – ola bilər ki, onlar məni görmək də istəsinlər.

– Bu haqda fikirləşərik, – Vladimir Vladimiroviç başını yellədi, – elə edərik ki, siz pis vəziyyətdə qalmayasınız.

– Mən heç, amma mənim orda doğmalarım qalıb.

– Çoxdurlar?

– Bir ailə. Atam, anam, iki uşaq. Bu mənim bacımın ailəsidir. Onlar onu tapa biliblər.

– Bacınızın əri nə işlə məşğuldur?

– Neft şirkətində mühəndis-proqramçıdır.

– Bəs bacınız?

– Konservatoriyada dərs deyir.

– Uşaqlar böyükdür?

– Yox. Beş və yeddi yaşlarındadır.

– Biz lazımi tədbir görərik, – Vladimir Vladimiroviç vəd etdi. – Rahatca Batuma uçun. Qayıdandan sonrasa öz şəhərinizə gedərsiniz. Mənə elə gəlir ki, sizi "incidənlərlə" mütləq görüşmək istəyəcəksiniz.

– Mən zəng etməli deyiləm ki?

– Məncə, yox. Biz üç gün ərzində işləri həll etməyə çalışarıq.

– İndiki halda, – Dronqo xatırlatdı, – "çalışmaq" yox, mütləq çatdırmaq lazımdır, söhbət mənə doğma insanlardan gedir.

– Söz verirəm ki, çatdırarıq, – Vladimir Vladimiroviç qətiyyətlə dedi, – rahat gedə bilərsiniz. Siz qayıdandan sonrasa sizin Arçil Qogiya ilə olan əlaqələriniz barədə danışarıq. Məncə, bu bizim işimizə yaraya bilər.

## IX HİSSƏ

Mixeyev haqlı çıxdı. Bu qədər "Mersedes", "Volvo" və "BMW"ni Çijov ömrü boyu görməmişdi. Çoxsaylı dostlarından, doğmalarından və yaxınlarından əklillər gətirilmişdi. Çijov Moskva merliyindən və şəhər hakimliyindən gələn əklillərə diqqət yetirdi. Necəliyi naməlum olsa da, Moseşvilini Novodeviçyedə dəfn etməyə icazə vermişdilər. Orda keçmiş Sovet İttifaqının, artıq Kreml divarına düşə bilməyən ən görkəmli adamlarını dəfn edirdilər. Burda dəfn olunanların içində müxtəlif dövrlərdə Sovet hökumətinə rəhbərlik etmiş Nikita Xruşov və Andrey Qromıko da var idi. İndi ideallların gözdən düşdüyü və əxlaqi dəyərlərin qalmadığı bir dövrdə dövlətin ən görkəmli xadimləri üçün özünəməxsus panteon sayılan Novodeviçyedə də yer satın almaq olardı. Belə dəfnetmə üçün hökumət rəhbərliyinin icazəsi olmalıydı və görünür,

icazə alınmışdı. Çijov birdən anladı ki, bu işi ondan alacaqlar. Prokurorluğun sıravi müstəntiqi Novodeviçyedə basdırılan bir adamın qətlinin təhqiqatını apara bilməz. Digər tərəfdən onu da anlayırdı ki, həyatından bezərək bu işə qol qoya biləcək çox sayda adam olmayacaq və çətin ki, şəhər prokurorluğu bu işi öz üzərinə götürsün. Amma onun üzərində çox güclü nəzarət olacaq. O, bunu da dərk edirdi. İşi aparmağasa ona imkan verməyəcəklər. Formal olaraq müstəntiq o sayılacaq, amma faktiki... burda hətta onun prokuroru Morozovdan da vacib xeyli insan var idi.

Bir şey aydın deyil – necə olub ki, belə bir adam mehmanxanada tamamilə tənha olub və orda neyləyib? Görünür, qətlin təhqiqatının indiki mərhələsi üçün ən vacib olan bu sualın cavabıdır. Dəfnə gələnlər arasında Daxili İşlər İdarəsi rəisinin birinci müavini polkovnik İzotov, paytaxtın ən məşhur qəzetlərinin redaktorları, aktyorlar, bankirlər, iri kommersiya müəssisələrinin rəhbərləri də var idi. Paytaxt cəmiyyətinin qaymağı bura yığışmışdı.

Xotivari də ayrıca üç "Mersedesin" müşayiətilə gəlmişdi. Onun ardınca dərhal cinayət aləminin bir neçə

avtoriteti də gəldi. Çijov onların hamısını tanımırdı, amma qəbiristanlıqda onları əhatə edən cangüdənlərin sayına görə bu adamların nüfuzunu təxmin edə bilirdi.

Xeyli sayda avtomobilin müşayiətilə məşhur heykəltəraş Rafael Bağırov da gəlib çıxdı. Bəstəboylu, yaraşıqlı, səliqəli, möhkəm bədənli adam hamının marağını özünə çəkə bilirdi. Bəziləri, Amerika prezidenti Bill Klintonun bu ilin mayında nəzərdə tutulan Rusiyaya səfəri zamanı onun emalatxanasına da baş çəkəcəyi haqda razılığın olduğunu söyləyirdilər. Bağırov qanıqaraydı, heç kimə baxmırdı. O yalnız, yaxında dayanmış, iri gövdəli, kök, keçəltəhər, komik burnu olan bir adamla salamlaşdı. O da hamıya qaşqabaqla baxırdı.

– Bilirsən bu kimdir? – Çijov birdən arxasında Mixeyevin səsini eşitdi. – Çevrilmə, lazım deyil. İnanmıram ki, indi məni tanıyasan. Bu “Kontinental Bankın” rəhbəri Artur Sarkisyandır, deyirlər o, şəhərdə erməni mafiyasını idarə edir. Üstəlik, merin ən yaxın dostudur.

– Mən belə görürəm, burda “ən yaxın dostlar” çoxdur, – Çijov başını azca döndərib pıçıldadı. Arxasında doğrudan

da, tamamilə tanımadığı bir kişi dayanmışdı. Mixeyevin qriminə söz ola bilməzdi.

– Bu da mənim rəhbərim. Polkovnik Sergey İzotovun özü, – Mixeyev adı açıq-aşkar ikrahla çəkdi. – Görünür, cəsədin çıxarılmasına İzotov şəxsən razılıq verib. Ehtiyatlı ol. Hamı bilir ki, bu işi sən aparırsan. İndi sənə böyük maraq var.

– Bəs Xotivarinin yanında dayanan kimdir? – Çijov soruşdu.

– Arçil Qogiya. Ola bilsin ki, Moseşvilinin xələfi o olacaq. Yaxşı, sağlıqla qal, mənim hələ işim çoxdur.

Çijov baxmağa davam edirdi. O şübhə etmirdi ki, Federal əks-kəşfiyyat xidməti və Daxili İşlər Nazirliyi qəbiristanlığa gələnlərin hər birini qeyd etmək üçün bu “mərasimin” çəkilişini aparırdılar. Amma deyəsən, bu, mafiya başçılarının vecinə deyildi. Onlar sanki öz cəzasızlıqlarına əmin kimi rahat və təmkinliydilər.

Xotivarinin yaxınlığında dolubədənli, qırx beş yaşlarında bir qadın dayanmış, onun da yanında tünd rəngli

paltarda gənc qız – görünür, onun qızıydı – durmuşdu. Bu, mərhumun ailəsiydi.

“O niyə mehmanxanaya tək gəlmişdi, niyə orda qalmağı xoşlayırdı?” – Çijov yenə düşündü. – “Belə imkanları və əlaqələri olan Moseşvilinin Kutuzov prospektində böyük bir evi də ola bilərdi. Bəlkə o elə bir adamla görüşməliydi ki, bu haqda heç yaxınları və cangüdənləri belə bilməməliydi. Çətin ki bu, qadın ola. Burda nəsə başqa bir sirr var”. Qəbiristanlıqda daha bir qrup adam peyda oldu. Bağırov və Sarkisyanın üzlərinin turşumasından Çijov anladı ki, bu adam hər iki başçıya xoş gəlmir. Ən təəccüblüsü o idi ki, müstəntiq bu adamı tanıyırdı. Tünd eynək taxmış və açıq rəngli plaş geyinmiş bir dəstə “oğlanın” müşayiətilə xammal birjası prezidenti, Dövlət Dumasının deputatı Boris Qriqoryeviç Lazarev də dəfnə gəlib çıxdı. O sanki Bağırov və Sarkisyanın gərgin üzlərini sezməyərək onlara gülümsədi və birinci salamlaşdı. Onun salamını təmkinlə aldılar. Çijov bilirdi ki, şəhərdə gəzən şayiələrə görə Lazarev Moskva ətrafı cinayətkar qruplaşmaların böyük hissəsini idarə edir. Və bununla da

Qafqaz qruplaşmalarıyla təbii ziddiyyətdədir. Lazarevin ardınca Mansurov gəldi. Tüklü, tutqun, bir az beli bükük olan bu adam klassik quldur qiyafəsinə daha çox uyğun gəlirdi. İri tatar qruplaşmalarına rəhbərlik edən Mansurov himayəsinə vağzalları və paytaxtın yataqxanalarını götürmüşdü. O, paytaxta gələn "Qafqaz milləti nümayəndələrinə" qarşı Lazarevin çoxdankı müttəfiqiydi. Dəstəsində əsasən Moskvaya gələn "qonaqları" sevməyən ruslar, tatarlar və ukraynalılar var idi. Çijov dərhal diqqət yetirdi ki, Mansurovun dəstəsi Lazarevin dəstəsinin yanında dayandı. Slavyan qruplaşmaları reketlə, zorakılıqla məşğul olur, bazarlar istisna olmaqla Moskvanın bütün ticarət nöqtələrinə nəzarət edirdilər. Bazarlar və narkotik Bağırovun qrupunun təsir dairəsindəydi. Banklar və kommersiya fəaliyyətini Lazarev və Sarkisyan çoxdan öz aralarında bölmüşdülər. Birjalar Lazarevə qalmışdı, Sarkisyansa Moskvada verilən bütün kreditlərə nəzarət edirdi. Gürcü mafiyası ənənəvi olaraq, avtomobillərin oğurlanması və yenidən satılması, insan oğurluğuna nəzarət

edirdi. Arzuolunmaz şahidlərin və borcluların ləğvi haqda sifarişlər ondan keçirdi.

“Bəlkə Moseşvilini rəqibləri öldürüb? – Çijov düşündü. – Bəs səbəb? Və o niyə görüşə tək gedib? Axı o çox təcrübəli adam idi, səkkiz məhkumluğu olub. Beləsini elə-belə aldada bilməzsən. Çox vacib, həyati əhəmiyyətli səbəb olub ki, Moseşvili mehmanxanaya tək gedib və kimisə gözləyib. Bu qonaqsa qatil olub”.

Matəm mərasimi uzanırdı. Qonaqlar o qədər idi ki, belə geniş qəbiristanlığa da yerləşmirdilər. Bir çoxları darvazadan bayırda dayanıb mərasimin bitməsini gözləyirdi.

“Deyəsən, bu qədər adam burda heç vaxt olmayıb, – Çijov düşündü. – Doğrudan da hər dövrün öz adətləri var”.

Gələn hər yeni qonaqdan sonra işi daha çox xoşuna gəlmirdi. Niyə Moseşvili kimi tanımış adam “Ukraynaya” yerləşib? “Metropol”da yox, “Savoy”da yox, məhz “Ukrayna”da? Niyə o tək, cangüdənlərsiz qalıb? Niyə maşın yox, taksi çağırıb, axı onun yəqin ki, üç yüz maşını olmalıydı. Və nəhayət, o, Şeremetyevoda kimin yanına və niyə getməyə hazırlaşıbmış? Və nömrə... ən vacibi

nömrədir. Mixeyev deyirdi ki, bu nömrənin pulu bir il əvvəldən ödənir, növbətçisə... o birdən xatırladı ki, qadın ödəmə müddətinin bitdiyini, yoxlamağa getdiyini demişdi. Moseşvilinin ödəmə müddəti bitirmiş? Necə olub ki, o vaxt bu sözlərə əhəmiyyət verməyib? Cəld bu qadını tapmaq lazımdır, o, necə belə səhv edə bilərdi? Heç Mixeyev də onun sözlərinə fikir verməyib.

O, qəfil geri çevrilib izdihamın içindən çıxmağa çalışdı. Amma bir neçə uğursuz cəhddən sonra başa düşdü ki, bu mümkün deyil. "Camaatın dağılışmağını gözləməli olacam", – Çijov məyusluqla düşündü. Bu da müstəntiq. Ən vacib şeyə diqqət yetirməyib. Gecə vaxtı növbətçi qadın niyə Moseşvilinin nömrəsinə girməliydi ki? Taksi gəldiyinə görə. Bu aydındır. O, zəng edəndən sonra gedib. Bəs niyə ödəmə müddətinin bitməsiylə bağlı yalan söylədi? Axı o həmin mərtəbədə işləyir və bilməliydi ki, "lüks" nömrənin pulu bir il əvvəldən ödənir. Sadəcə, hansısa sualdan və ya nədənsə qorxub, avtomatik yalan deyib. Qorxudan. Bəs o nədən qorxub?

Lənətə gələsən, burdan çıxmaq mümkün deyil! Birinci dəfə dəfn yerinə bu qədər yaxın olduğuna görə peşman oldu. İndi burdan çıxmağa heç cür imkan yox idi. O, Xotivarinin köməkçisi, burnu sınıq idmançının ona necə sıx durduğunu gördü. Deyəsən, onun adı Vaja idi. Deməli, Mixeyev haqlıydı, onu doğrudan da izləyirdilər.

– Qulaq as, əzizim, – Vaja sakitcə dedi, – yaxşı çıxmır. Mərhumun barmağında iri üzük var idi. Biz bütün meyitxananı silkələmişik, elə bilirdik, həkimlər oğurlayıb, amma onlar and içirlər ki, heç nə bilmirlər. Siz belə bir üzük görməmisiniz?

– Görmüşük. – Özünü qəzəblənmiş kimi göstərməyə heç bir imkan yox idi. Heç Vaja da onun qəzəbinə əhəmiyyət verməzdi.

– Hanı o? – Vaja soruşdu.

– Bizdədir, onu götürdük ki, itməsin, – Çijov bildirdi.

– Çox sağ olun, – gürcü təşəkkür etdi, – biz elə bildik ki, qatil götürüb. Bu izlə axtarmaq istəyirdik.

– Qatili prokurorluq və DİN axtaracaq, – Çijov ciddi tərzdə xatırlatdı. Özünü tamam axmaq kimi də göstərmək olmazdı.

– Əlbəttə, əzizim, – Vaja gülümsədi, – yalnız siz axtaracaqsınız. Bizsə ancaq sizə kömək etməyə hazırlaşırıq. Yalnız kömək.

Bu sözlərdən sonra o, Çijovdan uzaqlaşdı.

Xotivari uzaqdan Çijovla başını tərpədərək nəzakətlə salamlaşdı. Onu Arçil Qogiyaya göstərib nəsə dedi. Qogiya Xotivarini ikrahla dinləyirdi. O, Xotivarini aşkar şəkildə sevmirdi. Amma görünür, bu, Xotivarinin vecinə deyildi.

Qogiya daha sonra Çijovun möhkəmliyini yoxlayırmış kimi soyuq tərzdə ona baxdı. Çijov bu zəhmli baxışa dözə bildi.

– Hələ gəncdir, – Qogiya elə aydın şəkildə dedi ki, onu Çijov da anladı. Bu söz ona çox ağır gəldi.

Bütün dəfnetmə proseduru ümumilikdə dörd saata yaxın vaxt apardı və yalnız bundan sonra kütlə dağılışmağa başladı. Çijov girişdə güclə, itələşə-itələşə öz avtomobilinə tərəf yüyürdü. Onun “06”-sı digər küçədə dayanmışdı.

Qəbiristanlığın yanında gələn maşınları milis ciddi izləyirdi. Burda yalnız avtoritetlərin "Mersedes"ləri dayana bilərdi və onlardan bir çoxuna hərbi salam verirdilər. Yevgeninin, beş il əvvəl atasının hədiyyə etdiyi köhnə "Jiquli"si bu qədər çoxsaylı parlaq metal və rezindən sonra bir qədər yöndəmsiz görünürdü. Çijov cəld maşına minib mühərriki birinci dəfədən işə sala bildi və prokurorluğa yönəldi.

On beş dəqiqə sonra kabinetə girib dərhal Cinayət-Axtarış İdarəsinə zəng etdi.

– Danışan rayon prokurorluğundan Çijovdur. Kimdir danışan? – o soruşdu.

– Viktor Steklov, eşidirəm sizi. – O, Mixeyevin əməkdaşının səsini tanıdı.

– Təcili həmin gecə növbədə olan qadını tapmaq lazımdır. Deyəsən, onun soyadı Semyonova idi, – Çijov xahiş etdi, – o bizə çox lazımdır.

– Artıq səhərdən axtarırıq, – o, cavab verdi. – Mixeyev əmr edib ki, nəyin bahasına olursa olsun onu tapaq.

Çijov yenə yanaqlarının qızardığını hiss etdi. Necə olub ki, o, Mixeyevi qiymətləndirə bilməyib? O, hər şeyi dünən başa düşübmüş.

– Bəs niyə tapa bilmirsiniz? – soruşdu.

– Bağına gedib hələ qayıtmayıb. Ora qrup göndərmişik, gəlməyinə az qalıb. O bizə dünən gəlməliydi, amma gəlmədi.

Çijov Mixeyevin növbəti gün Semyonovanı Dİİ-nə dəvət etdiyini xatırladı. Doğrudanmı, o həmin nüansa hələ dünən fikir vermişdi? Hərçənd, onlar Moseşvili haqda Dİİ-nə gələndən sonra bilmişdilər. Yəqin İqnatyeviçin peşəkar məntiqi öz sözünü deyib.

– Gələn kimi mənə zəng edin, – Çijov xahiş etdi, – mən dərhal gələcəyəm.

– Oldu, – Steklov dedi.

Yevgeni dəstəyi qoyub fikrə getdi. Yenidən “Ukraynaya”gedib hamını dindirmək lazımdır. Maraqlıdır, görəsən Mixeyev Moseşvilinin dəfnində belə qeyri-adi görkəmdə neyləyirdi? Onu tanımaqlarını istəmirdi. Niyə? Onlar ki milisdə Mixonun işini kimin aparacağını dəqiq

bilir. Və əlbəttə ki, mayor Mixeyev haqqında da eşitməmiş olmazlar. Görünür, İqnatyeviç hansısa sürpriz etmək fikrindədir. O belə gözlənilməzliklərin ustasıdır. Bəs niyə Moseşvili mehmanxanada tək olub? Niyə taksi çağırıb? Niyə Şeremetyevoya getmək istəyib? Onun üstündə bilet tapılmayıb. Həmin səhər hara və hansı reyslərin uçduğunu yoxlamaq lazımdır. Bəlkə o sadəcə olaraq “Şeremtyevo-1”-dən Tiflisə uçurmuş? Deyəsən, ora “Aeroflot” şirkətinin təyyarələri uçur. Bəs niyə mehmanxanadan? Və belə qəribə tərzdə? Bu cinayətin açılmasının açarı məhz bu qəribəliklərdəydi, Çijov artıq buna şübhə etmirdi. Elə bu an Steklov zəng etdi.

– Bağ evində Semyonovanın cəsədi tapılıb, – o, tutqun şəkildə dedi, – onu bu gün səhər öldürüblər. Düz başına atəş açılıb. Qonşular heç nə eşitməyiblər.

Jenya Çijov anladı ki, onlar birinci raundu uduzublar.

## X HİSSƏ

Səhər tezdən Vaqif Hümbətov öz köhnə “UAZ”-da Cəfərovun ardınca gəldi. Cəfərov artıq səhər yeməyini yeyib kolxoz sədrini gözləyirdi. O, rayon prokurorluğuna getmədiyinə görə prokurorun necə qəzəblənəcəyini bilirdi. Amma bu vəziyyətdə Rəhimov respublika prokurorluğunun xüsusilə mühüm işlər üzrə müstəntiqinə heç nə edə bilməzdi. Formal olaraq o, qonağa kömək etməliydi. Hələ üstəlik, onun bütün göstərişlərinə də əməl etməliydi. Bundan başqa, onlar prokurorluq rütbələrinə görə də eyni səviyyəliydilər – hər ikisi ədliyyə müşaviriydi ki, bu da təqribən “podpolkovnik” hərbi rütbəsinə bərabər idi. Hərçənd, ədalət naminə demək lazımdır ki, Cəfərov iyirmi il əvvəl hüquq fakültəsini bitirəndən sonra bütün həyatı boyu prokurorluq orqanlarında işləyib. Rəhimovsa buna qədər şəhər komitəsinin inzibati şöbəsində və partiya mərkəzi komitəsində işləmiş, prokurorluğa düşən kimi dərhal kiçik müşavir rütbəsi almış, bir il bundan əvvəlsə ədliyyə müşaviri rütbəsinə təqdim olunmuşdu. Bir şeyi də qeyd etmək lazımdır ki, Rəhimov Cəfərovdan on yaş böyük idi və öz həyatını uğursuz hesab edirdi. O, partiya işində çox

sürətlə karyera qururdu, amma doxsan birinci ilin sentyabrında Azərbaycanda Kommunist Partiyası buraxılanda vəzifədən kənarda qaldı. Halbuki inzibati şöbənin rəhbəri özünün bütün sələfləri kimi ən azı respublika prokuroru vəzifəsini tuta bilərdi. Amma Rəhimovun sadəcə olaraq bəxti gətirmədi. Yaxşı ki, bu yaxınlarda təyin olunmuş baş nazir onun bacısının əriydi və ona görə Rəhimov taleyin onu tolazladığı bu dəlikdən çıxmağa ümid edirdi. O, Beyləqanı sevmir və onun əhalisini başa düşmürdü. Bəlkə də başa düşmək istəmirdi. Cəfərov Rəhimovun hirslənəcəyini məmnuniyyətlə düşünərək onu dərhal unutdu. Onlar kiçik Qəhrəmanlı şəhərciyinə tərəf gedirdilər. Hümbətovun həmkəndlilərinin yaşadığı düşərgə bu şəhərciyin ətrafında yerləşirdi.

Sədr maşını özü sürürdü. Onun sürücüsünü iki ay əvvəl orduya çağırmışdılar. Və kolxozda gənc oğlan az tapılırdı. Silah daşıya bilən hər kəs çoxdan orduya aparılmışdı. Dünən böyük bir nitq söyləyən Hümbətov, demək olar ki, bütün yol boyu susdu. Yalnız hərdən yolun vəziyyəti haqda bəzi replikalar deyirdi. Azərbaycan atalar

sözü olan “mart gəldi, dərd gəldi”, bu mart ərzində tamamilə öz yerini almışdı. Ayın əvvəlində qar, ortasında aramsız yağışlar yağdı. Onsuz da insan təfəkkürünün şedevri olmayan yollar güclü leysan yağışların təsirindən dağıldığından, su və palçıqla dolub yararsız hala düşmüşdü.

Düşərgəyə səhər saat onun yarısında çatdılar. Havanın pis olmasına baxmayaraq, oğlan uşaqları “uazik”i adəti üzrə şən halda qarşıladılar. Sədr qoca mühasibi çağırıb gətirdiyi dərmanları qeydiyyata götürməyini xahiş etdi.

Qaçqınların çətinliklərini, onların ağır vəziyyətini əvvəldən də bilən Cəfərov gördüklərindən sadəcə olaraq heyrətə gəlmişdi. Birbaşa torpağın üstündə, pis bərkidilmiş çadırlar xəstə və əzabkeş insanlar üçün son dərəcə davamsız sığınacaq idi. Bir çox çadırları su basdığından çarpayılar suyun içində qalmışdı. Digərlərində, yəqin keçmiş sovet ordusunun anbarlarından alınmış çadırlardakı böyük dəliklərdən bədbəxt insanların daşıyıb gətirdiyi inventarlar görünürdü. Bir çoxlarını elə iş yerlərindən evakuasiya etmişdilər. Mal-qaraya baxan bəzi qadınlar yalnız öz ağ xələtlərini götürə bilmişdilər. Hədsiz səfalət və kir,

elementar məişət şəraitinin olmaması insanların gülümsəməyinə mane olmurdu. Uşaqlar maşının ətrafında oynamağa davam edirdi, ətrafda insanların gümrah səsləri eşidilirdi. Cəfərov hətta gülüş səsi də eşitdi. Bu, azərbaycanlılara məxsus mentalitet idi – ən çətin anlarda belə mövcud müsibəti unudub, bütün problemləri bir kənara qoyub həyata bağlanmaq. Mirzə uşaqlara baxarkən insanların gözlərinin necə parladığını gördü. Bu, onların sonuncu ümidiydi.

Yeşikləri dəqiqliklə sayan müsahibindən ayrılan Hümbətov Cəfərova onun çadırına getməyi təklif etdi. Ömər Əfəndiyevin atasını ora çağırmağı vəd etmişdi. Cəfərov sədrin ardınca getdi.

Hümbətovun çadırı geniş, işıqlı və təmiz idi. Cəfərov masa arxasında əyləşib səbirlə Əfəndiyevin gəlişini gözləməyə başladı. Sədr qonağa çay verilməsini tapşırıb üzr istəyərək çadırdan çıxdı. Onun onsuz da işləri həddən artıq çox idi, bir də sərhəddən narkotik daşınması problemilə məşğul olası deyildi ki... Bunlar Cəfərovun problemləriydi. Qırmızı yaylıqlı, susqun qadın qonağın qarşısına çay və

xırda doğranmış qəndlər qoyulmuş qab qoydu. Onun ardınca Əfəndiyev çadıra girdi.

O, hündürboy, enlikürək, sanki baltayla kəsilmiş kimi kəskin üz cizgiləri olan bir kişiydi. Çadıra girib qonağa sakitcə başını tərpətdi. Dəvət gözləmədən masa arxasında oturub Bakıdan gələn müstəntiqə qaşqabaqla baxmağa başladı.

– Nə olub? – birinci Əfəndiyev soruşdu. – Ömər yenə bir hoqqa çıxardıb?

– Biz bunu hələ bilmirik, – Cəfərov cavabdan yayındı, – sadəcə, şübhələnirik ki, o, rayonun sərhədindəki bir dəstənin fəaliyyəti haqda bilir. Buna görə biz onu axtarırıq.

– O bizi biabır edir, – qoca kədərlə dedi, – mənim üç oğlum cəbhədə vuruşur, biri şəhid olub, bu isə... – o, əlini yellədi, – kommersiyayla məşğuldur. Heç sözə baxmır.

– Ölkəyə kommersantlar da lazımdır, – Cəfərov birdən dedi.

– Sən məni sakitləşdirmə, – qoca etiraz etdi, – müharibə gedir, nə kommersiya? Bu işlə məşğul olanlar

vətən haqda, torpaq haqda düşünmür, öz cibi haqda düşünür. Pul ona anasını əvəz edir.

– Sizdə oğlunuzun heç bir şəkli qalmayıb?

– Yox. Biz evdən ən zəruri şeyləri götürmüşdük. Hərçənd, anası deyəsən, onların şəkillərini götürmüşdü. Öyrənə bilərəm.

– Onun şəkli bizə çox lazımdır, – Cəfərov rica etdi, – bəlkə biz səhv edirik, başqa Öməri axtarırıq. Deyin görək, siz onun dostlarının arasında ortaboylu, tünd-dərili adam tanımırdınız ki?

– Əlbəttə, tanıyıram. Zeynaldır, elə bizim Öməri də yoldan o çıxardı. Rahat həyat ardınca şəhərə getdilər. Zeynal bizim rayondan deyildi. O, Gəncədəndir.

– Bəs onun soyadını xatırlamırsınız?

– Deyəsən, Manafov idi. Amma dəqiq xatırlamıram.

– Bəs sizdə Bakıdakı ünvanı var? – Cəfərov artıq müsbət cavaba ümid etmədən soruşdu.

– Var, – birdən Əfəndiyev dedi, – bizdə onun Bakıdakı ünvanı var. Onu sizə verə bilərəm.

– Çox sağ olun, – Cəfərov ah çəkdi. Deməli, bu düşərgəyə boşuna gəlməyib.

Rayon mərkəzinə qayıdarkən bu ailənin taleyi haqda düşünürdü. Onların taleyi sanki bu insanların ənənəvi patriarxal quruluşunda baş verən ağır dəyişiklikləri əks etdirirdi. Manafovun ünvanı və Ömər Əfəndiyevin şəkli cibindəydi.

Beyləqana qayıdandan sonra prokurorluğa yollandı. Artıq günorta saat dörd idi. Prokurorun qəbul otağında heç kim yox idi. Qəbul otağında oturan gənc qız maraqla Cəfərova baxırdı.

– Hansı məsələ üzrə gəlmisiniz?

– Deyin ki, Bakıdan gələn müstəntiqdir.

– O, bütün gün sizi gözləyib, çox narahat idi, – qız dedi.

– İndi girə bilərəm?

– Əlbəttə. Mənə əmr edib ki, siz gələn kimi içəri buraxım.

Qonağı gözləyən Rəhimov bütün səhəri qəzəb içində keçirmişdi. Onun belə uzun müddət gecikməyini meydan

oxumaq kimi qəbul edirdi. Bir saatdan bir Bakıda hökumətin dəyişib-dəyişmədiyi haqda məlumat almaq istəyirdi. Amma hər şey qaydasındaydı. Günortaya yaxın bir qədər sakitləşdi. Belə qərara aldı ki, söhbət respublikanın baş nazirinin qohumu olan rayon prokurorunun dəstəyi kimi bir şansını itirdiyini anlamayan adi, beyinsiz bir iş xidmətçisindən gedir.

Ona görə Cəfərovu artıq, emosiyalarını büruzə verməməyə çalışaraq sakit halda qəbul etdi. Rəhimovun boyu çox balaca olduğundan ayağının altına ətrafdakıların sezməyəcəyi bir şəkildə oturacaq qoymuşdu.

O, qonaqla elə masa arxasından, azca dikəlib salamlaşdı. Dərhal da üzünə qayğılı ifadə verdi.

– Onsuz da işlərimiz çoxdur, siz də öz gəlişiniz haqda xəbərdarlıq etmədən paytaxtdan durub bura gəlirsiniz. Yaxşı ki, dünən mənə milisdən zəng etdilər və gəlişiniz haqda bildim.

– Mən rayondakı öz işlərimi demək olar ki, bitirdim, – Cəfərov nəzakətlə bildirdi, – sadəcə olaraq müvəqqəti

olaraq, sizin rayonda yaşayan şahidlərdən birini dindirməliydim.

– Əvvəldən xəbərdarlıq etsəydiniz, mən o adamı prokurorluğa çağırardım, – Rəhimov özünü saxlaya bilmədi.

– Sizi niyə narahat edim ki? Artıq narahatlıq vermək istəmirdim.

Prokuror saatına baxdı.

– Bəlkə də siz haqlısınız. Elə bu gün də o qədər iş var ki, nahar eləməyə vaxt yoxdur. İndicə sərhəddən zəng edib gəlməyimi xahiş etdilər. İranlılar bizə narkotik daşınması zamanı güllələnmiş iki qaçaqmalçının cəsədini verəcəklər. Siz də elə bilirsiniz ki, biz burda boş oturub milçək qovuruq.

– Siz nə vaxt getməlisiniz? – Cəfərov soruşdu.

– Elə indi. Saat altıda orda olmalıyam.

– Məni də özünüzlə götürə bilərsiniz? – Mirzə xahiş etdi.

– Hə, – Rəhimov təəccübləndi, – istəyirsinizsə, gedək, sizə maraqlı olacaq. Əmin olacaqsınız ki, cinayətkarlarla necə qətiyyətlə mübarizə aparırıq.

Acından ürəyi gedən Cəfərov – qaçqın düşərgəsində nahar etməyi qeyri-etik hərəkət hesab etdiyi üçün orda yeməkdən imtina etmişdi – yalnız başını yellədi. Prokurorun maşınına oturandan sonra yaxında satış köşkü görüb sürücüdən maşını saxlamağı xahiş etdi. Prokuror Bakıdan gələn müstəntiqin köşkdən bir neçə şokolad almasına təəccüblə baxırdı.

– Uşaqlar üçündür? – prokuror təxmin etdi.

– Yox, sadəcə, uşaqlıqdan şokolad xoşlayıram, – Cəfərov onları prokurora uzadaraq cavab verdi.

O, narazılıqla üzünü çevirdi.

– Mən şokolad yemirəm, – narazı tərzdə qeyd etdi. “Bu müstəntiq deyəsən, tamam səfehdir, – Rəhimov əsəblə düşündü. – Və bu cür tiplər respublika prokurorluğunun mərkəzi aparatlarında oturur”. Bu Cəfərov onun qarşısına on il əvvəl çıxmalıydı, o, Mərkəzi Komitəyə gələn vaxtlarda. Onunla bir maşında getməyə qorxardı. Amma indi onlar – demokratiyadır. Nə istəyirsən, edə bilərsən. Böyüklərə heç bir hörmət qalmayıb.

Bundan sonra öz fikrinə görə, sosializm dövründə olan yaxşı zamanları xatırlayaraq bütün yolboyu susdu. Hər şeyə uyğunlaşa bilən insanlar sosializmin iflasını öz iflasları kimi qəbul edirdilər. Onları tərbiyə edən sistemin bütün nemətlərindən faydalana bilmədiklərinə görə ürəkdən təəssüflənirdilər.

Bu dəfə onlar sərhədçilərin çəkdiyi şose yoluyla getdiklərindən səyahət səhərkindən daha xoş idi.

Onlar keçmiş imperiyanın, indiki müstəqil respublikanın dövlət sərhədinə təyin olunmuş vaxtdan yarım saat tez çatdılar. Amma hörmətli qonaqların hamısı yerindəydi. Bakı nömrəli maşınların çoxluğu deyəsən, Rəhimovu da karıxdırdı. Cəld maşından düşüb, Bakıdan gələn qonaqların yığışdığı sərhədçilər binasına tələsdi. Cəfərov tələsmədən onun ardınca getdi.

Sərhəd zastavası rəisinin kabineti ağzına kimi doluydu. Masa arxasında sanki digər tərəfdən siqnal gözləyirmiş kimi plaş və xəz papaqda bir neçə nəfər oturmuşdu. Onlar heç əyinlərini də soyunmamışdılar. Respublikanın milli təhlükəsizlik nazirinin birinci müavini,

dolubədənli, hündürboy, yaraşıqlı və düzgün üz cizgiləri olan Rasim Paşayeviç ona hörmətlə baxan zabitlərin içində fərqlənirdi. Burda zastava rəisi, Milli Təhlükəsizlik Nazirliyinin Yerli Şöbəsi və artıq gəlib çıxmış milis rəisi də var idi. Rasim Paşayeviçlə üzbəüz Cəfərovun tanımadığı bir nəfər oturmuşdu. Rəhimov dərindən nəfəs alıb masadakıların hər birilə möhkəm əl sıxaraq salamlaşdı. Rasim Paşayeviç Rəhimovun qohumluq əlaqələri haqda bildiyindən prokurorla ayağa qalxaraq salamlaşdı. Bu, Rəhimovu ruhlandırdığından digərləriylə daha yaxşı əhvali-ruhiyyədə görüşdü. Heç öz həmkarını təqdim etməyi də lazım bilmədi. Cəfərov bir kənarda oturub hamıyla başını tərpədərək salamlaşdı. Birdən Rasim Paşayeviç dedi:

– Deyəsən, siz Bakıdan gələn müstəntiqsiniz? Mənə sizin burda olacağınızı demişdilər. Təhqiqatınız necə gedir, kömək lazımdır?

Bax, burda Rəhimovun əhvalı yenə korlandı. Deməli, bu başdanxarab burda təhqiqat aparır, bəlkə onu elə Rəhimovun öz yerinə göndəriblər. Yox, bazar günü təcili Bakıya getmək lazımdır. Baxsın görsün qohumu yerində

möhkəm oturubmu, bəlkə şəhərdə artıq onun çıxarılması haqda şayiələr gəzir.

– Çox sağ olun, – Mirzə qısaca cavab verdi, – heç nə lazım deyil. Hər şey qaydasındadır. Sadəcə olaraq rayon prokuroruyla bura gəldim ki, həlak olmuş qaçaqmalçıların bizim tərəfə təhvil verilməsində iştirak edim. Bəlkə onların arasında elə bizim axtardığımız adam var.

Zastava rəisi olan hündürboy, arıq rəhbərlərin çoxluğundan bir qədər hürkmüş cavan oğlan stəkanlara konyak süzdü.

– Sonuna qədər, – Rasim Paşayeviç xeyirxahlıqla dedi.

Onlar yenicə içmişdilər ki, bir sərhədçi otağa cumdu.

– Yoldaş general, – o, MTN generalıyla üzbəüz oturmuş adama məruzə etdi, – onlar artıq gəliblər.

“Necə oldu ki, onu dərhal tanımadım? – Cəfərov düşündü. – Bu ki Mirzəyevdir, sərhəd qoşunları komandanı”.

Mirzəyev başını tərpədib əlini, yaxındakı stulda olan furajkasına uzatdı. Onlar Rasim Paşayeviçlə birlikdə qalxdılar. Digərləri də onların ardınca yerlərindən sıçradılar.

Artıq hava qaralmağa başladığından sərhədçilər elektrikləri qoşmuşdular. Digər tərəfdə bir hərəkətlilik görünürdü, ölənlərin cəsədlərini hazırlayırdılar.

Zastava rəisi sonuncu formal işləri yoluna qoymaq üçün ayrılma xəttinə tərəf tələsdi. İsti otaqdan sonra hava kifayət qədər soyuq görünürdü, yağışlı külək əsdiyindən bir çoxları yaxalıqlarını qaldırmağa başladılar. Nəhayət, zastava rəisi qayıtdı.

– Onlardan İranın sərhəd qoşunları komandanının müavini və təhlükəsizlik xidmətinin rəhbəri gəlib, – o məruzə etdi. Mirzəyev və Rasim Paşayeviç dərhal irəli tələsdilər. Tezliklə onların şən səsləri gəlməyə başladı. Sanki ora toplaşanlar hansısa xoş hadisəni qeyd edirdilər.

– Onlar o tərəfin mühafizəsini gücləndiriblər, – zastava rəisi sakitcə dedi, – indi çox ciddi yoxlayırlar. Daha bizə etibar etmirlər.

Sovet sərhədçiləri onsuz da istənilən sanksiyasız keçidin qarşısını möhkəm aldıqlarından SSRİ dövründə öz şimal sərhədini demək olar ki, mühafizə etməyən iranlılar indi şimal sərhədlərinin təchizatıyla ciddi məşğul olmaq məcburiyyətində qalmışdılar. İranlıları əsasən sərhəd qoşunları tərəfindən nəzarətsiz qalan Füzuli rayonu istiqamətindəki hissə narahat edirdi.

Gedənlər iyirmi dəqiqə danışdılar. Görünür İran tərəfi özünün ciddi iradlarını bildirirdi. Şən səslər kəsildi və hətta burdan hər iki generalın necə susduğu görünürdü. Nəhayət, onlar qayıtdılar. Hər şey bitmişdi.

Mirzəyev hirsini zastava rəisinin üstünə tökdü:

– Tez ol, yük maşını göndər. Onlar gözləyirlər. – Söhbətin sonunda iranlılar doğrudan da, xeyli tənqidi fikirlər söyləyiblər.

Rasim Paşayeviç sanki ətrafdakılara fikir vermədən siqaretini tüstülədirdi. Onun da əhvali-ruhiyyəsi yaxşı deyildi.

Yük maşını guruldayıb yamacı ağır-ağır qalxaraq şlaqbauma tərəf yönəldi. Orda artıq ölənlərin cəsədləri olan

cip dayanmışdı. Bütün prosedur beş dəqiqədən çox çəkmədi. Yük maşını heç geri çevrilmədən zastavanın ərazisinə qayıtdı.

– Bu uşaqları çıxarın bir baxaq görək, – Mirzəyev dedi, – bəlkə tanıyırıq.

Sərhədçilər yük maşınına dırmanıb qaçaqmalçıların ağır cəsədlərini qaldırmağa cəhd etdilər. Nəhayət, birini düşürə bildilər. Bu, maskalanmış, ordu geyimində olan cavan oğlan idi. Üzündə qəribə bir təbəssüm donub qalmışdı, sanki ölməzdən öncə öz qatillərini məsxərəyə qoymaq istəmişdi. Hamı diqqətlə ona baxırdı. Amma onun bütün görkəmindən, açıq rəngli saçlarından bilinirdi ki, yadellidir. Ardınca ikincini də çıxardılar. Üzü yaralanmışdı, amma yük maşınından hoppanan çavuş bir əsgi tapıb onun üzünü sildi. Cəfərov ona diqqətlə fikir verdi. Deyəsən, səhv etməmişdi. Cibindən şəkli çıxardı.

– Yükləyin, – Mirzəyev əsəbi halda dedi.

– Mən bu adamı tanıyıram, – birdən Cəfərov dedi.

Rəhimov hirsləndi. Bu əbləh iki generalın qarşısında söz deməyə cəsarət edir.

– Siz onu tanıyırsınız? – Mirzəyev təəccübləndi, – o kimdir?

– Ömər Əfəndiyev. Qonşu rayonun sakini. O, sərhədi bir neçə gün əvvəl Horadiz tərəfdən keçmişdi. Orda bir çobanı öldürüb. Bu da onun şəkli.

İşin nə yerdə olduğunu anlayan Rəhimov cəld önə çıxdı.

– Prokurorluq işçiləri həmişə dəqiq işləyirlər, – o, qalibiyyətlə bildirdi.

Rasim Paşayeviç cəsədin üzərinə əyildi.

– Bu həminkidir? Əminsiniz?

– Məncə, hə. Hər şey uyğun gəlir. Onların birləşmiş dəstəsi sərhədə tərəf gedirmiş.

– Cinayət işini kim aparır? – MTN nazirinin müavini soruşdu.

– Mən, – Cəfərov cavab verdi.

– Biz Bakıya birlikdə qayıdacağıq, – Rasim Paşayeviç fikirli halda əmr etdi, – gərək bu işə bizim müstəntiq də qoşulsun.

– Bəs onun doğmaları harda yaşayırlar? – Rəhimov dərhal narahat oldu. – Onun hansı ailədən çıxdığına bir daha baxmaq lazımdır. Bəlkə onların hamısı quldurdur. Ot kökü üstə bitər. Bu yaramaz haqda mənə məlumat verin.

– Onun üç qardaşı cəbhədə vuruşur, – Cəfərov sakitcə dedi, – biri də həlak olub. Məncə, siz səhv edirsiniz.

Rəhimov qəzəbdən yalnız ağzını aça bildi, amma heç nə demədi.

– Biz yenə də onun ailəsini yoxlayarıq, – yerli təhlükəsizlik xidmətinin rəisi ona dəstək verdi.

– Əlbəttə, yoxlayarsınız, – Cəfərov daha mübahisə etmədi, – bu sizin işinizdir.

## XI HİSSƏ

Dronqo və ya indi adlandırıldığı kimi Robert Krou Batuma Tiflisdən getməli oldu. Tiflis aerodromunda təəccüblü dərəcədə nizamsızlıq və səfalət hökm sürürdü. Aeroportda yalnız bir neçə ticarət köşkü var idi, hər yer kirli,

bina köhnəydi. Ən başlıcasısa aeroportda sanki bütün ümidlərini itirmiş sönük baxışlı insanlar gəzirdilər. Müstəqilliyinin dördüncü ilində demək olar ki, bütün Gürcüstan bu vəziyyətdəydi. Abxaziyayla müharibədəki məğlubiyyət faktiki olaraq ayrılmış Cənubi Osetiya, daimi daxili hesablaşmalar, iqtisadi enmə, aclıq çəkən əhali. Gürcüstanın paytaxtını nə vaxtsa dünyanın digər şəhərlərindən fərqləndirən şən, coşqun insanların səsləri eşidilmirdi. Hər şeyə inamını itirmiş əhali sanki iradəsiz yaşayırdı. Və ən qorxulu zərbəni nə Osetiya, nə Abxaziya, nə də aclıq və ərzaq çətinlikləri endirdi. Qürurlu gürcü xalqına ən qorxulu zərbə, gürcünün (!) gürcüyə atəş açdığı, qardaşın qardaş üstünə getdiyi Vətəndaş müharibəsi oldu. Öz orijinallığı və ənənələriylə fərqlənən xalq birdən Vətəndaş müharibəsinin cəhənnəminə düşdü. Bu ən əsas ideallara, çox çətinliklə qorunub saxlanan daxili mənəvi dəyərlərə endirilən zərbəydi. Müharibədən sonra gürcülər bir-birilərinə olan hörmətlərini itirmişdilər. Bu isə əvvəllər özünü bu qədər sevən və xoşbəxt yaşayan bir xalqın taleyinə yazılan ən qorxulu sınaq idi.

Şəhərin özündə Amerika dolları, alman markası, rus rublu işləyirdi, gürcü kuponuna çoxdan əl yelləyirdilər. Çətinliklə yol maşını tapan Robert Krou onu dəmiryol vağzalına aparmaq üçün sürücünü birtəhər yola gətirə bildi. Əgər aeroport kirliydisə, vağzal əsl zibilxanaydı. İnsanlar elə yerdəcə yatırdılar, hər yerdə böyük yük tayaları, kisələr, yeşiklər görünürdü. Radio ilə verilən informasiyalar çox vaxt eşidilmirdi, eşidilənlərsə əsasən yanlış olurdu. Qatarlar bir çox istiqamətlərə ümumiyyətlə getmirdi. Rusiya sərhədlərinin bağlanması mahiyyət etibarilə, Gürcüstanı xarici aləmdən ayırmışdı.

Aydın oldu ki, bu gün Batuma qatar getmir. Məlum olmayan səbəblərdən məhz bu gün dəmiryollarının təmirinə başlamışdılar. Dronqo başa düşdü ki, şəhərdə çox qalmaq riski var. Məsuliyyətli qərar qəbul etməli oldu, amma başqa çıxış yolu yox idi. Elə vağzaldan David Qogiyaya zəng etdi.

Dəstəyi cavan bir oğlan götürdü. Görünür, Davidin çoxsaylı köməkçilərindən və ya cangüdənlərindən idi.

– Salam, ya da bizdə deyildiyi kimi qamarcuba, – Dronqo başladı. – Cənab David Qogiyanı telefona çağıra bilərsiniz?

– Kimdir danışan?

– Deyin, Dronqodur, özü biləcək.

Kimsə dəstəyi ovcuyla örtüb yavaşca dedi:

– Hansısa dranqadır.

– Bura ver, – Davidin əmin səsi eşidildi. – Eşidirəm, – o bir an sonra dedi.

– Batono David, bu mənəm Dronqo.

– Nə yaxşı, – qoca sevindi, – özün gəlmisən? Hardan danışırsan? Gürcüstandasan?

– Hə, Tiflisdəyəm.

– Daha heç nə demə. Olduğun yeri de, arxanca mənim adamlarım gələcək.

– Dəmiryol vağzalındayam.

– Əsas girişdə ol, mən maşın göndərirəm. Ağ rəngli “BMW”-dir, görən kimi yaxınlaş.

Doğrudan da yarım saat sonra vağzala dəbdəbəli maşın yaxınlaşdı. Maşından bahalı fransız ətri qoxuyan,

xəbərdar edilmiş iki cavan oğlan düşərək Dronqoya gülümsədilər. Daha yarım saat sonra o artıq Davidin evində masa arxasında oturmuşdu.

Gürcü qonaqpərvərliyi qonaqpərvərlikdən daha üstün bir şey idi. Bu, hər bir yeməyi masaya elə gətirməkdir ki, qonaq onun məhz özü üçün hazırlandığını hiss etsin. Bu sənin evinin kandarından içəri girmiş adama olan böyük diqqətdir. Bu qayğı aşpazın, şərabçının, ev sahibinin və sahibəsinin birgə əməyində təcəssüm edir. Fransada Parisin Məryəm kilsəsi yaxınlığında "Gümüş qüllə" adlı bir restoran var. Orda artıq üç yüz ildir ki, müştərilərə "nömrələnmiş" ördəklər təqdim edirlər. Və hər bir müştəri yalnız onun üçün qızardılmış ördəyin nömrəsini bilir. Hətta arzu edənlərə yedikləri ördəklərin "nömrəsi" olan tərifnamələr də verilir.

Belə demək olar ki, bu, Sena sahillərində sırf gürcü qonaqpərvərliyidir. Çünki istənilən gürcünün evinə getsəniz, elə hiss edəcəksiniz ki, müstəsna olaraq sizin üçün hazırlanmış "nömrələnmiş" ördəyi təqdim edirlər.

Nahar bitəndən sonra David, nəhayət, Dronqodan soruşdu:

– İndi danış görək niyə gəlmisən? Nə kömək lazımdır?

– Başa düşürsən, David, mənim Batumda işlərim var, bu günsə ora qatar getmir. Mən sabaha qədər mütləq ora çatmalıyam.

– Təəssüf, – qoca məyus oldu, – elə bilirdim, bu gecə bizdə qalacaqsan. Bilirsən, oğlum necə sevinəcək! Sənin haqqında ona o qədər danışmışam ki.

– Mümkün deyil, David, həqiqətən. Mənə kömək edə bilərsən?

– İstəyirsən Batuma təyyarə təşkil edim, istəyirsən – qatar. Maşınla da gedə bilərsən, sənə necə xoşdur.

– Əlbəttə, yaxşı olardı ki, maşınla gedim, əgər ora çox uzaq deyilsə.

– Səni beş saata çatdırarıq, nə deyirsən, əzizim. Özüm səninlə gedərəm.

– Bax, bunu eləmək lazım deyil. Mənim orda vacib işlərim var, – Dronqo xahiş etdi.

– Başa düşürəm, əzizim, – David onun çiyinini sıxdı, – sənə necə rahatdır, elə et. Sənə bir nəfərin ünvanını verəcəyəm, birdən nəsə lazım olsa, ona zəng edərsən.

– Danışdıq, – o, saata baxdı, artıq axşam saat on idi.

– Səhər tezdən çıxarsınız, – David dedi, – indi get dincəl. Sabah uzun yol gedəcəksən.

Səhər onu doğrudan da, beşin yarısında yuxudan qaldırıb milad hinduşkası kimi yedirtdilər. David özü onu yola salmağa çıxmışdı. İki sürücüylə “BMW”-ni onun ixtiyarına vermişdilər. Hər ehtimala qarşı, maşının salonuna yemək və Dronqonun çox sevdiyi gürcü şərabları qoymuşdular.

Batuma və ya gürcülərin dediyi kimi Batuma macərasız çatdılar. Bu heyrətamiz gözəl cənub şəhəri keçmiş Sovet hökumətinin incilərindən biriydi. Sovet İttifaqının hər tərəfindən gələn minlərlə turisti Kobuleti, Maxincauri, Tsixisdziri kurortlarında dincəlməyi sevirdi. Dronqo valideynlərinin onu uşaqlıqda Yaşıl Buruna dincəlməyə gətirdiklərini xatırlayırdı. O, Batumun nəbatat bağında

gördüyü təmtəraqlı aqavaları, nəhəng evkaliptləri və bambuk ağaclarını həmişəlik yadında saxlamışdı.

Cənubdan hərəkət edən karvanlar üçün çox rahat yer olan bu ərazidə əvvəlcə Tamarissixe qalası ucaldılmışdı. Daha sonralar şəhərcik böyüyərək Batum adlandırılmağa başladı. Deməк olar ki, üç yüz il şəhəri türklər idarə etmişdilər. 1878-ci ildə Berlin sazişinə əsasən Batum Rusiyaya verilmişdi. Artıq beş ildən sonra Batumu Bakıyla birləşdirən dəmiryolu çəkilmişdi. Bu dövrdə Bakıda artıq gur neft çıxarılırdı. Daha bir neçə il sonra Abşeron yarımadasını Batumla birləşdirən ilk boru kəməri çəkildi. Bu da kiçik kurort şəhərini çar Rusiyasının ən vacib limanlarından birinə çevirdi.

Daha sonra inqilab, müharibələr, çaxnaşmalar oldu. Sovet dönəmlərində Batum həm də Acarıstan muxtar respublikasının paytaxtı oldu. Yenidənqurmanın ilk illərindəsə, onlarla turist və yük avtobuslarının Türkiyəyə getdiyi iri tranzit mərkəzə çevrildi. Sovet İttifaqı dağılana qədər Batum ən əsas buraxılış məntəqələrindən biriydi. Sərhəddə Avropaya keçə bilmək üçün kilometrlərlə növbə

olurdu. 1991-ci ildən sonra Batum nəhəng imperiya üçün iri liman və buraxılış məntəqəsi kimi əhəmiyyətini itirdi. İndi o, Gürcüstan və Türkiyə arasında kiçik sərhəd şəhəri olmaqla Berlin sazişinə qədərki vəziyyətinə qayıdırdı. Amma Batum şəhər üçün çox dəyərli liman infrastrukturunu qorumaqla öz əhəmiyyətini saxlamaqdaydı.

Təmtəraqlı "BMW" şəhərə təqribən səhər saat on birdə girdi və dərhal da keçmiş İnturist mehmanxanasının binasına tərəf döndü. Burda, hələ fəaliyyət göstərən mehmanxanada avstraliyalı jurnalist Robert Krou üçün nömrə sifariş olunmuşdu. O, şərab və yeməklə dolu zənbillərlə yüklənmiş sürücülərinə ürəkdən təşəkkür edib mehmanxanaya girdi. Ona kömək etməyə çalışan Qogiyanın adamlarını qətiyyətlə geri göndərdi. Bircə o qalmışdı ki, onun Davidlə olan əlaqəsi haqda Batumda da bilsinlər. Bircə Tiflis bəs idi.

Nömrəsini dərhal verdilər. Mart ayında burda demək olar ki, heç kim yox idi. Hərçənd, qeyd etmək lazımdır ki, son illər mehmanxana yayda da boş qalırdı – Gürcüstana gəlmək istəyənlər ildən-ilə azalırdı.

Paltarında keçmiş illərin dəbdəbəsini saxlayan qapıçı ona butulkalarını nömrəyə qədər daşıyıb bir dollarını alaraq uzun müddət təşəkkür etdi. Nömrənin pəncərələri onun doğma şəhərini xatırladırmış kimi dənizə açılırdı. Onun öz şəhərində mart ayında təlatümlü olan dəniz səmayla birləşərək ümumi bozumtul ağ kütlə əmələ gətirirdi ki, burda da göy, qara və ağ rəngləri görmək olardı.

Dronqoya zəruri sənədləri təqdim edən Vladimir Vladimiroviçin versiyasına görə o, “Melburn herald” informasiya agentliyinin nümayəndəsi kimi onun “vətənindən” uzaqda yerləşən bu muxtar respublikanın tarixi, coğrafiyası, özünəməxsus təbiəti və insanları haqda bir sıra reportajlar hazırlamaq üçün Acarıstana gələn avstraliyalı jurnalist idi.

Əslindəsə o, Batum limanının “xaç atalarından” biri olan Şalva Ruruaya çıxış əldə etməliydi. Batum dəniz darvazalarından narkotik daşınmaları birbaşa onun sanksiyasıyla həyata keçirilirdi. Yerli hüquq-mühafizə orqanlarının köməyindən istifadə etməyə ixtiyarının olmadığı nəzərə alınsa, tapşırıq çətin idi.

Balkona stul qoyaraq beş dəqiqə oturub dənizə baxdı. Daha sonra otağa qayıdıb ona Moskvada verilən nömrəni yığmağa başladı.

– Mümkünsə, Pyotr Georgiyeviçi çağırın, – o, dəstəyi qaldıran qızdan xahiş etdi.

Tezliklə xırıltılı səs gəldi.

– Eşidirəm.

– Mən Moskvadan gəlmişəm. Sizə Vladimir Vladimiroviçdən salam var.

– Başa düşürəm, – Pyotr Georgiyeviç dərhal cavab verdi, – harda qalırsınız?

– Keçmiş İnturist mehmanxanasında. Nömrəm...

– Yarım saatdan sonra gəlirəm, – həmsöhbəti Dronqonun sözünü kobudluqla kəsib sözünü sona çatdırmağa imkan verməyərək dəstəyi asdı.

"O niyə belə əsəbiləşir?" – Dronqo düşünərək hamama getdi. Düz yarım saatdan sonra mehmanxananın vestibülündə oturmuşdu. Bu vaxt əlli yaşlarında, yırtılmış gödəkcədə, dağınıq saçları və qalın şüşəli eynəyi olan bir adam təşvişlə içəri girdi.

Dronqo ayağa durub ona yaxınlaşdı.

– Siz Pyotr Georgiyeviçsiniz?

– Hə, hə, – naməlum adam ona tərəf gəldi, – siz mənə zəng etmisiniz.

– Gəlin, əyləşək, – Dronqo təklif etdi, – nə olub, niyə belə həyəcanlısınız?

– Cavan oğlan, siz mənim yerimdə olsaydınız! – Pyotr Georgiyeviç kresloya əyləşərək qızğın tərzdə dedi. Bu zaman Dronqonun ondan maksimum 10-15 yaş kiçik olduğunun da fərqinə varmadı.

– Nə olub axı?

– Dünən limanda yaman atışma olub. Milis, təhlükəsizlik xidməti, prokurorluq – bu gün hamı orda işləyir. Deyirlər, artıq iki nəfər ölən və bir ağır yaralı aşkar olunub. Təsəvvür edirsiniz, necə dəhşətdir!

– Təsəvvür edirəm, amma mənim, ya sizin bura nə dəxlimiz var?

– Siz başa düşmürsünüz, – Pyotr Georgiyeviç ətrafa nəzər salaraq pıçıldadı, – Ruruanın adamlarına atəş açıblar.

Bütün şəhər bundan danışır. Sizisə, mənə elə gəlir ki, məhz bu cənabın fəaliyyəti maraqlandırır.

“Belə hisslərini cilovlaya bilməyən köməkçini hardan tapıblar? – Dronqo düşündü. – Qəribədir. Peşəkara oxşamır. Vladimir Vladimiroviç isə diletantla işləməzdi”. Pyotr Georgiyeviç sanki onun fikirlərini oxuyaraq birdən dedi:

– Mən axı bütün ömrüm boyu dənizlə məşğul olmuşam. BMT-nin gəmiçilik məsələləri üzrə eksperti olmuşam. Məndən kömək etməyi xahiş etdilər. Mənimsə sizə necə kömək edə biləcəyim haqda heç bir təsəvvürüm yoxdur.

– Aydındır, – Dronqo gülümsədi, – narahat olmayın. Hər şey qaydasındadır. – Əlbəttə, onlar başqa birini tapa bilməzdilər. Dağılmış keçmiş ölkə məkanında kimə gəldi güvənmək təhlükəliydi. Və onda şərəfli bir adama etibar etməyə qərar veriblər. Belə hesab ediblər ki, bu, peşəkarlıqdan daha vacibdir. Bəlkə bunda da bir məntiq var idi.

– Kimin atəş açdığını bilirsiniz? – Dronqo soruşdu.

– İş də bundadır, – Pyotr Georgiyeviç qızışdı, – deyirlər ki, limanda əməlli-başlı döyüş olub. Ruruanın gəmisinə bir dəstə naməlum adam hücum edib. Onların kim olduğunu da heç kim bilmir.

– Hücum edənlərdən öldürülən var?

– Deyirlər ki, iki nəfər yaralanıbmış, amma onları heç harda tapmayıblar.

– Sizcə bu kim ola bilərdi?

– Bilmirəm, – Pyotr Georgiyeviç çiyinlərini çəkdi. – Ruruaya məxsus gəmiyə hücum etməyə hansı dəstənin cürəti çatar? Ağlıma gəlmir. Əgər onları tapsa... Bilirsiniz, o çox qəddar adamdır.

– Təsəvvür edirəm.

– Yox, doğrudan deyirəm. Batumda ondan hamı qorxur – milis rəisindən tutmuş limandakı qarovulçuya qədər. Birdən aydın olur ki, onun gəmisinə hücum olunub. Adamları öldürülüb. Və ən dəhşətlisi – onun yükünü oğurlayıblar.

– Bu ən vacibidir, – Dronqonun ağzından qaçdı. – Niyə əvvəldən bunu demirsiniz? Deməli, hücum edənlər Ruruaya məxsus gəmini aparıblar?

– Yox, gəmiyə dəyməyiblər. Amma gəmidəki yükü aparıblar. Deyirlər, orda milyon dollarlıq mal olub.

– Pyotr Georgiyeviç, milyon dollara hansı mal ola bilər? – Dronqo gülümsədi. – Özünüz düşünün.

– Düşünürsünüz ki... – Pyotr Georgiyeviç qorxaraq ətrafa boylandı.

– Əlbəttə. Yalnız narkotik. Bu atışma da elə ona görə olub.

– Dəhşət! Mən əlbəttə, belə düşünürdüm, amma sizə bunu deyə bilmirdim.

– Siz bir neçə kəlməylə şəhərin hüquq-mühafizə xidmətlərinin rəhbərləri haqda danışa bilərsiniz? Əsas əlamətlər və soyadları.

– Hə, mütləq. Siz yazarsınız. Oy bağışlayın, deyəsən, axmaq söz danışdım! Məndən casus olmaz. Deməli belə: şəhərin milis rəisi Şervaşidze, əlliyə yaxın yaşı var, onu bura Kutaisidən keçiriblər. Deyirlər, çox ciddi və ədalətli

adamdır. Onun haqqında pis heç nə deyə bilmərəm, o burda cəmi iki aydır işləyir. Şəhər prokuroru beş ildir ki, Cavaxişvilidir. Çox yaxşı insandır. Mülayim, xeyirxah. Hamıyla yola getməyə çalışır. Heç kimlə mübahisə etmir. Qamsaxurdiyanın vaxtında prokuror müavini olub və özünü çox ləyaqətli aparıb. Əlli üç yaşı var. Bunu dəqiq bilirəm, çünki onun kiçik oğlu mənim qızımla bir məktəbə gedir. Nəhayət, yerli təhlükəsizlik xidmətinin rəhbəri Otar Paqava. Anası Tiflisdəndir, deyirlər, Siquanın qohumudur. Atasısa yerlidir. Paqava burda iki ildir işləyir, Tiflisdən gəlib. Səliqəli və diqqətlidir, gözə çarpmamağa çalışır. Onun zamanında sərhəddə kifayət qədər nizam-intizam yaranıb. Hərçənd, sərhədçilərin öz rəisi var – Nodar Xinikadze. Əyyaş, yalançı və arvadbazdır. Belə danışdığım üçün üzr istəyirəm, amma Xinikadzeni bütün gecə içkixanalarında tanıyırlar. Hərdən sərhəddən bir qrup adam gətirib onlarla səhərə qədər veyllənir. Bu haqda hamı bilir, amma susurlar, heç kim ilişmək istəmir. Deyilənə görə, Xinikadze Ruruanın ən yaxın dostudur. Amma bəlkə də bu, sadəcə, şayiədir, mən dəqiq bilmirəm.

– Bəs sizin fikrinizcə, Ruruanın gəmisinə kim hücum edə bilərdi? Şəhərdə elə nüfuzlu adamlar varmı ki, Ruruayla qarşı-qarşıya gələ bilsin?

– Eləsini tanımıram. Bəlkə də var, amma şəxsən mən tanımıram. Amma əgər düşünsək... Belə dəliqanlı ola bilməz. Yoxsa Rurua onları darmadağın edər. Yox, elələri ola bilməz. Sizə deyim ki, bunu yerlilər etməyib.

– Aydındır. Əgər kimsə sizdən bizim söhbətimiz haqda soruşsa, deyərsiniz ki, siz mənə Batum haqda, onun akvatoriyası, ətraf ərazilərin faunası haqda danışmısınız. Danışdıq?

– Nəyə görə?

– Sizdən mənim haqda, bizim görüşməyimiz haqda soruşa bilərlər. Mənsə sizi pis vəziyyətdə qoymaq istəməzdim.

– Çox sağ olun. Başqa?

– Sizin sağlığınız. Deməli, deyirsiniz ki, Xinikadze Şalva Ruruanın yaxın dostudur. Bu dəqiqdir?

– Ən yaxın, – Pyotr Georgiyeviç əminliklə cavab verdi, – bütün şəhər bu haqda danışır.

– Minnətdaram. Siz bizə çox kömək etdiniz. Sağ olun.

O ayağa durub əlini uzatdı. Pyotr Georgiyeviç karıxdı.

– Bəlkə siz daha nəsə öyrənmək istəyirdiniz?

– Yox, daha heç nə. Siz onsuz da çox dəyərli məlumat verdiniz.

Pyotr Georgiyeviç qürurla başını qaldırdı, eynəyinin şüşələri parıldadı. O, Dronqonun əlini möhkəm sıxıb daha əmin addımlarla çıxışa tərəf getdi.

"Bu nömrə boş çıxdı", – Dronqo məyusluqla düşündü.

Elə bu vaxt arxasında gözəl qadın səsi eşitdi:

– Məni siqaretə qonaq edə bilərsiniz?

Qadın bu cümləni təmiz ingilis dilində dedi. O, cəld geri çevrildi.

## XII HİSSƏ

Semyonovanın öldürüldüyü bağ evi şərti olaraq ev adlana bilərdi. Bu, bir otaq və bir mətbəxdən ibarət, görünür, nə zamansa qarovulçu evi olan kiçik tikiliydi və

Semyonovaya atasından miras qalmışdı. Belə görünür ki, bu ev nə vaxtsa malikanənin bir hissəsi olub. Onu da əllinci illərin əvvəllərində bu ərazini genişləndirmək üçün söküblər. Elə həmin vaxtlar burda bağ evlərinin kütləvi tikintisi başlayıb. Keşikçi evinisə Semyonovanın atasına veriblər. İndi Çijov və Mixeyev dayanıb barmaq izləri tapmağa çalışan ekspertlərin işini müşahidə edirdilər.

– Görünür, heç nə tapmayacağıq, – ekspert-daktiloskopist Malışev dedi, – burda heç bir barmaq izi yoxdur. Hər yer təmizdir.

Peşəkar işidir, – Mixeyev dişlərini qıcayaraq dedi.

Bundan qabaq siqaretini yerə atmışdı.

– Lazımsız şahidləri aradan götürürlər, – Çijov cəsədin üzərinə əyildi, – yenə ürəyə atəş açıblar. Görünür, qatil lap yaxında olub, yaraya baxın.

– Hə, – yerli prokurorluğun onun yanında çömbəlib oturmuş müstəntiqi razılaşdı, – bircə dəfə atəş açıblar.

O öz sevincini büruzə verməməyə çalışırdı, amma ürəyində əlbəttə ki, sevinirdi. Bu cinayəti təhqiq etməyi birinci işlə əlaqələndirib paytaxtdan gəlmiş Mixeyev və

Çijova həvalə edəcəklər. Beləliklə, o avtomatik olaraq belə ciddi cinayətin təhqiqatından kənarda qalmış olacaq.

Yanında dayanan Çijovsa mehmanxanada kimin qaldığını və hesabın neçə gün əvvəldən ödəndiyini həmin gecə yoxlamadıqlarına görə necə böyük səhvə yol verdiklərini düşünürdü.

– Biz onun sözlərinə niyə diqqət yetirmədik? – o, Mixeyevdən soruşdu. – Bunu heç vaxt özümə bağışlamayacağam.

– Niyə ki, – Mixeyev yeni siqareti çıxararaq sakitcə etiraz etdi, – mən elə həmin axşam diqqət yetirmişdim. Ona görə qızlar haqda danışdım. Əmin idim ki, o yalan deyir. Varlı müştəriyə qız calayırmış. Amma onun adını öyrənəndə dərhal anladım ki, belə şey ola bilməz. Ondakılar Moseşviliyə görə həddən artıq ucuz qızlar idi. O, beləlməriylə oturub-durmazdı. Amma onda hər şey dolaşmışdı. Yadıma düşəndəsə gördüyün kimi, artıq gecdir... Bu, əlbəttə ki, mənim səhvimdir. Amma mən düşünmürdüm ki, onun belə bir cinayətə qarışacağı ola bilər. Burda ən maraqlısı odur ki, o doğrudan da, qatili tanımaya bilərdi. Sadəcə olaraq, ondan

xahiş ediblər ki, lazımi anda "lüks" nömrəyə getsin. Onun bütün bədbəxtliyi ondaydı ki, kimin bu xahişi etdiyini bilirdi. Elə buna görə də onu aradan götürüblər.

– Düşünürsünüz ki, heç bir iz tapa bilməyəcəyik? – Çijov soruşdu.

– Tapa bilməyəcəyik, – Mixeyev siqaretin qırıldığına əhəmiyyət verməyərək onu çeynəyirdi, – görünən motiv yoxdur, heç nə götürməyiblər. Açıq-aşkar muzdlu qatil işidir. Onun sahiblərini tapmaq lazımdır. Əlbəttə ki, biz qatili də tapmayacağıq. Üstümüzdə daha bir açılmamış cinayət qalacaq.

Çijov məyusluqla əlini yellədi. Görünür, Mixeyev bu dəfə də haqlıydı.

– Qəbiristanlıqda Xotivarinin adamlarından biri mənə yaxınlaşmışdı. Adı Vajadır. Üzük haqda soruşurdu. Dedim ki, bizdədir.

– Qoy gəlsinlər, – Mixeyev nəhayət, siqareti tulladı, – müsadirəni sənədləşdirərəm, təhqiqat bitəndən sonra qaytararıq.

– Məncə onlar üzük arzusunda deyillər. Sadəcə elə bilirdilər ki, onu qatil götürüb.

– Hm, – Mixeyev narazılıqla donquldandı, – qatil belə bir üzüyə tamah salsaydı, çox axmaq adam olardı. Onda onu dərhal tapmaq olardı. Yox, həm orda, həm də burda bəlkə də eyni peşəkar işləyib. Amma ağlım kəsmir. Moseşvilinin qatili çoxdan aradan götürülüb – mən buna əminəm. O həddən artıq əhəmiyyətli fiqur idi. Səni izləyirlər?

– Hə, – Çijov pəncərəni göstərdi, – üçü məni qarabaqara izləyir.

– Elə mənim də o cür eskortum var, – Mixeyev bildirdi, – onları başa düşmək olar. Bizimlə birlikdə qatili axtarırlar. Bu cinayət onlara meydan oxumaqdır, şillədir. Ona da birlikdə cavab vermək istəyirlər.

– Moseşvilinin bağ evində axtarış aparacağıq? – Çijov soruşdu.

– Nə üçün? Onun adamları ordakı hər şeyi alt-üst ediblər. Orda yaxşı peşəkarlar var. Biz heç nə tapmayacağıq, bizi izləyənləri hirsləndirəcəyik. Busa axmaqlıqdır, – Mixeyev düşünərək cavab verdi.

Şəhərə Çijovun maşınında qayıtdılar. Xotivarinin yaraqlıları olan maşın onlardan bir az aralı gəlirdilər. Özlərini heç gizlətmirdilər də. Onların tapşırığı müstəntiq və Cinayət-Axtarış İdarəsi rəisini izləmək və onların hər bir görüşü barədə məruzə etmək idi. Mafiya, cinayətkarlar qanunun əlinə düşməzdən qabaq zərbə endirmək istəyirdilər. Ona görə də Xotivarinin bu harın uşaqları Çijov və Mixeyevi belə həyasızcasına və aşkar təqib edirdilər. Hərçənd, Mixeyev bir neçə dəfə müşahidədən yayına bilmişdi. Onlar da bu adamın hara yox olduğunu anlamadan qəzəbdən zəncir çeynəyirdilər.

– Belə çıxır ki, – Çijov ürək ağrısıyla qeyd etdi, – biz onların növbəti şahidi nə vaxt aradan götürəcəklərini gözləyirik.

– O qədər də yox. – Mixeyev siqaret çıxarmaq istədi, amma daha sonra fikrini dəyişib qutunu cibinə qoydu. – İş ondadır ki, biz hələ “onlar”ın kim olduğunu bilmirik. Bizim ardımızca gələnlər deyil. Bunlar özləri qatili axtarırlar. Onda kim? Sən başa düşürsənmi ki, burda onların qarşıdurması, münaqişəsi üzərində oynamaq lazımdır? Moseşvili çox

məşhur adam idi və onu yalnız şəhərin ən vacib, ən əhəmiyyətli avtoritetlərindən birinin razılığıyla aradan götürmək olardı. Belə bir əmri verən istənilən adam Mixonun şəhər üçün nə demək olduğunu təsəvvür etməliydi. Axı niyə Moseşvili həmin gecə mehmanxanada, mühafizəsiz, yanında öz adamları olmadan tək qalmışdı? O, niyə taksi sifariş verib? O, Şeremetyevoda kiminlə görüşmək istəyirdi? Bax bunlar, cavabını tapmalı olduğumuz suallardır. O zaman qətlin təşkilatçısını da tapa bilərik. Bu sadəcə daxili hesablaşma deyil Jenya, bu daha ciddi məsələdir. Kimsə Moseşvilinin qrupunu sıxışdırmaqla gəlir əldə etmək sistemini dəyişmək qərarına gəlib. Belə işlərsə ciddi hesablaşmayla nəticələnir. Rəhmətliyin adamları bunu kimin etdiyinə dair hətta balaca bir işarə alsalar belə, hesablaşma dərhal başlanacaq. Və onda biz artıq lazım olmayacağıq. Meyitxanaların işi xeyli çoxalacaq, hərçənd, mən belə düşünürəm ki, cəsəd də çox olmayacaq. İnsanlar sadəcə olaraq, izsiz-tozsuz yoxa çıxacaq.

– Yaxşı perspektiv deyil. – Çijov arxa görüntü güzgüsünə baxdı. – Heç nədən qorxmadan həyasızcasına gəlirlər.

– Nədən qorxsunlar ki? Sənədləri qaydasındadır. Qanunu pozmurlar. Əksinə, sənin özünəməxsus cangüdənlərindir. Əgər kimsə qərara gəlsə ki, biz həddimizi aşmışıq və bizi aradan götürmək lazımdır, onlar buna imkan verməyəcəklər, buna əmin ola bilərsən. Onlara lazımdır ki, biz sağ qalaq və bu işdə hansısa izə düşək. Bax onda onlar bizdən əl çəkib həmin izlə bizim bütün xidmətimizdən daha sürətli gedəcəklər.

– “Ampeks”də də axtarış aparmaq lazım deyil?

– Mütləq lazımdır. Elə səhər axtarış üçün sanksiya imzala. Mən də uşaqlarla gedəcəyəm. Orda təhqiqatın nəticələrindən asılı olmayaraq, maraqlı çox şey ola bilər. Sən məni işə apar, mən bir az oturub düşünmək istəyirəm. Bəlkə köhnə tanışları xatırlayaram, hansısa əlaqələri yoxlayaram. Üstümüzdə ard-arda iki qətl var və heç bir işıq ucu görünmür.

Çijov maşını Daxili İşlər İdarəsinə çevirib Mixeyevi düşürdü. Maşınlardan birinin milis binasından yüz metr məsafədə dayandığını sezib sükanı qəfil əks istiqamətə döndərərək qazı basdı. Onu izləyən maşın da ani olaraq sürət yığıb onun manevrini təkrar etdi. Bununla da sanki hər cür kələyin perspektivsizliyinə işarə edirdi.

Evə lap qaranlıqda çatdı. Maşını avtodayanacaqda saxlayıb qapını əsəbi tərzdə çırparaq evinə yollandı. Moskvanın bu sakit, gözdənkənar küçəsində fənərlər çoxdan yanmırdı.

O, Mixeyevin sözlərini düşünərək ayağının altına baxa-baxa gedirdi ki, birdən qarşısında dayanmış üç oğlanı gördü. Onlar evinə tərəf gedən qaranlıq keçidi bağlamışdılar.

– Siqaretin olmaz? – onlardan hündürboy, xoşagəlməz biri cır, bəlkə də soyuqlamış səslə soruşdu.

– Desəm ki, çəkmirəm, döyəcəksiniz? – Yevgeni gülümsədi.

– Bax ha, – ikinci xırıldadı, – hər şeyi də bilir. Yox, döyməyəcəyik. Gödəkcəylə saatı ver, sonra rədd ola bilərsən.

– Uşaqlar, artıq gecdir, – Çijov dedi, – mənsə yaman yorulmuşam. Gəlin, sülhlə ayrılaq.

– Bax bir gör, nə diribaşdır, – ikinci dedi. Bundan lap xəstə səsi çıxırdı. Bəlkə, ona görə ki, bütün vaxtlarını açıq havada keçirirdilər. Hobbiləri əlbəttə ki, orijinal idi.

– Gödəkcəni çıxart, – birinci dedi. Hələ ki onun əlində heç nə yox idi.

Daha mübahisə etmək istəmədi.

– Mən prokurorluğun müstəntiqiyəm, uşaqlar, – Çijov yorğun səslə dedi, – evinizə gedin. Gecdir.

– Bilirik, necə müstəntiqsən. Olsaydın, çoxdan silah çıxarardın. Bizimlə oyun oynama. Biz qorxaqlardan deyilik, – ikinci dedi, – hardan olduğunun fərqi yoxdur. Dedim ki, gödəkcəni çıxart. – Onun əlində bıçaq göründü.

“Dalaşmalı olacam”, – Çijov məyusluqla düşündü.

Bu vaxt arxasında inamlı səs eşidildi.

– Tələsmə, oğlan.

Geri çevrildi. Arxasında onun daimi müşahidəçilərindən, görünür, idmançı olan iki hündürboy oğlan dayanmışdı. Onlardan birinin saçları tünd idi, yəqin ki, gürcüydü. Digəri – danışansa sarışın idi.

– Sən kimsən? – xəstə səsli oğlan soruşdu. – Get burdan.

– Rədd ol deyirəm, oğlan, – danışanın bas səsi eşidildi, – yoxsa səninçün pis olar.

– Bəlkə mən gedim, özünüz hesablaşarsınız, – Çijov təklif etdi. – Bu gün işim çox olub. Yorğunam. İşinizi birtəhər mənsiz həll edin.

– Get, əzizim, – onu müşayiət edənlərdən ikincisi nəzakətlə, xarakterik gürcü ləhcəsiylə dedi, – və heç nədən narahat olma. Onları öldürməyəcəyik. Bir az başa salacağıq. Şəhərdə özünü belə aparmaq olmaz, yaxşı deyil.

Hardan peyda olduqları bilinməyən bu müdafiəçilərin özünə əminliyi hücum edənləri açıq-aşkar çaşdırmışdı. Amma onların əlində hələ heç nə yox idi. "Xəstə" bıçağını yellədi. Geri çəkilmək həm ayıb idi, həm də qeyri-mümkün. Yoldaşları ona baxırdı.

“Xəstə” çox cəld bir şəkildə sarışının üstünə atılmağa cəhd etdi. O isə heç yerindən tərpənmədən yalnız əlini qaldırdı və oğlan palçığa tərəf uçdu.

– Ay səni!.. – əlində beşbarmaq tutan hündürboy oğlan irəli çıxdı. Amma üzünə dəyən sarsıdıcı zərbədən sonra beşbarmağı yerə saldı və yıxıldı.

– Gedin, – gürcü Çijovdan xahiş etdi, – sizə burda olmaq vacib deyil. Gecəniz xeyrə qalsın. Onları öldürməyəcəyik, sizə söz verirəm.

– Hesablaşmanızı qurtarın uşaqlar, – Çijov xahiş etdi və hücum edənlərə müraciətlə əlavə etdi: – Siz ki görürsünüz, onlar peşəkardırlar. Sizdə sağ yer qoymayacaqlar. Bəsdir şuluqluq saldınız, uşaqlar. Gecdir daha.

“Xəstə” dəli bir qışqırıqla Çijovun özünə hücum edərək az qala onu bıçaqlayacaqdı. Çijov yayınmağa macal taparaq onu itələdi.

– Cəhənnəm olun, – o hirsləndi, – özünüz bilərsiniz! – O, hücum edənlərin üçüncüsünü çiyniylə itələyib cəld evə tərəf addımladı.

Demək olar ki, bir dəqiqə arxasında səs-küy, güclü zərbələr, uşaqların çığırtısını eşitdi. Görünür, hücum edənlərin vəziyyəti yaxşı deyildi. Mütəşəkkil cinayətkarlıq küçə cinayətkarlığına qarşı öz üstünlüyünü belə qeyri-ənənəvi üsulla nümayiş etdirirdi.

Səhər kabinetə girəndə telefon zəng çaldı. Mixeyev idi.

– Sizdə nə baş verib? – Cinayət-Axtarış rəisi soruşdu.

– Hər şey qaydasındadır, – Çijov təəccübləndi, – nə olmalıydı ki?

– Mən hər ehtimala qarşı xahiş etmişdim ki, sənin evinə nəzarət etsinlər. Sizin rayonda mənim hələ dəniz xidməti zamanlarından bir tanışım işləyir, – Mixeyevin səsi bir qədər əsəbiydi. – Deyirlər, dünən sənin evinin yanında dava olub. Sən evə qayıdarkən.

– Mənim "cangüdənlərim" bir az fərqlənib, – Çijov gülümsədi, – siz haqlıydınız, Konstantin İqnatyeviç. Dünən keçiddə üç quldur mənə hücum etmişdi. Qəflətən peyda olan "xilaskarlar", məncə, quldurların belə qəribə bir işlə məşğul olmaq arzularını əllərindən aldılar. Ciddi nəsə var?

– Biri beyin silkələnməsiylə xəstəxanadadır. Digər ikisi də möhkəm döyülüb. Nahaq belə şənlənirsən. Biz xırda bir nəticəyə nail olsaq, hər şey tərsinə çevrilə bilər. Onda sənin uşaqların həmin fəndləri sənin üzərində sınayacaq.

– Nəzərə alaram, – onun əhvali-ruhiyyəsi pozuldu. – Axtarış üçün sanksiya imzalayım?

– Hə, indi sənin ardınca gələcəyik. Öz prokuroruna hələ məruzə etmə. Sonra danışarsan. Yoxsa merlik onu elə kökləyib ki, qorxuram, bizə işləməyə imkan verməyə.

– Merliyin bura nə dəxli var?

– Görüşəndə hamısını danışaram. Sənədləri hazırla, biz tezliklə çıxırıq.

Dəstəyi qoyub axtarış üçün vicdanla sanksiya yazmağa başladı. İmzalamaq üçün prokurorun müavini Viktor Milovidovun yanına yollandı. O heç nə soruşmadan sanksiyanı imzaladı. Səhər tezdən onun dişi ağrıyırdı və bu vəziyyətdə işə gəldiyinə artıq təəssüflənirdi.

Mixeyev üç əməkdaşıyla birgə gəldi. Çijov onların içində Steklovu tanıyıb onunla salamlaşdı.

– Deməli belə, – qabaq oturacaqda əyləşən Mixeyev ciddi tərzdə dedi, – biz güclü, yaxşı təşkil olunmuş qrupla üz-üzəyik. Dünən DİN-in ekspertləri mənim xahişimlə bizim telefonları yoxlayıblar. Bu fırıldaqçılar bizim kabelə qoşula biliblər. Bundan sonra telefonda heç nə danışmırsınız. Elə maşında da danışmaq təhlükəlidir, belə texnikayla onlar bizi burda da eşidə bilərlər.

– Yaxşı işləyirlər, – Çijov özünü saxlaya bilmədi, – belə texnika bizdə olaydı.

– Elədir, – Mixeyev ətrafa nəzər saldı, – sənin və mənim uşaqlarım yenə də "quyruğumuzdadırlar". Axtarış üçün izni kim imzaladı?

– Milovidov.

– Düz etmisən. Yoxsa, Morozov səni xamlayardı. Bilirsən, insanları müxtəlif şəkildə satın almaq olar. Birini pul maraqlandırır. Digərini şöhrət, üçüncünü hakimiyyət. Sənin Morozovun yatıb yuxusunda özünü şəhər prokuroru kimi görür. Ona görə heç bir halda Moskva meriylə konfliktə girməyəcək. Bu, onun üçün ən vacibidir.

Ümumilikdə o, əxlaqlı adamdır, amma şəhər prokuroru vəzifəsinə görə...

Mixeyev sifətinə qorxunc ifadə verdi. Maşında oturanların hamısı gülüşdü.

– Bunu yalnız sizə deyirəm, – Mixeyev xatırlatdı, – ümumiyyətlə, bizim prokurorumuza görə hələ bəxtimiz gətirib. Qonşu rayonda elə bir rüşvətxor oturub ki, pulu elə kabinetdə götürür. Və heç nədən qorxmur. Onun kimi rubllara satılmaqdansa, hakimiyyət haqda düşünsə yaxşıdır.

O, siqaret qutusundan bir siqaret çıxarıb onu əlində əzməyə başladı.

– Əvvəllər bilirsən, necəydi, – Mixeyev davam etdi, – bizim rayon ən birincilərdən sayılırdı. Ən yaxşı maşınları, yeni formaları biz alırdıq. Leonid İlyiçin özü bizim rayonda yaşayırdı. Amma indi heç nə heç kimin vecinə deyil. Əsas cibi doldurmaq və ailəni vaxtında xaricə göndərməkdir. Burdan sağa dön, – o, sürücüdən xahiş etdi, – orda yol bağlıdır.

Bir dəqiqə sonra onların maşını təmiz, yaxın vaxtlarda təmir olunmuş üçmərtəbəli malikanənin qarşısında dayandı. Bu, “Ampeks” firmasının binasıydı.

– Getdik, – Mixeyev əmr etdi, – hal şahidlərini, əlbəttə ki, tapmayacağıq. Amma məncə, orda etiraz etməyəcəklər. – Adətən, hal şahidlərini özləriylə aparmadan yerində tapırdılar.

Vestibüldə yarımhərbi ordu geyimində iki hündürboy oğlan dayanmışdı. Hər ikisinin tapançası var idi.

– Hara gedirsiniz? – Mühafizəçi ciddi tərzdə soruşdu.

– Sizin binanızı axtarmağa, – Mixeyev nəzakətlə cavab verdi, – özün də kənara çəkil. Ədalətə işləməyə mane olma.

Bu sözlərdən özünü itirən oğlan bir addım kənara çəkildi və onlar liftə tərəf getdilər.

– Bəs icazə? – oğlan onlara tərəf atıldı. – İcazəniz var?

– Bəyəm biz axmağıq? – Mixeyev düyməni basaraq əminliklə soruşdu. Lift üçüncü mərtəbəyə qalxdı.

– Hardan bilirsiniz ki, rəhbərlik üçüncü mərtəbədə oturur? – Çijov soruşdu.

– İntuisiya, – Mixeyev göz vurdu, – gəldik.

Dəhlizə xalılar sərilmişdi. Hər tərəfdə muzey kimi heykəllər və vazalar qoyulmuşdu. Onları Quram Xotivarinin özü qarşıladı.

– Bəs niyə gəlişiniz haqda xəbər verməmisiniz? – o gülümsədi. – Sizi qarşılayardıq. Özünüzü evinizdəki kimi hiss edin. Bu bizim rəhmətlik dostumuzun eviydi. O, burda işləyirdi. Onun kabinetində heç nəyə toxunmamışıq.

Mixeyev onun sözünü qeyri-müəyyən şəkildə təsdiqləyib rəhmətliyin kabinetinə birinci daxil oldu.

Geniş kabinetdə ideal səliqə var idi. Mixeyev ətrafa boylandı.

– Heç nəyə toxunulmayıb, – o donquldandı, – yaxşı işləyirsiniz, uşaqlar.

Xotivari gülümsədi.

Mixeyev telefona yaxınlaşıb dəstəyi götürdü və kiminsə nömrəsini yığdı.

– İqor Andreyeviç, bu mənəm. Biz gəlib çıxmışıq. Öz uşaqlarınızı göndərin.

O, dəstəyi yerinə qoyub Çijova göz vurdu. Çijov bir şey başa düşmədi. Əvəzində Xotivari hər şeyi anladı.

– İqor Andreyeviçin bura nə dəxli? – o, ciddi tərzdə soruşdu. – Onun adamlarının bu qətlin təhqiqatıyla nə əlaqəsi var? Bu tamam ayrı idarədir.

– Elə bizi maraqlandıran idarədir, – Mixeyev şən tərzdə qeyd etdi, – vətəndaş Xotivari, siz niyə narahatsınız ki? Mən bildiyimə görə, siz ümumiyyətlə, "Ampeks" firmasının işçisi deyilsiniz. Mühafizə sizi buraxılış olmadan necə buraxır?

Xotivari qızardı, qaşqabağını töksə də, heç nə demədi.

Vaja kabinetə soxuldu.

– Daha bir köhnə tanışımız, – Mixeyev gülümsədi, – yeri gəlmişkən, Jenya Çijovun və öz adımdan sizin adamlarınıza təşəkkür edirəm. Deyəsən, dünən onlar bizim müstəntiqin evinin yanında yaman şücaət göstəriblər. Afərin.

– Orda nə baş verib? – Xotivari gürcücə soruşdu.

– Quldurlar müstəntiqə hücum ediblər, mənim uşaqlarım da onu müdafiə edib, – Vaja izah etdi.

Xotivari nəsə demək istədi, amma fikrini dəyişib üzünü ondan çevirdi.

– Mənim sizə bir neçə sualım var, – Çijov dedi. – Əgər mümkünsə, uşaqlar kabinetə baxana kimi elə burdaca cavab verin.

– Əlbəttə, mümkündür, – Xotivari stul götürüb əyləşdi. – Əyləşin. Suallarınızı eşidirəm.

Mixeyev pəncərəyə tərəf getdi.

– Niyə həmin gün dostunuz mehmanxanada tamamilə tək qalmışdı?

– Bilmirəm, əzizim, doğrudan bilmirəm, – Xotivari ah çəkdi, – biz özümüz də bu haqda düşünürük, amma cavab tapmırıq.

– Bəs ümumiyyətlə, o niyə “Ukrayna” mehmanxanasında qalırdı? O, ev ala bilməzdi? Və ya bağına gedə bilməzdi?

– Başa düşürsən, onun arzusu var idi, – Xotivari dərhal cavab verdi, – o, Moskvaya ilk dəfə əllinci illərdə,

tamamilə gənc ikən gəlib. Kiyev vağzalında düşüb və ilk gördüyü bu mehmanxana olub. Özünün birinci məhkumluğundan sonra hələ çox cavan idi. Təbii ki, qapıçılar onu otelə buraxmayıb. Bax elə onda həmişə bu mehmanxananın ən yaxşı nömrələrində yaşayacağına and içib. Onu düzgün başa düş. Bu həyatındakı ilk qız kimidir. Bu haqda mənə özü danışmışdı. Ora onun sadəcə xoşuna gəlirdi.

– Bəs niyə tək olub?

– Bax, bunu bilmirəm, – Xotivari əlini yellədi, – onun yanında həmişə dostları olub, biz olmuşuq. Sonra da belə bir bədbəxtlik.

– Bəlkə o kiməsə nəsə deyib? – Çijov israr etdi. – Bəlkə, "Ukrayna"ya gəlişinin səbəbini necəsə izah edib. Başa düşün, bu, sizin dostunuzun qatilinin axtarışı üçün çox vacib ola bilər.

Xotivari bir qədər tərəddüd etdi.

– Bilmirəm, əzizim, – nəhayət, o dedi, – doğrudan, heç nə bilmirəm.

Mixonun qadın gözlədiyi haqda danışmaq istəmədi. Onlar onsuz da mehmanxanaya gəlib-gedən bütün yüngül əxlaqlı qadınlar arasında həmin gecə Moseşvilinin yanına gələ biləcək qadın haqda nəsə eşidən adamı axtarırdılar. Otağa dərhal dörd nəfər daxil oldu. Çijov onlardan birini dərhal tanıdı.

"İndi Mixeyevin hansı İqor Andreyeviçə zəng etdiyi aydın oldu, – o düşündü, – ona görə deyirmiş ki, prokuror bilməsin".

Onun qarşısında DİN-in mütəşəkkil cinayətkarlıqla mübarizə idarəsinin rəisi polkovnik Dmitriyev dayanmışdı. O, "Ampeksi" çoxdan hədəfə almışdı, amma axtarış aparmağa qanuni dəlili yox idi. İndi belə bir hal yaranan zaman Mixeyev Dmitriyevə ondan istifadə etməyə imkan verdi.

– Axtarışı sizin adamlarınız aparmalıdır! – polkovnik Dmitriyevi görən Xotivari Mixeyevə qışqırdı.

– Bu harda yazılıb? – Konstantin İqnatyeviç üzünə təəccüb ifadəsi verdi. – Axtarışı bu sahədə daha səriştəli adamlar aparırlar. Biz axtaranda bizi ancaq bıçaq, tapança,

narkotik və buna bənzər şeylər maraqlandırır. Amma sizin firmanız kimi bir yerdə biz axtarış apara bilmərik. Bura başqa mütəxəssislər lazımdır.

Çijov hiss etdi ki, qəzəblənməyə başlayır. Mixeyev onu məlumatlandıra bilərdi. Görünür, bu onun üzündə öz əksini tapmışdı. Mixeyev onu çiynindən qucaqlayıb pəncərəyə tərəf çəkdi.

– İncimə, Jenya, bunu sənə telefonda deyə bilməzdim. Yoxsa onlar hər şeyi eşidib hazırlaşardılar. Nəticə etibarilə, mən həqiqəti demişəm. Dmitriyevin bütün əməkdaşları əla iqtisadçılardır. Bizim burda nə işimiz var? Tapança axtaracağıq?

– Yaxşı, – Jenya onsuz da incimişdi, – yenə məni qabaqladınız, Konstantin İqnatyeviç. Mən sizi lazımınca qiymətləndirə bilmirəm.

– Qiymətləndir, – Mixeyev ona göz vurdu, – nə qədər ki mən sağam.

– Nahaq həyəcanlanırsınız, vətəndaş Xotivari, – onlar Dmitriyevin sakit səsini eşitdilər, – şəxsən sizi burda heç bir təhlükə gözləmir. Hələ ki sizin firmanızı yoxlamırıq.

Xotivari bir qədər bürüşdü, susdu və daha mübahisəyə cəhd etmədi.

– İndi firmada rəhbər kimdir? – Dmitriyev soruşdu.

– Vitse-prezident, qonşu kabinetdədir, – Xotivari həvəssiz cavab verdi.

– Çox sağ olun. Onda onun yanına gedək. Bütün sənədlərə baxmaq lazım gələcək. – Dmitriyev öz əməkdaşlarıyla birgə kabinetdən çıxdı.

– Nahaq belə edirsən, – Xotivari, Mixeyevə baxaraq xırıldadı, – hamıdan ağıllısan, hə? Mənim fikrimcə, sən gürcüləri sevmirsən.

– Sənin kimiləri sevmirəm, – Mixeyev Xotivarinin üzünə dedi, – amma gürcüləri sevirəm. Əxlaqlı, cəsur, şərəfli olanları. On beş il əvvəl sənin kimilərdən biri mənim ortağım Kostya Kiknadzeni öldürüb. Mən hələ də onun qəbrinin üstünə gedirəm. O mənim üçün sadəcə bir gürcü deyildi, bütün sizin xalqı təcəssüm etdirirdi. Necə oğlan idi! Mənə bir də gürcülər haqda nəsə deyib psixikama təzyiq göstərmə.

Xotivari daha mübahisə etməyib susdu.

Çijov bu andan istifadə etdi.

– Bəs nə üçün dostunuz Şeremetyevo aeroportuna getmək üçün taksi sifariş etmişdi? O, hara uçmağa hazırlaşırdı? Onun pasportunda heç bir viza olmayıb.

– Bilmirəm, – Xotivari həvəssiz dedi.

Mixeyevlə olan dialoq onun danışmaq həvəsini bütünlüklə öldürmüşdü. Mixeyevin əməkdaşları kabineti vicdanla gözdən keçirirdilər.

"Bəlkə də İqnatyeviç haqlıdır, – Çijov bir qədər sakitləşib düşündü, – doğrudan da, onun adamları nə tapa bilərdilər ki? Öldürülən Moseşvilinin barmaq izlərini? Ya onun hansısa kağızlarını? Nə olsun ki? Bura bank biznesi üzrə mütəxəssislər lazım idi. Hə, əlbəttə ki, Mixeyev haqlıydı. Dmitriyevin adamları bu işə Cinayət-Axtarış İdarəsinin əməkdaşlarından daha çox uyğun idi".

Dmitriyevlə gedən Vaja yenidən kabinetə qayıtdı.

– Sizi çağırırlar, – o, Xotivariyə dedi, – seyfin açarlarının kimdə olduğunu soruşurlar.

– Burda mənlik nə var ki, – Xotivari gürcü dilində qeyzlə dedi, – qoy açarı özləri axtarsınlar! Bunlara açar da tapmalıyam?!

Mixeyev birdən Xotivariyə yaxınlaşdı.

– Bura baxın, “Ukrayna” mehmanxanasındakı bütün qızları sorğu-sual edərək belə cidd-cəhdlə kimi axtarırsınız?

Xotivarinin ağzı açıq qaldı, amma daha heç nə deməməyə qərar verərək dəhşətlə Mixeyevə baxdı.

## XIII HİSSƏ

Cəfərov Bakıya Rasim Paşayeviçin maşınında qayıtdı.

Milli Təhlükəsizlik Nazirinin müavini pis əhvali-ruhiyyədəydi. Rəhbərliyə sərhədin nəzarətsiz hissəsində baş verən qanun pozuntusu haqda məruzə etmək lazım gələcəkdi. Sanki Milli Təhlükəsizlik Naziri və ya sərhədçilər bu hissəni nəzarətdə saxlamamaqda günahkar idilər. Bütün yolboyu qaçaqmalçılar haqqında Prezident Aparatında necə məruzə edəcəyini düşünüb-daşınırdı.

Cəfərov da susurdu. O artıq başa düşürdü ki, öldürülən Ömər Əfəndiyev çobana hücum edən həmin

cinayətkar dəstənin üzvü olub. Əgər ikinci onun yoldaşıdırsa, bəs qalan üçü hanı? Ola bilsin, Zeynal Manafov sağ-salamat Bakıya çatıb və indi onu Əfəndiyevin atasının verdiyi ünvanda tapmaq olar. Bəs bu qrupun yerliyə bənzəməyən rəhbəri kim olub? Belə təhlükəli yerdə o hardan peyda olub?

Şəhərə gecədən xeyli keçmiş çatdılar və o, evinin yanında maşından düşərkən Rasim Paşayeviçə və sürücüsünə təşəkkür edərək evinə tələsdi. Uşaqlar çoxdan yatmışdı, qapını yuxulu arvadı açdı. Yoldan yorğun gəldiyindən demək olar ki, dərhal yerinə uzandı və möhkəm yuxuya getdi. Səhər onu Kazımovun telefon zəngi oyatdı.

– Mən də səni rayonda axtarmışam. Elə bilirdim, hələ Beyləqandasan, – Kazımov dedi. – Necə getdin?

– Hər şey qaydasındadır. Bizim versiyamız təsdiq olundu – orda doğrudan da, birləşmiş dəstə fəaliyyət göstərib.

– Əclaflar, – Kazımov səmimiyyətlə dedi, – doğrudan da, soyğunçudurlar. Burda müharibə gedir, onlar öz gəlirli sənətləriylə məşğuldurlar. Sərhədə gedə bildin?

– Getdim. Gəlib danışaram.

– Tez gəl. Dünən burda elə qonaqlar olub ki! Parisdən. Beynəlxalq polisdən.

– İnterpoldan? – bu təşkilat haqda bir qədər məlumatı olan Cəfərov soruşdu.

– Hə, – görünür, Kazımov kabinetində səhər yeməyi yeyirdi, – səni axtarırlar. Səninlə görüşüb vacib məsələylə bağlı söhbət etmək istəyirlər. Dünən onları Vəliyev qəbul edib. Bu gün günorta mənim yanıma gələcəklərinə söz veriblər. Bilmirdim ki, sən belə tez qayıdarsan. İndi özün onlarla görüşərsən. Onlar mənə lazım deyil. Məni heç qonaqlara göstərmək də olmaz, deyəcəklər ki, müharibə gedir, busa belə kökdür. Gör, bunlar nə yaxşı yaşayırlar, – Kazımov zarafat etdi, – qərəz, tez gəl.

– Onlara nə lazımdır ki?

– Sərhədin, sənin dünən olduğun hissəsiylə maraqlanırlar. Mən belə başa düşdüm ki, onları narkotik problemi maraqlandırır. Əmin edirlər ki, yüklər bizim dəhlizdən Gürcüstana, ordan da Avropaya göndərilir. Onlar da bu dəhlizi bağlamaq istəyirlərmiş.

– Mən də bunu istərdim, – Cəfərov burnunun altında dedi, – bəs buna real olaraq necə nail olmaq olar?

– Nəbadə onlara bunu deyəsən. Deyərsən ki, bu problem səni də narahat edir, İran tərəfilə əməkdaşlığı yoluna qoymaq istəyirsən. Beyləqana getməyindən danış. Qərəz belə şeylər. Sən heç demədin, mənim ehtimalım düz çıxdı? Bu Ömər Füzuli rayonundandır?

– Hə, mən hətta onun valideynlərini də tapdım. Amma bunun artıq əhəmiyyəti yoxdur.

– Niyə?

– Dünən iranlılar bizə öldürülmüş iki qaçaqmalçını təhvil verdilər. Onlardan biri Ömər idi.

– Belə, – Kazımov xoşagəlməz səslə dedi, – deməli, heç bir iz yoxdur?

– Nəsə var, – Cəfərov bildirdi.

– Yaxşı, gəl, daha ətraflı danışaq, – Kazımov yenə nəsə çeynəyirdi, – xüsusən də bu xaricilər haqda heç kimə danışma.

Cəfərov dəstəyi qoyub üzünü qırxmaq üçün vanna otağına getdi. Yarım saat sonra işə – Respublika

Prokurorluğuna gəldi. Növbətçi milis işçisi onu tanıyıb adəti üzrə hərbi salam verdi. Ondan başqa aşağıda əlində avtomat olan daha iki əsgər dayanmışdı. Respublikada çevrilişlər adi hal olandan bəri prokurorluğun mühafizəsi artırılmış və avtomatla təchiz olunmuşdu. Nəzərə alınsa ki, respublika prokurorluğunun binası şəhərin mərkəzində, DİN-in binasından üç yüz metr məsafədə, Şəhər İcra Hakimiyyətinin binasına çıxan küçədə yerləşirdi, onda bu təhlükəsizlik tədbirləri artıq deyildi.

Birbaşa Kazımovun kabinetinə çıxıb onu orda tək gördü. Bu, nadir hal idi. Beyləqana səfərindən ətraflı danışan Cəfərov rayon prokuroru Rəhimov haqda xarakteristika verməkdən də özünü saxlaya bilmədi.

– Köpən hinduşka, – o, acıqla dedi.

Kazımov qəhqəhə çəkdi. Özünü onların idarəsinə ilişdirə bilmiş və indi şəhərə, daha yüksək vəzifəyə keçmək arzusunda olan bu keçmiş partiya məmurundan onun da xoşu gəlmirdi. Amma Cəfərov yerli icra hakimini təriflədi. Rayona belə çətin dövrdə rəhbərlik edən cavan, diribaş, inadkar Qasımov onun xoşuna gəlmişdi.

Məruzəsini bitirəndən sonra cibindən Manafovun ünvanını çıxarıb Kazımova uzatdı.

– Səkkizinci kilometrdə yaşayır, – Kazımov dedi, – rayon şöbəsinə tapşırmaq lazımdır ki, mənzili nəzarətə götürsün. Səncə, Manafov şəhərdə peyda ola bilər?

– Bilmirəm, – Cəfərov düzünü dedi, – amma istisna deyil.

– İstənilən halda hər şeyi yoxlamaq lazımdır. Adam götürüb bu ünvana gedərsən, – Kazımov əmr etdi.

– Elə indi? – Cəfərov dəqiqləşdirdi.

– Yox, bu gün yox. Tələsmək lazım deyil. Bu gün sən mənimlə birgə cənab... nə idi onun soyadı... adı yazılmış kağızı harasa qoymuşam... – Kazımov axtarmağa başladı. – Tapdım, – nəhayət, o dedi, – cənab Lautonu qarşılayacağıq. İnterpolun regional müfəttişi. Onlar iki nəfərdirlər, onun rusca danışan tərcüməçisi var. Məncə, sən də universitetdə rusca oxumusan.

– Guya siz rusca pis bilirsiniz, – Cəfərov özünü saxlaya bilmədi. – Bu Lautonla özünüz də danışa bilərdiniz.

– Mən ümumiyyətlə, burda olmayacağam. Mən rayona çıxıram, – Kazımov ciddi tərzdə qeyd etdi, – amma sənin kabinetində oturacağam. Onları elə burda qəbul edərsən. Deyərsən ki, mənim müavinimsən. Bufetdəki qızlara hər şey hazırlamağı tapşırmışam. Onlar şokolad, konfet, çay və meyvə gətirəcək.

– Bəs niyə bu işi doğrudan da, müavininizə həvalə etmirsiniz? – Cəfərov yenə özünü saxlaya bilmədi, – qoy onları sizin yerinizə qəbul etsin. Fiquru da tamamilə uyğun gəlir.

Kazımov bərkdən qəhqəhə çəkdi. Onun müavini Əhmədovun görkəmi doğrudan da, yaxşı deyildi. Əhmədov xora xəstəliyindən əziyyət çəkirdi və üzü torpaq rəngində olurdu.

– Onu əcnəbilərin top atəşinin qabağına buraxmaq olmaz, – Kazımov gülməyini dayandırıb bildirdi. – Onu tanımırsan? Bizim dəyərlərimiz haqda, Qərb dünyası üzərində üstünlüyümüzdən danışmağa başlayacaq, qonaqlara izah etməyə çalışacaq ki, onların həyat tərzi və sivilizasiyası məhvə məhkumdur.

– Hə, – Cəfərov gülümsədi, – düzdür. O, həddən artıq mühafizəkar insandır. Hərdən mənə elə gəlir ki, hətta fanatikdir. Qəribədir, bizim zəmanəmizdə belə geridə qalmış baxışları olan insan var.

– Hə, geridə qalmış baxışlar. Aşağıda əlində avtomat olan, bizi kimdən qoruduğu məlum olmayan mühafizəçilər dayanır. Amma bizi Əhmədov kimilərdən avtomat qoruya bilməyəcək. O, Azərbaycan üçün növbəti çevrilişdən daha təhlükəlidir. Onlar doğrudan, belə hesab edirlər ki, respublikanı yenidən orta əsrlərə qaytarıb qadınlara çadra geyindirmək olar.

– Lap elə? – Cəfərov inanmadı. – İyirminci əsrin astanasındayıq. Bizim tamamilə ayrı həyat şərtlərimiz, ayrı baxışlarımız var.

– Sənə elə gəlir, – Kazımov ah çəkdi, – əslindəsə bu təhlükə həmişə mövcuddur. Uzun sözün qısası, sən oturacaqsan, etiraz qəbul etmirəm. Çox şey danışma, ordakılar axmaq deyillər. Yalnız zəruri informasiyanı ver. Beyləqan haqda danışa bilərsən. Yeri gəlmişkən, mütləq əlavə et ki, qaçaqmalçıları İran tərəfi öldürüb. Avropada

yanlış olaraq, İranı bütün fəlakətlərin mənbəyi hesab edirlər. Onların çoxu bilmir ki, İran bu tip qaçaqmalçılarla necə aktiv mübarizə aparır, bu ölkədə necə sərt qanunlar var, İran Avropaya narkotik daşınmasına necə ciddi sipər olub. Bu haqda da düşünmək və yadda saxlamaq lazımdır.

– Bəs çadra? – Cəfərov təbəssümlə soruşdu.

– Hər xalqın öz ənənələri var. Öz mədəniyyəti, – Kazımov barmağını qaldırdı, – onları öyrətmək bizə düşməz.

Düz gündüz saat üçdə qonaqlar Respublika Prokurorluğuna gəldilər. Əynini dəyişməyə macal tapmış Mirzə Cəfərov onları aşağıda, demək olar ki, girişdə qarşıladı. Qarşılıqlı salamlaşmadan sonra onlar artıq hər şeyin hazır olduğu Kazımovun kabinetinə qalxdılar. Mirzə uzun stolun arxasında hər iki əcnəbiylə üz-üzə oturdu. Sanki uzun protokol danışıqlarına hazırlaşırdı.

Amma qonaqlar özlərini başqa cür apardı. Onları xüsusi vacib işlər üzrə müstəntiqlərin işi haqda soruşdular, qanun pozuntularının statistikasıyla maraqlandılar. Dünən onları qəbul edən Vəliyev xeyli xoş söz deyib, amma

konkret heç nə danışmayıb. İndi onlar müstəntiq işini yaxşı bilən Cəfərovu məmnuniyyətlə dinləyirdilər.

– Bəs narkomaniya? – cənab Lauton söhbətin başlamasından yarım saat sonra soruşdu. Dyula hamısını vicdanla tərcümə edirdi. – Sizdə yəqin ki, bununla da mübarizə aparmağa çalışırlar?

– Çalışırlar, – Cəfərov ah çəkdi, əcnəbilər onun xoşuna gəlirdi. Onlar peşəkar idilər – bu, onların suallarından aydın olurdu. Bununla yanaşı onlar saf, səliqəli idilər, sanki başqa aləmdən gəlmişdilər. Mirzə düşündü ki, onların prokurorluğundakı müstəntiqlər artıq çoxdan gülümsəmirlər. Onlar sadəcə olaraq çoxu hələ də açılmamış müxtəlif işlərlə yüklənmişdilər.

– Siz ölkənin cənubunda olmusunuz, – Dyula şefinin sözlərini cidd-cəhdlə tərcümə edirdi, – sərhəddə vəziyyət necədir?

– O, sadəcə olaraq qorunmur. Sərhədin böyük bir hissəsi bizim düşmənimiz tərəfindən işğal olunub. – Cəfərov Kazımovun kabinetində asılmış xəritəyə yaxınlaşıb həmin hissəni göstərdi. – İndi orda heç bir mühafizə yoxdur. Və biz

ora daxil ola bilmirik. Yaxşı ki, artıq bir ildir atəşkəs qorunur. Amma sərhədin bu hissəsinin mühafizəsiz qalması pisdir. Orda konkret olaraq nə baş verdiyini biz bilmirik, – o, yerinə qayıtdı.

– Bizdə məlumat var ki, – Dyula davam edirdi, – narkotik Gürcüstana, ordan da Avropaya məhz bu dəhlizdən gedir. Bu yaxınlarda bir dəstə elə İran-Türkiyə sərhədində Türkiyəylə əlaqə yaratmağa çalışıb.

– Ola bilər, – Cəfərov razılaşdı. "Onlar bizim çətinliklərimizi necə başa düşəcəklər ki?" – o düşündü.

– Bu yaxınlarda siz öz sərhədinizdə bir dəstənin yaxalanmasında iştirak etmisiniz? – Dyula soruşdu.

– Elə deyil. Mən sərhəddə həlak olmuş qaçaqmalçıların cəsədlərini qəbul edirdim, – Cəfərov izah etdi. Onlar sərhədi qeyri-qanuni olaraq keçməyə cəhd edərkən və silahlı müqavimət göstərərkən iranlılar tərəfindən öldürülüblər.

– Onların adını bilirsiniz? – Dyula Lautonun sözlərini tərcümə etdi.

– Hələ dəqiq yox. Təyin etməyə çalışırıq, – Cəfərov yalan dedi. "Əcnəbilər bizim çətinliklərimizi niyə bilsin ki?" – o düşündü.

– Biz Türkiyədə türk quldurlarının nümayəndələriylə danışıqlar zamanı onlardan bəzilərinin şəklini çəkə bilmişik, – Dyula tərcümə etdi. Lauton "mafiya" sözü işlədirdi, Dyulasa onu rus dilinə "quldurlar" kimi tərcümə edirdi.

– Siz şəkilləri göstərə bilərsiniz? – Cəfərov laqeydliklə soruşdu. Bəlkə orda hansısa tanış üzləri görə bilər.

– Əlbəttə, – Dyula sevindi, – biz sizdən bunu rica etmək istərdik.

O, bir dəstə şəkli Cəfərova uzatdı. Elə birinci şəkildən Ömər Əfəndiyev ona baxırdı. O, hiss olunmadan nəfəsini dərib şəkli bir kənara qoydu. Beşinci şəkildə öldürülmüş ermənini tanıdı. O, əlində hündürə qaldırdığı stəkanı hərləyirdi. Amma özü üçün ən lazım olanı son şəkillərin birində gördü. Orda ona yaxın adam dayanmışdı. Sanki xatirə şəkli çəkdirirmiş kimi hamısı birlikdəydi. Burda öldürülən iki nəfər, Əfəndiyevin balaca dostu Zeynal

Manafov və nəhayət, həmin naməlum adam da var idi. Hündürboy, enlikürək, keçəl kişi ortada dayanıb obyektivə gülümsəyirdi. Gizlətməyin mənası yox idi. Bu şəkillər ona lazım idi.

– Bu şəkillər sizdə hardandır? – Cəfərov soruşdu.

Lauton başa düşdü ki, müstəntiq tanış simalar görüb.

– Onların içində kimisə tanıyır? – Cerald Dyuladan soruşdu.

Dyula tərcümə etdi.

– Tanıyıram, – Cəfərov canlandı. Bu əcnəbilərə afərin, onlar doğrudan da, əsl peşəkardırlar.

– Bax bu, bu və bu, – o, şəkildəkiləri göstərdi, – amma onlardan ikisi artıq öldürülüb. Bunlar həmin ölənlərdir, – o dedi.

– Qalanlarını tanıyırsınız? – Dyula dəqiqləşdirdi.

– Məndə onlardan birinin ünvanı var, – gizlətməyin mənası yox idi. Əcnəbilər onsuz da çox böyük köməklik göstərmişdilər. İndi onda, yaralı oğlanın haqqında danışdığı həmin naməlum adamın şəkli var idi. O daha diqqətlə baxdı, həmin adam doğrudan da, yerliyə oxşamırdı.

– Nə etmək fikrindəsiniz? – Lauton həyəcanla soruşdu, – bizi xüsusən, bax bu cənab maraqlandırır. – O da keçəli göstərdi.

– Məni də o maraqlandırır, – Mirzə təsdiq etdi, – amma hələ ki, mən nə onun adını, nə də hardan gəldiyini bilirəm.

– Siz hansını tapa bilərsiniz? – Lautonun həyəcanı tədricən Dyulaya da keçirdi.

– Bax bunu, – Cəfərov balaca azərbaycanlını göstərdi. – Deyəsən, mən onun Bakıda harda yaşadığını bilirəm.

– Onun evini nəzarətə götürmüsünüz?

– Y-yox, hələ yox, – Cəfərov bir qədər tərəddüddən sonra düzünü dedi.

– Niyə? – Lautonu dinləməyən Dyula heyrətləndi.

“Doğrudan da, axmaq hərəkətdir”, – Cəfərov düşündü. Biz həmişə belə işləyirik. Mən onlara deyə bilmərəm axı, gələn əcnəbilər hansısa quldurun yaxalanmasından daha vacibdir. Bizdə həmişə belə olub.

– Biz hələ ki tələsməməyə qərar vermişik, – o, cavabdan yayındı, – hər şeyi yoxlamaq lazımdır, – o əlavə

etdi. Nə böyük ayıb və qeyri-peşəkarlıqdır! Cəfərov qızardığını hiss etdi.

– Bu gün onun mənzilini nəzarətə götürəcəksiniz? Yoxsa onun ayrıca evi var? – Dyula sovet həyat tərzini yaxşı bildiyini nümayiş etdirirdi.

– Mənzili var, – Cəfərov ah çəkdi, – bu gün xüsusi nəzarətə götürəcəyik. Hərçənd, mənim fikrimcə, o, Bakıda peyda olmaz. Cəmi iki gün əvvəl sərhəddə onun yoldaşı həlak olub.

– Məhz buna görə o, burada olmalıdır! – tərcüməni eşidən Lauton bərkdən dedi. – Mən bu rusları başa düşmürəm! – o, qeyzlə əlavə etdi.

Sovet İttifaqı dövrlərindən qalan ənənəyə görə SSRİ-nin bütün keçmiş vətəndaşlarını “rus” adlandırırdılar.

– Narahat olmayın, – Cəfərov əcnəbiləri inandırdı, – artıq bu gün hər şey qaydasında olacaq.

– Sabah bugünkü günün nəticələrini öyrənə bilərik? – Dyula soruşdu. – Bu, bizim üçün çox vacibdir.

– Əlbəttə, – əcnəbilərin əl çəkməyəcəyini anlayan Cəfərov ümidsizcəsinə dedi, – əlbəttə, sabah öyrənə bilərsiniz.

– Siz niyə onu həbs etmək istəmirsiniz? – Lauton soruşdu. – Yoxsa onun mənzilində tələ qurmaq fikrindəsiniz? Yəqin, bu adama qarşı əlinizdə faktlar var.

"İlahi, əl çəkməyəcəklər!" – o artıq qəzəblənməyə başlayırdı.

– Baxarıq, – o, birbaşa cavabdan yayındı. – Buna bu gün axşam qərar verəcəyik.

Onun heç ağlına da gəlməzdi ki, bugünkü axşam necə qəliz olacaq.

## XIV HİSSƏ

Belə təmiz ingiliscə söylənən cümləni eşidər-eşitməz cəld geri çevrildi. Qarşısında iyirmi beş yaşlarında hündürboy, gənc qadın dayanmışdı. Düz burnu, bir qədər dar üzü, açıq tökülmüş saçları və hissiyyatlı dodaqları var idi. Əsas da gözləriydi. Onlarda albalı çaları var idi. Gözəl

əyriliyə malik qaşları və uzun kirpiklərisə bu dəcəl, həm də deyəsən, bir qədər qıyqacı gözlərin gözəlliyini bir az da nəzərə çarpdırırdı.

O, qadının gözlərinə baxdı.

– Siz ingiliscə elə yaxşı danışırsınız ki?

– Hə, mən bu mehmanxananın ekskursiya bürosunun rəhbəriyəm. Əsasən əcnəbilərə xidmət göstəririk.

– Təəssüf ki, mən çəkən deyiləm, – o üzr istədi.

– Təəssüf, – qız nazla piştaxta arxasındakı yaşlı qadınlara tərəf getdi. O, birdən özünə gəlib qadının arxasınca qaçdı.

– Bağışlayın, adınız nədir? – yenidən onun gözlərinə diqqət yetirərək soruşdu.

– Sizə artıq ekskursiya sifariş etmək lazımdır? – o, istehzayla soruşdu.

– Deyəsən, hə. Özü də bələdçini şəxsən özüm seçəcəyəm.

O güldü. Gülüşü mehriban və yumşaq idi.

– Siz özünüz hardansınız? Adınız nədir? – qadın soruşdu.

– Robert Krou. Avstraliyanın informasiya agentliyindən. Sizin bu möcüzəvi şəhərinizə bu gün səhər gəlmişəm.

– Çox gözəl. Adım Tamaradır.

– Məncə, bu Gürcüstanın çariçasının adıdır, – o zarafat etdi. Qadının qeyri-adi gözləri var idi.

– Gürcüstanın tarixini yaxşı bilirsiniz?

Deyəsən, həddən artıq məftun olmuşdu.

– Bu haqda mənə sizin yerliniz olan bir həmkarım danışıb. Əvvəllər mən Amerikada yaşayırdım və cənab Sturua ilə dostluq edirdim.

– Siz onu tanıyırsınız? – qadın təəccübləndi. – O həqiqətən də, Gürcüstanın Amerikadakı müxbiriydi. Dünya doğrudan da, balacadır.

– Sizi bir fincan qəhvəyə dəvət etməyə icazə verərsiniz? – Dronqo xahiş etdi.

Onlar masa arxasında oturandan sonra qadın ofisiantdan “kapuçino” gətirməsini xahiş etdi. Birdən o, siqaret çıxarmaq üçün əlini qeyri-iradi çantasına saldı. Və artıq qutunu, demək olar, yarıya qədər çıxarmışdı ki, cənab

Kroudan siqaret istədiyi yadına düşdü. Azca qızarıb qutunu çantasına geri itələyərək yaylıq çıxardı. Amma bu cəld jest Dronqonun diqqətindən qaçmadı. O, kompliment deməyə davam edirdi:

– Mənə elə gəlirdi ki, mehmanxanada məndən başqa, ümumiyyətlə, canlı insan yoxdur. Hamı sanki ruhdur. Və birdən sizin kimi gənc və gözəl qadına rast gəlirəm. Bu sanki bir xəyaldır.

Qadın bir daha reflektiv olaraq siqaret çıxarmamaq üçün çantasını stulun söykənəcəyinə asaraq gülümsədi. Ofisiant qəhvə gətirəndən sonra ondan siqaret gətirməyi də xahiş etdi. O deyəsən, doğrudan da buranın adamıydı, ofisianta adıyla müraciət edərək gürcücə bir neçə söz dedi. Tezliklə o, siqaret və alışqanla geri qayıtdı.

– Mən elə bildim ki, siz italyan, ya da ispansınız, – qadın etiraf etdi, – hətta gürcü, nəinki avstraliyalı.

– Anam italiyalıdır, – o etiraf etdi. Ona danışa bilməzdi ki, damarlarında doğrudan da gürcü qanı axır. Onun ata nənəsi gürcü qızı olub.

– Bu hiss olunur, – o dedi, – siz heç anqlosaks nümayəndələrinə oxşamırsınız. İtalyan dilini bilirsiniz?

– Əlbəttə. Mən anamla tez-tez bu dildə danışırdım.

– Bu mənim arzumdur, – qadın ah çəkdi, – həmişə İtaliyada olmaq istəmişəm. Məhz İtaliyada. Mən Avropanın yarısını gəzmişəm, hətta Amerikada da olmuşam. Amma İtaliyaya getməmişəm. Adama ağır gəlir.

– Nə mane olur? – cənab Krou özünü itirmədi. – Mən sizi İtaliyaya aparmağa razıyam.

– Yox, siz doğrudan da, bizim yerli uşaqlara bənzəyirsiniz. Həmin arxayınçılıq, həmin qızğın fantaziya, – qadın gülümsədi.

– İnanmırsınız ki, sizi özümlə apara bilərəm? – cənab Krou incik səslə soruşdu.

– İnanıram, – o, başını tərpətdi, – əlbəttə, inanıram. Amma mən azad deyiləm. Çox təəssüf. Bundan sonra çətin ki, nə vaxtsa, harasa gedim.

– Təəssüf, – o, ifrata varmamağa qərar verdi, hərçənd, qadın onun doğrudan da xoşuna gəlirdi. Özü də çox. Amma Qafqazda böyümüş biri olaraq o, gürcü qadınlarının

əlçatmazlığı, əxlaqı və sədaqəti barədə gəzən əfsanələri bilirdi.

– Sabah mənim sizin qəzetlərdə görüşüm var, – Dronqo dedi, – sizi nahara dəvət edə bilərəm?

– İndi inandım ki, siz əsl sakssınız, – qadın bərkdən dedi, – italyan məni şam yeməyinə dəvət edərdi.

– Bu mümkündür?

– İstənilən halda cəhd etmək olardı, amma artıq gecdir: bir halda ki, nahar dediniz, qoy olsun nahar.

– Amma siz bir nüansı nəzərə almamısınız, – birdən Robert Krou bildirdi, – mən Avstraliyadanam. Və təbii ki, Avstraliya vaxtını nəzərdə tutaraq danışıram. Osa sizin gürcü vaxtınızla üst-üstə düşmür. Demək olar ki, altı saat fərq var, odur ki, naharın vaxtını altı saat sürüşdürün.

– Çox gözəl, – Tamara güldü, – indi sizin ananıza inanıram. Razılaşmalı olacağam. Sabaha qədər, – qadın yüngül bir şəkildə ayağa qalxdı.

– Nə vaxt görüşürük? – cənab Krou yerindən sıçradı.

– Sabah 7-də, bu restoranda, – qadın başıyla sağollaşdı.

Təklikdə qəhvəsini axıra qədər içib masada beş dollar qoyub restorandan çıxdı. İndi bəzi detalları aydınlaşdırmaq lazımdır. O, alçaq piştaxtanın arxasında oturmuş növbətçiyə yaxınlaşdı.

– Siz ingiliscə danışırsınız? – növbətçidən soruşdu.

– Yox cənab, – qadın gülümsədi. O, hansısa sevgi romanı oxuyurdu.

– Mənə... e... Tamara... lazımdır, – rus dilini əymək onun üçün çətin idi.

– Tamara, – qadın anladı, – o, elə indicə getdi. Üçdən sonra gələcək. Onlar ekskursiya bürosunda olurlar.

– Çox sağ olun, – ingiliscə deyib liftə sarı getdi. Deməli, qadın düzünü deyib. O doğrudan da, ekskursiya bürosunda işləyir. Əvvəlcə elə düşünmüşdü ki, o, tipik gecə kəpənəklərindəndir, amma diqqətlə baxıb ayağında bahalı tufli və Nina Riççidən zərif bir çanta görmüşdü. Əxlaqsız qadınlar belə çanta götürmürlər. Ona görə yox ki, bunu özlərinə rəva görmürlər. Əksinə. İşləməyə gəldikləri mehmanxanada hər şey ola bilərdi və belə keyfiyyətli çanta götürmək praktik deyildi. Amma siqaretini dəqiqliklə

görmüşdü. Onun, qadının sadəcə olaraq, xoşuna gəldiyi fikrini Dronqo dərhal istisna etdi. Bu səviyyədə və bu gözəllikdə olan qadın xoşuna gələn kişiyə elə-belə yaxınlaşmır. Burda daha müəyyən bir maraq olmalıdır.

Pyotr Georgiyeviçin bu işə bir qarışacağı yoxdur. Əgər onu izləyirdilərsə, belə qısa müddətdə qadın tapmağa macalları olmazdı. Bu hətta nəzəri cəhətdən də mümkün deyil. Qalır digər variant – onun gəlişi haqda kimsə bilib. Vladimir Vladimiroviç? Oxşamır. Onun kimi adamlar onlara etibar olunmuş sirr haqda bircə söz belə deməkdənsə, işgəncə altında ölməyə üstünlük verərlər. David Qogiya? O da uyğun gəlmir. Xəbərçilik üçün o həddən artıq koloritli fiqurdur. Onun yanında Batum limanının tufanı Şalva Ruruanın özü küçük kimi görünür. Qogiya kiməsə işləməz. Dronqonu təslim etməyinsə onun üçün heç bir mənası yoxdur. Bəs onda onun gəlişi haqda necə öyrəniblər? Dünən səhər limandakı gecə atışması haqda öyrəniblər. Bunu Pyotr Georgiyeviç dedi. Bu günsə Batuma avstraliyalı jurnalist gəlib. “Gözlə – Dronqo öz-özünə dedi, – burda hansısa bir əlaqə var. Deməli, atışma olub. Dünən səhər... onun gəlişi

haqda teleqram gəlib. Yox, teleqram srağagün gəlməliydi. Bəs əgər dünən gəlibsə və Rurua hadisələri əlaqələndiribsə? Yox, yenə nəsə düz gəlmir. Avstraliyalı jurnalistin bura nə dəxli var ki? Eyni müvəffəqiyyətlə, Batuma gələn bütün əcnəbiləri izləmək olar. Bəlkə o, yerli təhlükəsizlik orqanlarını layiqincə qiymətləndirmir? Axı əvvəllər şəhərə gələn hər bir əcnəbi izlənilirdi. Sərhəd yaxındadır. Yox, bu da uyğun gəlmir. Əvvəllər bura Sovet İttifaqı və onun sərhədiydi. Bəs indi əcnəbilərin nəyindən qorxurlar ki? Burda nəyin kəşfiyyatını aparmaq olar ki? Gürcüstanın hansı xüsusi sirri var ki, yerli təhlükəsizlik orqanları avstraliyalı jurnalistlə məşğul olmalıdır? Yox, bu variant da uyğun gəlmir. Bəs onda qadın niyə ona yaxınlaşdı?" Hansısa ağlabatan, məntiqli səbəb olmalıdır, deyə Dronqo düşündü. Mütləq olmalıdır. O, balkona çıxıb aşağıya baxdı. Demək olar ki, heç kim gözə dəymirdi. Mehmanxananın binasının yanından nadir hallarda kimsə keçirdi. Bəlkə qadın ona vurulub, Dronqo gülümsəyərək düşündü. Başını itirib? Ona görə tez özünə gəlib siqaret olan çantanı gizlətdi? Yenə uyğun gəlmir. Aşağıda mavi rəngli "Şevrole-Kapris"

dayandı. Hardan peyda olduğu bilinməyən iki oğlan həsədlə maşını izləyirdi.

“Avtomobil, – Dronqo düşündü. – Əlbəttə, avtomobil. Mənim şəhərə David Qogiyanın maşınında girdiyimi görə bilərlər. Niyə daha əvvəl ağlıma gəlməyib?! Onlar bu qərara gələ bilərlər ki, gecə Ruruanın adamlarına hücum edən həmin naməlum adamların nümayəndəsi gəlib. Hadisələrin koordinasiyası və ya yeni müharibənin başlanması üçün. İstənilən halda, onlar sıx surətdə fəaliyyət göstərəcəklər. Hə, deyəsən, haqlıyam. Onlar bu dəbdəbəli BMW-ni müəyyən ediblər. Onda hər şey aydındır. O, Pyotr Georgiyeviçlə söhbət edənə qədər onlar Tamaranı tapa biliblər. Onda hər şey düz gəlir. Onun qəfil həvəsi və siqaretlə olan mənfur səhvi. Onda hər şey düzgündür”. O, aşağı baxdı. “Şevrole” artıq uzaqlaşırdı və uşaqlar bu maşının üstünlüklərini müzakirə edirdilər.

Nömrəyə qayıdıb soyuducudan çaxır şüşəsini çıxardı. Onu tələsmədən açıb stəkana süzdü. Çaxır soyuq idi. Stəkanı götürüb ləzzətlə içməyə başladı. İçki çox yüksək keyfiyyətliydi. Elə bu vaxt qapı döyüldü.

– Gəlin. – O, istisnasız olaraq bütün mehmanxanalarda qapını bağlayırdı. Elə buna görə qışqırdı. Qapının arxasındakı adam içəri girməyə çalışırdı, amma qapının kilidli olduğunu görüb yenidən döydü.

– Açıqdır, – o, qapıya yaxınlaşıb yenə qışqırdı. Daha sonra kilidi yavaşca açıb əlavə etdi: – Qəribədir, mən qapını bağlamamışdım.

Qapıda otuz beş yaşlarında, saçı çox qısa vurulmuş cavan oğlan dayanmışdı. Ortaboylu bu adamın düzgün, sakit üz cizgiləri var idi. Çuxurda olan gözləri onu ələ verirdi. Onlar həddən artıq sakit və bir nöqtədə cəmlənmişdi. Belə gözlərlə cərrah və ya jurnalist işləmək olardı. Amma yəqin və ən yaxşısı, bu gözlərin sahibi özünü insani münasibətlərin daha çətin sferasında göstərə bilərdi. Bu, yerli təhlükəsizlik xidmətinin rəhbəri Otar Paqavaydı. Dronqo qarşısında dayanan adamın kim olduğunu bilmirdi, amma dərhal hiss etdi ki, qonaq onu maraqlandıra bilər.

– Olar? – Paqava çox nəzakətlə soruşdu. İngiliscə yüngül ləhcəylə danışırdı.

– Mənimlə işiniz var? – Dronqo soruşdu.

– Hə. Bəlkə mən otağa keçim?

– Buyurun, – Dronqo kənara çəkilərək Paqavanı önə buraxdı. Özü də sakitcə onun arxasınca getdi. Onlar qonaq otağında oturdular, "lüks" iki otaqdan ibarət idi.

– Çaxır içirsiniz? – Dronqo şən tərzdə soruşdu.

– Yox, çox sağ olun, – Paqava cavab verib cənab Robert Krouyla üzbəüz kresloda əyləşdi.

– Eşidirəm sizi, – Dronqo özünün yarımçıq stəkanını götürdü.

– Bəlkə biz rusca danışaq? – birdən Paqava dedi.

– Sizi başa düşmədim, – o heç diksinmədi də. Belə də olmalıydı.

– Siz Pyotr Georgiyeviçi xəbərdar etməyi unutmusunuz ki, rusca danışmırsınız, – Paqava ona xatırlatdı, – yeri gəlmişkən, o ingiliscə çox pis danışır, səhvlərə yol verir. BMT-nin ekspertlərinin öz tərcüməçiləri ola bilər.

– Nə istəyirsiniz?

– Mən Otar Paqavayam, yerli təhlükəsizlik xidmətinin rəhbəri.

– Məmnun oldum, – söhbət hələ də ingiliscə gedirdi.

– Siz bu gün səhər Pyotr Georgiyeviçə zəng edib onunla rus dilində kifayət qədər yaxşı danışmısınız, – Paqava dedi, – bəlkə mənə də çaxır süzəsiniz.

Dronqo qalxıb butulka və stəkan götürüb yarısına qədər çaxır süzərək Paqavaya verdi.

Paqava bir qurtum içdi.

– David Qogiyanın yaxşı çaxırı var, – o, son dərəcə sakit tərzdə dedi.

Bunu gözləmək olardı. Şəhərə bu lənətə gəlmiş "BMW"də girməməliydi. Özü günahkardır, gələn dəfə daha ağıllı olar.

– Nə istəyirsiniz? – o hələ də ingiliscə danışırdı. Dözümü ona etibarsız çıxmadı.

– Mənə daim ingiliscə danışmaq çətindir, – Paqava dedi, – amma əgər siz israr edirsinizsə, mən fikrimi bu dildə çatdırmağa çalışacağam. Dünən gecə bizim limanda əsl döyüş olub, bir neçə adam həlak olub. Cənab Ruruanın gəmisinə naməlum adamlar hücum ediblər. Bir şeyi deyim ki, mən həmin cənabı o qədər də sevmirəm. Bundan da artıq,

şəhərimizdə gəlmə qastrolçuların peyda olmasını sevmirəm. Biz hələ də hücum edənləri tapmamışıq. Hərçənd, dünən mehmanxananın yaxınlığında güllə yaraları almış cəsəd tapılıb. Ekspertiza təyin edib ki, həmin adam gəmiyə hücum zamanı Ruruanın öldürülmüş adamlarından birinin revolverindən ağır yaralanıbmış. Daha sonrasa onu boynundan vuraraq öldürüblər. Maraqlı detektivdir?

Dronqo susurdu. O artıq burda necə bir faciəvi təsadüflər zəncirinin baş verdiyini anlayırdı. Amma hələki susurdu.

– Və bu gün mehmanxanada avstraliyalı jurnalist Robert Krou peyda olur, – Paqava davam etdi, – yeri gəlmişkən, o, gürcüyə və ya osetinə çox oxşayır. Amma qəti şəkildə bildirir ki, doğrudan da, avstraliyalı jurnalistdir. Tutaq ki, biz ona inanmaq istəyirik. Amma inanmağa balaca bir detal mane olur. Aydın olur ki, o, Batuma bu gün səhər bütün ölkədə məşhur olan mafioz David Qogiyaya məxsus "BMW"də gəlib. Sizcə də maraqlı təsadüf deyil?

– Yenə çaxır istəyirsiniz? – Dronqo soruşdu.

– İstəmirəm, – Paqava öz stəkanını möhkəm şəkildə masanın üstünə qoydu. – Bu təsadüfi necə izah edərdiniz, cənab Robert Krou? Bircə deməyin ki, mən səhv edirəm.

– Siz səhv edirsiniz, – Dronqo rahat bir şəkildə etiraz etdi.

– Belə, – Paqava qaşlarını çatdı, – deməli, siz belə hesab edirsiniz ki, mən səhv edirəm. Lap yaxşı. Bəs siz qorxmursunuz ki, mən gedəndən sonra burda cənab Şalva Ruruanın adamları peyda olacaqlar? Onlar da belə düşünə bilərlər. Onlar sizinlə çaxır içməyəcəklər. Siz bundan doğrudan qorxmursunuz?

– Yox, – o, cavabı bir qədər gec verdi, – mən onlara da bunu deyəcəyəm.

– Yaxşı, – Paqava qətiyyətlə ayağa qalxdı, – bu sizin işinizdir. Amma onları mümkün qədər tez inandırmağa çalışın. Onlar əsəbi uşaqlardır, siz nəsə deməyə macal tapana kimi atəş açmağa başlayarlar.

– Bəs əgər mən kömək üçün David Qogiyanın özünə müraciət etsəm? – Birdən Dronqo Paqavadan soruşdu.

O duruxdu, qapıya tərəf dönüb iki addım atdı.

– Deməli, siz onu tanıyırsınız? – nəhayət, dedi.

– O doğrudan da, mənim tanışlarımın dostudur, amma inanın mənə, gecə baş verən hadisəylə heç bir bağlılığım yoxdur.

– Onda niyə bura gəlmisiniz? Bircə Melburn informasiya mərkəzinin tapşırığıyla bağlı nağılı danışmayın. Deyəsən, sizin guya işlədiyiniz yer belə adlanır.

“Onun kimə işlədiyini bilmək olmur, – Dronqo düşündü. – Güvənmək olmaz. Bu, maşınla olan səhvdən daha betər ola bilər”.

– Mən doğrudan da, Melburn informasiya agentliyində işləyirəm, – o, çox sakit və aydın şəkildə dedi.

Qapı çırpıldı. Paqava nömrədən çıxdı. Yalnız tək qalandan sonra anladı ki, necə böyük bir təhlükəyə məruz qalıb. Paqava haqlıydı, Şalva Ruruanın adamları istənilən an mehmanxanaya soxula bilərdilər. Yadına düşdü ki, David ona öz tanışının nömrəsini verib. Telefona yaxınlaşıb nömrəni yığdı.

– Batono Aftandil, sizi dostunuz David Qogiyanın izniylə narahat edirəm. Hə, mən Batumdayam. Sizin

köməyinizə ehtiyacım var. Siz mənim yanıma gələ bilərsinizmi? Hə, mən İnturist mehmanxanasındayam, hə burda. Adım Robert Kroudur.

Vaxtın onun lehinə işləmədiyini anlasa da, hansısa lazımsız sözləri deyirdi. O, bu naməlum Aftandilin kim olduğunu bilmirdi, amma indiki halda Davidin dostu onu Şalva Ruruanın adamlarından az da olsa, qoruya bilər. Qəribə situasiya alınırdı. Bir tərəfdən, o bura elə Ruruanın özünü tapmaq üçün gəlmişdi. Digər tərəfdənsə, o nəinki Batum limanının sahibiylə tanışlıq axtarmamaq, eləcə də hər vəchlə bu ünsiyyətdən qaçmağa çalışmaq məcburiyyətindədir. Əgər limanda öldürülən adamlar olmasaydı, tragikomik situasiya alınırdı. Axan qan qisas tələb edirdi və Rurua cavab zərbəsi endirməyə borcluydu. Başqa rəqiblərinin olmadığına görəsə o, tamamilə Otar Paqava kimi düşünə bilərdi. Və onda onun adamları tezliklə, mehmanxananın bu nömrəsinə soxulacaqlar. Cənab Robert Krouya artıq heç bir müdafiə lazım olmayacaq. Belə hallarda sözlər işə yaramır.

Qapı yenə ehtiyatla döyüldü.

“Elə bil keçid həyətidir” – Dronqo məyusluqla düşündü. İstənilən halda açmaq lazım idi. Qapı çox etibarsız müdafiə idi və hücum edənlər demək olar ki, güc sərf etmədən onu yerindən qopara bilərdilər. Bu dəfə qapını kimin qonaq gəldiyini heç soruşmadan açdı.

Amma bu dəfə orda Tamara dayanmışdı. O, qara şalvar dəsti geyinməyə macal tapmışdı. Pencəyinin altından qara yun kofta geyinmişdi. Boynundan balaca bir xaç asmışdı.

– Cənab Krou, – qadın gülümsədi, – mənə dedilər ki, siz məni nəyə görəsə axtarmısınız.

“Operativdirlər, – Dronqo düşündü, – burda hamı necə də operativ işləyir. Təəccüblü nə var ki – şəhərcik balacadır, mart ayında gələn əcnəbisə ikiqat maraq doğurur”.

– Mən doğrudan da, sizi axtarırdım, – Dronqo etiraf etməyə məcbur oldu, – mənə sizin məsləhətiniz lazımdır.

O, kənara çəkilib qadını nömrəyə buraxdı. Arxadan ona diqqət yetirdi. Ayaqları azca kök idi, amma bədən

quruluşu demək olar ki, klassik idi. Heç bir qüsuru yox idi. Hərçənd, onun nə üçün gəldiyini xatırlamaq lazımdır.

– Hə, nə istəyirdiniz? – o, beş dəqiqə əvvəl Paqavanın oturduğu kresloda əyləşdi. Masanın üstündə onun yarımçıq içilmiş stəkanı dururdu.

– Sizin qonağınız olub? – stəkanı Tamara da sezdi.

– Ona görə sizi axtarırdım, – o, vəziyyətdən çıxa bildi. İndi risk etmək lazım idi, yoxsa onu həqiqətən, hücum edənlərdən biri kimi qəbul edəcəklər. – Məsələ burasındadır ki, dəhşətli bir anlaşılmazlıq baş verir, – Dronqo başladı. – Bura hansısa adamlar gəlib məni əmin edirlər ki, mən gürcüyəm. Və bura hansısa quldurlar tərəfindən göndərilmişəm. Bundan əlavə deyirlər ki, guya mən hansısa gəmiyə hücum təşkil etmişəm. Razılaşın ki, bütün bunlar Batuma bu gün gələn adam üçün gülməli səslənir.

– Kim gəlib ki? – Tamara çantasından siqaret çıxararaq maraqlandı. Qutu həminkiydi.

– Bilmirəm. O özünü Otar Paqava kimi təqdim etdi...

Qadının rənginin necə ağardığını görmək lazım idi. O, fikirlərini toplamağa çalışaraq əlini yavaşca aşağı saldı.

“Çox yaxşı, – Dronqo düşündü, – deməli, onlar bir komandada oynamırlar. Bu, bir az şans verir”.

– Bura özü gəlmişdi? – qadın sakit tərzdə soruşdu.

– Elə iş də bundadır. Deyir, mən hər şeyi bilirəm. Deyir, gəmiyə hücum edənlərdən biri siz olmusunuz. Söhbətin hansı gəmidən getdiyini mən ümumiyyətlə, bilmirəm. Gəminin bura nə dəxli var, ona kim hücum edib?

– Bu doğrudan, belə deyil? – birdən Tamara soruşdu.

– İlahi, siz də?! Əlbəttə. Özünüz düşünün: məndən quldur olar? Mən ömrümdə əlimə tapança almamışam. Hərçənd, yox, mənim alibim var. Budur...

O, pencəyinin cibindən Moskvada aldığı bileti çıxardı.

– Görürsünüz, “Aeroflot” şirkəti, Moskva-Tiflis bileti. Mən dünən səhər uçmuşam. Və bu gün səhər Batuma gəlmişəm.

– Nəylə? – onun istintaqı Paqavayla olan söhbətin eynisiydi, sanki sözləşmişdilər.

– Öz tanışımın maşınında. Daha doğrusu, dostlarımın tanışının. Mən ona zəng etdim, o da məni qəbul edib maşın verdi. Burda təəccüblü nə var ki?

– Dostunuzun adı nədir? – qadın siqaretini çəkə-çəkə diqqətlə otaqboyu gəzişən Dronqoya baxırdı, sanki onu ilk dəfə görürdü.

– David Qogiya. Deyirlər, onu Tiflisdə yaxşı tanıyırlar. Mən onun “BMW”sində gəlmişəm.

Qadın gürcücə nəsə dedi. Dronqo başa düşmədi.

– Nə dediniz?

O, yenə gürcü dilində təkrar etdi.

– İlahi, – o qəzəbləndi, – mən ki sizə dedim, gürcücə bilmirəm.

– İnanılmaz təsadüfdür, – qadın dedi, – sizə elə gəlmir?

– Amma bu doğrudan, belədir.

– Sizə David Qogiyanı kim məsləhət görüb?

– Onun Moskvada yaşayan qardaşı. Deyəsən, Arçil. Biz birlikdə tennis kortuna getmişik, – bunu elə indicə uydurdu.

– Belə, – qadın fikrə getdi, görünür, Arçil haqda o da eşitmişdi, – bəs sizin sözlərinizi kim təsdiqləyə bilər?

– Elə David Qogiyanın özü.

Burda Tamara gülümsədi, sanki o, məzəli və kəskin zarafat etmişdi.

– Bəs ondan başqa?

– Bəlkə onun sürücüləri, – Dronqo qadının hələ də gülümsədiyini görərək ehtimal etdi.

Birdən başa düşdü ki, onu heç bir təhlükə gözləmir. Paqava onu sadəcə olaraq qorxudub. Şalva Rurua David Qogiyanın adamına toxunmağa cürət etməz. Səviyyə fərqi var. Yalnız bunu dərk edəndən sonra bir qədər sakitləşdi. Rurua ona nifrət edə bilər, amma əsaslı səbəb olmadan toxunmağa cəsarəti çatmaz. Həmin lənətə gəlmiş “BMW” imkan verməz. Əhəmiyyətsiz bir səhvə görə nə qədər xoşagəlməzlik!

– Başqa heç kim? – Tamara siqareti külqabıda əzib soruşdu.

– Başqa heç kim, – o, əlini yellədi, – siz də mənə inanmırsınız?

– İnanıram, – qadın ayağa duraraq ona tərəf bir addım atdı. Üzü onun çənəsiylə bir səviyyədə durdu. O da əyildi. Busa uzun və xoş alındı.

Qadın yenə gürcücə nəsə dedi.

Dronqo ah çəkib güldü:

– Bütün bunlar məni elə bezdirib ki. Mən doğrudan da, gürcü dilini bilmirəm. İlahi, mən nə etməliyəm ki, siz hamınız mənə inanasınız?

– Mən dedim ki, "sən mənim xoşuma gəlirsən", – Tamara onun gözlərinə baxdı. Dronqo susdu. Bu sözlərdən sonra nəsə demək artıq idi.

Bu an qapı döyüldü. Tamara çox sakit tərzdə pencəyini düzəldib kresloya oturdu və ikinci siqareti çıxardı. Dronqo qapını açmağa getdi.

Astanada hündürboy, kök, çalsaçlı, keçəpapaqlı bir gürcü dayanmışdı. O sanki gürcü kinorejissorlarının filmindən çıxmışdı. Çox məzəli və koloritli görkəmi var idi.

– Davidin dostu sənsən? – o, cır səslə soruşdu, – salam, əzizim. Mən Aftandiləm. Dostumun dostuna hər an kömək edərəm. İndi səni burdan apararam.

O, otağa keçib Tamaranı gördü. Qadın qonağın səsini eşidən kimi siqareti söndürüb yerindən sıçradı.

– Sən də burdasan, – Aftandil o qədər də hirslənmədən dedi, – bax ha, sənin qızların bizim qonağımızı incitməsinlər. Sonra Şalvanı tapıb başına oyun açaram.

Qadının rəngi ağardı, amma nəsə deməyə də cürəti çatmadı.

– Çaxır içmisiniz, – Aftandil masanın üstündəki stəkanı gördü, – bu yaxşı işdir. İndi gedirik bizə. Orda artıq süfrə açılıb.

– Batono Aftandil, – Dronqo rusca cavab verməyə məcbur oldu, – mən... sizə necə deyim... rusca pis danışmaq.

– Amma telefonda yaxşı danışırdın, – Aftandil təəccübləndi.

Dronqo və qadın xəfif təbəssümlə bir-birinə baxdı. Aftandilin onun adını Şalva Ruruayla yanaşı çəkməsi qadına xoş deyildi. Eyni zamanda əlüstü Dronqonun yalanını çıxardığına görə onu da pis vəziyyətdə qoydu.

– Əgər istəsən, tərcüməçi götürərik, – Aftandil Tamaranı göstərdi, – o, rus və ingilis dillərini yaxşı bilir. Bizimlə gedərsən? – o, ciddi tərzdə qadından soruşdu.

O da rədd etməyə cürət etmədiyindən başını yellədi.

– Lap yaxşı. Gedək mənimlə, əziz qonaqlar. Orda elə bir stol açılıb ki.

– Gedək, – Dronqo ümidsizcəsinə rus dilində dedi. Belə bir şən gürcü bütün əməliyyatı məhv edə bilər. O həm də digər tərəfin əməliyyatını da uğurla puç etdi.

– Siz rus dilində kifayət qədər yaxşı danışırsınız, – Tamara özünü saxlaya bilməyib onu sancdı.

– Sizin vasitənizlə tanışınız Ruruaya salam göndərmək üçün öyrənmək məcburiyyətində qaldım, – o da cavabından qalmadı.

Onlar bir-birilərinə baxıb bərkdən güldülər.

Onların nəyə güldüklərini anlamayan Aftandilin əhvalı bir az da qalxdı.

– Bizə gedək, elə bir məclis quracağam ki!

Liftdə Dronqo susurdu. Tamara Aftandildən soruşdu:

– Bəs nə vaxt qayıdacağıq? Gec?

– Qorxma, – Aftandil bərkdən dedi, – hamıya deyəcəyəm ki, mənim yanımda olmusan, reputasiyana xələl gəlməz.

Görünür, o daha nəsə deyəcəkdi, ona görə Tamara “çox sağ ol” deyib qorxmuş halda susdu.

Liftin çıxışında mehmanxananın direktoru və bir neçə inzibati işçi dayanmışdı. Sahə müvəkkili də burdaydı. Aftandili görüb ona hərbi salam verdi.

– A-a, – Aftandil ona əlini yellədi, – mənim dostumu nömrədə az qala öldürəcəkdilər, sənsə hardasa yatırdın. Səni burdan qovmaq lazımdır.

O, gürcü dilində daha nə dedisə direktorla digərlərinin gərginlikdən üzü dartındı.

Dronqo diqqət yetirdi ki, hətta daim yuxulu olan gözətçilər belə “farağat” vəziyyətində dayanmışdılar. “Aftandilin yaxşı avtoriteti var, – o düşündü, – əgər onu mehmanxanada belə qarşılayırlarsa. Tamara da onun acı dilindən yaman qorxur. Maraqlıdır, görəsən o nə işlə məşğul olur?”

Onlar mehmanxanadan çıxdılar. Binanın qarşısında, düz qapının ağzında nə vaxtsa ölkədə ali hakimiyyət rəmzi olan böyük, qara “Çayka”, öndəsə içərisində iki DYM

əməkdaşı olan "Jiquli" dayanmışdı. Onlar Aftandili görər-görməz maşından sıçrayıb ona hərbi təzim etdilər.

"Nə baş verir? – Dronqo yenə düşündü. – Bütün bu tamaşa bir məzhəkəyə oxşayır".

Artıq maşında o, Tamaraya tərəf əyildi.

– Nə baş verir? – yenə ingiliscə soruşdu. – Bu Aftandil kimdir?

Qadın ilk dəfə olaraq Dronqoya maraqla nəzər saldı.

– Siz doğrudan bilmirsiniz? – o soruşdu. – Bu ki bizim baş nazirimizdir. O, Acarıstan Nazirlər Şurasının sədridir.

## XV HİSSƏ

Mixeyevin əməkdaşları Xotivarinin adamlarının mehmanxanada işləyən bütün "gecə kəpənəklərini" sorğu-sual etmək istiqamətində göstərdikləri böyük aktivliyə çoxdan diqqət yetirmişdilər. Burdan belə nəticə çıxarmaq olardı ki, ola bilsin Moseşvilinin yanına qadın gəlib. Bu, onun mehmanxanaya gəlişinin məntiqlə ən düzgün izahlarından biriydi. Amma Cinayət-Axtarış İdarəsi

əməkdaşlarının quldurları demək olar ki, qarabaqara izləmələrinə baxmayaraq, nə birincilər, nə də ikincilər nəsə tapmağa nail olmamışdılar.

Çijov və Mixeyev həmin gün işləyən növbətçiləri, inzibati işçiləri, xadimələri, bufetçiləri, gözətçiləri, əlavə işçilərin hamısını sorğu-sual etmək üçün səhər tezdən əsl qrafik tutmuşdular. Həmin gecə gələn taksi sürücüsü də yeni bir şey deyə bilmədi. Onu sadəcə olaraq zənglə çağırıb deyiblər ki, Şeremetyevoya getmək lazımdır. Aeroportda ətraflı yoxlama da heç bir nəticə vermədi. Səhərlər Şeremetyevo-1 və Şeremetyevo-2-dən çox sayda təyyarələr uçurdu. Bu, uçuşun ən pik vaxtıydı; və Moseşvilinin hansı təyyarəyə oturmaq istəməsini – ümumiyyətlə, belə bir istək olubsa – təyin etmək qeyri-mümkün idi. Bitməz-tükənməz, yorucu və ümumi mənzərəyə heç nə qatmayan istintaq davam edirdi.

Gözlənilməz informasiyanı polkovnik Dmitriyevin zabitləri verdilər. Əvvəla, onlar təyin etdilər ki, firmadan heç bir vergi orqanında qeydə alınmadan milyonlarla rubl keçirmiş.

İkincisi, tamamilə dəqiqliklə təyin olundu ki, firmaya məxsus bir sıra kazinolar "çirkli pulların" yuyulmasıyla məşğul imiş. Və nəhayət, üçüncüsü, kompüter çıxarışlarından belə məlum oldu ki, Moseşvili öldürüldüyü gün "Kontinental Bank"dakı hesabından təqribən beş yüz min dollar məbləğində pul götürüb.

Qarət versiyası adi sxemə uyğun gəlmirdi, mərhum həddən artıq tanınmış avtoritet idi. Amma onun da üzərində işləmək lazım idi. Banka Çijov, Mixeyev və Steklov getdilər.

Onların gəlişi haqda xəbərdar edilmiş vitse-prezident Novikov gələnləri elə küçədə qarşılayıb nəzakətlə ofisinə dəvət etdi. Onlara qəhvə təklif edib bütün suallarına cavab verməyə razılaşdı. Özünü elə göstərirdi ki, guya gizləyəcəyi bir şey yoxdur. Novikov vətəndaş Moseşviliyə beş yüz min dollar nağd pulun verildiyi faktını təsdiqlədi. Amma Moseşvili pulun arxasınca tək gəlməyibmiş. Novikov əmin edirdi ki, onun yanında ən azı beş nəfər köməkçisi və işçiləri var idi. Onlar iki maşında gəlib pulu götürüb sakitcə çıxıb gediblər.

– Siz öz müştərilərinizə tez-tez bu qədər pul verirsiniz? – Çijov özünü saxlaya bilmədi. – Belə böyük məbləğdə?

– Demək olar ki, vermirik, – Novikov göz qırpmadan cavab verdi, – sadəcə olaraq vətəndaş Moseşvili bizim məşhur müştərimiz idi. Ona tamamilə etibar edirdik.

– Bəs hökumət qərarı necə olsun, – Mixeyev soruşdu, – böyük məbləğdə nağd yolla əməliyyat aparmaq qadağandır. Sizə elə gəlmir ki, qanunu pozursunuz?

Novikovun gözləri böyüdü.

– Biz heç vaxt qanunu pozmuruq, – o, əminliklə dedi, – bizdə hökumət izni var ki, ödəmələrin bir hissəsini nağd yolla həyata keçirək. Biz Moskvanın bir çox müəssisələrinə maaş veririk.

– Əlbəttə, – Mixeyev kinayəylə dedi, – siz Moskva merliyi ilə elə dostsunuz ki...

Bu dəfə Novikov heç bir cavab vermədi.

Əslində pulun verilməsinin təsdiqindən sonra getmək olardı. Burda daha nəsə tapmaq çətin olardı. Bankda işləyənlərin hamısı Moseşvilini tanıyırdı və onun bu gecə

"Ukrayna" mehmanxanasında tək qalacağı kassirlərdən və ya bankın işçilərindən kiminsə ağlına gələ bilməzdi. Qarət haqda versiya adətən eşitdiklərinin çərçivəsinə sığmırdı. Bunun üçün həddən artıq sayda mənfur təsadüflər olmalıydı. Və ən azından qarətçilər içində otuz min dollardan artıq pul olan bağlı çamadanları orda qoyub getməzdilər.

Onlar küçəyə çıxanda Çijov "Kontinental Bank"ın yerləşdiyi nəhəng binaya bir daha baxdı. Mixeyev ondan sakitcə soruşdu:

– Bankın sahibinin kim olduğunu bilirsən?

– Məncə, Sarkisyan. Mən dəqiqləşdirmişəm, – Çijov etiraf etdi.

– Aha, həmin Artur Sarkisyan, – Mixeyev Çijova göz vurdu.

– Sizcə, qətlin müəmmalı sifarişçisi odur?

– Məncə, yox. Onların Moseşviliylə yaxşı işgüzar münasibətləri var idi. Həm də belə zəngin bir müştərini niyə öldürsün ki? Bu, hələ ki, bizim ehtimalımızdır. Amma Moseşvili doğrudan da, həmin gün pul götürüb.

Mixeyevin kabinetinə qayıdandan sonra öyrəndilər ki, Semyonovanın qonşusu həmin gün hündürboy, naməlum kişi görüb. Onun daim ətrafa baxması qonşuya qəribə gəlib. Təcili DİI-ə gətirilən hürkmüş qadın fotorobotun hazırlanmasına kömək etməyə razılaşıb.

Amma bu, xəyali şans idi. İstintaqın ikinci günü, nəhayət, Avdeyevanı tapanda onlara elə gəlirdi ki, heç bir şansları yoxdur.

Avdeyeva həmin mərtəbədə xadimə işləyirdi və o gün işdən adəti üzrə olduğundan xeyli tez çıxmışdı. Şahid qismində sorğu-suala çağırılan qadın Mixeyev və Çijovun əsəbiləşdiyini sezmədən vicdanla növbətçilərin, xadimələrin, inzibati işçilərin işindən danışdı.

– Yaxşı, – nəhayət, Mixeyev dedi, – bütün bunlar çox maraqlıdır. Bəs siz həmin gün “lüks” nömrəsini yığışdırmamışdınız?

– O adamı bıçaqladıqları yeri? – Avdeyeva dəqiqləşdirdi.

– Onu bıçaqlamayıblar, amma bunun əhəmiyyəti yoxdur. Siz o gün həmin nömrəni yığışdırmışdınız?

– Əlbəttə, yığışdırmışdım. Sahibi nömrədəydi. Çox ciddi, vahiməli adam idi.

– Onun ciddi olmağını nədən bildiniz?

– Telefonda kiməsə qışqırırdı. Deyirdi, tək qalmaq istəyir, guya adamlar ona lazım deyilmiş.

– Belə də dedi? – Çijov maraqlandı.

– Hə, əzizim, belə dedi. O, kabinetdəydi, masa arxasında oturmuşdu. Mənsə vanna otağında zibil yığırdım.

– Gözləyin, – Mixeyev dəqiqləşdirdi, – o deyirdi ki, tək qalmaq istəyir. Siz daha nə eşitmisiniz?

– Sonra o, həlak olan növbətçi qadına zəng etdi. Yazıq, yaxşı qadın idi. Ona belə dedi: mənə Şeremetyevoya getməyə taksi lazımdır. Sifariş ver, qonağım aeroporta gedəcək.

– O, qonaq dedi? – Mixeyev həyəcanlandı. Çijov birdən hiss etdi ki, onların şansı yaranıb.

– Qonaq, – qadın təsdiqlədi, – dəqiq yadımdadır. Sonra yenə də harasa uzun-uzadı zəng edib söydü. Hansısa Ryaboy haqda danışırdılar, amma bunu mən artıq nömrədən çıxdığıma görə eşidə bilmədim. Yemək otağında iki gənc

qafqazlı oturmuşdu. Hətta biri “çay pulu” olaraq mənə beşminlik verdi.

– Görünür, mühafizəçiymiş, – Mixeyev başını tərpətdi, – bəs yadınızda deyil, o, nömrəni nə qədər müddətə yığdı? Orda çox rəqəm var idi?

– Çox? – qadın fikrə getdi. – Hə, deyəsən, çox. Dəqiq yadımda deyil.

– Steklov, – Mixeyev selektorla öz əməkdaşını çağırdı, – cəld “lüks” nömrəsindən olan telefon danışıqlarını yoxlayın. Nə vaxt və kiminlə danışıldığını dəqiqləşdirin.

– Başqa heç nə xatırlamırsınız? – Çijov soruşdu.

– Hər şeyi xatırlayıram, – qadın sevinən kimi oldu, – daha nə danışmaq lazımdır ki?

– Çox sağ olun, – Mixeyev onun çiyinlərini qucaqladı, – siz bizə çox kömək etdiniz, – o, ehtiyatla qadını qapıya ötürdü. – Sağ olun, – Mixeyev səmimiyyətlə dedi.

Qapı onun arxasınca bağlanandan sonra Mixeyev masanın arxasına keçdi.

– Bu çox maraqlı andır, – o, cibindən siqaret qutusunu çıxararaq dedi. Sonra düşünüb qutunu divan tərəfə atdı.

– Başa düşürsən, biz bu nüansı nəzərə ala bilməzdik, – Mixeyev kabinet boyu var-gəl edirdi, – o, öz peyk telefonuyla danışmayıb, adi şəhər telefonuyla danışıb. Yəqin qorxub ki, telefonu dinlənilə bilər. Və bu “qonaq” sözü. Deməli, Xotivari və adamları da səhv ediblər. Moseşvili həmin gün qadın yox, qonaq gözləyirmiş. Əgər gələn qonaq həmin qatil imişsə, deməli, o, mehmanxanadan çıxıb, taksiyə oturub Şeremeyevoya gedə bilərmiş. İndi onu axtar. Deməli, qonaq gəlməyib. Və ya daha pis. Gəlib amma taksiyə oturmamağa qərar verib. Bəs niyə? Başa düşürsən, necə bir vəziyyət yaranır? Bizsə bu qadını ümumiyyətlə, hesaba almırdıq, hətta onu dindirməyə çağırmaq istəmirdik. Həmin gün o təqribən gündüz saat üçdə gedib. Və belə bir təsadüf – bu söhbəti məhz o eşidib.

Steklov əlində kağızla gəlib çıxdı.

– Gözlərindən görürəm ki, yaxşı xəbərlə gəlmisən, – Mixeyev ona baxdı.

– Hə, – Steklov həyəcanla dedi, – bu da çıxarış. Şəhər üzrə zəngləri əlbəttə ki, qeydə almayıblar. Amma beynəlxalq zənglər qeyd olunub. O, bir neçə dəfə Nyu-

Yorka zəng edib. Mən öyrəndim: bu, Bruklin və Manhettenin kodudur. Bu da telefonlar.

– Ryaboy, – Mixeyev telefonları oxuyaraq düşüncəli şəkildə dedi.

– Bunun kim olduğunu bilirsiniz? – Çijov soruşdu.

– Hə, zamanında Moskvanın ən məşhur avtoritetlərindən biri olub. Daha sonra xaricə getdi. Deyirlər, "oğru"ların keçən il Belçikadakı toplanışını o təşkil edib. Əgər bu Ryaboydursa, onda hər şey uyğun gəlir. Onun xətti çox sərtdir. Zamanında çox qanımızı qaraldıb. Bilirsən, hələ nə qədər killer ona işləyir? Hərçənd, telefonları yenə yoxlamaq lazım gələcək.

– Amerikaya kimisə ezam edəcəksiniz? – Çijov gülümsədi. – Sizcə, rəhbərlik pul verəcək?

– Əlbəttə, yox, verməyəcək. Elə burdan yoxlamaq lazımdır. Bəlkə bizim səfirliyə zəng edək?

– Onlar Vaşinqtondadır, – Çijov dəqiqləşdirdi. O daha məlumatlıydı.

– Bilirəm, – Mixeyev sarkazmı sezmədi, – amma Nyu-Yorkda bizim BMT yanında nümayəndəliyimiz var. Bəlkə onlar yoxlaya bilərlər? Necə düşünürsən?

– Onlar bizim işə can yandırmazlar, – Çijov inamsızlıqla başını buladı, – həm də biz onlara nə deyəcəyik? Yoxlayın görün, Ryaboyun telefon nömrəsi neçədir? Onlar sadəcə olaraq, bizə güləcəklər, vəssalam.

– Qəribədir, – Mixeyev düşüncəli tərzdə dedi, – Mixo və Ryaboyu nə birləşdirir? Onlar müxtəlif qruplaşmalara nəzarət edirdilər. Hətta son zamanlar bir-birilə düşmənçilik də aparırdılar. Aydın deyil. Moseşvilinin belə böyük məbləğdə pul nəyinə lazım imiş? Kiminləsə Nyu-Yorka göndərmək istəyirmiş? Bəs niyə nömrədə tək olub? Heç kim bilməsin deyə. Bəs özününkülərdən niyə gizlədib? Onlar üçün bu adi haldır – pul aparıb gətirmək. Başa düşürsən, mən hiss edirəm ki, burda ayrı nəsə var. Lənət şeytana, bu telefonları necə yoxlayaq?

– Bəlkə Federal Təhqiqat Komitəsindən xahiş edək? – Çijov ehtiyatla təklif etdi.

– Onlar bir il yoxlayacaqlar. Əvvəlcə sənədləşdirmək üçün bütün kağızları istəyəcəklər, sonra lazımi instansiyaları keçməyi, rəhbərliyin icazəsini almaq, razılaşdırmaq və s... Doxsan birin avqustunda bilirsən, onları necə qorxudublar, hələ də özlərinə gələ bilməyiblər. Hər zaman necə yaxşı "demokrat" olduqlarını sübut etməyə çalışırlar. Bu isə artıq dövlət təhlükəsizliyi deyil, qarmaqarışıqlıqdır. Yox, onlar bizə yaramaz.

– Bəlkə XİN kömək edə bilər? Onların yəqin ki, təhlükəsizlik məsələləri üzrə əməkdaşları var, – Steklov sakitcə təklif etdi.

– Bu hamısından pisdir, – Mixeyev əlini yellədi, – ancaq camaatı qorxudub hər şeyi korlayacaqlar. Nəsə fikirləşmək lazımdır. Bax indi Amerika polisində olmadığına heyifsilənirsən. Bir iş olan kimi ora və geriyə təyyarəyə oturursan. Hər şeyi aydınlaşdırıb qayıdırsan. Gözəllik.

– Onlarda da hər şeyin belə sadə olduğuna inanmıram, – Çijov şübhəylə dedi, – sərhəddir, başqa dövlətdir.

– Heç olmasa pulları var, – Mixeyev ümidsizcəsinə cavab verdi, – yaxşı, gəlin ağlamayaq. Bizim artıq nəyimiz var? Moseşvilinin naməlum gecə qonağı. Mixonun Nyu-Yorka, özü də müxtəlif nömrələrə zəngi. Onun bankdan aldığı böyük məbləğdə pul. İndi bütün bunları bir yerə toplayanda vətəndaş Moseşvilinin qətli alınır. Naməlum adamla bərabərləşmək. Kim və nə üçün öldürüb? Deyəsən, mən nə etməli olduğumuzu tapmışam. Bu yaramaz Xotivarinin nömrəsi hanı?

– Mən yazmışdım, – Çijov yazı kitabçasını çıxardı.

– Sən də yazmısan? – Mixeyev Steklovdan soruşdu.

– Yox. Mən əzbər bilirəm.

– Bu başqa məsələ. O tipin nömrəsini yığ.

Steklov dəstəyi qaldırıb nömrəni yığdı.

– Vətəndaş Xotivari? – Mixeyevin səsi gurladı. – Sizi hansısa Konstantin Mixeyev narahat edir. Beləsini tanıyırsınız? Lap yaxşı. Təcili sizin köməyiniz lazımdır. Hə, düz eşitdiniz – kömək. Söz verirəm ki, peşman olmayacaqsınız. Nə vaxt gələ bilərsiniz? Çox sağ olun.

Yarım saatdan sonra gələcək, – o, dəstəyi qoyandan sonra dedi.

– Sizcə, o, bizə kömək edəcək? – Çijov soruşdu.

– Mütləq. Görərsən. Məmnuniyyətlə kömək edəcək. Hə, Viktor təcili harasa qaç, buterbrodları gətir. Acından ölürəm.

Steklov buterbrodları gətirənə, onlar şam edənə kimi yarım saat keçdi. Xotivari düz vaxtında gəldi.

– Nə olub? – O, ikrahla soruşdu. – Niyə çağırmısınız?

– Əyləşin, əziz Quram Valerianoviç, – Mixeyev onu dəvət etdi, – bizim sizinlə vacib və məxfi işimiz var.

– Bura bax, zarafat eləmə, – Xotivari son sözləri başa düşməyib acıqlandı, – niyə çağırmısan?

– Vacib iş üçün, batono, çox vacib iş üçün, – Mixeyev Steklova göz vurdu. O, kabinetdən çıxdı.

– Deyəsən, biz sizin dostunuzun qatilini tapırıq, – Mixeyev qısaca bildirdi, – görürsən, sizin dinləyici aparatlar olmadan da pis işləmirik.

– Hansı aparat? – Xotivari özünü itirmədi, – başa düşmürəm, nə haqda danışırsan.

– Lap yaxşı başa düşürsən. Amma indi bunun əhəmiyyəti yoxdur. Təkrar edirəm, biz Moseşvilinin qatilinə çıxırıq. İndi bizə bir informasiya lazımdır. Düşünürəm ki, siz onu bizim üçün təşkil edə bilərsiniz.

– Mən? – Xotivari təəccübləndi. – Məni kim hesab edirsiniz? Elə bilirsiniz, yoldaşlarımı ələ verib sizə nəsə danışaram?

– Nə danışırsınız, – Mixeyev başını buladı, – bəyəm mən sizin haqqınızda elə pis fikirdə ola bilərəm? Özü də sözləri təhrif etməyin. Siz rusca çox gözəl danışırsınız. Məsələn, rayon prokuroruna zəng edəndə. Dinləmək belə xoş gəlir. Amma bunu sözgəlişi dedim. İndi əsas məsələ. Mənim sizin üçün çox vacib məlumatım var. Təkrar edirəm, çox vacib. Mən onu sizin ixtiyarınıza verməyə hazıram, əgər siz də öz növbənizdə mənə kömək edəcəksinizsə.

– Satın almaq istəyirsiniz? – Xotivari yaylıq çıxarıb alnını sildi.

– Yox, öz malımı baha satmaq istəyirəm, – Mixeyev cavab verdi, – görürsünüz, prokurorluq da burdadır, – o, Çijovu göstərdi, – o da razılıq verir. Hə, alınar?

– Mənə hansı məlumatı verəcəksiniz?

– Ən yaxşısını. Amma sizinkinin əvəzində. Və yalnız siz razılaşandan sonra.

– Bəlkə siz məni aldadırsınız?

– Quram Valerianoviç, – Mixeyev əlini yellədi, – mən neçə ildir, burdayam. İstənilən adamdan soruşun, görün həyatımda kimisə aldatmışam? Hansısa məhbusu, lap quldurlardan kimisə. Sizə deyəcəklər ki, belə bir adam yoxdur.

Çijov təbəssümünü gizlətdi. Xotivari ona yönəlmiş təhqiri anlamadı.

“Gözəl danışırsan”, – Xotivari düşündü.

– Yaxşı, de görək, nə etmək lazımdır. Amma əgər aldatsan, mənə borclu olacaqsan.

– Bəsdir, – birdən Mixeyev dedi, – özünüz, bilirsiniz ki, necə dedimsə, elə də olacaq. Alver etmək lazım deyil. Burda iki telefon nömrəsi var. Mən bilmək istəyirəm ki, onlar kimə məxsusdur. Elə indi. Öyrənə bilərsiniz? Yoxsa siz artıq bu nömrələri bilirsiniz? Rahat danışın, çətin ki mən

yaxın yüz ildə Amerikaya gedə bilim. Mənim məlumatımsa doğrudan da, dəyərlidir.

– Deyəsən, birini bilirəm, – Xotivari gözünü qıydı, – bu bizim Nyu-Yorkdakı bir tanışımızın ofisinin nömrəsidir.

– Ryaboyun? – Mixeyev dəqiqləşdirdi.

Xotivari qorxdu. Nəzərə çarpacaq dərəcədə qorxdu, rəngi ağardı, ətrafa boylandı.

– Ryaboyun bura nə dəxli? – O, nədənsə çox yavaşca soruşdu. – Mən onun haqqında ümumiyyətlə, eşitməmişəm.

– Kimin nömrəsidir?

– Vaxtanq Stomboloşvilinin, bizim dostumuzdur.

– Hansı?

– İkinci. Bax bu, 212 koduyla başlayan. O birinisə bilmirəm.

– Amma mən bilirəm, – Mixeyev dedi, – bu, Ryaboyun Bruklindəki nömrəsidir. Doğrudur?

– Ola bilər.

– Elədir, ya yox?

– Ola bilər, – Xotivari inadla cavab verdi.

– Hə, – Mixeyev qutunu axtardı, onu stolun üstündə tapıb bir siqaret çıxardı və yenə dedi: – Hə-ə-ə. Buna görə də sağ olun.

– Sizdə hansı məlumat var? – Xotivari cəld soruşdu.

– Birincisi, Moseşvilinin həmin gün bir qonağı olacaqdı, daha sizin axtardığınız kimi qadın yox.

– Hardan bilirsiniz? – Xotivari soruşdu.

– Bilirik, – Mixeyev çoxmənalı tərzdə cavab verdi, – bundan başqa o, həmin gün Ryaboya zəng edib. Sözləri çəp gəlib. Sizin Nyu-Yorkdakı tanışınızla da danışıb. Bilmirsiniz, niyə mübahisə ediblər?

– Yox. – Görünür, bu, Xotivari üçün son dərəcə xoşagəlməz mövzuydu, o heç danışmaq belə istəmirdi.

– Bu da bizim bildiklərimiz. Kifayətdir? – Xotivari sakitcə ayağa durdu. Daha heç bir söz demədi. Sadəcə olaraq kabinetdən çıxıb qapını çox ehtiyatla bağladı.

Mixeyev Steklova zəng etdi.

– Cəld bizim məlumatlarımıza görə yoxla. Vaxtanq Stombolişvili. Bizdən keçib, yoxsa yox. Ən qısa zamanda. Xotivari xarici müşahidə altındadır?

– Səhərdən, – Steklov cavab verdi, – telefonunu da dinləyirik.

“Yenə hər şeyi əvvəldən hazırlayıb, – Çijov məyusluqla düşündü, – həmişə belədir. Əvvəl edir, sonra deyir”.

Mixeyev selektor aparatının dəstəyini yerinə qoydu.

– Axı ürəyimə damıb ki, bu işə görə başımız hələ çox ağrıyacaq! – dedi.

Xotivari DİI-nin binasından çıxıb maşına oturdu, telefonda nömrə yığıb demək olar ki, qışqırdı:

– Bu, Ryaboy imiş. Mən ki deyirdim, odur. Onun işidir.

– Hardan danışırsan? – naməlum səs soruşdu.

– Maşından.

– Gələrsən, danışarıq.

Beş dəqiqədən sonra Mixeyev artıq bu söhbət barədə bilirdi. Daha yarım saat sonra Xotivarini izləyən əməkdaşlar onun “Kontinental Bank”ın ofisinə istiqamətləndiyini öyrəndilər. Demək olar ki, dərhal onun ardınca üç maşının əhatəsində Rafael Bağırov gəldi. Beş dəqiqə sonra Arçil

Qogiya da gəldi. Onu iki maşın müşayiət edirdi. Bankın binasının yanında ümumilikdə iyirmiyə yaxın maşın dayanmışdı.

Bütün cəhdlərə baxmayaraq, Mixeyevin əməkdaşlarına bu söhbəti dinləmək müyəssər olmadı. Söhbətin getdiyi bina etibarlı müdafiə olunurdu. Detroytdan olan təcrübəli mühəndis otağı elə vibrasiyalı qurğularla təchiz etmişdi ki, onlar söhbəti nəinki yazmağa, heç dinləməyə də imkan vermirdi.

Otaqda bir neçə nəfər oturmuşdu. Hamı Xotivariyə baxırdı.

– Danış görək, nə baş verib? – Arçil Qogiya tələb etdi.

– Bu gün dəqiq öyrəndim ki, Mixo qonaq gözləyib. Görünür, bizim haqqında danışdığımız adamı. Və onun üçün burdan aldığı pulları hazırlayıbmış. Amma nə pulu, nə də həmin adamı daha heç kim görməyib. Mixo özüsə həmin gün həm Ryaboyla, həm də Vaxtanqla danışıb. Şahidlər deyirlər ki, Ryaboyla yaman mübahisələri olub.

– Bu məlumatlar hardandır? – Rafael Bağırov ehtiyatla soruşdu. – Bəlkə bütün bunlar sadəcə quramadır?

– Məlumatlar dəqiqdir, – Xotivari etiraz etdi. – Mixo doğrudan da Nyu-Yorkla danışıb.

– Bunu asanlıqla yoxlaya bilərik, – birdən küncdə oturmuş yekəburunlu, qafqazlı simalı kök kişi dedi. – İndi xahiş edərəm, Mixonun öz nömrəsindən kiminlə danışdığını aydınlaşdırarlar. O, otaqda dayanan adamlardan birini çağırıb ona yavaş səslə nəsə əmr etdi. Həmin adam səssizcə otaqdan çıxdı.

– Əgər təsdiq olunsa, – Arçil Qogiya təhdidlə dedi, – onlara göstərmək lazımdır ki, biz hər şeyi bilirik.

– Belə də edərik, – Xotivari başıyla təsdiqlədi.

– Məncə, biz ehtiyatlı olmalıyıq, – Bağırov dedi, – çeçen müharibəsindən sonra burda əhvali-ruhiyyə onsuz da yaxşı deyil.

– Düzdür, – kök cənab ona dəstək verdi. Bu, “Kontinental Bank”ın sahibi Artur Sarkisyan idi. – Çox gözə girmək lazım deyil. Onsuz da situasiyanı çətinliklə nəzarətdə saxlayırıq.

– Mixonu kimin öldürdüyünü dəqiq öyrənmək lazımdır! – Qogiya yumruğunu stola çırpdı. – Əgər həmin

gün Mixo doğrudan da, Nyu-Yorkla danışıb və Ryaboyla mübahisə edibsə, deməli, artıq nəsə hiss edib. Rəhmətliyin hissiyyatı bizdən güclüydü. Əgər bu, Vaxtanqdırsa... O buna görə mənə cavab verəcək!

– Düşünürsünüz ki, Vaxtanq Mixonu Ryaboya satıb? – Bağırov dəqiqləşdirdi.

– Bilmirəm, – Qogiya əsəbi tərzdə cavab verdi, – bəs onda niyə Vaxtanq yalan danışır? O, mənə demişdi ki, son günlər Mixoyla danışmayıb. Həmin adam və pul haqdasa bizdən başqa, yalnız Vaxtanq bilirdi. Bəlkə o elə hamımızı Ryaboya satmağa qərar verib? O daha yaxındır, rahat razılığa gəlmək olar.

Otağa kimsə girib Sarkisyana bir vərəq uzatdı.

– Hə, – Sarkisyan telefon nömrələrinə baxıb təsdiqlədi, – Quram haqlıdır. Mixo Vaxtanqa zəng edib və onunla on dəqiqə danışıb.

– Deməli, belə, – Qogiya qətiyyətlə dedi, – bu gün adamlarımı Nyu-Yorka göndərirəm.

– Mən belə də bilirdim, – Xotivari dedi, – bu Vaxtanq heç vaxt xoşuma gəlməmişdi.

– O, xırda fiqurdur, – Sarkisyan əlini yellədi, – bəs Ryaboyla nə edək? Axır vaxtlar Lazarev yaman həyasızlaşıb. Bilirsən, onun adamları mənim uşaqlarımı necə sıxır!

– Onun mərkəzi ofisi “Qamma Bank”dadır? – Qogiya soruşdu.

– Hə, – Sarkisyan dedi. – Heç bilmirsən, o necə qudurub. Bütün köşklər, bütün alverçilər ona vergi ödəyirlər. Onun adamları Mansurovun qrupuyla birlikdə bütün mehmanxanaları əxlaqsız qadınlarla doldurub xeyli pul qazanırlar. Bir şey olan kimi də bizim üstümüzə atırlar. Deyirlər ki, qafqazlılar günahkardır. İnsanları da bizə qarşı çevirirlər.

– Bu gün “əlaltı”ları “Qamma Banka” göndərərik, – Qogiya qətiyyətlə dedi, – hələ ki mən özümünküləri göndərəcəyəm. Qoy Mixonun qisasını alsınlar. Lazım olacağı təqdirdə siz də hazır olun. Onlar müharibəyə başlaya bilərlər. Özünüz düşünün, əgər Mixonu öldürüblərsə, bizdən hər birimizi öldürə bilərlər. İnsanlar tamam ağıllarını itiriblər. Onları yerinə otuzdurmaq lazımdır.

– Bəs Ryaboy öyrənsə, onda necə? – Sarkisyan tərəddüd etdi.

– Qoy öyrənsin, – Qogiya qəzəbləndi, – qorxaq olmaq hamısından pisdir. Qoy onda müharibə başlasın.

– Gəlin, belə edək, – Bağırovun barmağında böyük üzük parıldadı. Mərhum Moseşvilinin üzüyü də bu cür idi. Bu üç nadir üzük Braziliyada misli görünməmiş bir qiymətə alınıb Moseşvili, Bağırov və Sarkisyana hədiyyə edilmişdi. Sonuncu üzük taxmağı xoşlamırdı. Onlar onun koppuş barmaqlarını sıxırdı. Zahirən üzüklər heç nəylə fərqlənmirdi. Yalnız təcrübəli zərgər onların həqiqi dəyərini bilə bilərdi. – Hələ ki çox ehtiyatlı, belə demək mümkünsə, önləyici zərbə endirək. Qoy onlar anlasınlar ki, biz narazıyıq. Ryaboyun yanınasa əməkdaşlıq təklifiylə bir adam göndərək. Qoy bilsin ki, biz müharibə istəmirik. Əgər istəməsələr, – o, əllərini geniş açdı, – mənim adamım kifayət qədərdir.

– Razıyam, – Sarkisyan cəld dedi, – sizin fikir yürütməyiniz mənim həmişə xoşuma gəlir, – o, Bağırova müraciətlə əlavə etdi.

– Qoy elə olsun, – Qogiya həvəssiz qeyd etdi.

– Doğru fikirdir, – Xotivari belə qərara gəlmişdi ki, nə qədər ki Qogiya Mixonun yerini tutmayıb, onun danışmağa ixtiyarı var. Və birinci olmağa da şansı var.

– Daha bir problem var, – Sarkisyan narazılıqla xırıldadı. – Lazarev yenidən silah satmağa hazırlaşır. Qarabağa. – Bağırov və Sarkisyan baxışdılar.

– Yenə hər iki tərəfə? – Bağırov qəzəblə soruşdu.

– Hə, – Sarkisyan məyusluqla başını tərpətdi, – otuz faizini sizinkilərə. Onlar az pul təklif ediblər. Yetmişini də bizimkilərə. Bir fransız firması ödəyir.

– İt oğlu it! – Bağırov dedi, – bu qədər qan ona azlıq edir. Hər iki tərəfə silah satır. Əclaf!

– Guya siz hamınız bunu bilmirsiniz, – bayaqdan susaraq sanki qarşısındakı jurnalla məşğul olan adam dedi. Bu, Qara Vasiliydi. O, Lazarevlə çoxdan düşmənçilik, "Kontinental Bank"lasa əməkdaşlıq edən məşhur Moskvaətrafı qruplaşmanın liderlərindən biriydi.

– Nə haqda? – Qogiya başa düşmədi.

– Bu, bizim hökumətin rəsmi siyasətidir. Silahı hər iki tərəfə satır. Abxaziyada da, Qarabağda da. Hər şey

doğrudur, qoy qarayanızlar bir-birini öldürsünlər. Sizi nəzərdə tutmuram, əlbəttə.

– Qarayanızlar, – Bağırov kədərlə qeyd etdi, – yaxşı ki sən hər şeyi üzə deyirsən. Amma bir qədər yumşaldırsan. Ondan da pis sözlər deyirlər. Bəs sən bilirsən, ən ali üz tipi hansıdır? Bunu sənə heykəltəraş kimi deyirəm. Qafqaz üz tipi, Qafqaz irqi ağ adamlar arasında ən mükəmməli sayılır. Bu elmi faktdır. Hətta belə bir termin də var – "Qafqaz üz tipi".

– Nə fərqi var, – Vasili əlini yellədi, – mən bütün insanlara normal yanaşıram! Sadəcə, olduğu kimi dedim.

– Yaxşı, bu haqda danışmaq lazım deyil, – Qogiya qaşlarını çatdı. – Söhbətimizi burda bitirək.

Növbəti gün səhər saat 11-də "Qamma Bank"ın binasına iki maşın yaxınlaşdı. Orda Qogiyanın altı yaraqlısı var idi. Bankın inkassator maşını görünən kimi onlar müxtəlif istiqamətlərə yayıldılar.

İçində sürücü və mühafizəçi olan inkassator avtobusu binaya yaxınlaşarkən yolunu yük maşını kəsdi. Onun kənarından keçməyə çalışan avtobus hasara ilişib qaldı. Elə

bu an hər iki tərəfdən maşınlardan maskalı adamlar düşdülər. Avtobusun şüşələri zirehliydi, amma pəncərələr açıq olduğundan hücum edənlər avtobusda oturan hər iki adamı ələ keçirdilər. Sürücü və mühafizəçi atəşə tutuldu. Qumbara partlayışı avtobusun qapılarından birini rəzəsindən çıxardı. Pulla dolu kisələri cəld gələn maşınlara yüklədilər. Bankdakı mühafizə nəhayət ki, özünə gəlməyə başladı və bir neçə nəfər binadan çıxaraq hücum edənlər tərəfə atəş açmağa cəhd göstərdi. Onlar da uzun avtomat daraqlarıyla cavab verdilər. Atəş səsləri səngiməyə başladı.

Hücum edənlər kisələri yükləyib başa çatdırarkən hadisə yerinə daha iki maşın gəlib çıxdı. Onun içindən sıçrayan bir neçə nəfər hücum edənlər tərəfə atəş açmağa başladı. Birdən maskadakı adamlardan biri başını tutaraq yerə yıxıldı. Onun yoldaşı sonuncu kisəni atıb maşına qaçarkən ayağından vuruldu və son anda özünü uzaqlaşmaqda olan "Mersedesin" arxa oturacağına ata bildi. Arxasınca daha bir neçə atəş açıldı.

Hər tərəfdə çığırtı, inilti səsləri gəlirdi. Bankın mühafizəçilərindən ikisi yüngül yaralanmışdı. Hamıdan

axırda gələnlər öldürülənə yaxınlaşıb onun maskasını çıxardılar.

Onlara laklı ayaqqabı geyinmiş daha bir adam yaxınlaşdı.

Hücum edənin cəsədini onun ayağına gətirdilər.

– Qafqazlılar, – kimsə deyərək yerə tüpürdü.

Öz mühafizəsiylə təsadüfən bankın yaxınlığında olan Boris Qriqoryeviç Lazarev ayağını azca kənara çəkdi. Başını qaldırıb uzaqlaşan avtomobillərin arxasınca baxdı.

– Yaxşı uşaqlar, hesablaşarıq, – o, qəzəblə vəd etdi.

Və artıq qarşısındakı cəsədə əhəmiyyət vermədən banka tərəf getdi.

## XVI HİSSƏ

Respublika prokurorluğunun Bakıdakı binasına daha bir qara rəngli "Volqa" yaxınlaşdı. Bu gün saat üçdə respublika prokuroru prokurorluğun kollegiyasını keçirirdi. Və ənənəyə görə bütün rayon və şəhər prokurorları, eləcə də

idarə rəhbərləri orda olmalıydılar. Hərçənd, yayda qara maşınlarda isti olsa da, prokurorlar məhz bu rəngi sevirdilər. Sanballılığına və ənənəyə görə. Qara "Volqa" hakimiyyət rəmzi sayılırdı. Baxmayaraq ki, Bakıda artıq "Mersedes", "BMW", "Volvo" və "Kraysler"in son modelləri çoxdan peyda olmuşdu, amma Qorki və ya indi adlandırıldığı kimi Nijni Novqorod avtomobil zavodunun maşınları hələ də geniş istifadə olunurdu. Və bu gün bu toplantıya gələnlər, əksəriyyətinin hətta "Rolls-Roys"un ən son modelini almağa gücü çatsa da, ənənəyə mütləq sadiq qalırdılar. Prokuror hakimiyyətinin nə olduğunu anlamaq üçün Bakıda yaşamaq gərəkdir. Bu, sərhədsiz və heç kim tərəfindən nəzarət olunmayan kef, ən təmiz və saf formada hakimiyyət, qüdrət və nəhayət, böyük pul deməkdir. Universitetə qəbul olunan hüquq fakültəsi tələbələri artıq özlərini prokuror kimi görürdülər. Yalnız prokuror, başqa heç nə. Prokurordan yüksəkdə rayonun birinci katibi ola bilərdi. Amma onun, prokurordan fərqli olaraq, başının üstündə çoxlu rəislər olurdu və ən pisi səhərdən axşama kimi işləməliydi. Rayon katibləri qalmayandan sonra prokuror hakimiyyəti

görünməmiş dərəcədə artmalıydı. Amma bütün Azərbaycan prokurorlarının bəxtindən belə olmadı.

Məlum olur ki, iqtisadi sərbəstlik insanları ən yaxşı qanunlardan və “demokratların” istənilən şüarlarından daha tez müstəqilləşdirir. İnsanlar pul qazanmağı öyrəndilər, bütün dünya boyu səyahət etmək imkanı əldə etdilər. Deməli, xoşuna gəlməyən prokurordan da uzaqlaşmaq olardı. Ya da deputat seçilib toxunulmazlıq hüququ alandan sonra prokurora əhəmiyyət verməmək də mümkündür. Ədalət naminə demək lazımdır ki, bu hal Rusiya üçün daha xarakterik idi və bir çox cinayətkarlar deputat mandatı əldə edəndən sonra qanunla üz-üzə gəlməkdən qaça bilirdilər.

Sovet İttifaqı dağılandan sonra hər şeyi avtomatlar həll etməyə başladı. Avtomatı olmayan prokurorlar hətta bir qədər miskin görünürdülər. Onlara sadəcə olaraq əhəmiyyət verilmədi. Daha çox sayda avtomata sahib olan daxili işlər naziriylə müdafiə naziri həlledici fiqura çevrildilər. Və əgər əvvəllər prokurorlar milis işçilərindən daha yüksək instansiya sayılırdılarsa, yenidənqurmadan sonrakı dövrdə bəzi dəyərlər yerini dəyişmişdi. Daha qanunlardan qorxmur,

onu saymır və yerinə yetirmirdilər. Və prokurorlar hakimlərlə birgə adi məhkəmə və prokurorluq məmurları sayılmağa başladılar. Amma avtomatlara hamı hörmət edirdi və Daxili İşlər Nazirliyi bir çox inkişaf etməkdə olan respublikalarda ən önəmli nazirlik olurdu.

Respublika prokurorları orta hesabla, hökumət və Prezidentlə birgə hər çevrilişdən sonra dəyişdiyindən hamıya aydın oldu ki, onlardan qorxmaq lazım deyil. Bu da prokurorluq işçilərinin maddi bazasını möhkəm şəkildə sarsıtdı. Amma rayonlarda ənənələr hələ də yaşayırdı və bir çox prokurorlar keçmiş günlərin dividentləriylə hələki pis yaşamırdılar.

Bu gün prezidiumda oturanların arasında respublika prokurorunun müavini Ənvər Vəliyev də var idi. Əhvalı çox pis idi. Respublika prokurorunun məruzəsini demək olar ki, dinləmədən son günlər baş verən hadisələr haqda düşünürdü. Təhqiqat şöbəsinin rəisi Kazımovun ona, cənub sərhədində, işğal altında olan Füzuli rayonunun demək olar ki, yaxınlığında çobanın öldürülməsi haqda danışmasından sonra yuxusu ərşə çəkilmişdi. Axı onu əmin etmişdilər ki,

heç nə olmayacaq. Bəlkə də o səhv edirdi, amma hər şey ən xırda detallara qədər üst-üstə düşürdü.

İki həftə əvvəl dostluq etdikləri şirkət sahiblərindən biri ona zəng etmişdi. Asif Paşayev respublikada, eləcə də, Zaqafqaziyada ən tanınmış və zəngin insanlardan biriydi. Vəliyev hələ, böyüklüyünə görə Azərbaycanın ikinci şəhəri olan Gəncədə prokurorluqlardan birinə rəhbərlik edərkən onunla tanış olmuşdu. O zaman Paşayev yerli sənaye nazirinin müaviniydi.

Zaman dəyişirdi, prezidentlər gəlib-gedirdi, çevrilişlər öz axarında, Asif Paşayevsə hələ də öz yerindəydi. Sanki respublikada baş verən hadisələrin ona dəxli yox idi. O, dişbatmaz idi. Bəlkə də bu hadisələri əvvəldən görə bildiyindən həm sağlara, həm sollara səxavətlə pul xərcləyirdi. Buna görə də hakimiyyətə gələn istənilən adam özünü ona borclu hesab edərək hər şıltaqlığına dözürdü. Respublikanın əsl sahibləri Paşayev kimi adamlar idi. Parlamentdə, hökumət evinin kuluarlarında qaynayan xırda ehtiraslar onları maraqlandırmırdı. Onlar, mahiyyətcə ölkənin bütün iqtisadiyyatına nəzarət edərək, daha geniş,

daha qlobal düşünürdülər. SSRİ dağılandan sonra bütün respublikaların, o cümlədən Rusiyanın da, dövlət qulluğunda olarkən mümkün olan və olmayan hər şeyi satıb ağlagəlməz dərəcədə var-dövlət sahibi olan öz nuvorişləri var idi. Cəmi bir və ya iki aya zəngin insana çevrilirdilər. Özəlləşdirmə işindən yalnız qazanmalı olan insanlar mənfəət götürürdü. Qalanlarısa birdəfəlik uduzurdu.

Məhz Vəliyevə zəng edən Paşayevin tapşırığıyla onun yanına yerli sənaye nazirinin müavini Sadıxov gəlmişdi. Guya lazımi adamların sərhədi keçməsi üçün beş buraxılışın alınmasını da Ənvər Mamedoviçdən məhz o xahiş etmişdi. Əgər Paşayev zəng edirdisə, sual vermək qəbul olunmamışdı. Vəliyev də DİN vasitəsilə beş təmiz blank hazırlayıb Sadıxova vermişdi.

Və indi Kazımov sərhədə doğru irəliləyən dəstə haqda, onların İran şəhəri olan Aslandüzə tərəf istiqamətlənməsi barədə danışarkən yadına düşdü ki, Sadıxov da həmin şəhərin adını çəkmişdi. Birtəhər dözüb Kazımov gedən kimi özünü telefonun üstünə atdı. Sadıxovun hökumət nömrəsini yığaraq onu dərhal söydü:

– Əclaf!

– Nə olub Ənvər müəllim? – Sadıxov ondan on yaş kiçik idi.

– Sərhədə buraxılışı kimə vermisən? Qatil dəstəsinə? Satqın, alçaq! Kimə işləyirsən?!

– Nə danışırsınız? – Sadıxov qorxdu. – Mən heç kimə işləmirəm. Sizin təmiz blankları mən şəxsən Paşayevin özünə vermişəm. Başqa heç nə bilmirəm.

– Yaxşı, – birdən hər şeyi başa düşən Vəliyev sakitləşdi, – bağışla məni. Deyəsən, mən haqlı deyiləm.

Dəstəyi yerinə qoyub uzun müddət dodağını dişləyərək oturdu. Paşayevin çirkin əlaqələri, qonşu respublikalarda ən gəlirli sahələrə nəzarət edən kriminal dostları haqda şayiələr onun da qulağına gəlib çatmışdı. Bura narkotik maddələr də daxil idi. Əvvəllər sovet sərhədləri olarkən, onlar Qafqaza ensiz arxlar şəklində sızırdılar. Sərhədlər dağılandan sonrasa bura dəhşətli, hər şeyi basıb keçən sel şəklində axışırdılar. Paşayevin belə əməliyyatlarda iştirakı olmasına inanmaq mümkün deyildi.

İnanmamaq olmazdı. Amma Asif Paşayevə qarşı getmək də olmazdı.

Bu əsl ölüm demək idi. Paşayev, respublika prokurorunun müavinini heç evdən çıxmadan belə məhv edə bilərdi. Bunun üçün dəstəyi götürüb lazımi adama zəng etmək kifayət idi. Vəliyev özü də mələk deyildi. O, təhqiqatı idarə edirdi, deməli, "kənar" pulların ən gəlirli sahəsi də ondaydı. Onun razılığıyla cinayət işləri bağlanır, cinayət axtarışının maddələri dəyişir, ən ağır cinayətlər ağır, onlar da öz növbəsində yüngül cinayətlə əvəzlənirdi. Bu zaman o yaxşı pul alırdı. Amma bu pullar başqa, Füzuli rayonu yaxınlığındakı dəstə başqa. Özü də necə dəstə! Erməni və azərbaycanlılardan olan yaramazlardan ibarət birləşmiş dəstə. Müharibə vaxtı. Yox, Vəliyev belə alçaqlığa gedə bilməz. Üstəlik, orda narkotik yük göndərilib. Bu əsl cinayət işidir.

Onun düşüncələrində qeyri-adi heç nə yox idi. Sovet hökuməti insanları riyakarlığa öyrətmişdi, bir çoxları belə hesab edirdi ki, öz xidməti işini yerinə yetirdiyinə görə alınan hədiyyə minnətdarlıq əlamətidir. Azərbaycan dilində

“rüşvət” sözü “hörmət” sözüylə əvəz olunmuşdu. Bu hörməti istisnasız olaraq, MİS müdirindən tutmuş baş nazirə kimi göstərmək lazım idi. Digər Zaqafqaziya və Orta Asiya respublikalarında da bunun eynisi baş verirdi.

Pozğun əxlaq, hökumət işindəki əməyinə görə zəruri “hörməti” qəbul edən rüşvətxorları hörmətli adamlara çevirmişdi. Heç kim bunda təhqiramiz və ya ayıb bir şey görmürdü. Amma narkotik alveri, çobanın öldürülməsi, sərhədi qanunsuz keçmək, müharibə vaxtı düşmənlə əlbir olmaq başqa məsələydi. Bu, rüsvayçı, hər cür töhmətə layiq və ən əsası qanunla cəzalandırılmalı işlər idi. Azərbaycandakı rüşvətxorların özünəməxsusluğu ondaydı ki, onlar tamamilə qanuni işlərə görə pul almaqdan başqa, heç bir qeyri-qanuni işlə məşğul olmurdular. Hakim rüşvət alaraq ədalətli hökm verir, prokuror doğru maddəni müəyyən edir, milis əməkdaşı adamı saxlanılmamalı yerdə saxlamır, gömrük komitəsi nümayəndəsi normativ aktlarla icazəsi olan yükü buraxır. Və bütün bunlara görə pul ödəmək lazım gəlir.

Amma sərhəddəki hadisələrdən xəbər tutan Vəliyev xoşagəlməz tərzdə heyrətlənmişdi. O, hələ də Paşayevin, qoca çobanın öldürülməsiylə bağlı çirkin hadisədə iştirakı olduğuna inanmaq istəmirdi. Xoşbəxtlikdən cəsədlərin üstündə heç bir sənəd tapılmadı. Ona görə o, kollegiyanın bitməsini gözləyə-gözləyə səbirsizliklə saata baxırdı. Kazımov ona müstəntiqin Beyləqana səfərinin necə bitməsi haqda məruzə etməliydi.

Respublika prokuroru uzun-uzadı danışdı. Zalda, kollegiya üzvlərindən başqa, parlamentin spikeri də oturduğundan o mümkün qədər yaxşı təəssürat yaratmaq istəyirdi. O, buna pis nail olurdu, spiker də harasa tələsirdi və əsəblə saatına baxaraq məruzənin bitməsini gözləyirdi.

Ümumi sözlər, öyüd-nəsihət, nəzarət funksiyalarının gücləndirilməsi tələbi – bunları yüz dəfə eşitmişdilər. Bəzi prokurorlar açıq-aşkar əsnəyirdilər. Arxada iki qoca ətrafdakılara fikir vermədən artıq xoruldayırdı.

Prezidiumda Vəliyevlə yanaşı oturan daxili işlər naziri əsəbi tərzdə saatına baxıb ona tərəf əyildi:

– Beləsinə necə dözürsünüz?

Vəliyev heç nə cavab vermədən yalnız gülümsədi. Respublika prokuroru nüfuzdan düşdükcə onun özünün, hər bir prokurorluq stajorunun xəyal etdiyi bu prestijli kreslonu tutmaq şansı artırdı.

Respublika prokuroru nəhayət ki, öz məruzəsini bitirdi və hamı onu dostca alqışladı. Kollegiyanı aparan kadrlar üzrə müavininin təklifinə görə hər bir adama beş dəqiqə vaxt verilirdi. Çıxış etmək istəyən çox idi – hamı müdiriyyət qarşısında fərqlənmək, özünü göstərmək istəyirdi. Daxili işlər naziri hər dəfə növbəti soyad çəkiləndə narazılıqla fısıldayırdı.

“İlahi, – Vəliyev düşündü, – bu nə vaxt bitəcək?” Onun gözləri Kazımovu axtardı. O da zalda oturub ağzını ovcuyla tutaraq ümidsizliklə əsnəyirdi. Kök Kazımov iclas zalının bərk stullarında kifayət qədər narahat idi.

“Maraqlıdır, görəsən onlar bu əcnəbilərlə nə haqda danışıblar, – Vəliyev düşündü, – ümumiyyətlə, Kazımov ağıllı adamdır, yaxşı bilir, nəyi danışmaq olar, nəyi yox”. Ona görə onu bu qədər dəyərləndirir. Bundan başqa

Kazımov çox gözəl analitik qabiliyyətə malikdir ki, bu da işdə çox kömək edir.

Beyləqanın prokuroru Rəhimov çıxış edirdi. Onun boyu balaca olduğundan, başı tribunadan güclə görünürdü. Lovğalığı və təkəbbürü bir az da artmışdı. O elə danışırdı ki, sanki yenə əvvəlki kimi Kommunist Partiyası Mərkəzi Komitəsinin təlimatçısıydı. Rəhimov kimi adamlar yeni kateqoriyalarla düşünməyi bacarmırdılar. Hamı bilirdi ki, bu balaca prokurorun yeganə məqsədi istənilən üsulla, baş nazir olan qohumunun bütün gücündən istifadə edərək Bakıda daha yüksək vəzifəyə təyin olunmaq idi. Bunu respublika prokuroru da bilirdi. O da belə gözəl qohumluq əlaqələri olan bu işəyaramaz Rəhimovu məhz hansı vəzifəyə təyin edə biləcəyini götür-qoy edirdi.

Kollegiyanın iclası saat doqquzda başa çatdı. Yorğun Vəliyev Kazımovu yanına çağırdı.

– Bu əcnəbilərlə iş nə yerdədir? – o, xeyirxahlıqla soruşdu, – görüşüb danışa bildiniz?

– Yox, – Kazımov cavab verdi, – onlarla müstəntiq Mirzə Cəfərov danışdı. Elə bu səhər Beyləqandan qayıdıb.

Vəliyevin qanı qaraldı. Bu heç cür onun planına daxil deyildi.

– Onunla söhbət edə bilmisiniz? – o, dəhlizə çıxaraq quru tərzdə maraqlandı. Kazımov onun arxasınca gedirdi.

– Hə, əlbəttə. Onu ora göndərməklə doğru hərəkət etdik. O, bu dəstənin həqiqətən mövcud olduğunun sübutunu tapıb. Beş nəfər sərhədə tərəf gedibmiş.

– Neçə nəfər? – Vəliyev yerişini azca ləngidərək soruşdu.

– Beş nəfər. Öldürülənlərin ikisi elə həmin dəstədəndir. Biri azərbaycanlı, digəri erməni. Mən ona əmr edəcəyəm, ətraflı məruzə etsin.

– Hə, hə, əlbəttə. – Vəliyev töyşüməyə başladı, hətta əlilə divara da toxundu.

– Özünüzü pis hiss edirsiniz? – Kazımov təəccübləndi. Vəliyev özünün idmançı bədəniylə onda həmişə xoş qibtə hissi oyadırdı.

– Eybi yox, indi keçəcək, – Vəliyev ah çəkdi, – bu əməliyyata rəhbərliyi gərək öz əlimə alım. Cəfərovda hansısa yekun nəticələr var?

– Belə görünür ki, var, özü də pis nəticələr deyil. – Kazımov heç cür başa düşmürdü ki, Vəliyev Cəfərovun səfəriylə niyə bu qədər maraqlanır. “Bəlkə Rəhimova görə? Birdən ağlına gəldi. – Yəqin bu əbləhi şəhərə keçirmək istəyirlər, ona görə mümkün qədər çox müsbət xallar toplanmalıdır. Hərçənd, Vəliyevdən bunu gözləmək olmaz, deyəsən o, Rəhimovu xoşlamır”.

Bu vaxt onlar pilləkəni tələsik çıxan Əhmədovu gördülər. Onun davranışında nə isə Kazımovu təşvişə saldı.

– Bizdə xoşagəlməz hadisə olub. – Görünür, Əhmədov heç vaxt həyəcanlanmırdı. O, ümumiyyətlə, öz işini sevmirdi, iş yoldaşlarına ikrahla yanaşır, qəbuluna düşən insanlara qarşı da laqeyd davranırdı.

– Nə olub? – Vəliyev soruşdu.

– İndicə DİN-dən zəng etmişdilər. Müstəntiq Mirzə Cəfərov öldürülüb. Səkkizinci kilometrdə tələyə düşüb, – Əhmədov bütün bunları öz sakit, yeknəsəq səsiylə bildirdi.

## XVII HİSSƏ

Aftandilin evindəki qonaqlıq, demək olar ki, səhərə qədər uzandı. Ev sahibi doğrudan da, qonaq qəbul etməyi bacarırmış. Burda elə yeməklər var idi ki, Dronqo onların mövcudluğundan ümumiyyətlə, xəbərsiz idi.

Onların üçündən başqa, masada daha on nəfər var idi və deyilən sağlıqların arası bir dəqiqə belə kəsilmirdi. Qonaqlar ev sahibiylə birgə mahnı oxumağa başlayanda – burda hamı öz notunu bilirdi, Dronqo bir qədər məyus oldu. “Belə bir xalqı bir-birinə qarşı qaldırıb öz həmvətənini öldürməyə məcbur ediblər. Bundan daha böyük müsibət ola bilərmi?”

Nəhayət, nahar bitəndən sonra səliqəli uşaqlar masaları bağda, ağacların altına düzdülər ki, qonaqlar orda çay içə bilsinlər. Batono Aftandil qonağı evin şüşəbəndinə apardı.

– Gör nə gözəldir, – o, aşağıda, dəniz qırağında yerləşən şəhəri göstərdi. Mənzərə doğrudan da, unudulmaz idi. Ağır iqtisadi vəziyyətə, elektrik enerjisinin çatışmazlığına baxmayaraq, şəhərdə işıqlar sayrışırdı. Onlar sanki bir-birilə səs-səsə verərək bütün Batuma qəribə bir

füsunkarlıq gətirirdi. İşıqlar o qədər də çox deyildi, amma bütün şəhərə səpələnib sahilboyu uzaqlara doğru uzanırdı.

– Doğrudan da, gözəldir, – Dronqo razılaşdı. O heç özünü elə göstərmək də istəmirdi ki, rus dilini pis bilir. Belə bir süfrədən sonra bu hətta ədəbsizlik olardı.

– Avstraliyalı jurnalist, – Aftandil kinayəylə dedi, – əgər sən avstraliyalısansa, onda mən Yeni Zellandiyadanam.

Dronqo gülümsədi. Qəlbi sakit və rahat idi.

– Belə hesab edək ki, siz məni ifşa etdiniz, – o, qocaya dedi.

– Nə fərqi var, – Aftandil əlini yellədi, – əgər sən casussansa, canın sağ olsun. Hərçənd, bizdə nəyin, hansı sirrin kəşfiyyatını aparmaq olar, bilmirəm. Əgər təhlükəsizlik xidmətindənsənsə, o da yaxşı. Nə istəyirsən elə, mənə dəxli yoxdur. Əsas odur ki, bizim adamları incitmə.

– Söz verirəm, – Dronqo ciddi tərzdə dedi.

– Davidlə çoxdan tanışsan? – Aftandil ondan soruşdu.

– Yox. Keçən il onun Moskvada itən oğlunu axtarmaqla məşğul olmuşam.

– Deməli, o sən idin, – Aftandil ona tərəf döndü, – qoy sənə bir də baxım. Yaxşı iş görmüsən, əzizim, çox yaxşı. Oğulu atasına qaytarmaq dünyada ən yaxşı işdir. Deməli, peşən bu imiş, – o anladı. Sonra susaraq dedi:

– Bilirsən, David haqda pis çox şey danışırlar. Amma sən inanma. O zəngin adamdır, bu doğrudur. Həm də zəhmətkeş adamdır. Yetmişinci illərdə Şevarnadze Gürcüstanda əsib-coşan vaxtlarda onun beş ədəd gizli sexi var idi. Orda elə məhsullar düzəldirdi ki, İngiltərədə həsəd aparırdılar. O vaxt onu buna görə həbs etmişdilər. İndisə tərifləyirlər, deyirlər, sahibkarlığı inkişaf etdirmək lazımdır. Şevarnadze özü də buna çağırır. Bax, bizdə hər şey belə dəyişib. Bizsə onunla çoxdan dostuq, əlli ilə yaxındır.

O bir qədər susub yenə davam etdi:

– Atalarımız birlikdə Polşada həlak olublar. Varşavanın alınması zamanı. Eyni gündə dəfn etdik. Elə o vaxtdan dostlaşdıq. Qonşu da olmuşuq – Tiflisdə bir məhəllədə yaşamışıq. Onun vəziyyəti pis olanda mənim yanıma gəlirdi, mənim çətinliyim olanda onun yanına gedirdim. Hələ də dostluq edirik. Mən onun haqda hər şeyi

bilirəm, əlaqələri, qardaşı Arçil haqda, onun işləri haqda. Heç nəyə baxmayaraq, onu qardaşım kimi sevirəm.

Dronqo susurdu. Aşağıda onun sabah qayıtmalı olduğu şəhərin seyrək işıqları sayrışırdı.

– Bilmirəm, niyə burdasan, – qoca davam etdi, – amma əgər gəlmisənsə, deməli, lazımdır. Tamarayla ehtiyatlı ol. O, Şalva Ruruanın adamıdır. Elə bilirsən, Ruruanın limanda nə işlərlə məşğul olduğunu bilmirəm? Lap yaxşı bilirəm. Və onu bir anın içində milçək kimi əzə bilərəm. Bəs sonra nə olacaq? Onun yerinə dərhal başqaları gələcək – daha acgöz və qəddar olanlar. Bu heç olmasa, nədənsə qorxur. Ümumiyyətlə, bütün bunlar, – o yenə gürcücə nəsə deyib sonra tərcümə etdi, – axmaqlıqdır. Bütün problemlərimiz Şalva Rurua kimi insanlarla olacaqsa, yaxşıdır. Biz axı şəhərimizdə sülhü çətinliklə bərqərar etmişik. Abxaziyada nələr baş verdiyini, Suxumidə necə bir qırğın olduğunu, Osetiyada nə qədər adamın həlak olduğunu özün bilirsən. Vətəndaş müharibəsi zamanı nə qədər adam itirdik... Hərdən elə çətin olurdu ki.

O, əlini şəhər istiqamətinə qaldıraraq gözlərini yumdu.

– Düşünürdüm ki, orda öləcəyəm, lənət şeytana, təki insanlar qaydasında olsun. Sadəcə insan olmaq elə çətindir ki. Axı bizim şəhərdə həm də erməni, azərbaycanlı, gürcü, osetin və abxazlar yaşayırlar. Təsəvvür edirsən, necə bir kokteyl alınır. Bir dostum Osetiyada partiya vilayət komitəsində işləyirdi. Osetin hadisələri başlayanda meydana çıxıb insanlardan xahiş etdi ki, dağılışsınlar. Amma onlar dinləmədilər, yan-yana getməyə davam etdilər. O isə başa düşürdü ki, bir az da keçsə, bir-birilərini elə şəhərdə öldürməyə başlayacaqlar. Onda kabinetə qayıdıb tapançasını götürərək küçəyə çıxdı və qışqırdı: dağılışın, yoxsa gözünüzün önündə başıma güllə çaxacağam. İşə yaradı, insanlar dağılışmağa başladı.

– O hələ də Osetiyada işləyir?

– Yox, onu dərhal işdən çıxardılar. Dedilər ki, belə iş görmək olmaz – sən kommunistsən, özün də əlində tapançayla küçəyə qaçmısan. Üç aydan sonra Osetin hadisələri başladı. Sonrasa onun yarı gürcü, yarı osetin olan

nəvəsi özünü güllələdi. Sadəcə olaraq, kimin tərəfində vuruşacağını bilmədiyinə görə. Osetin olan anası, yoxsa gürcü olan atası üçünmü. Suxumidə o qədər elə bədbəxtlər qaldı ki!

– Bu mənə tanışdır, – Dronqo sakitcə cavab verdi, – Azərbaycanda, Qarabağda görmüşəm.

– O haqda heç danışmıram. Orda minlərlə insan əziyyət çəkib. Orda o qədər erməni-azərbaycanlıdan ibarət qarışıq ailələr var idi ki. Elə yüz iki ailəni biz burda qəbul etmişik. Neçəsi dağılıb təsəvvür etmirəm.

– Batono Aftandil, siz ağıllı adamsınız. Doğrudanmı, bu heç vaxt bitməyəcək? Axı bütün bunlar ağılsızlıqdır. Doğrudanmı, insanlar əvvəlki kimi bir-birinə nifrət edəcəklər?

İçdiyi çaxır onu həmişəkindən daha çox danışdırırdı.

– Özünüz düşünün, bizim Qafqazımız nəyə çevrilib. O, belə də dedi – “bizim”. – Milyonlarla insan əzab çəkir, öz evindən qaçır. Minlərlə insan öldürülüb, on minlərlə yaralı var. Milyonlarla qaçqın var. Niyə? Nəyə görə? Kimsə buna görə cavab verəcək? Bizə deyirlər ki, günahkar Leninlə

Stalindir, iyirminci illərdə sərhədi pis çəkiblər. Amma onlar altmış ildi ki, yoxdurlar. Yaxşı, – o, sözünü düzəltdi, – Stalin qırx ildir ki, yoxdur. Amma o hələ də hər şeydə günahkardır. Bütün bunlar nə vaxt bitəcək? Deyirlər, biz vəhşiyik, ona görə bir-birimizi öldürürük. Amma sivil İngiltərədə, Şimali İrlandiyada katoliklər və protestantlar neçə illərdir, bir-birini öldürür. Onlarda da Stalin günahkardır? Yuqoslaviyada aydındır, günahkar tapdılar. İosip Broz Tito diktator olub. Bunlar nə vaxt bitəcək?

– Bilmirəm, – Aftandil məhəccərə söykənmiş halda cavab verdi, – heç nə bilmirəm. Bir şeyi bilirəm. Əgər sən öz evini sevirsənsə, bu o demək deyil ki, qonşunun evini yandırmalısan. Əgər öz xalqını sevirsənsə, bu o demək deyil ki, bütün digər xalqlar zibildir. Mənim fəlsəfəm belədir. Gedək çay içək, yoxsa bir az da danışsaq, mən ağlamağa başlayacağam. Vətəndaş müharibəsi zamanı Kutaisidə mənim oğlumu öldürüblər, – o içini çəkdi, – sən heç təsəvvür edə bilməzsən, bu necə böyük bir ağrıdır, necə böyük yaradır! Mənim oğlum burda, öz torpağında, bir gürcünün əlilə öldürülüb. Bundan daha dəhşətli nə ola bilər?

Bağdan qonaqların şən səsləri gəlirdi.

– Hərdən gecələr onu yuxuda görürəm, – Aftandil davam etdi, – sanki yanıma gəlib sənin kimi soruşur: nə üçün? Niyə biz gürcülər bir-birimizi öldürdük, ata? Və mən ona nə cavab verəcəyimi bilmirəm. Bax, belə yuxularım olur, əzizim. Ona görə sən Davidin oğlunu qaytaranda mən çox sevinirdim. Ona görə səni belə qəbul edirəm. Sən çox böyük iş görmüsən, demək olar ki, mələksən. Belə şeylər unudulmur. Kaş ki, kimsə mənim oğlumu da özümə qaytara biləydi...

O, birdən özünü saxlaya bilməyib ağladı.

– Bağışla, əzizim, bağışla məni, – Aftandil təkrar edirdi, – heç vaxt ağlamamışam, bu gün birinci dəfədir. Oğlumu itirdiyim gündən ilk dəfədir. Bağışla məni.

Dronqo üzünü çevirdi. Elə hallar olur ki, sadəcə susmalısan. Belə bir dərdin qarşısında onun bütün qayğıları, Şalva Ruruayla bağlı düşünülmüş plan, onların qaçaqmalçılara qarşı bütün səyləri o qədər cılız görünür ki. Qoca haqlıydı: Vətəndaş müharibəsi zamanı ölüm – ən dəhşətli şərəfsizlik və kədər idi. Çünki xalqın oğulları öz

qardaşlarının əlilə öldürülür. Sanki göylərdən gələn, xalqı lənətləmiş bir cəzadır.

Onlar bağa qayıtdılar, heç kim onların olmadığını heç sezməmişdi. Yalnız Tamara narazılıqla çiyinlərini çəkmişdi. Başa düşürdü ki, onun haqqında da söhbət gedib. Amma Aftandilin gözlərini görüb sanki nəsə anlamışdı və daha heç nə soruşmadı. Evə, səhərə yaxın Aftandilin maşınıyla qayıtdılar. Tamara heç nə soruşmağa cəhd etmədən fasiləsiz şəkildə siqaret çəkirdi.

Mehmanxananın yanında Dronqo ondan soruşdu:

– Sizi hara aparaq?

O, nəhayət, başını çevirib ona baxdı. Sanki pis söz deyəcəkdi, ağzını açıb yenə bağladı.

– Hara istəyirsiniz, – qadın laqeyd tərzdə dedi, – fərqi yoxdur.

– Onda mənim yanıma. – Bu dəfə qadın ona daha diqqətlə baxdı, amma yenə heç nə demədi.

Vestibüldə iki nəfər yuxulu növbətçidən başqa heç kim yox idi. Onlar yuxarı liftlə qalxdılar, özü də qadın həmişə arxası ona tərəf dayanırdı. Sanki Aftandil onun

sirrini açmaqla ədəbsiz bir iş görmüşdü. Dronqosa biixtiyar bunda iştirak etmişdi.

Dəhlizdə o, arxasınca gələn Dronqoya heç fikir vermədən öndə gedirdi. Sanki hər şey çoxdan həll olunmuşdu.

İçdiyi çaxıra baxmayaraq, başa düşürdü ki, bu gecə hər şey öz yerini tutdu. İndi Otar Paqava biləcək ki, Robert Krou baş nazirin dostudur və bir daha burda peyda olmağa cürət etməyəcək. Şalva Ruruasa məlumat alacaq ki, gələn jurnalistin doğrudan da, onun gəmisinə basqın edənlərlə əlaqəsi yoxdur.

Onlar bir kəlmə də kəsmədən nömrəyə daxil oldular. Tamara heç nə demədən vanna otağına getdi. Dronqo kresloda oturub fikrini toplamağa çalışdı. Əlbəttə ki, Aftandilin möcüzəvi şəkildə peyda olması onu bir sıra problemlərdən azad etsə də, əsas tapşırığın həllinə yaxınlaşdırmadı. O, iki gün əvvəl Ruruanın adamlarına kimin hücum etdiyini öyrənməliydi. Batum limanına nəzarəti kimin ələ keçirmək istədiyini də öyrənməliydi. O hələ də bu sualların cavabını bilmirdi.

Tamara vanna otağından çıxdı. O hələ də şalvar dəstindəydi. Çantasını səliqəylə qapının dəstəyinə asmışdı. Dronqo təəccüblənmədi. Daha artığını gözləmək axmaqlıq olardı.

– Çaxır istəyirsiniz? – o, qadından soruşdu.

– Məncə, biz kifayət qədər içmişik, – qadın düz onun gözlərinə baxdı.

– Hə, – o razılaşmalı oldu, başının uğuldadığını hiss edirdi. Gürcü çaxırlarının çox gözəl xüsusiyyətləri var. Onu, heç bir sərxoşluq hiss etmədən litrlərlə içmək olardı. Daha sonrasa çaxır dəmirçi çəkici kimi bu zərif içkini həddən artıq içən əbləhin əvvəl ayaqlarına, sonra əllərinə və nəhayət, başına döyürdü.

O artıq ayaqlarının ondan imtina etdiyi birinci mərhələdəydi. İndi dəmirçi çəkici əllərini döyməliydi. Tamara daha yaxşı vəziyyətdəydi. Birinci, o çox içməmişdi, ikinci öz normasını dəqiq bilirdi. İndi o hətta qorxurdu ki, birdən qadın onun nömrəsində qalmaq istəyər. Bu halında o açıq-aşkar formada deyildi və ən yaxşı halda onun çiynində yuxuya gedə bilərdi.

Görünür, Tamara da bunu hiss etmişdi. Necə ki istənilən qadın bir kişinin onu istədiyini və ya laqeyd olduğunu hiss edir. Sanki gizli dalğa buraxan ovçu kişi qadını hansısa bir qoxuyla, düşdüyü vəziyyətlə özünə tərəf çəkir. Sanki onun dəlisov, xaotik istəyi dəqiq energetik dəhliz formasına malikdir. Ora düşən qadın artıq ordan çıxa bilmir. Elə əksində də belədir. Amma əks halda energetik dəhlizlər bu intensivlikdə və tezlikdə olmur.

Görünür, qadınlarda, heyvani hisslərin ağlın bütün çağırışlarını susduran dəlisovluq və xaotiklik çatmır. İstənilən kişinin seksuallığında heyvani, vəhşi, azğın, qəlbi parçalayan aclıq hissi var. Qadının seksuallığısa daha çox torpağın çağırışını, yazda ilk pöhrələri, budaqlarda göyərən tumurcuqları, yarpaqları xatırladırdı. Qadın sanki öz daimi borcunu ödəyir, kişisə özünü dəlisovluğun qollarına atır.

Tamara onun halını dərhal hiss etdi.

– Deyəsən, siz doğrudan çox içmisiniz, – o bir qədər mərhəmət hissilə dedi, – yatsanız, yaxşı olar.

– Hə, – o utanaraq razılaşmalı oldu, – mən doğrudan da, yatmalıyam.

Çəkic artıq başına vururdu.

Qadın daha heç nə demədən çantasını götürüb çıxaraq qapını bərk çırpdı. Dronqo elə əynindəki paltarla yatağa sərildi.

Növbəti gün səhər yuxudan durdu. Heç gözlərini açmadan hiss etdi ki, otaqda kimsə var.

Nəhayət, göz qapaqlarını açandan sonra ucunda səsboğucu olan tapançanın ona tuşlandığını gördü. Kresloda oturan tanımadığı kişi ona gülümsəyirdi.

## XVIII HİSSƏ

Boris Qriqoryeviç Lazarev günün birinci yarısını Dövlət Dumasındakı iclasda keçirdi. Deputatlığa dekabr seçkilərinin yaxınlaşmasıyla əlaqədar hər kəs birmandatlı dairələrdə yorucu debatlardan yan keçib, siyahısıyla Dumaya düşmək mümkün olan böyük partiyaların dəstəyinə təminat alaraq və mövqeyini daha dəqiq ifadə etməyə çalışaraq öz fikrini tez-tez və həvəslə bildirirdi. "Dövlətçi" və "patriotların" sayı kəskin surətdə artdı. Rusiyanın həqiqi,

həm sağlardan, həm sollardan olan vətənpərvərlərini yeniliyə ani uyğunlaşa bilən azğın demaqoq kütləsi bir kənara atdı.

Publisist Zuykin xüsusilə fərqlənirdi. Yetmişinci illərdə partiya işində işləyən və barışmaz bir kommunist kimi tanınan, partiya təşkilatının dayağı olan, qələmiylə marksizm-leninizm ideyalarının ölməzliyini sübut edən biri yenidənqurma başlayandan sonra öz istiqamətini necə müəyyən edəcəyini tez bir şəkildə dərk edə bildi. Və barışmaz bir demokrata çevrildi. Sanki demokratiyanın Maratı idi. Onun kommunizmi ifşa edən nitqləri, qəzetlərdəki qəzəbli məqalələri, televiziyadakı çıxışları aydın şəkildə göstərirdi ki, yeni formasiyanın demokratı necə kristal təmizliyində olmalıdır. Doxsan üçüncü ilin oktyabr hadisələri zamanı "həşəratı əzmək" tələbilə çıxış edənlərdən biriydi. Başa düşmürdü ki, qanunla seçilmiş öz parlamentini əzmək tələbi, daha sonrasa Ali Şura yox, Dövlət Duması adlanan parlamentə deputat seçilmək demokrat üçün ədəbsizlikdir. Amma indi yeni seçkilərin yaxınlaşmasıyla Zuykin cəld "dövlətçilərin" tərəfinə

meyillənməyə başladı. Özünün demokrat nöqteyi-nəzərinə baxmayaraq, o, Rusiyanın bütün dağıdıcılarını qəzəblə məzəmmət edir, Prezidenti çeçen müharibəsinə görə təqdir edir, ölkənin böyüklüyündən danışırdı. Kommunist-demokrat “dövlətçinin” heyrətamiz metamorfozu deyəsən, heç kimi təəccübləndirmirdi. Alçaqların zəmanəsi öz seçimini diktə edirdi.

Fasilədə Lazarev Zuykinə yaxınlaşıb onu uğurlu nitqi münasibətilə təbrik etdi və onunla birlikdə özünün seçki dairəsinə getməyi xahiş etdi. O prinsipial olaraq, müxtəlif partiyalara yanaşmırdı, amma Duma bileti kimi müdafiəyə malik olmaq zəruriydi. Yalnız deputat statusu tam toxunulmazlıq qazandırırdı və Lazarevin bir çox tərəfdaşları da bunu yaxşı bilirdilər.

Lazarev elə Dövlət Dumasının binasında nahar etmişdi. Yeməyə qarşı o qədər də tələbkar deyildi. Fasilədən sonra öz ofisinə getdi. Onu Dumada daim müşayiət edən və “deputat köməkçiləri” adlanan iki mühafizəçidən başqa, küçədə daha beş nəfər gözləyirdi. Son zamanlar belə bir mühafizə qaçılmaz idi.

Onlar üç maşında Tver küçəsinə yönəldilər. Sürəti artırıb küçəylə yuxarı getdilər. Lazarev maşında sakit oturmuşdu. Maşınla gedərkən musiqi səslənməsini sevməzdi. Telefon zəng çaldı. O, dəstəyi götürdü. Maşında xüsusi peyk telefonu quraşdırılmışdı.

– Hə, – Lazarev həvəssiz cavab verdi. Seçki vurhavurunda yenidən gözə çarpmaq perspektivi onu bir qədər qıcıqlandırırdı.

– Bu mənəm, Boris Qriqoryeviç, – Lazarev ən yaxın adamlarından biri olan Mixailin həyəcanlı səsini eşitdi. – İndicə məlumat almışıq. Nyu-Yorkda Vaxtanq Stombolişvili güllələnib.

O susdu. Əslində elə bunu gözləmək olardı.

– Məlumat dəqiqdir? – o, nəhayət, soruşdu.

– Hə, mənə Nyu-Yorkdan zəng ediblər. Söz veriblər, faksla ətraflı məlumat yazılmış qəzeti də göndərəcəklər.

– Göndərəndə tərcümə edib mənə çatdırın, – Lazarev əmr etdi.

– Qəzet ruscadır, – Mixail dəqiqləşdirdi.

– Lap yaxşı. – O, telefonu söndürdü.

Hər şey qanunauyğun idi. Görünür, Qogiya, Xotivari və adamları Vaxtanqın xəyanəti haqda öyrənib və onunla haqq-hesab çürütmək qərarına gəliblər. Belə də olmalıydı. Onların aləmində satqınları sevmirdilər. Vaxtanq həlledici anda öz partnyorlarını və həmyerlilərini Ryaboya satdı və onlar da öz növbəsində qisas aldılar. Deməli, banka olan o azğın hücum buna görəymiş! Onlar hər şeyi aydınlaşdırıblar. Onda çox böyük xoşagəlməzliklər gözləməyə dəyər. Ryaboyla əlaqə yaratmaq lazım gələcək, qoy kömək etsin. Bu, onun ideyasıydı. Onlara qarşı yalnız gürcü qruplaşmaları çıxış etsə yaxşıdır. Bəs bütün qafqazlılar, üstəlik də bu güvə Qara Vasya işə qoşulsa? Onda onlar şəhərdə duruş gətirə bilməzlər. Qafqazlıların həm merlikdə, həm də şəhərin hüquq-mühafizə orqanlarında mövqeləri çox güclüdür. Hə, müharibə çətin olacaq. Onunsa Mansurovdan başqa heç bir müttəfiqi yoxdur. Hərçənd, Ryaboy üç qruplaşmaya bərabərdir. Amma əgər o, kömək etmək istəsə. Daha bir telefon zəngi gəldi. Qaşlarını çatıb dəstəyi götürdü: gözləyə bilmirlər.

– İşlər necədir? – o, tanış səs eşitdi.

Bu qarabasma kimiydi. O elə indicə Ryaboy haqda düşünürdü. Hətta peyk əlaqəsi olsa da, heç cür alışa bilmirdi ki, ona istənilən an Amerikadan zəng edə bilərlər. Keçmiş sovet adamı üçün psixoloji baxımdan dəyişilmək çətin idi.

– Yaxşıdır, – o öskürüb xırıltıyla dedi.

– Soyuqlamısan? – Ryaboy nəvazişlə soruşdu.

– Yox, əlbəttə, yox.

– Nyu-Yorkda bugünkü hadisə haqda eşitmisən?

– Hə, mənə artıq çatdırıblar. Vaxtanq öldürülüb.

– Bunun nə demək olduğunu anlayırsan?

– Onlar hər şeyi anlayıblar. Ona görə də bizim banka hücum ediblər.

– Çox pul aparıblar?

– O qədər də yox. Yüz milyon rubl. Onlar pula görə yox, bizə güclərini göstərmək üçün hücum ediblər, – Lazarev izah etdi.

– Bunu sənin izahatların olmadan da bilirəm. Deməli, güclərini göstərmək istəyiblər?

Bu telefon hətta Ryaboyun nəfəsini də çatdırırdı. Sanki o lap yaxında, qonşu küçədəydi.

– Mən uşaqlarımdan bir neçəsini göndərəcəyəm, – Ryaboy bir qədər düşünüb dedi, – onları özün qarşıla. Birisi gün Nyu-Yorkdan “Delta” təyyarəsiylə uçacaqlar. Yaxşı, yoxlanılmış uşaqlardır. Hər birində qırmızı şərf olacaq. Qoy sənin hesablaşmalarında iştirak etsinlər. Mansurova isə çatdır ki, onun payını artıracağıq, qoy adamlarından sənə versin. Bütün uşaqları topla. Qarayanızları əzəcəyik.

– Sizcə onlar hamısı birləşiblər?

– Bəs sən necə düşünürsən? Onlar öz Qafqazlarında axmaqlar üçün bir-birilə vuruşur. Burdasa dostcasına gəzirlər. Elə Moskvada da. Amma hələ başqalarına dəymə. Qoy elə fikirləşsinlər ki, biz onlar haqda heç nə bilmirik. Bu gün nə etməyi düşünürsən?

– Artıq düşünmüşəm. Görünür, Mixonun şöhrəti Arçil Qogiyanı rahat buraxmır. Sənin oğlanın yüksək səviyyəlidir, qızıl parçasıdır. Bu gün o, öz sözünü deyəcək.

– Qoru onu, – Ryaboy məsləhət görüb telefonu söndürdü.

Lazarev əlini üzünə çəkdi. Ryaboy haqlıdır. Digər qruplara göstərmək lazım deyil ki, onlar bütün oyunu

hesablaya biliblər. Qoy elə düşünsünlər ki, Lazarevlə Arçil Qogiyanın adamları arasında adi hesablaşma gedir.

Lazarev heç təsəvvür belə edə bilməzdi ki, ondan iki kilometr məsafədə dayanan ağ "Mersedes"də oturan Xotivari onun danışdığı hər bir sözü eşidir. Detroytdan olan mütəxəssis əsl sehrbaz idi, o, möcüzə göstərməyi bacarırdı. Quram Xotivarinin belə məharətlə istifadə etdiyi texniki proqres ona çox xeyir gətirmişdi. İnformasiyaya malik olmaqsa onların səylərinin ən ali nəticəsiydi. İndisə Arçilin həyatına hazırlanan sui-qəsdi eşidib fikrə getdi. Nə edəcəyini bilmirdi. Bir tərəfdən onun ətrafında Arçil Qogiya və adamları ən çox döyüş qabiliyyətli dəstəydi. Digər tərəfdənsə... həddən artıq döyüş qabiliyyətliydilər. Və həlledici anda Arçil sadəcə olaraq, mərhum Mixonun yerini tutacaq. Osa – Moseşvilinin sağ əli, bütün əməliyyatı hazırlayan Quram Xotivari işlərdən kənarda qalacaq. Belə bir perspektiv ona heç sərf etmirdi. Bir daha fikrə getdi. Cəld qərar vermək lazım idi, seçimsə çox çətin idi. O, telefonunu gözləri önünə qaldırdı. Son zamanlar gözləri pis

görməyə başlamışdı. Arçilin şəxsən özünün götürdüyü nömrəni yığmağa başladı.

– Eşidirəm, – Arçilin narazı səsi gəldi.

– Batono Arçil, – o birinci dəfəydi ki, Qogiyayla tamamilə sakit danışırdı, – mənəm, Quram.

– Nə lazımdır, – Arçil Xotivarini sevmirdi və bunu həmişə hiss etdirirdi.

– Biz burda məsləhətləşirik, – Quram başladı, – qərar vermək lazımdır, Mixonun payı necə olacaq. Lazım olan qədərini ailəsi alacaq, bəs qalanı? Hansı faizi bölək, kiminlə?

– Qoy, bu səni narahat etməsin. Mixo getdi – indi kimsə onun firmasına rəhbərlik etməlidir. Biz məsləhətləşmişik, belə qərar gəlmişik ki, Zurab hamıdan uyğun variantdır. Mənsə, şirkət şurasının sədri olacağam. Sərf edir?

O, Xotivariyə heç nə təklif etmədi və bu təhqirdən də pis idi. Amma indi inciklik göstərmək olmazdı. Qogiya qalan bir neçə saat ömründə tamamilə qisas almağa qadir

idi. Amma soruşmaq lazımdır, yoxsa Arçil ondan şübhələnə bilər. Onda – axı Ryaboyun adamı hədəfə dəyməyə də bilər.

– Batono Arçil, bəs mənə heç nə düşmür? – Quram soruşdu. Səsi nədənsə şən çıxdı.

– Narahat olma, unutmarıq. Sən də öz payını alacaqsan, – Arçil Qogiya iltifatla dedi.

Və öz ölüm hökmünü imzaladı.

– Çox sağ olun. – Ən qorxulu rəqibi-müttəfiqiylə sonuncu dəfə danışması fikri ona xoş idi. “Sonuncu dəfə danışır”, – Quram düşündü.

– Deyin görüm, – o artıq bu həzzi sadəcə uzadırdı, – bəs Mixonun işini aparan müstəntiqlərlə nə edək? Daha onların arxasınca adam göndərməyək?

– Əlbəttə, göndər. Biz hələ qatili tapmamışıq, – Arçil xatırlatdı. – Niyə axmaq suallar verirsən?

– Birdən sizi tapmasam, – o hiss etdi ki, söhbəti bitirmək lazımdır, – kiminlə əlaqə saxlayım?

– Taparsan. Tapmasan, Teymuraza zəng edərsən, o nə lazımsa, edər.

Quram Xotivari dəstəyi yerinə qoydu. Nəticə etibarilə, Detroytdan olan mütəxəssis səhv edə bilər və Lazarevin telefonuna qoşulmaya bilərdi. O, Arçilin təntənəli dəfnini düşünüb gülümsədi.

– Şuranın sədri, – Quram pıçıldayıb qəhqəhə çəkdi.

Çijov qəzetlərdən “Qamma Bank”ın mərkəzi ofisi yaxınlığında inkassator maşınına hücum haqda oxuyarkən bu cinayəti Mixonun qətliylə əlaqələndirməyi heç ağlına da gətirmədi. Amma Mixeyev hücumda məhz kimin iştirak etdiyini öyrənmək üçün şəhər Cinayət-Axtarış İdarəsinə zəng etdi. Məlumatı aldıqdan sonra siqaretini dişləyərək onu axıra kimi çeynədi. Tamamilə məntiqi sxem çəkilirdi. O bilirdi ki, bu bank Boris Lazarevə məxsusdur. Və onu da bilirdi ki, faktiki şəriki də Ryaboydur. Bütün faktları birləşdirəndə heyrətamiz nəticə alınır.

Şəhərdə, görünür, hansısa böyük mükafatı bölə bilməyən cinayətkar qruplaşmalar arasında müharibə başlanıb. Bu zəncirin məntiqi halqaları əvvəlcə Mixonun öldürülməsi, daha sonrasa onun həmyerlilərinin, Ryaboya

arxalanaraq bu qətli həyata keçirən Lazarevin adamlarına hücumu oldu. Bununla yanaşı aydın oldu ki, iki il əvvəl Amerikaya mühacirət etmiş Vaxtanq Stombolişvilinin üç məhkumluğu olub və o Mixonun ən yaxın adamlarından biriymiş. Qüsursuz məntiqi ardıcıllıq yaranırdı, amma bu heç nəyi dəyişmirdi. Prokuror Morozov qatili tapmağı tələb edirdi. Özü də ən qısa zamanda. İndi Mixeyev anlayırdı ki, Mixonu və Semyonovanı eyni adam öldürüb. Onu yüksək peşəkarlığına görə aradan götürməyəcəklər. Belə adamları çölə tökmürlər. Bəs niyə Moseşvili gecə tək qalıb və qapını tanımadığı adama açıb? Niyə?

O, Çijova öz ehtimalları haqda danışaraq güclərin düzümünü uzun-uzadı izah etdi. Gənc müstəntiq üçün şəhərdə hökm sürən hərc-mərclik haqqındakı fikirlər təhqiramiz səslənirdi. Burda doğulmuş və böyümüş köklü moskvalı olan Çijov bu şəhəri, ilk dəfə bir qızı sevdiyi kimi, öz məktəb yoldaşlarını, öz evini və küçəsini sevdiyi kimi sevirdi. İçində mafiyaların cinayətkar hesablaşmalarının getdiyi doğma şəhər anlayışı da elə bundan ibarət idi.

Bu axşam Arçil işini adətən olduğundan tez qurtardı. O, dostunun yubileyini qeyd etdiyi restorana getməyi vəd etmişdi. Belə təntənəli yerlərə gecikməyi sevməzdi. Plaşını geyinib kabinetdən çıxdı. Qapıda iki mühafizəçi dayanmışdı.

– Sabah tez gəl, – onun şəxsi katibəsi olan hündürboy, gözəl qıza əmr etdi. Qız uzun kirpiklərini aşağı endirdi. Arçil onu gözəllik müsabiqəsindən tapmışdı və katibə götürməzdən əvvəl də uzun müddət hazırlamışdı. Gözəl və ağıllı qızlar çox nadir tapılırlar. Sonuncu keyfiyyəti onların beyninə yeritmək lazım gəlirdi. Hərçənd, indi onun maaşı, Prezidentin, baş nazirin və Dövlət Dumasının hər iki palatasının rəhbərlərinin birlikdə aldığı maaşdan daha çox idi.

Aşağıda, vestibüldə daha iki nəfər var idi. Sürücülər mühərriki işə salmaq üçün küçəyə yüyürmüşdülər. Arçil ətrafa boylandı. “Bəlkə qayıdım?” – birdən düşündü. Orda o qədər iş var ki. Amma bu yubileyə də getmək lazımdır. Bir dəqiqəlik zəifliyə qalib gələrək təmiz, bir qədər soyuq havanı ciyərlərinə çəkib

qətiyyətlə qapısı açıq maşına tərəf getdi. Onun ofisinin əsas girişində maşınların saxlanılması qadağan idi. Mühafizəçilər pilləkənlə qaçırdılar. Ətrafda heç kim gözə dəymirdi.

Arçil iki addım atmışdı ki, ona sanki arxadan zərbə endirildiyini hiss etdi. O silkələndi. Sanki mühafizəçilərdən kimsə boynuna güclü zərbə endirdi. Ağlına gələn birinci qəzəbli fikir buna kimin cürət etməsiydi. Pilləkənə yıxılmazdan qabaq ikinci zərbənin vurulduğunu hiss etməyə imkan tapdı. Pərən-pərən düşən mühafizəçilər silah çıxarıb müxtəlif istiqamətlərə nizamsız atəş açmağa başladılar. Heç, kimə və nə üçün atəş açdıqlarını da anlamırdılar. Sonra danışırdılar ki, yoldan təsadüfən keçən iki nəfər yaralanıb. Qatilsə əlbəttə ki, yenə tapılmadı.

## XIX HİSSƏ

Cəfərovun heç ağlına da gəlmirdi ki, belə yaxşı başlayan gün bu cür faciəvi hadisələrlə bitəcək. Əcnəbilər gedəndən sonra o, Xətai rayonuna zəng edib Manafovun ünvanını deyərək ora müşahidə qoymağı xahiş etdi. Daha sonrasa olmadığı iki gün ərzində yığılıb qalmış cari işlərlə məşğul olmağa başladı. Kazımov kollegiyaya getmişdi. O isə öz kabinetinə keçib təqribən axşam altının yarısına kimi orda işlədi.

Məhz onda Xətai rayonu təhqiqat şöbəsinin rəisi, mayor Rəhmanov zəng etdi. Mirzə onu hələ tələbəlik vaxtlarından tanıyırdı.

– Bura bax, – Rəhmanov həyəcanla dedi, – o nə ünvandır elə, axtarış idarəsinə vermisən? Artıq dörd saatdır ki, oranı nəzarətə götürüblər, orda hər an nəsə baş verir. Qorxmursan?

– Başa düşmədim, – Cəfərov heyrətləndi, – nədən qorxmalıyam ki?

– Orda xarici şirkətin ofisi var, – Rəhmanov izah etdi, – onlar dörd mənzili birləşdirib yaxşı bir ofis

düzəldiblər. Bu işlə biz yox, Milli Təhlükəsizlik Nazirliyi məşğul olmalıdır.

– Dayan, dayan, – Cəfərov maraqlandı, – nə ofis? Səkkizinci kilometrdə? – Yüz minlərlə əhali yaşayan bu rayon belə adlanırdı.

– Burda qəribə nə var ki? Səncə, biz şəhərdən çox uzaqda yerləşirik? Bu ki daha yaxşıdır. Sakitlikdir.

– Orda hansı şirkət yerləşib?

– Kim bilir! Hansısa türk şirkəti. Burda həmişə diplomatik nömrələri olan maşınlar dayanır. Sənsə bizim uşaqlara ofisi izləməyi tapşırmısan. Yaxşı deyil.

– Mən onlara Manafovun mənzilinin ünvanını vermişəm! – Cəfərov hirsləndi.

– Orda çoxdan mənzil yoxdur, – Rəhmanov səbirlə izah etdi, – xeyli vaxtdır, heç kim yaşamır. Orda müştərək müəssisə var.

– Onların nəylə məşğul olduğunu bilirsən?

– İdxal, ixrac. İndi hamı nəylə məşğuldur? Mal gətirirlər, mal aparırlar. İran, Türkiyə, Gürcüstan, Rusiyayla ticarət edirlər. Qərəz, hamısından bir az. Elə bu

gün onlar mal alıblar. Birinci mərtəbədə anbar düzəldiblər, iki otaqdan ibarət olan ikinci mərtəbədəsə ofis. Mənim uşaqlarım orda da olublar. Heç bir kriminal yoxdur. Sahə müvəkkili deyir ki, çox yaxşı uşaqlardır. Həmişə nəzakətli və sakit olurlar. Qısası, bu tədbirlər nahaqdır. Nəzarəti götürə bilərsən.

– Görünür, hə, – Cəfərov razılaşdı. – Heç olmasa, yükü hardan aldıqlarını bilirsən?

– Bax, bunu dəqiq bilirəm. Bizim əməkdaşımız maşın gələndə orda olub və yoxlayıb. İranın Aslandüz şəhərindən...

– Hardan? – Cəfərov qışqırdı.

– İrandan, – Rəhmanov karıxdı, köhnə tanışının niyə birdən-birə belə həyəcanlandığını başa düşmədi.

– Hansı şəhər? – Cəfərov yenə qışqırdı.

– Aslandüz...

– İndicə ora gəlirəm! – Mirzə dəstəyi atdı. Yaxşı ki, Beyləqana səfəri zamanı ona verilən silah yanındadır. Tapançanı götürüb plaşının cibinə qoydu. Ümumiyyətlə,

prokurorluq işçiləri silah gəzdirmirdilər, amma hərbi rejim olduğundan bir çoxları şəhərdə silahla gəzirdilər.

Küçəyə çıxarkən binanın yanında düzülmüş maşınları gördü.

“Baksovetə qədər qaçmaq lazım gələcək, – Cəfərov məyusluqla düşündü, – orda taksi tutaram”.

O, nümayişdə düzülmüş kimi sıralanan “Volqa”ların yanından keçərək küçə aşağı qaçmağa başladı. Nəhayət, maşın tapıb Xətai rayon milis şöbəsinə getdi. Sürücüylə hesablaşıb Rəhmanovun kabinetinə yollandı.

– Orda təcili axtarış aparmaq lazımdır, – nəfəsi kəsilə-kəsilə dedi. Rəhmanov köhnə tanışına təəccüblə baxdı.

– Dəli olmusan? Axı bu əcnəbilərdir. Başımıza oyun açarlar.

– Axtarış, – Cəfərov inadla təkrar etdi, – mən indicə sanksiya imzalayaram.

– Ora aparmağa sənə adam verməyəcəklər, – Rəhmanov qəzəbləndi. – Əvvəlcə rayon şöbəsinin rəisinə

məruzə etmək lazımdır. Prokurorluqda işsizlikdən tamam dəli olmusunuz.

– Gedək, – Cəfərov razılaşdı, – gedək, rəisin yanına.

Rəhmanov daha heç bir söz demədən kabinetdən birinci çıxdı. Rayon şöbəsinin rəisi orta yaşlı, fleqmatik Ramiz Babayev idi. Daha yaxşı namizədin olmaması ucbatından bu vəzifəyə təyin olunan tutqun, sakit təbiətli Babayev iyirmi ildən artıq bir müddətdə sosialist əmlakının oğurlanmasıyla mübarizə orqanlarında çalışmış kifayət qədər təcrübəli milis işçisiydi.

İndi Cəfərovun həyəcanlı, dolaşıq nitqini dinləyən Babayev başa düşdü ki, axtarışı dərhal həyata keçirmək lazımdır. Amma xarici şirkətin ofisindəki axtarış onu o qədər də açmırdı.

– Başa düşürsünüz, – o, yumşaq şəkildə Cəfərova deyirdi, – orda başqa dövlətin şirkətinin nümayəndəliyi var. Biz əvvəlcə səfirliyə zəng edib onları xəbərdar etməliyik. Birdən hansısa qalmaqal ola bilər. Bunlar o qədər də asan işlər deyil. Siz ki məni başa düşürsünüz.

– Sizsə məni başa düşmürsünüz, – Cəfərov odlandı. – İstəyirsiniz, mən şəhər milis şöbəsinin rəisinə zəng edim. Ya sizin nazirliyə. Amma mənə adamlarınızdan verin, bu çox vacibdir.

– Bəs nəsə olsa, cavabdeh kim olacaq? – Babayev soruşdu.

– Mən. Əgər istəyirsinizsə, dilimdən kağız yaza bilərəm! – Cəfərov qışqırdı. – Başa düşün, söhbət dəstədən gedir. Sərhəddən narkotik yüklərin daşınmasıyla məşğul olan azərbaycanlı və ermənilərin birləşmiş dəstəsindən. Siz patriot deyilsiniz?

Zərbə düz hədəfə dəymişdi. Fırıldaqçı, fleqmatik, rüşvətxor olmaq olardı. Hətta oğru da olmaq mümkün idi. Amma müharibə zamanı vətənpərvər olmamaq ayıb sayılırdı. Və təhlükəsiz də deyildi. Sadəcə, işdən çıxara bilərdilər.

– Məsələni elə qoyursunuz ki, – Babayev ehtiyatla qeyd etdi.

– Mənə adamlarınızı verirsiniz, ya yox? Axtarış üçün sanksiyanı özüm yazacağam, – Cəfərov bildirdi.

Babayev ah çəkərək bayaqdan susan Rəhmanova baxdı və selektoru qoşdu:

– Növbətçidir? Vasif sənsən? Bu gün bizdə şöbədə kim var? Axtarış üçün uşaqlar lazımdır.

– Siz ki bilirsiniz, yoldaş polkovnik, – onlar ucadan səs eşitdilər, – indi hamı dincəlir. İki gecə işləyiblər, tuthatut idi.

– Bilirəm, amma kimsə olmamış olmaz. Yetkinliyə çatmamışlarla iş üzrə müfəttişliyə bax. Onların əməkdaşları həmişə boş-boş gəzir. Qərəz, 3-4 adam tap.

– Taparam, yoldaş polkovnik, – növbətçi cavab verdi. Babayev Cəfərova baxdı.

– Sabaha kimi gözləmək olar? – polkovnik soruşdu.

– Olmaz, – Cəfərov qətiyyətlə dedi.

Babayev dərindən ah çəkdi.

– Müstəntiqlər həmişə beləcə tələsir, heç cür gözləyə bilmirlər.

Selektor zəng çaldı. O, düyməni basdı.

– Nə oldu, Vasif? Kimisə tapdın?

– Hə. Briqada hazırdır. Sahə müvəkkili, yetkinliyə çatmamışlarla iş üzrə müfəttiş və Kazım, o elə indicə qayıdıb.

– Kazım kimdir? – Cəfərov soruşdu. – Sanitar xidmətindəndir? – Rəhmanov təbəssümünü gizlədə bildi.

– Niyə belə danışırsan? – Babayev narazılıqla qeyd etdi. – Cinayət-Axtarış İdarəsindəndir, əlbəttə. Ən yaxşı əməliyyatçımızdır. Sahə müvəkkilinin də silahı var. İndi YÇİ müfəttişi Cəfərə də silah veriləcək, sonra birlikdə gedərsiniz. Məncə, dörd nəfər bəsdir.

– Bəsdir, bəsdir, – Cəfərov, nəhayət, ayağa qalxdı. – Çox sağ olun.

– Dəyməz. Amma orda diqqətli olun. Sonra şikayət eşitməyim, – Babayev əlavə etdi.

Cəfərov kabinetdən çıxdı. Demək olar ki, dərhal Rəhmanov da çıxdı.

– Deyir, alovlusan, – Rəhmanov gülümsədi.

Mirzə daha heç nə demədən növbətçi hissəyə yollandı. Orda artıq, hündürboy, dəyirmi sifəti olan, mayor rütbəli sahə müvəkkili dayanmışdı. Cəfərovu görüb hərbi

salam verdi. Mayordan spirt iyi gəlirdi. Növbətçi hissəyə indicə aldığı tapançanı nümayiş etdirən Cəfər Nağıyev daxil oldu. YÇİ müfəttişi əvvəllər sosialist əmlakının oğurlanmasıyla mübarizə şöbəsində işləmişdi. Sosialist əmlakının olmadığı məlum olandan sonra isə bu idarənin formasını dəyişdilər və Cəfəri YÇİ-yə keçirdilər. Yaxşı ki Babayev onu unutmayıb, Xətai rayonuna dəvət etmişdi. YÇİ müfəttişi öz işindən sadəcə narazı deyildi. O, işinə nifrət edirdi. Və bu onun xidmətində də öz əksini tapırdı. YÇİ-də kapitan rütbəsində oturmaq həm axmaqlıq, həm də alçaldıcıydı. Və bütün bu narahatlıqlar özündənrazı və əsəbi Nağıyevin üzündə əks olunurdu. Üçüncü, cinayət-axtarış əməkdaşı gəldi. Bu, dərhal Cəfərovun xoşuna gəldi. O görünür, ac olduğundan bulka yeyirdi. Ortaboylu, çevik kişi Cəfərovun əlini möhkəm sıxdı. Digər əlində bulka tikəsi tutmuşdu.

– Gedək, – Cəfərov dedi, – deyəsən, hamı yığışıb. Sürücü, cavan gizir həyətdə artıq öz “Jiquli”sində onları gözləyirdi. Bu zaman rəisin “Volqa”sından əlavə, rayon şöbəsində başqa maşın yox idi.

Cəfərov öndə oturdu, qalanlarısa arxaya yerləşdi.

– Ünvanı bilirsiniz? – Kazım soruşdu.

Cəfərov ünvanı dedi.

– Yaxındadır, – sahə müvəkkili ah çəkdi. – Piyada da gedə bilərdik.

– Eybi yox, – Kazım onu sakitləşdirdi, – sonra maşın hamımızı evlərimizə çatdırar. Çatdırarsan? – o, sürücüdən soruşdu.

– Əlbəttə, – oğlan güldü.

Onlar binaya axşam saat yeddidə çatdılar. Ofisdə işıq yanırdı.

– Şükür Allaha, – sahə müvəkkili dedi, – yoxsa onları bütün şəhər boyu axtarmalı olardıq. Maşından düşüb pilləkənlə yuxarı qalxdılar. Dəmir, demək olar ki, seyf qapını döydülər.

– Kimdir? – qapının arxasından soruşdular.

– Sahə müvəkkiliniz. Açın, – mayor ətrafa göz gəzdirdi. Qapı cırıltıyla açıldı.

Cəfərov hətta heç vaxt şəklini görməsəydi belə, Əli və Əfəndiyevin atasının təsvirlərindən bu balacaboy oğlanı tanıyardı. Amma o, şəkli də görmüşdü.

– Nə lazımdır? – Manafov narazılıqla soruşdu. Bu, o idi.

– Bu, axtarış haqda qərardır, – Mirzə Cəfərovun elə maşında yazdığı blankı göstərdi.

– Hə? – Manafov heç kağıza baxmadan təəccübləndi. – Bəs burda nə axtaracaqsınız? Burda əcnəbi firma fəaliyyət göstərir.

– Bilirik, – Cəfərov başını tərpətdi. – Sizdən başqa ofisdə və ya anbarda kimsə var?

– Yox, – Manafov bir qədər inamsızlıqla dedi, – heç kim yoxdur.

– Bəs sizin sənədləriniz var? – Kazım soruşdu. Görünür, o da nəsə hiss etmişdi. Təcrübə öz sözünü deyirdi.

– Əlbəttə. – Oğlan stola tərəf keçib pencəyinin cibindən pasportunu çıxardı.

Kazım sənədi götürüb onu diqqətlə oxumağa başladı.

– Zeynal Manafov, – o, Cəfərov üçün bərkdən oxumağa başladı. – Siz Azərbaycan vətəndaşısınız, bəs burda nə edirsiniz?

– Bu firmada işləyirəm, – oğlan cavab verdi.

Bu, o idi. Belə uğur mində bir halda təsadüf edir. Cəfərovun boğazı qurudu. "İt oğlu, – o özlüyündə düşündü. – İndi əlimdən heç yerə qaça bilməyəcəksən".

Sahə müvəkkili və YÇİ müfəttişi tənbəl-tənbəl ətrafa baxırdılar. Söhbətdə onlar üçün qeyri-adi heç nə yox idi. Görünür, insan psixologiyasını dərk etmək üçün də böyük təcrübə lazım imiş. Kazımın belə bir təcrübəsi var idi. O, Cəfərovun getdikcə daha çox xoşuna gəlirdi.

– İndi biz axtarışa başlayacağıq, – Kazım sakitcə dedi. – Şirkətinizdə silah, partlayıcı və başqa qanunsuz əşyalar var?

– Yox, – Manafov qaşqabaqla cavab verdi. O nə haqdasa fikirləşirdi.

– Bəs narkotik? – Cəfərov soruşdu. – O da yoxdur?

Manafov tutqun şəkildə Mirzəyə baxdı. O qorxmadı. Amma əhvalı korlanmışdı.

– O da yoxdur, – oğlan qısaca cavab verdi.

– Məncə, hələ ki hal şahidləri dəvət etmək lazım deyil, – Kazım əlini yellədi. – Bu, filmlər ya da kitablar üçün keçərlidir. Amma həyatda...

Cəfərov gülümsədi, bütün buları o yaxşı bilirdi.

Sahə müvəkkili və YÇİ müfəttişi digər otaqdakı yeşikləri yoxlamağa başlamışdılar.

– Yuxarı qalxmaq olar? – Cəfərov soruşdu.

– Oranın qapıları bağlıdır. Məndəsə açar yoxdur, – Manafov həyasızcasına dedi.

– Bəs açarlar hardadır? – Kazım soruşdu.

– Yəqin buranın sahibindədir, – oğlan çiyinlərini çəkdi.

– Mən yuxarı qalxıb baxım, – Kazım təklif etdi.

Cəfərov başını razılıqla tərpətdi. Qonşu otaqdan görünür ki, yuxarı bu yaxınlarda qoyulmuş pilləkən qalxırdı. Kazım həmin pilləkənlə qalxıb dəmir qapını döydü.

– Avtogenlə kəsməli olacağıq, – Manafov eşitsin deyə bərkdən dedi.

Manafov xoşagəlməz tərzdə büzüşüb soruşdu:

– Səhərə kimi gözləmək olmaz?

– Olmaz, – Kazım ciddi tərzdə cavab verdi, – bu dövlət işidir. Hə, usta çağırıb qapını kəsək? Nə dayanmısan, cavab ver.

Bu vaxt YÇİ müfəttişi onların söhbət etdiyi otağa qayıtdı.

– Onunla nə danışaq ki! – Cəfər Nağıyev burda sovet əmlakının oğurlanmasıyla mübarizə şöbəsinin nümayəndəsi olmadığını unudaraq hökmlə bildirdi. – Qapını qırırıq vəssalam. O hələ bir nəsə deyəcək.

Kazım pilləkənlə aşağı düşüb Manafova yaxınlaşdı:

– Qıraq? – soruşdu.

O susurdu. Və bu an Cəfər Nağıyev hər şeyi korladı.

– Sən kimsən ki susursan, – o, oğlanın üstünə qışqırdı, – söz soruşurlar, cavab ver! – O, Manafovu

itələdi, oğlan büdrəyib yıxıldı. Onun cibindən içində ağ toz olan kiçik paket yerə düşdü.

– Ay səni yaramaz! – Nağıyev tamamilə qəzəbləndi. – Anaşa saxlayırsan. İndi səni...

O, Manafova əlini qaldırırdı ki, yuxarıdan atəş səsi gəldi. Nağıyev karıxmış halda ətrafa baxıb üzüstə yerə düşdü.

Kazıma yönlənmiş daha bir atəş səsi gəldi. Amma o, vəziyyəti ani olaraq dəyərləndirib Cəfərovu itələməyə və yerə yatmağa macal tapdı. Yuxarıdan avtomatdan atəş açıldı. Orda ən azı iki nəfər var idi. Özünü itirən sahə müvəkkili silahı çıxarmağı belə unudaraq qutuların arxasında gizləndi.

– Cəfərov tapançasını çıxardı.

– Atəşi dayandırın! – o bərkdən qışqırdı.

Ona cavab olaraq uzun-uzadı atəş açıldı.

– Deyəsən, bizim axmağı öldürdülər, – Kazım hirslə yerdə tərpənmədən uzanmış Cəfər Nağıyevi göstərdi.

Bu vaxt daha bir atəş açıldı. Demək olar ki, onun başının yanından keçdi. Bu, stolun arxasında gizlənən və hardansa silah tapan Zeynal Manafov idi. Vəziyyətləri olduqca pis idi. Qapıya yaxınlaşa bilməzdilər, Manafov onları rahatca güllələyə bilərdi. Yuxarıdan hücum edənlərsə istənilən an aşağı düşə bilərdilər. Onda onlar iki od arasında qalacaqdılar.

– Bu qorxağı lənətə gəlsin! – Kazım sahə müvəkkilini söydü. – Tapançanı çıxar, – o qışqırdı, – kişi ol, Manafov arxası sənə tərəf dayanıb.

Bu qışqırıqlar tamamilə qorxuya düşən sahə müvəkkilindən daha çox quldur üçün nəzərdə tutulmuşdu. Manafov rahat hədəf olacağını anladığından qalaqlanmış kisələrə tərəf sürünərək orda gizləndi.

– Mən onların diqqətini yayındırmağa çalışaram, – Kazımov təklif etdi, – siz gedin. Bizim rayon şöbəsinə zəng edin, qoy adam göndərsinlər, yuxarıdakı uşaqlar asanlıqla təslim olmayacaqlar.

Cəfərov başını yellədi. İki dəfə atəş açıb qapıya tərəf atıldı. Yuxarıdan yenə atəş açmağa başladılar, amma

o artıq qapıya qədər qaça bilmişdi. Bir anlıq geri dönərkən Manafovun atdığı güllə sol əlinə dəydi. Sanki əlinə güclü zərbə dəydi. Qapının arxasına qaçarkən tək-tək güllə səsləri eşitdi.

"Bəlkə sahə müvəkkili öz tapançasını çıxarıb", – Cəfərov birinci avtomat-telefona tərəf qaçarkən acı-acı düşündü. O əlbəttə ki, işləmirdi. Digəri də işləmirdi. O, qonşu binanın girişinə yüyürdü.

Birinci, ikinci , üçüncü və dördüncü mənzillərin zəngini basdı.

– Açın, – Cəfərov ağrıdan üz-gözünü turşudaraq qışqırdı, – milisə zəng edin! Orda milis əməkdaşlarını öldürürlər!

Onun görkəmindən qorxuya düşən insanlar əlbəttə ki, qapını açmadılar. Son illər o qədər çevrilişlər olurdu, o qədər quldurlar peyda olmuşdu ki, insanlar hamıya inamını itirmiş və öz mənzillərində gizlənməyə üstünlük verirdilər.

Yuxarı meydançada kimsə qapını açdı. Nəhayət ki. Cəfərov yuxarı qaçdı. Orda yetmiş yaşlarında bir qoca dayanmışdı.

– Nə olub? – qoca soruşdu. – Qışqırıqlar eşitdim.

– Telefonunuz var?

– Var.

Cəfərov kifayət qədər nəzakətsizliklə qocanı itələyib otağa cumdu. Həyəcandan titrəyən barmaqlarını güclə saxlayıb şəhər üzrə növbətçinin nömrəsini yığdı. Sol əli qan içindəydi.

– Tez olun, – Cəfərov xahiş etdi, – Xətai rayon şöbəsinə zəng edin, adam göndərin. Burda atışma gedir, cəld olun.

Cəfərovun rabitəsiz qışqırıqları növbətçini qorxutmadı. O, sakitcə ünvanı qeyd edib söz verdi ki, kömək göndəriləcək.

– Nə olub? – qoca soruşdu. – Bütün qan içindəsiniz.

– Çox sağ olun, – Cəfərov içini çəkdi, – qapını açdığınıza görə. 02 və ya 03-ə zəng edin. Maşın çağırın.

– Yaxşı, – qoca dedi, – narahat olmayın. Mən heç nədən qorxmuram. Oğlumu doxsanıncı ilin yanvarında öldürüblər, arvadım da vəfat edib. Mən hamıya zəng edərəm. Gəlin sizə kömək edim, qolunuz qan içindədir.

– Olmaz! – Cəfərov pilləkənlə aşağı qaçdı. – Orda mənim dostumu öldürürlər! – o bağırdı.

Binadan çıxıb yenidən şirkətin binasına qaçdı. Orda hələ də atəş səsləri eşidilirdi. O, həyətdən hansısa maşının çıxdığını sezə bildi. Deyəsən, “Deyvo” idi. Sükan arxasında olan adam ona tanış gəldi. Onun kim olduğunu hələ dərk etməmiş tapançasını qaldırıb gedən maşına sarı bir neçə dəfə atəş açdı. Sükan arxasında oturan Lautonun şəkillərindəki həmin keçəl idi.

O, ehtiyatla qapıya tərəf getdi.

– Kazım sağsan? – o var gücüylə qışqırdı.

– Hələ sağam, – o cavabı eşidib sakitləşdi, – əclaflar hələ öldürməyiblər. Biri qaçdı. Deyəsən, pəncərədən tullandı. Yaxşısı budur, sən küçədə dayan, ikinci də qaçmasın. – Yenə avtomatdan atəş açıldı.

Sonra o yenə kiminsə ikinci mərtəbədən tullandığını eşitdi. Həyətdə iyirmi beş yaşlarında bir oğlan qaçırdı.

– Dayan! – Cəfərov bağırdı. – Dayan deyirəm sənə!

O, tapançanı qaldırıb demək olar ki, nişan almadan atəş açdı. Oğlan gülməli bir şəkildə əl-qol atıb yerə yıxıldı.

O diqqət kəsildi. Evdə deyəsən atəş səsləri kəsilmişdi. Yenə açıq qapıya yaxınlaşdı.

– Manafov, – Cəfərov qışqırdı, – yoldaşların öldürülüb, əlləri yuxarı şəkildə çıx!

– Atəş açmayacaqsınız ki? – Manafov soruşdu.

Otaq tüstüylə dolmuşdu, yanıq iyi gəlirdi.

– Kazım hələ sağsan? – Cəfərov soruşdu.

– Hələ sağam, – o, tanış səs eşitdi, – ayağım bir az ilişib.

Binaya, qulaqbatırıcı sirenayla milis və ya indi adlandırıldığı kimi polis maşınları yaxınlaşırdı. Cəfərov otağa göz gəzdirdi. Kazım yerdə uzanıb ona gülümsəyirdi. Otağın uzaq küncündə özünə gələn sahə

müvəkkili öz qorxaqlığının acığını da Manafova tökərək onu döyürdü.

– Bunu etmək lazım deyil, – Cəfərov xahiş etdi.

Evə girən adamlar Manafovu tutub həyətə apardılar. Həkimlər artıq Kazımı xərəyə qoyub aparırdılar. Cəfərov ona yaxınlaşdı.

– Çox sağ ol, – o, Cinayət-Axtarış İdarəsi müfəttişinin əlini sıxdı.

– Yaxşı, – Kazım əlini yellədi, – evə tələsirdim. Bu gün arvadımın ad günüdür, mənsə ona belə hədiyyə etdim.

Onun ardınca Cəfər Nağıyevin cəsədini çıxardılar.

Sahə müvəkkili də ətrafa ehtiyatla boylanaraq çölə çıxdı. O qorxurdu ki, Cəfərov onu elə camaatın yanında danlayacaq. Mirzə ona yalnız əlini yellədi. Kimsə Cəfər Nağıyevin öldüyü məlumatını ötürürdü, qalanlar ərazini gözdən keçirirdi.

Cəfərov Rəhmanovu yanına çağırdı.

– Görürsən, mən haqlıydım, – o yorğun halda dedi.

– Belə bir hadisə, – Rəhmanov razılaşdı, – kimin ağlına gələrdi ki?

– “Prins Deyvo” maşınını axtarın, xahiş edirəm, o maşını axtarın. Orda çox vacib adam var, – Cəfərov maşının nömrəsini dedi.

Rəhmanov ratsiya olan maşına tərəf atıldı.

Yeni maşınlar yaxınlaşırdı. Babayev özü də gəlib çıxdı. Əllərini arxasında birləşdirib qalib görkəmiylə döyüş meydanına göz gəzdirirdi.

Həkimlər Cəfərovun əlinə sarğı qoyandan on beş dəqiqə sonra Kazımov və Vəliyev də gəldi.

Cəfərovu görüb arxayınlıqla bir-birinə baxdılar.

– Ömrün uzun olacaq, – Kazımov dedi, – bizə məlumat vermişdilər ki, səni öldürüblər.

– Səhv çatdırıblar. Öldürülən Cəfərov yox, Cəfər Nağıyevdir.

– Burda nə baş verib? – Vəliyev qaşlarını çatdı.

– Quldurlar silahlı müqavimət göstərdilər, – Cəfərov qısaca məruzə etdi.

– Siz yaralısınız?

– Güllə əlimin içini zədələyib keçib, – Cəfərov bildirdi.

– Səhər məruzəylə yanıma gəlin. – Vəliyev DİN əməkdaşlarının işinə baxmaq üçün evə sarı getdi.

“Burda bircə mənim verdiyim buraxılışı tapmaqları çatmırdı”, – o acıqla düşündü.

## XX HİSSƏ

O, gözlərini ovuşdurdu. Şübhə yox idi. Naməlum adam əlində səsboğucusu olan tapança tutmuşdu.

– Siz kimsiniz? – Dronqo boğuq səslə rus dilində soruşdu. – Sizə nə lazımdır?

Naməlum adam gülümsədi.

– Bəs siz kimsiniz? – o, demək olar ki, nəzakətlə soruşdu. – Burda nə işiniz var?

– Tapançanı yığışdırın, – Dronqo qaşqabaqla rica etdi. – Məni qorxutmaq çətindir, atəşisə dərhal açmaq lazımdır, sonra gec olur.

– Sizə nə vaxt atəş açacağıma mən qərar verəcəyəm, – naməlum adam dedi. O xarakterik gürcü ləhcəsi olmadan danışırdı. İndiki situasiyada bu ən təəccüblüsüydü.

– Bircə elə edin ki, yanılmayasınız, – Dronqo məsləhət gördü, – sonra mən sizin başınızı üzəcəyəm. Və ümumiyyətlə, rədd olun burdan. Vurmaq istəyəndə dərhal vururlar. Bunun üçün axmaq müzakirələr açmırlar.

– Siz kimsiniz? – naməlum adamın gülümsəmək həvəsi öldü. O birinci dəfə qaşlarını çatdı.

– İnsan. Özü də sizdən daha yaxşı insan, – Dronqo qeyd etdi. – Yeri gəlmişkən, mənim silahım yoxdur, tapançanı yığışdıra bilərsiniz. Onsuz da heç hara qaçmaq fikrim yoxdur.

– Bunu bilirəm. – Naməlum adam tapançanı aşağı endirmirdi və bu söhbətdən, istənilən an qopa biləcəkmiş kimi dəyişkən olmağa başlayırdı.

– Bəlkə mənə qalxmağa və yuyunmağa icazə verəsiniz? – Dronqo soruşdu.

– Yox. Əvvəlcə, mənə hardan gəldiyinizi deyin.

– Avstraliyadan. Belə bir cavab sizi qane edir? – Söhbət, əlbəttə ki, rusca gedirdi.

– Düzünü desəm, yox. Daha yaxşı nəsə düşünün, – naməlum adam məsləhət gördü.

– Düşünə bilmərəm. Məndə sərxoşluqdan sonrakı süstlük sindromu başlayıb. Başım bərk ağrıyır. Bundan başqa, sənədlərim sizin arxanızda asılmış pencəyin cibindədir. Ona baxa bilərsiniz – mən avstraliyalı jurnalist Robert Krouyam. Qonşularımız rus koloniyaçıları olub, onlardan rus dilini öyrənmişəm. Sizə daha nə lazımdır?

– Bəs yalan danışmağı hansı koloniyada öyrənmisiniz? – naməlum adam qəzəblənməyə başlayırdı, busa təhlükəliydi.

– Heç birində. Yeri gəlmişkən, bu gecə Acarıstan hökumətinin sədri məni qəbul etmişdi. Mənim kimliyimi o da təsdiq edə bilər.

– Sizi kim göndərib? – Naməlum adam onun sözlərini eşitməzliyə vurdu. – Bura niyə gəlmisiniz?

– Mən Batum limanında etnoqrafik material yığıram...

Naməlum adam qəfildən tapançanın səsboğucusunu ona tərəf tolazladı. Ağrılı zərbə düz üzünə dəydi. Yarılmış dodağından qan axmağa başladı. Dronqo dodağını dişlədi – onu çoxdan belə qəddarcasına və ağrılı vurmamışdılar. Deyəsən, belə bir zərbəni yalnız Cakartada almışdı. Amma onda onu əllə vurmuşdular.

– Bunu nahaq etdiniz, – Dronqo vəhşiləşərək dedi. – İndi yalnız bir şansınız var – məni öldürmək. Yoxsa mən sizi öldürəcəyəm.

– Deyəsən, mən sizin məsləhətinizə əməl edəcəyəm. – Kişi tapançanı qaldırdı. Elə bu an qapı döyüldü.

– Gəlin! – Dronqo cəld qışqırdı. Qapının dəstəyi tərpəndi, amma qapı açılmadı. Görünür, naməlum adam içəri girəndə onu bağlamışdı.

– Niyə qışqırdınız? – o qəzəblə pıçıldadı.

– Siz elə düşünürdünüz ki, mən susmalıyam? – Dronqo da pıçıltıyla cavab verdi.

Qapı yenə döyüldü.

– Açın, – naməlum adam istəmədən əmr etdi, – amma sizi xəbərdar edirəm: bir artıq söz desəniz, öləcəksiniz.

– Deməyə də bilərdiniz.

O, ehtiyatla çarpayıdan düşüb qapıya yönəldi.

Dronqo elə belə də bilirdi. Tamara astanada dayanmışdı. O, paltarını dəyişməyə imkan tapmışdı. Və indi demək olar ki, tuflilərinə qədər qəribə halqalarla uzanan tünd və enli don geyinmişdi.

– Siz artıq oyanmısınız? – o soruşdu. – Dünən elə vəziyyətdəydiniz ki...

– Deyəsən, hələ yox, – o donquldadı, – dünən doğrudan da, çox içmişdim.

O, kandarda dayanıb girişi tutmuşdu. Naməlum adam otaqda düz onun arxasında oturmuşdu.

– Siz sərbəst hərəkət edə biləndə, – qadın gülümsədi, – biz səhər yeməyi yeyə bilərik?

– Bilmirəm. – Mümkün qədər ehtiyatlı olmaq lazım idi. – Aftandil dünən bizi səhər yeməyinə dəvət etmişdi, ona görə mən ora getməyi düşünürəm.

Qadın heç nə anlamadan təəccüblə ona baxdı.

– O həm də dedi ki, Otara zəng etmək lazımdır, – nəhayət, Dronqo lazımi cümləni işlətdi. Arxasında sakitlik idi. Naməlum adam hələ ki heç nə anlamırdı.

– Dostlar onun evində toplaşacaq, – Dronqo davam etdi. – Şalvanı da çağırmaq olar, qoy bizimlə birlikdə mahnı oxusun.

O, gözlərilə ehtiyatla arxanı göstərdi və qadın, nəhayət, hər şeyi anladı. Sakitcə başını tərpədib dedi:

– Doğru qərardır. Səhər yeməyinə gedərik. Mən indi hamıya zəng edərəm, qoy gəlsinlər. Siz nömrədən çıxmayın, onlar tezliklə burda olacaqlar.

O, birdən çantasından yapışıb Dronqoya işarələrlə başa saldı ki, ikinci dəfə qapını döyəcək. Və bu halda mütləq yerə yatmalıdır. Dronqo onu yaxşı başa düşməsə də, başını tərpədib qapını bağlayaraq yerinə qayıtdı. Hərçənd, bu dəfə kilid bağlanmadı. Tamara göstərdiyi kimi Dronqo kilidi elə çevirdi ki, qapı örtüləndə işə düşmədi.

– Özünüzü düzgün apardınız, – kişi onu təriflədi. Dronqo yalnız indi anladı ki, onun bütün sözləri artıq imiş. Qadın onun şişmiş dodağını görməli və hər şeyi anlamalıydı.

– Sizsə yox! – Dronqo hirslə cavab verdi. – Tapançanı oynatmaq lazım deyil. Bu sağlamlığa ziyandır. Sizə nə lazımdır? Söyləyin və rədd olun, siz məni bezdirdiniz.

– Siz niyə gəlmisiniz? – naməlum adam yenə təkrar etdi.

– Cəhənnəm olun, – Dronqo dişlərini qıcadı, – sizin suallarınız məni bezdirdi.

– Siz David Qogiyanın adamısınız? Yoxsa, Şalva Ruruaya işləyirsiniz? – nəhayət ki, naməlum adam dilləndi.

Bu başqa məsələ. Deməli, naməlum adam rəqib firmadan idi. O bilmək istəyirdi ki, Dronqo, Ruruanın yaraqlılarına kömək üçün Tiflisdən göndərilən həmin emissardır, ya yox.

– Siz səhv edirsiniz, – Dronqo sakitcə cavab verdi, – mən onların heç birinə işləmirəm. Amma sizin, – o, əlini şişməkdə davam edən dodağına toxundurdu, – lənətə gələsiniz, böyük xoşagəlməzlikləriniz olacaq. Hərçənd, düzünü desəm, təəssüf edirəm, siz mənə xoş gəlirdiniz.

– Məni təhdid edirsiniz? – naməlum adam təəccübləndi.

– Daha çox xəbərdarlıq edirəm. Sizin burdan sağ çıxmanız üçün heç bir şansınız yoxdur.

– Niyə? – naməlum adam maraqlandı.

– Bütün mehmanxana boyu Rurua və Qogiyanın adamları düzülüb, – o ümidsizcəsinə uydururdu, – onlar bilirlər ki, mənim yanıma qonaq gələ bilər və hadisələrin belə gedişinə hazırlıqlıdırlar. Düşünürəm ki, həmin qadının, Tamaranın gəlişi də təsadüfi deyil. Siz ki bilirsiniz, o, Şalva Ruruaya işləyir.

– Siz kifayət qədər səmimisiniz, – naməlum adam tapançanı yığışdırıb qaşlarını çatdı, – hərçənd, sizin vəziyyətinizdə...

– O, sizinkindən yaxşıdır, – hücumu zəiflətmək olmazdı, – siz burda qonaqsınız, özü də arzuolunmayan qonaq. Niyə sizin adamlarınız Ruruanın gəmisinə hücum edib?

– Dəli olmusunuz? – kişi karıxdı.

Hücumu gücləndirmək lazım idi.

– Yox, – o, kobud şəkildə cavab verdi. – Sizin dostlarınızdan birinin cəsədi mehmanxananın yaxınlığında tapılıb. Sizcə, şansınız var? Bundan başqa, asanlıqla yoxlamaq olar ki, – burda o özünün, sona saxladığı ən güclü zərbəsini endirdi, – siz... keçmiş zabitsiniz.

Effekt heyrətamiz idi. Naməlum adam silahı aşağı endirdi. Üzündə təəccüb ifadəsi var idi.

– Hardan bilirsiniz? – o bir qədər dili dolaşaraq soruşdu.

– Sizin oturuş, şalvarı qaldırmaq, silahla davranmaq maneralarınıza görə. Hətta üzümə endirdiyiniz zərbədən. Diqqətəlayiq bir çox nüanslar var. Sol əlinizdə görünən döymə də bunu deyir. Deyəsən, belə ulduzcuqlar

Dzerjinski adına diviziyanın zabitlərində olur. Yadımda deyil, hansı batalyonda, amma o zaman bütün zabitlər belə ulduzlar döydürmək qərarına gəlmişdilər. Deyəsən, Bakıdan sonra.

– Hardan bilirsiniz? – naməlum adam xırıldadı. Üzü qəddarlaşdı. O, dişlərini elə sıxdı ki, almacıq sümüklərində iki kəskin qırış əmələ gəldi.

– Hər şeyi bilmək – mənim sənətimdir. Düşünürəm ki, mən sizi inandıra bildim. Bax sizin mənim otağıma girməyiniz, mənə tapança tuşlamağınız və ən başlıcası məni vurmağınız heç xoşuma gəlmədi. Bax bunu sizə heç vaxt bağışlamayacağam.

– Heç lazım deyil. – Əgər o, əminliyini yenidən özünə qaytara bilibsə, deməli nəsə alınmadı. Amma bu qədər vaxta Tamara nəsə düşünməliydi. Artıq beş dəqiqə keçib. Doğrudanmı, o heç nə anlamdı?

– Siz həddən artıq çox şey bilirsiniz. – Naməlum adamın üzündə daha əvvəl görünməyən inadkarlıq peyda oldu. Deyəsən, o öz analitik çıxarışlarıyla bir az həddi keçmişdi, Dronqo düşündü. Elə bu an qapı taybatay

açıldı. Kişi tapançanı Dronqoya tuşlamışdı. Ona görə o, qapı tərəfə çevrilənə qədər yarım saniyə keçdi. Qapını açan gözləmək istəmədi. Gözlənilməz olduğundan daha da qulaqbatırıcı olan atəş səsi gəldi. Kişi ləngərlənib yavaşca, sanki ehtiyatla stuldan sürüşməyə başladı.

Dronqo yerindən sıçradı. Onun nömrəsinin kandarında əlində tüstülənən tapança olan Tamara dayanmışdı. Dronqo ona tərəf qaçıb əlini dartaraq qapını bağladı.

– Dəli olmusan, – o dedi, – neylədin?

– Sənin dodağını görüb hər şeyi dərhal anladım, – o cavab verdi, – deməyə də bilərdin. Amma özümü elə göstərdim ki, guya heç nə anlamıram. Qorxurdum ki, o sənə atəş açar.

Dronqo kişiyə baxdı. Tamara onu dəqiqliklə alnından vurmuşdu.

– Əla atəş açırsan , – o ixtiyarsız olaraq rəğbətlə dedi. – Yoxsa bu təsadüfi atəşdir?

O, dodağını dişləyib başını buladı.

– Təsadüfi deyil, – qadın bunu deyib Dronqonu özünə çəkdi.

Dodaqları həssas və yumşaq idi. Sanki onun öpüşündə batıb qaldı.

– Casus romanı, – Dronqo nəfəsini dərib pıçıldadı, – həmişə birinci öpüşməyə başlayan qadınlardan xoşum gəlir.

– Ədəbsiz, – qadın onu itələyib qapıya tərəf getməyə çalışdı.

– Hara? – Dronqo onun əlindən tutdu. – Nömrədə oturmaq lazımdır. Atəş bütün dəhliz boyu eşidilib. İndi kimin atəş açdığını axtarmağa başlayacaqlar. Balkondakı şüşəni sındırmaq lazımdır.

– Şüşə, – o başa düşmədi, – şüşənin bura nə dəxli?

Tapança hələ də onun əlindəydi.

– Tapançanı gizlət, – Dronqo məsləhət gördü, – bundan başlayaq. Sonra şüşəni sındıraq. Amma çox ehtiyatla. Mənsə aşağı zəng edib deyəcəyəm ki, nömrəmdə şüşə sınıb. Balkonun qapısı çırpılıb. Başa düşmürsən? Bu atəş deyildi, sadəcə, şüşə qırılıb.

Qadın, nəhayət, anlayıb başını tərpətdi. Dronqo telefona yaxınlaşdı.

– Sabahınız xeyir, – dedi. İngiliscə danışmaq lazım idi, o bunu xatırlayırdı. – Mənim balkonumun qapısı sınıb.

Növbətçi qadın onun başa düşmədi:

– Nə dediniz?

– Bir dəqiqə, – dəstəyi Tamaraya verdi. Əcnəbi danışıq üçün mehmanxananın ekskursiya bürosunun rəhbərini dəvət edə bilərdi. Onun reputasiyası hər cür şübhədən yüksəkdəydi.

– Cənab Krounun şüşəsi sınıb. Balkon qapısı çırpılıb, – Tamara izah etdi, – adam göndərib şüşəni dəyişmək lazımdır. Hə, mən ona dedim ki, ikidən sonra olacaq. Eybi yox, o gözləyər. Nə atəş? Yox, bu sınan şüşənin səsiydi. Digər növbətçiləri də sakitləşdirin, Dariko, hər şey qaydasındadır. – O, dəstəyi yerinə qoydu. Dronqo onun necə əmin dayandığına baxıb öz-özündən soruşurdu: bu oyundur, yoxsa poza? Və sualına cavab tapa bilmirdi.

– Bəs onu neyləyək? – Tamara qaşlarını çatdı. Qan demək olar ki, yox idi. Güllə beynini dəlib keçib batareyada ilişmişdi.

– Cəsədi hardasa gizlətmək lazımdır, – Dronqo təklif etdi, – daha sonra gözə çarpmadan mehmanxanadan çıxarmaq lazımdır. Gəl, hələ ki onu vanna otağına aparaq.

O, əyilib naməlum adamın silahını götürdü, ciblərini eşib sənəd tapdı. Onu açdı. Belə də bilirdi – Andrey Kupriyanoviç Şarov, şəxsi axtarış agentliyinin rəhbəri. Əlbəttə ki, keçmiş zabitlər həmişə belə agentliklərə gedirlər. O haqlıymış – Şarov doğrudan da, əvvəllər zabit imiş, buna şübhə yox idi. Başqa bir kitabça təsdiqləyirdi ki, onun sahibi peşəkar sürücülük hüququna malikdir. Daha bir kitabça silah gəzdirmək üçün icazəydi.

Cəsədi vanna otağına sürüdülər. O, Tamaranın gözlərini izləyirdi. Onun gözləri həddən artıq sakit idi.

Dronqo otağa qayıdanda qadın artıq çantasını bir kənara qoyub donunu çıxarmışdı. Onu görən kimi çevrildi.

– Üzünü çevir, – qadın xahiş etdi.

– Yox, – deyəsən, o bunu iradəsinin əksinə deyirdi.

– Nə yox?

– Lazım deyil.

Qadın onun gözlərinə baxdı. İndi onun gözləri qəzəblənmiş şir gözlərinə bənzəyirdi.

– Bunu necə başa düşək? – qadın soruşdu.

– O yaxındaykən bacarmaram, – Dronqo əlini yellədi. Qadın yenə tutuldu. Bir qədər düşünüb donunu geyinməyə başladı.

– Qəribə adamsan, – Tamara donunu düzəldib dedi.

– Sən də, – o, əks-səda kimi təkrarladı.

– Heç vaxt sənin kimisini görməmişəm.

– Yəqin.

– Kefin yoxdur, – qadın dedi, – bunu nahaq etdim?

– Bunu çox yaxşı etdin, Tamara, çox yaxşı. Səncə də elə deyil?

O, azca gözlərini qaçırdı. Üzündə hansısa kölgə gəzdi.

– Bununla nə demək istəyirsən?

– Özün bilirsən...

– Mənim vaxtım yox idi. Əgər geciksəydim, o səni vura bilərdi.

– Görünür, hə. Sən doğrudan da mənim həyatımı xilas etdin. – O, çarpayıda oturdu. – Bütün bunlar axmaqlıqdır.

Qadın onun yanında oturmağa cürət etməyərək bir az əvvəl mərhumun oturduğu stulda oturdu.

– Qadın üçün sənin çox gözəl əsəblərin var, – Dronqo burnunun altında dedi.

– Bizim zəmanəmizdə...

– Başa düşürəm. Bizim zəmanəmizdə qadınlar çantalarında silah gəzdirir, ilk atəşdən rəqibi düz alnından vururlar. Bizim zəmanəmizdə qadınlar cəsədin üstündən sakitcə adlayır, – o özünü istehzadan saxlaya bilmədi, – və nəhayət, bizim zəmanəmizdə qadınlar belə peşəkarcasına hazırlıqlıdırlar.

Tamara hər şeyi anladı, amma yenidən soruşmağa cəsarəti çatmadı.

– Sən kimə işləyirsən? – nəhayət, Dronqo soruşdu.

– Sən ki çoxdan bilirsən. Şalva Ruruaya, – qadın sakit, emosiyasız cavab verdi.

– Bu yalnız əfsanədir. Axmaqlar üçün, – Dronqo əlini yellədi. – Sənin əsl işin heç cür bu xırda quldurla əlaqəli ola bilməz. Bunun üçün sən çox yaxşı hazırlıqlısan. Rurua isə yaxşı sipərdir, elə deyil?

– Hərdən səni başa düşmürəm.

– Tamara, – Dronqo ah çəkib başını buladı, – sənin hazırlığın o qədər gözə girir ki, belə bir kvalifikasiyanı gizləmək, demək olar ki, mümkün deyil. Kimə işləyirsən?

– Gürcüstanın Milli Təhlükəsizlik Nazirliyinə. Razı qaldın? – o yenə emosiyasız soruşdu.

– Əlbəttə ki, Otaq Paqava heç nə bilmir.

– Heç nə. Vaxtında mən Mərkəzə işləmişəm. O vaxtdan hər şey elə də qalıb.

– Çox sağ ol. Düzü, belə səmimi cavab verəcəyini gözləmirdim. Bu, gəmiyə hücum edənlərdən biriydi?

– Məncə, hə.

– Hələ bilmirsiniz, onlar niyə Şalva Ruruanın adamlarına hücum ediblər?

– Hücum edənlərdən birini ələ keçirə bilmişik, – o etiraf etdi, – hərçənd, biz elə fikirləşirdik ki, sən Batuma onların aktiv fəaliyyəti üçün gələn koordinatorusan.

– Bəs indi elə fikirləşmirsiniz?

– Yox. Sənin ya öz oyunun var, ya da başqa planların. Bəlkə də sən casussan. Amma istənilən halda, limandakı hadisəyə qarışacağın yoxdur. Əks halda Şarov səni öldürməyə gəlməzdi. Sənin bura nə üçün gəlməyin onlara da maraqlıymış. Amma mən sənə Şalvanın xahişiylə yaxınlaşdım. Sən şəhərə David Qogiyanın maşınıyla gələndə görüblər. Elə biliblər ki, Qogiya özü mübarizəyə qarışmaq istəyir. Bir çoxları hələ də elə düşünür.

– Bəs sən?

– Siz həddən artıq peşəkarsınız, cənab Krou, – o, ingiliscə dedi, – sizin hazırlığınız o qədər gözə girir ki, belə kvalifikasiyanı demək olar ki, gizləmək mümkün deyil. – O, Dronqonun mülahizəsini sözbəsöz başqa dilə tərcümə edib təkrarladı.

– Onda mən casusam.

– Ola bilər. Bəlkə də yox.

– Deməli, kimsə Batum limanında təşəbbüsü ələ almaq, bu dadlı tikəni yerli mafiozların əlindən almaq istəyir, – Dronqo dəqiqləşdirdi, – və siz bunu kimin etdiyini bilirsiniz. Bunun arxasında kim dayanır?

– Hələ bilmirik. Amma bizim adamlarımız tərəfindən tutulan adam artıq ifadə verib. Belə çıxır ki, burda işə "minqrel qrupu" qarışıb. Onlar Şalvanı sıxışdırmaq və işi öz əllərinə almaq istəyirlər. Onlara bütün liman yox, Türkiyəylə əlaqələr lazımdır.

– Aydındır, – o ah çəkdi, – hər şey doğrudur. Gəlir mənbələrinin yenidən bölüşdürülməsi gedir.

– Nə aydındır? Nə gəlir? – Tamara başa düşmədi.

– Moskvada Mixonu öldürüblər. Bəlkə sən beləsini eşitmisən – Mixail Moseşvili.

– Əlbəttə, eşitmişəm.

– Hə, kimsə oyuna qoşulub Mixonu aradan götürməyə qərar verib. Onlar köhnə mafiyanı sıxışdıraraq bütün Zaqafqaziya boyunca aktiv fəaliyyətə başlayıblar. Kimsə fəal şəkildə Gürcüstan vasitəsilə Türkiyə və

Avropaya girmək üçün yollar axtarır. Belə bir işi "Minqrel qrupu" təkbaşına görə bilməz. Biz Mixonun qətlinin arxasında kimin dayandığını bilmirik. Amma ehtimal edirik ki, müharibə artıq başlayıb.

– Mən "biz"in kim olduğunu soruşmuram, amma yenə də çox sağ ol, – o, əlini üzünə çəkdi. – Çox yorulmuşam, – etiraf etdi. – Aftandilin bura dünənki gəlişi məni bir qədər qorxutdu. Biz hamımız batono Aftandili şərəfli bir insan kimi tanıyırıq. İndi hər şey aydındır. Mən narahat olmuşdum ki, sən də Şalva kimi quldursan. Sən demə, yanılmışam.

– Siqaretlə olan insident, – Dronqo xatırlatdı, – sən onu qəsdən etmişdin. Əvvəl mən elə fikirləşirdim ki, sən səhvən özünü ələ vermisən. Sonra başa düşdüm ki, sənin xasiyyətinlə belə səhvlər mümkün deyil. Və bunu anlayıb axıra kimi öz fikrimin üstündə durdum.

Qadın gülümsədi:

– Doğrudan da gülməlidir. Siqareti tanışlıq üçün istəmişdim, qutunusa qəsdən göstərmişdim. Sən yoxlandığını anlayasan deyə. Mənə sənin reaksiyan lazım

idi. – O ayağa durdu. – Ümumiyyətlə, sən haqlısan. Ölünün olduğu bu nömrədə heç nə etmək olmazdı. Amma bu oyun deyildi. Sadəcə, sən mənim çox xoşuma gəlirsən. Vəssalam.

– Çox sağ ol.

– Amma gələcək üçün mənim əzizim, – Tamara yaxınlaşıb şəhadət barmağıyla onun burnuna toxundu, – zəhmət olmasa, nəzərə al. Qadını belə təhqir etmək olmaz. Bu ədəbsizlikdir. Qadın sənin yanına gəlib qalmaq istəyirsə, bu o demək deyil ki, sən imtina etməlisən. Belə bir şey əsl kişilər arasında qəbul olunmayıb.

Dronqo onun əlini öpdü. Ayağa qalxdı.

– Sən əlbəttə ki, haqlısan, – o pıçıldadı, – mən əsl başdanxarabam. Bağışla məni.

O, bir qədər əyilib Tamaranı öpdü. Öpüş uzun çəkmədi. O, qadının gözlərini yummadan ona baxdığını sezdi.

– Nəsə qaydasında deyil?

– Məndə qonşu nömrənin açarları var, – o pıçıldadı. – Orda özünü narahat hiss etməyəcəksən.

Bu dəfə öpüş daha uzun çəkdi.

– Gözlə, – Dronqo qapıdan çıxanda dedi, – bəs onu neyləyək?

– Onu götürəcəklər, – o gülümsədi, – o əsl quldur olub.

Bu vaxt telefon zəng çaldı. Hər ikisi diksindi. Tamara onu qabaqlayıb telefona yaxınlaşdı və dəstəyi götürdü.

– Hə, – o dərhal dedi, – hə, bu mənəm. – Görünür, ona elə bir şey dedilər ki, üzü dəyişdi. Gürcü dilində bir neçə söz deyib dəstəyi asdı. Üzü kədərliydi. Tamara Dronqoya nəzər saldı.

– Mənim dostlarımdır, – o sakit səslə bildirdi. – İndicə məlumat gəlib: Moskvada Arçil Qogiya öldürülüb.

– Ola bilməz, – Dronqo ixtiyarsız olaraq dedi.

Qadın ona qəribə nəzərlərlə baxdı:

– Sən onların adamısan?

– Sən hələ də mənə inanmırsan?

– İnanmaq istəyirəm, əzizim, çox istəyirəm. Amma səni anlamaq çətindir. Sənin hər zaman ələkeçməz mövqelərin olur. Arçili tanıyırdın?

– Lap yaxşı tanıyırdım. Mən onun qardaşı oğlunun axtarışlarına kömək etmişəm.

– Nə axtarış?

– O yarım il əvvəl Moskvada yoxa çıxmışdı. Və məndən xahiş etdilər ki, Davidin oğlunu tapım. Moskvaya uçmalı oldum.

– Tapdın?

– Tapdım.

– Deməli, onlar tapmadı, sən tapdın, – qadın aramla dedi. – Maraqlı insansan Robert Krou. Bəlkə adını deyəsən?

– Robert Krou, – o adətən olduğundan daha ciddiydi.

– Biabırçılığa bax! – birdən Tamara dedi. – Həyatımda birinci dəfədir ki, adını bilmədiyim bir insandan xoşum gəlir. Tamam əxlaqsız olmuşam.

– Belə danışmaq lazım deyil.

– Gedək, – o qətiyyətlə dedi, – bütün günü məndə elə bir təəssürat var ki, sanki mən səni zorlamaq istəyirəm. Utanmırsan?

Cavabında Dronqo qapının kilidini açdı. Tamara birinci çıxdı.

## XXI HİSSƏ

Arçil Qogiyanın ölümü açıq və amansız müharibə demək idi. Bu artıq hamıya aydın idi. Dəfndə Zurab Axvlediani, Quram Xotivari, Rafael Bağırov, Artur Sarkisyan səmimi və təsirli nitq söylədilər. Onlar birinci dəfə özlərini dəyişib həmrəylik nümayiş etdirdilər. Lazarev əklil göndərmişdi. Mansurov heç nə göndərməmişdi.

Bu gün səhər paytaxta gələn mərhumun böyük qardaşı David Qogiya ayrı dayanmışdı. Davidin öz vətənində necə böyük hörmət və sevgiylə əhatə olunduğunu hamı bilirdi. Və indi hamı elə düşünürdü ki,

David qatili tapmayınca vətəninə dönməyəcək. Hamı ürpəşirdi, çünki bu mübarizədə güzəşt olmayacaqdı.

Çijov bu dəfə dəfnə gəlmədi. Bütün qəzetlər yazırdı ki, bu, mafiyanın hesablaşmasıdır. Televiziya hadisə yerindən xüsusi reportaj hazırlamışdı. Artıq cinayətkar hərc-mərclikdən təngə gəlmiş şəhər sakinlərinin qəzəbli şərhləri səsləndirilirdi. Vəzifəsinə ikinci dəfə təyin olunmuş şəhər prokuroru və şəhər milis rəisi əmin edirdilər ki, bu dəfə qatillər ələ keçiriləcək.

Qəbiristanlıqda olan Mixeyev Quram Xotivarinin Arçilin ölümündən sonra davranışlarının necə dəyişdiyinə və necə hökmlə tapşırıqlar verdiyinə diqqət yetirdi.

Amma Quram dəfnin bitməsini gözləmədi. Sanki harasa möhkəm tələsirdi. Davidə yaxınlaşıb sakitcə bir neçə kəlmə dedi və mərhumun böyük qardaşı razılıqla başını tərpətdi.

“Delta” təyyarələri Moskvaya səhər on birin yarısında çatırdı. Növbəti gün Şeremetyevo-2 aeroportunun zalında Lazarevin adamları səbirsizcəsinə gəzişir, Ryaboyun növbəti yaraqlılarının gəlişini

gözləyirdilər. Amma onlar Quram Xotivarini layiqincə qiymətləndirməmişdilər. Rəsmi deleqasiyaları və hökumət nümayəndələrini adətən sərhədi və gömrüyü keçməzdən əvvəl dəhlizdən çıxarkən qarşılayırdılar. Qonaqları deputat otağına aparıb orda bütün sənədləşmələri həyata keçirirdilər. Bu dəfə XİN əməkdaşlarından ibarət nümayəndə heyətinin qayıdışıyla bağlı Rusiya Xarici İşlər Nazirliyindən zəng olunmuşdu. Deputat otağına gəlmiş cavan oğlanlar öz adamlarını qarşılamaq üçün qızla birlikdə dəhlizdən çıxışa tərəf gəldilər.

Qırmızı şərfi olan üç qonaq var idi. Hamısının da əlində kiçik idman çantaları. Oğlanları cəld deputat zalından keçirib gözə çarpmamaq üçün şərflərini çıxarmalarını xahiş etdilər və avtobusa ötürdülər.

Lazarevin adamları nahaq yerə daha iki saat gözlədilər. Təyyarədən qırmızı şərflə heç kim çıxmadı. Bu yaz Moskvada hava olduqca isti keçirdi.

Qonaqları şəhərətrafı bazaya gətirib yedirib-içirtdilər. Uçuşdan və saat qurşağı dəyişikliyindən

yorulduqlarından hər üçü tezliklə yuxuya getdi. Xəbərləri belə olmadı ki, onların yeməyinə yuxugətirən dərman qatılıb. Gözlərini açarkən özlərini əlləri yuxarı vəziyyətdə başlarının üstündəki boruya bağlanmış gördülər. Qarşılarındakı stulda onlara soyuq tərzdə baxan yaraşıqlı bir qoca oturmuşdu. Onun yanında "qastrolçulara" xoşagəlməz tərzdə gülümsəyən dolu bədənli bir cənab dayanmışdı.

– Deməli, sizi dalaşmaq üçün Ryaboy göndərib, – David xırıldadı, – afərin. Ağıllı uşaqlarsınız. İndi sizdən yalnız bir şeyi soruşacağam. Yalnız bir sual. Əgər ona doğru cavab versəniz, rədd ola bilərsiniz. Yoxsa... Cavabdan sizin həyatınız asılıdır.

Ryaboyun üç yaraqlısı onlardan nə istədiklərini və nə üçün bu vəziyyətə düşdüklərini anlamırdılar. Onlardan yalnız biri, daha böyük olan belə başa düşdü ki, bu adi yoxlamadır və bunu pıçıltıyla digərlərinə çatdırdı.

– Ryaboy sizə qədər kimi göndərmişdi? Mixo və Arçilin qatillərinin adı nədir? Onları harda tapmaq olar? – qoca soruşdu.

Qonaqlar baxışdılar. Onlar heç vaxt nə Mixo, nə də Arçil haqda eşitməmişdilər. Onları bura Boris Lazarevlə işləmək üçün göndərmişdilər. Hətta onun adını da bilmirdilər. Onlara sadəcə olaraq deyilmişdi ki, onları Mixail qarşılayacaq.

Qoca əlibağlı cavan oğlanlara baxaraq bir dəqiqə susdu. Sonra əlini yellədi.

– Onlar sənindir, Quram, – o sağollaşarkən dedi. Və getdi. Xotivari xoşagəlməz təbəssümlə oğlanlara yaxınlaşdı.

– Danışmaq istəmirsiniz, – o güldü, – lazım deyil. Bu hətta yaxşıdır da. İndi Vaja sizə necə oxumaq lazım olduğunu göstərəcək.

Bir dəqiqədən sonra əsirlərin olduğu zirzəmidən dəhşətli səslər gəlməyə başladı. Amma ətrafda heç kim yox idi.

Mixail həyəcanlı görkəmdə Lazarevin yanına gəldi. Gözlədiyi qonaqlar gəlib çıxmadılar. Onlar şəhərə geri qayıtdılar və Mixail bu xoşagəlməz xəbəri çatdırmaq üçün Boris Lazarevin yanına tələsdi.

– Necə yəni gəlməyiblər? – Lazarev qeyzləndi. – Niyə gəlməyiblər? Yəqin, səninkilər yuxulu olub, uşaqları buraxıblar.

– Nahaq belə deyirsiniz, – Mixail özünü təmizə çıxardı, – mənimkilər dörd nəfər olub. Səhərdən. Heç kim gəlməyib, bu dəqiqdir. Bəlkə Nyu-Yorkda nəsə olub?

– İndi öyrənərəm. – Lazarev cəld Ryaboyun nömrəsini yığdı. İndi Amerikada gecəydi. Dəstəyi Ryaboy özü götürdü.

– Hə, – onun narazı səsi eşidildi.

– Bu mənəm, Boris, – Lazarev tələsik dedi, – sizin adamlarınız gəlib çıxmadı.

Digər tərəfdə sükut çökdü.

– Alo, – Lazarev elə bildi ki, əlaqə kəsilib.

– Deməli, deyirsən ki, gəlməyiblər, – Ryaboy birdən fısıldadı. – Mənimlə oyun oynayırsan? Baha satmaq fikrinə düşmüsən?

– Onlar doğrudan da gəlib çıxmayıblar! – Lazarev özünü saxlaya bilməyərək bağırdı.

– Axmaq adamsan, – birdən Ryaboy sakitləşdi. – Çox axmaq adamsan! Səndən bir şey çıxmayacaq. Yoxla gör, uşaqları hara aparıblar. Hərçənd, onlar yəqin çoxdan öldürülüblər. Elə uşaqları itirdin, yaramaz. Yoxla və zəng et. Bəlkə səninkilərdən kimsə ələ verib. – Lazarev telefonu söndürdü. Onun yaraşıqlı, bir qədər uzunsov sifətində vəhşilik sezildi. Onunla heç kim heç vaxt belə danışmamışdı. Amma əgər oğlanları doğrudan da, aparıblarsa, deməli, Ryaboy haqlıdır. O həqiqətən də yaramazdır.

– Axtarın, – o, Mixailin üstünə qışqırdı, – hər bir sərnişini araşdır! Aeroporta qayıt və hər şeyi aydınlaşdır. Rədd ol burdan.

Öz şefini heç vaxt bu halda görməyən Mixail qorxu içində otağı tərk etdi. Axşama yaxın öyrənə bildi ki, qonaqların üçü deputat otağından keçib. Onları qarşılayan qız təsdiq etdi ki, oğlanlar qırmızı şərf taxmışdılar. Lazarev anladı ki, rəqib cavab zərbəsi endirib. İki saatdan sonrasa gecənin bir aləmində onun Moskvadakı mənzilində qapının zəngi çalındı. Ailəsi çoxdan Fransadaydı. Qapını Lazarevin

mənzilində gecələyən cangüdənlərdən biri açmağa getdi. Qalan iki nəfər avtomatlarını hazırladılar. Amma qapının arxasında heç kim yox idi. Sonra bildilər ki, həyətdən hansısa oğlan qaçıb. Qapının ağzında, yerdə balaca bir yeşik var idi.

O, bomba üçün həddən artıq yüngül idi. Amma bun baxmayaraq, mühafizəçilərdən biri onu mətbəxə aparıb ehtiyatla açdı. Yeşikdə altı ədəd balıqqulağı var idi. Diqqətlə nəzər yetirdikdən sonra Lazarev bunların qulaq olduğunu anladı. Bu müharibədə həlak olmuş qonaqların qulaqları. Boris Qriqoryeviç birinci dəfə qorxdu. İndi o dəqiq bilirdi – güzəşt olmayacaq. Ya onlar, ya da rəqibləri. Artıq şəhər onların hamısına darlıq edirdi.

Növbəti günün səhəri Lazarevin ən yaxın və etibarlı adamlarından biri, “Qamma Bank”ın rəhbəri Zıkov elə öz evinin yanında güllələndi. Həmin günün axşamı, şayiələrə görə Zıkova qarşı sui-qəsdi hazırlamış Qara Vasili naməlum adamlar tərəfindən restoranda güllələndi. Müharibə həlledici mərhələyə qədəm qoydu.

O, amansız və qanlı olacağını vəd edirdi. Heç kim güzəştə getmək fikrində deyildi. Bu, simanın itirilməyi demək idi ki, bu da avtomatik olaraq müharibədən kənarlaşmağa gətirib çıxarırdı. Belə bir müharibədə güzəştə getmək ölümdən betər idi. Və bunu hər iki tərəf anlayırdı.

Genişlənməkdə olan müharibəni izləyən Mixeyev yalnız növbəti mafiya hesablaşmasını qeydə almağa macal tapırdı. Və əvvəlki kimi Mixonun qatilini axtarırdı. Bu qəribə və amansız müharibənin başlanmasına səbəb olan həmin adamı.

Mixeyev və Çijov Nyu-Yorkda Vaxtanq Stombolişvilinin öldürüldüyünü çox gec, üç gündən sonra öyrəndilər. Bu, Vaxtanqın həlledici anda Mixonu ələ verdiyi versiyasını təsdiq edirdi. Bəs niyə Moseşvili “Ukrayna”da naməlum adamı gözləyirdi? Niyə onun üçün taksi sifariş verib? Bu suallar cavabsız qalırdı.

Bütün xoşagəlməzliklərə o da əlavə olundu ki, Xotivari öz telefonunu bloka sala bildi və DİN ekspertlərinin bütün səylərinə baxmayaraq, onun telefonuna qoşulmaq mümkün olmadı. Quramın həddən

artıq yaxşı mütəxəssisi vardı. Əvəzində o maneəsiz bir şəkildə nəinki Mixeyev və Çijovun, eləcə də onun belə bir imkanı olduğunu ağıllarına belə gətirməyən rəqibləri Lazarevin, Mansurovun və Ryaboyun danışıqlarını dinləyə bilirdi. Hərçənd, qonaqların gələcəyini Mixaildən başqa heç kim bilmədiyi halda aeroportdakı insidentdən sonra Lazarev hətta telefonlara da inanmırdı. O hiss edirdi ki, informasiya ordan sıza bilər. Ona görə öz telefonuyla heç bir ciddi danışıq aparmamağa qərar vermişdi. Ryaboyasa təsadüfi yerlərdən zəng edirdi. Ona elə gəlirdi ki, belədə onun Nyu-Yorkla danışdığı telefonu tapmaq çətin olar.

Müdrik Ryaboy anladı ki, onun adamları ələ keçirilib və buna laqeydliklə yanaşdı. İlk şoku geridə buraxandan sonra Lazarevi daha sakit dinləməyə başladı. O dərk edirdi ki, müharibə itkisiz olmur.

Öz zəruriliyini belə parlaq şəkildə sübut etməyə nail olan Quram Xotivari yekdilliklə mərhum Mixonun yerinə seçildi. Bu dəfə David özü onun tərəfindəydi və Zurab Axvlediani etiraz edə bilmədi. Həmin günün

axşamı “Kontinental Bank”ın sahiblərindən birinin Moskvaətrafı villasında Qafqaz qruplaşmalarının rəhbərlərinin toplantısı oldu.

Ən xoşagəlməz və incə mövzular müzakirə olunacağından belə qərara alındı ki, görüşə hər qruplaşmadan iki nəfər gəlsin. Artur Sarkisyan görüşə dostu və bankının təhlükəsizlik xidmətinin rəhbəri Karen Poqosovla birlikdə gəlmişdi. Heç kimə, hətta öz yerlilərinə belə etibar etməyən Rafael Bağırov özünün sanballı qruplaşmasında Qara Vasilini əvəz edən Saşa Xryakla gəlməyi düzgün saymışdı. Quram Xotivari və Zurab Axvlediani hər biri öz mühafizəçisiylə birgə gəlmişdi. İstisna olaraq, hələ ki Moskvada olan David Qogiyanın da iştirakına icazə verilmişdi.

Gələnlər iş adamları olduqlarına görə masanın üzərində çay və quru biskvitdən başqa heç nə yox idi. Ədəbiyyatda və filmlərdə təsvir olunan mafiya başçılarının hay-küylü yığıncaqlarının real həyatla heç bir əlaqəsi yoxdur. Əslində danışıqlar, xüsusən də işgüzar görüşlər zamanı onlar nəinki içki içmir, eləcə də haqlı

olaraq, belə hesab edirdilər ki, potensial rəqibləriylə heç nahar etmək də lazım deyil. Yalnız dəhşətli düşmən qarşısında birləşmək zərurəti onları görüşməyə vadar etmişdi.

Toplantını sahiblik hüquqlarına görə Artur Sarkisyan açdı. Son hadisələrdən bir qədər təngnəfəsliklə danışıb "Kontinental Bank"la "Qamma Bank" arasında artıq maliyyə mübarizəsinin başlandığını da əlavə etdi. Mixo, Arçil Qogiya və Qara Vasilinin qətli arxa plana keçdi. Ryaboyun yaraqlılarının gəlişindən xəbər tutaraq onları məhv edən Quram Xotivarinin aktiv fəaliyyətisə ön plana keçdi. Zıkovun ölümü heç bir sual doğurmadı. Hamı bilirdi ki, onu burda Bağırovla birlikdə iştirak edən Saşa Xryakın adamları öldürüblər. Sarkisyan narazılıqla fikrindən keçirdi ki, azərbaycanlı qruplaşmaların Moskvaətrafı qruplarla əlaqələri onunkundan daha sıxdır. Bu təhlükəli vəziyyəti cəld aradan qaldırmaq lazım idi. Buna baxmayaraq, fikirlərini özündə saxlayıb məlumatını yalnız müharibənin hər iki tərəf üçün öldürücü olduğunu xatırlatmaqla bitirdi.

– Nə təklif edirsən? – Zurab soruşdu. Onun xora xəstəliyindən əziyyət çəkirdi və daim xəstəxanadan yenicə çıxmış kimi naxoş görkəmi var idi.

– İstənilən halda müharibəni davam etdirmək olmaz. Artıq həm milis, həm də təhlükəsizlik xidməti bizimlə maraqlanır, – Sarkisyan cavab verdi. – Hələ ki təhlükəli bir şey yoxdur. Hər şeyi nəzarətdə saxlayırıq, amma bu problemlər nəyimizə lazımdır ki? Onsuz da Ryaboya başa saldıq ki, bizim işlərimizə qarışmaq lazım deyil. Düşünürəm ki, o, dərsini alıb. Quramın göndərdiyi kəsilmiş qulaqlarsa Lazarevi daha üzüyola edib. İndi o, bizimlə istənilən məsələnin müzakirəsinə razı olacaq. Müharibəni qurtarmaq lazımdır, – Sarkisyan qətiyyətlə dedi.

– Biz ki onu hələ başlamamışıq, – Davidin kal səsi eşidildi, – hələki Quram bir qədər qurdalanıb. Bizsə əsl müharibəyə başlayacağıq. Bu bədbəxtləri yer üzündən siləcəyik.

– Bağışlayın, David, – Bağırov ehtiyatla söhbətə qarışdı. O həmişə sakit səslə danışırdı, – hamımızın sizi

necə sevdiyimizi bilirsiniz. Dərdinizə şərik oluruq. Arçil bizim də dostumuz və qardaşımız idi. Mən özüm haqda deyə bilərəm ki, mənim ondan yaxşı dostum olmayıb, – əlbəttə, o bir qədər şişirdirdi, amma David minnətdarlıqla başını tərpətdi, – amma buna baxmayaraq, bir qədər ehtiyatlı olmaq lazımdır. Başa düşürsünüz, əziz David, böyük müharibəni məhz indi başlamaq olmaz. Tezliklə, Rusiya parlamentinə seçkilər başlayır, respublikaya prezident seçəcəklər. Və bu şərtlərdə, hər bir namizəd, təkrar edirəm, hər bir namizəd mafiyayla mübarizənin zəruriliyindən danışacaq. Bunun bizim üçün nə demək olduğunu başa düşürsünüz? Bizim hədsiz dərəcədə böyük itkilərimiz olacaq, hər yerdə bizim adamların ovuna çıxacaqlar, onları aradan götürəcəklər. Bizə işləməyə imkan verməyəcəklər. Yeni hakimiyyət mafiyayla mübarizədə öz sərtliyini nümayiş etdirəcək.

“O nə yaxşı danışır, – Sarkisyan rəğbətlə düşündü, – prezidentlər və baş nazirlərlə ünsiyyətdə öyrənib. Əlbəttə, onun işi asandır. Dar ayaqda ona heç kim toxunmayacaq. Belə adamı heç həbs etmək də olmaz –

bütün dünyada məşhurdur. Amma dedikləri düzgündür, doğru danışır”.

– Bundan əlavə, – Bağırov çeçələ barmağıyla başını qaşıyaraq saçlarını sığalladı, – ruslarla rus şəhərində mübarizə aparmaq olmaz. Bu hətta ədəbsizlik olar.

– Nə dəxli var? – Sarkisyan özünü saxlaya bilmədi. – Rus şəhəriylə tatar Mansurovun və ya Lazarevin asiyalı sifətinin nə əlaqəsi var?

– Artur Aşotoviç, – Bağırov başını buladı, – sizdən bunu gözləməzdim. Mənim də Lazarevin sifətindən ötrü gözüm uçmur, amma razılaşın, Moskvadakı slavyan qruplaşmalarının böyük əksəriyyətini məhz o idarə edir. Bu ki faktdır.

– Doğrudur, amma onların hamısının rus olduğunu demək lazım deyil. Ryaboy məncə, ya mordvin, ya da çuvaşdır! – Sarkisyan coşdu.

– Bunun əhəmiyyəti yoxdur, – Bağırov gülümsəyərək etiraz etdi, – onlar yerlidir, bizsə qonaq.

– Onlardır yerli?! – Sarkisyan tamam özündən çıxdı. – Kimdir yerli? Hansı biri? Mansurov, Lazarev, mərhum Zıkov, Ryaboy özü? Kim? Amma mənim əcdadlarımın yüz əlli il bundan qabaq Moskvada dükanı olub. Mənim doğmalarımın beş nəsli Moskvada yaşayır. Deməli, mən, Artur Sarkisyan yerli olmuram, şəhərdə bir neçə il bundan əvvəl peyda olan əclaflar yerli olur, hə?

– Mən sizi incitmək istəmirdim, – deyəsən, Bağırov heç vaxt qəzəblənmirdi, – sadəcə olaraq, faktları sadaladım. Onlar üçün siz ermənisiniz, onlarsa rus. Deməli, daha yaxındırlar. Vəssalam. Mən sizin xətrinizə dəyəsi heç nə demədim.

– Hamısı doğrudur, – yenə Davidin səsi gəldi, – amma sülh olmayacaq. Onlar Arçilin qatilini bizə təslim edənə kimi. Mən and içmişəm ki, onun qatilini tapacağam və sözümə əməl edənə kimi burdan heç hara getməyəcəyəm.

Bağırov və Sarkisyan baxışdı.

– Siz hələ mübahisə edirsiniz? – Bağırov Sarkisyanı sancdı.

– Gözləyin. – Bağırovun sözlərindən həqiqətən də, inciyən Sarkisyan, onun haqlı olduğunu da dərk edirdi. – Batono David, biz qatili doğrudan da, tapmalıyıq. Amma bu danışıqların predmeti də ola bilər. Onlar bizə qatili təslim edir və biz müharibəni dayandırırıq. Olar?

– Yox, olmaz. – Qocanın inadkarlığı artıq hamını qəzəbləndirməyə başlamışdı. – Onlar onu bizə verməli deyillər. Biz özümüz onu axtarıb tapmalı və öldürməliyik. Bu, şərəf məsələsidir. Əsir rəqibisə öldürmürlər. Bunun üçün qəssablar var.

– Quram Ryaboyun adamlarını ələ keçirərkən, deyəsən, siz onların öldürülməsinə etiraz etməmişdiniz, – Sarkisyan yumşaq tərzdə qeyd etdi.

– O başqa məsələydi. Onlar "əlaltı" idilər. Onları öyrətmək və Lazarevi qorxutmaq lazım idi. Bu isə tamam başqa məsələdir. Mənim qardaşımı cəsur və hiyləgər bir kişi öldürüb. Onu minlərlə adamın gözü önündə güllələyib. Mənsə, onu gizlincə öldürəcəyəm. Yox, biz sübut etməliyik ki, daha hiyləgərik. Daha ağıllıyıq.

Göstərməliyik ki, biz yalnız atəş açmaq yox, düşünə də bilirik.

– Sizin məntiqinizi anlamaq çətindir, – Sarkisyan əsəbi tərzdə dedi.

– Biz Mixonun qətliylə bağlı cinayətin təhqiqatını da nəzarətdə saxlayırıq, – Quram Xotivari söhbətə qarışdı. – Mixo və Arçilin naməlum qatilinin yerini təyin edən kimi milisin gəlişini gözləmədən onu ələ keçirəcəyik.

– Bəs həmin vaxta qədər biz bir-birimizi öldürməliyik? – Bağırov dəqiqləşdirdi.

Quram əlini yellədi.

– Qulaq asın, əziz dostlarım, – Bağırov həmişəki kimi sakit danışırdı, amma həyəcanlandığı açıq-aşkar hiss olunurdu, – sizin üçün fərqi yoxdur, müharibə nə qədər gedər – bir il, iki il. Sizin adamlarınız, Quram, reketlik edir, maşın oğurlayır, ev yarırlar. Onların daimi yaşayış yeri yoxdur, onlar dövlətə vergi ödəmirlər. Amma bizim adamlar elə deyil. Onlar bazarlarda durur. Orda hər bir adam azərbaycanlını üzdən tanıyır. İstəyirsiniz ki, onları döyməyə başlasınlar? Əgər axmaq deyilsə, Lazarev

bazara beş-altı qadın göndərər. Vəssalam, alver bitdi. Onlar qışqırmağa başlayacaq ki, “qaralar” onları qarət edirlər. Və onda mənim adamlarımı qovmağa başlayacaqlar. Yadınıza gəlir, Moskvada, Qorki küçəsində taksi sürücüləri yolu bağlayıb işləmək istəmirdilər, deyirdilər ki, azərilər taksi sürücüsünü öldürüb. Sonra aydın oldun ki, azərbaycanlıların, ümumiyyətlə, bu işlə əlaqəsi yoxdur. Amma şayiə yayılmışdı. Hamı bizim üstümüzə atacaq. Mən bilirəm ki, Moskvada bir gərginlik olan kimi digər qruplar fürsətdən istifadə edib hər şeyi bizim üstümüzə atacaq. Moskva sakini üçünsə azərbaycanlı və ya çeçenin fərqi yoxdur. Hamı birdir – qara. İstəyirsiniz ki, onlar bizim köşkləri dağıtsınlar? Elə sizin də, hörmətli Artur Aşotoviç böyük problemləriniz olacaq. Desantçıların “Ermənistan” mağazasını darmadağın etmələrini xatırlayırsınız? Siz ki o vaxt dəqiq təyin etmişdiniz ki, bu təxribatdır. Həmin yerə desantçıları qəsdən gətirmişdilər. İstəyirsiniz ki, bu dəfə kütləni sizin banka gətirsinlər?

Dəlil öldürücüydü. Sarkisyan tünd-qırmızı rəng aldı, amma dinmədi. Söhbətə, onun dostu, azərbaycanlıları sevməyən Poqosov qarışdı.

– Bu qədər şişirtmək lazım deyil, – onun xoşagəlməz, kəskin ləhcəsi var idi, – biz elə edə bilərik ki, Lazarev neytrallaşsın. Bunun üçün onun bankının lisenziyasını əlindən alarıq.

– Siz bunu edə bilərsiniz? – Bağırov cəld soruşdu.

– Moskva rəhbərliyi vasitəsilə etməyə çalışarıq.

– Rafael Mamedoviç haqlıdır, – Quram ah çəkdi, – müharibə etmək sərf eləmir. Yox David, – o, qocaya müraciətlə dedi, – siz narahat olmayın. Arçilə güllə atan adam öldürülməyincə mən sakitləşməyəcəyəm. Sabahkı gün haqda düşünmək lazımdır. Lazarev kimdir ki? Milçək, cücü. Biz onu bir göz qırpımında əzə bilərik. Amma Ryaboy başqa məsələdir. O elə adamları bizə qarşı qaldıra, elə bir müharibəyə başlaya bilər ki! Bizə bu doğrudan da, lazım deyil. Mixonun qatilini tapıb aradan götürərik, sonra danışıqlara başlamalıyıq.

– Deməli, Lazarev sizinlə danışıqlara da gedəcək, – Zurab kinayəylə dedi. Xotivarini sancmaq ona xoş idi. O özlüyündə belə hesab edirdi ki, Quram demək olar ki, ona məxsus hakimiyyəti qəsb etmişdi.

– Bu doğrudur, – Poqosov təsdiqlədi, – indi Lazarev danışıqlara getməyə də bilər. Zıkov onun ən yaxın dostuydu.

– Deməli, bizim “kahin”ləri işə qoşmaq lazımdır, – birdən Bağırov dedi.

Sarkisyan və Poqosov qorxu içində bir-birinə baxdı. Səhv eşitmədilər ki?

– Nə dediniz? – Sarkisyan soruşdu.

– Düz eşitdiniz. Yalnız onlar danışıqlarda araçı və əsl təminat ola bilərlər. Ryaboy onlarla münasibətini korlamaq istəməyəcək. Bu çox təhlükəlidir, xüsusən də Amerikada yaşayarkən.

– Başa düşmürəm, – Quram qaşlarını çatdı, əvvəllər onu belə toplantılara buraxmırdılar. – Nə “kahin?” Siz kim haqda danışırsınız?

– Yəhudi mafiyası, – Poqosov izah etdi, – bizim onlarla əlaqəmiz var.

Ənənəyə uyğun olaraq, bu mafiya beynəlxalq informasiya ötürülmələrini, şou-biznesi, qəzet, jurnal və televiziyaları idarə edirdi. Bütün Qafqaz qruplaşmaları Rusiya şəraitində Kütləvi İnformasiya Vasitələrinin qorxunc, hətta idarəolunmaz güc olduğunu anladıqlarından “kahin”lərlə (onları öz aralarında belə adlandırdılar) yaxşı münasibət saxlamağa çalışırdılar. Televiziyada üç-dörd reportajın getməyi kifayət idi ki, istənilən qrup öz fəaliyyətini bitmiş hesab edə bilsin. Ona görə heç kim “kahinlərin” işinə qarışmır və onlardan ehtiyatlanırdılar. Həm də onların xaricdə də güclü mövqeləri var idi.

– Siz kiminlə danışmaq istəyirsiniz? – Sarkisyan soruşdu.

– Bunu müzakirə etmək lazımdır. Düşünürəm ki, Filya Rubinçiklə, – Bağırov ehtiyatla bildirdi.

– Dəli olmusunuz, – Sarkisyan yenə coşdu, – o bizim gəlirimizin beşdə birini istəyəcək!

– Bəs siz hamısını itirmək istəyirsiniz?

Ənənəvi olaraq, azərbaycanlı qruplaşmaların yəhudi qruplarıyla yaxşı əlaqələri var idi. Ümumiyyətlə, İsraillə yaxşı əlaqələr var idi. Bakıda yaşayan, altmışıncı illərdə səksən min əhalisi olan yəhudi icması özünə qarşı həmişə anlayış və mehriban münasibət görmüşdü. Bakı, Çar Rusiyasında heç vaxt yəhudi qırğınının olmadığı azsaylı mərkəzlərdən biriydi. Bundan başqa, burda, imperiyanın bəzi digər yerlərində yayılmış ikrahedici antisemitizm əlamətləri də heç vaxt görünməyib. Çar gizli polisinin təhrikçiləri tərəfindən təşkil olunmuş erməni və azərbaycanlıların qanlı toqquşmaları çoxsaylı səylərə baxmayaraq yəhudi qırğınına gətirib çıxarmadı. İyirminci illərdən sonra Bakıdakı bütün icmalar çox gözəl yola getmiş və heç bir toqquşma olmamışdır. Yalnız hakimiyyətə “sülhpərvər” və “yenidənqurmaçı” Mixail Qorbaçovun gəlişindən sonra Bakıda xalqlararası toqquşmalar zəminində faciəyə gətirib çıxaran həyəcanlar başladı. Doxsanıncı ilin yanvarında qanlı toqquşmalar nəticəsində yüzə yaxın azərbaycanlı, əlli altı erməni, tatar,

rus, ləzgi və yəhudi həlak oldu. Mixail Qorbaçovun əmrilə şəhərə yeridilmiş hərbi qüvvələr hətta təsadüfi adamları da amansızcasına güllələyirdilər. Rus, erməni və azərbaycanlı anaların ahı ərşə dirənmişdi. Bütün bu məsuliyyəti öz üzərinə götürən və bu ağır yükün öhdəsindən gəlməyən adamı lənətləyirdilər.

Sarkisyan, Bağırov və adamlarının yəhudi icmalarıyla olan münasibətlərindən xəbərdar idi. Amma etiraz etməməyə qərar verərək heç nə demədi.

– Onlar təminat ola bilərlər, – Zurab aramla dedi, – amma gəlirin beşdə birini biz onlara verməyəcəyik. Qoy on faiz alsınlar. Amma Ryaboy və Lazarev, nəhayət, bizə deməlidirlər ki, bizim Qafqazda nə baş verir. Niyə onların adamları bizimkilərlə rəqabətə girib? Məndə məlumatlar var. Ryaboyun adamları bizim Batum limanından yük aparan gəmimizə hücum edib. Gəmini mühafizə edənlərin hamısını öldürüblər. Onlar niyə belə edirlər? Kim onlara icazə verib? Batumdan Şalva Rurua mənə zəng edib soruşur ki, bunlar nə vaxt qurtaracaq? Siz burda, Moskvada nə düşünürsünüz?

Şalvanın, Mixonun xələfi kimi onun özünə yox, məhz Zuraba zəng etməsi Xotivarinin xoşuna gəlmədi. Amma o yenə heç nə demədi. Gözləmək və susmaq bacarığı Quram Xotivarini hər zaman cinayətkar aləmin digər liderlərindən fərqləndirirdi.

– Necə yəni hücum ediblər? – Poqosov hirsləndi. – Bu yaxınlarda onlara Ermənistan vasitəsilə yük göndərilib.

– Yük də yoxdur, – Zurab əlini yellədi, – orda kimsə bizə qarşı işləyir. Onlar Qarabağ dəhlizi vasitəsilə İranla əlaqə qurmaq istəyirlər. Bizi qarabaqara izləyirlər. Deyirlər, orda tez-tez hansısa keçəl bir adamı görürlər. Görünür, onu Ryaboy özü göndərib. Şalvanın gəmisinə hücum əmrini də elə o verib. Niyə belə edirlər?

– Keçəl deyirsiniz? – Bağırov qaşlarını çatdı. – Bu mənim də xoşuma gəlmir. Bakıda iri narkotik anbar tapılıb. Atışma olub, ölənlər var. Və yenə hansısa keçəl qaça bilib. İndi onu bütün şəhərdə axtarırlar. Amma o anbar mənim deyil. Mən onun haqqında heç eşitməmişəm.

– Nə edəcəyik? – Sarkisyan soruşdu. O artıq anlayırdı ki, Ryaboyun fəaliyyətinin genişlənməsi doğrudan da, Rubinçikin qrupuyla əməkdaşlıq tələb edirdi. Və etiraz etmirdi. Bir kənarda oturub bayaqdan susan və Rubinçikin qrupunu sevməyən Saşa Xryak da susmağı lazım bildi. Vasilinin ölümündən sonra o özünü hələ arxayın hiss etmirdi.

– Mən Rubinçiklə danışaram, – Bağırov təklif etdi, – siz Lazarevin yanına adam göndərin. Müharibəni bitirmək lazımdır. Hörmətli Davidə gəlincə, o haqlıdır, biz dostlarımızı öldürən əclafı tapmağa borcluyuq. Əgər Quram və adamları yaxın üç gün ərzində qatili tapa bilməsələr, mən şəxsən Lazarevdən onu təslim etməsini tələb edəcəyəm. Narahat olmayın, David, bu adamın öz həyatını müdafiə etmək imkanı olacaq. Şərəfli mübarizə olacaq, – o öz sözlərinə özü də inanmadan dedi.

– Danışdıq, – Sarkisyan bərkdən ah çəkdi, – ən çətin məsələlərin həllini mən həmişə sizə etibar etmişəm, Rafael Bağıroviç. Siz həmişəki kimi haqlısınız.

Artıq maşında oturarkən Sarkisyan Poqosova donquldanırdı:

– Onlar həddən artıq çox alırlar. Əgər Bağırov Rubinçiklə razılığa gəlsə, hər şey dəyişə bilər. Onlar bütün şəhəri nəzarətə götürəcəklər.

Quram Xotivariylə qayıdan David bütün yolboyu susurdu. Quram bu dözülməz qocanı Gürcüstana geri göndərmək haqqında düşünürdü. Bu hədsiz möhkəm himayə onu əzirdi.

Bağırov şəhərə qayıdarkən maşının arxa oturacağında yuxuya getmişdi. Ailəsini çoxdan İngiltərəyə göndərmişdi və indi sevgilisinin yanında gecələyirdi. Onun axırıncı dəfə düşündüyü, hər yerdə peyda olan bu ələkeçməz keçəl haqda həyəcanlı fikirlər olmuşdu.

"Bakıda kimsə onun arxasında durur", – o yuxuya getməzdən əvvəl düşündü.

## XXII HİSSƏ

Bakıda baş verən hadisələr bütün şəhərdə geniş müzakirə olunurdu. İki öldürülən və bir ələ keçirilən quldur onlarla üzvdən ibarət böyük bir dəstəyə çevrilmişdi. Bütün şəhərdə şayiələr gəzirdi. Quldurlar və hadisə yerinə gəlib çatan ordu hissələri arasında baş verən əsl mübarizə haqda danışan şahidlər də peyda oldu. Firmanın ikimərtəbəli binasının yanında daim yüzlərlə avara, jurnalist və fotomüxbirlər dayanırdı.

Mirzə Cəfərovun yarası kifayət qədər ciddi olduğundan bütün səhəri DİN-in xəstəxanasında keçirməli oldu. Orda sol əlinə dərman qoyub sarıdılar. Şəhərdə qıt olan dərmanların hamısı xəstəxanada var idi və bütün proseduru keçirən həkim əmin etdi ki, artıq bir aydan sonra yara sağalacaq. Cəfərovun doğrudan da, bəxti gətirmişdi. Güllə demək olar ki, sümüyə dəymədən əlinin içindən keçmişdi və bu, yeganə təsəlliydi.

Yoxa çıxan maşını bütün şəhər boyu axtarırdılar. Yollarda postlar qoyulmuş və qaçan keçəl quldurun təsviri verilmişdi. Amma "Prins Deyvo" heç harda peyda olmadı. Maşın sanki yerin dibinə girmişdi. Artıq səhər

Lautonun verdiyi “keçəlin” şəkilləri hazır idi. Onlar bütün şəhərə yayılmışdı. Əmr olunmuşdu ki, quldur yalnız sağ ələ keçirilməlidir. Göstərilirdi ki, o çox təhlükəlidir. Vəliyevin əmrilə tapılmış kağız və sənədlərin təhqiqatıyla məşğul olan böyük bir qrup yaradılmışdı. Qrupa Cəfərov başçılıq edirdi. Ona kömək üçün verilmiş beş nəfər rayon prokurorluğunun müstəntiqləri tapılan hər bir kağızı diqqətlə təhqiq edirdilər. Bütün digər şeylərdən başqa, anbardan, görünür, İrandan yüklərin daşınmasıyla məşğul olan avtomobildə Bakıya gətirilmiş iki yüz kiloqramdan artıq narkotik maddə tapılmışdı. Həmin maşın, “Avto-Baku” şirkətinə məxsus böyük yük tutumlu “Mersedes” firmanın qarajında tapıldı. Sorğu-suala tutulan sürücü heç bir məlumat verə bilmədi, çünki yükün keyfiyyətinə məsuliyyət daşımırdı. O, yükü İranın Aslandüz şəhərində qəbul edirdi: orda ona plomb vurulur və daha sonra Bakıda şirkətin nümayəndəsinin iştirakıyla açılırdı. Sürücünün heç ağlına da gəlmirdi ki, onun daşıdığı yeşik və kisələrin arasında, qutulardan birinin içində ustalıqla gizlədilmiş narkotik maddə ola bilər.

Sürücünü buraxan Cəfərov şəhər milis idarəsinə getdi ki, orda saxlanılan Zeynal Manafovu şəxsən sorğu-sual etsin. Bakının Nizami rayon prokurorluğunun müstəntiqi İbrahim Qarayev Cəfərova kömək etmək üçün ezam olunmuşdu. Onlar ikilikdə Manafovu şəhər Daxili İşlər İdarəsinin təhqiqat şöbəsinin otağında qəbul etdilər. Dünənki atışma zamanı polis əməkdaşlarından birinin öldürüldüyündən xəbər tutan Manafov yaxşı bilirdi ki, heç bir şansı yoxdur. Bütün sivil ölkələrdə polis əməkdaşının öldürülməsi cinayətkarı xüsusi, müstəsna vəziyyətə salır. Ona həbsxanada yer yoxdur, bütün mühafizə əsgərləri, gözətçiləri onun cinayəti haqda bilirlər. Polis işçisinin qatili olduğu üçün onu cinayətkar aləm də qəbul etmir. Və nəhayət, o tez-tez qanundan kənar vəziyyətə düşür, çünki belə hallarda qanun mümkün olan ən ağır, ən uzun cəzanı kəsir. Belə bir cəzanı alan adamsa heç bir güzəşt almaq ümidinə malik olmur. Çünki o, polisə güllə atarkən Qanuna, Dövlətə güllə atmış olur. Qanun və Dövlətsə belə şeyləri heç vaxt bağışlamır.

Ona görə də gözətçilərin gətirdiyi Manafov düşkün əhvali-ruhiyyədəydi və müstəntiqlərin suallarına cavab vermək fikrində deyildi. Cəfərov və Qarayevin bütün suallarına baxmayaraq, o, üzünü pəncərəyə çevirib susurdu. Cəfərov bu şəkildə heç nəyə nail olmayacaqlarını anlayıb taktikanı bir qədər dəyişməyə qərar verdi.

– Deməli, danışmaq istəmirsən? – Cəfərov məhbusdan soruşdu. – Neyləyək, bu sənin hüququndur. Cavab verməyə bilərsən. Mən bilirəm ki, Cəfərə sən atəş açmamısan, amma sən cinayətdə əlbir kimi on beş il alacaqsan. Polis işçisinin qətlində iştirak etmisən və digərlərinə atəş açmısan. Bunu başa düşürsən?

Manafov hələ də susurdu.

Qarayev yumruğunu stola çırpdı:

– Danış, əclaf, yoxsa uşaqları çağırıb səni butulkada oturdaram!

Manafov yenə susurdu.

– Lazım deyil, – Cəfərov dəlisov həmkarına dedi, – o axı özünü qəhrəman hesab edir. Milis işçilərinə atəş açıb, – Mirzə hələ də "milis" deyirdi, halbuki

Azərbaycanda milis işçilərini çoxdan polis adlandırırdılar, – narkotik saxlanmasında iştirak edib. O elə bilir ki, həbsxanada qəhrəman olacaq.

Manafov ikrahla dodaqlarını əydi, amma yenə də heç bir söz demədi.

– Amma sən qəhrəman ola bilməyəcəksən, – Cəfərov qeyd etdi, – bilirsən niyə? Axı digər məhbuslar sənin Aslandüzə haradan və niyə getdiyini öyrənə bilərlər.

Manafovun sifətində birinci dəfə mənalı ifadə göründü, deyəsən, bu qorxuydu.

– Başa düşmürsən? – Cəfərov soruşdu. – Axı dağlarda qoca çobanı siz öldürmüsünüz. Sənin dostunun atəş açdığı oğlansa sağ qalıb. Təsəvvür edirsən, sağ qalıb və bizə hər şeyi danışıb. – Daha şübhə yox idi. Manafov qorxmuşdu. O, Cəfərovun bundan sonra nə deyəcəyini bilirdi.

– Deməli, dağlarda siz beş nəfər olmusunuz, – müstəntiq davam etdi, – və onda sənin dostun Ömər Əfəndiyev qoca çobanı öldürüb. Yadındadır?

Manafov reaksiya verdi. O, başını tərpətdi, sanki Cəfərovun hipnozuna tabe olurdu.

– Sonra sənin digər dostun, erməni, oğlanı güllələyib. Bu da yadındadır? İstəyirsən, ikincinin adını sənə deyim?

Manafov birinci dəfə nəsə deməyə çalışaraq ağzını açdı.

– Mən orda olmamışam, – o xırıldadı.

– Bizim səni təsvir edən şahidimiz var, – Cəfərov bildirdi, – sən orda olmusan. Siz birlikdə sərhədə doğru getmisiniz və əlinizdə ağır çantalar olub. Nə daşıyırdınız? Əgər ordan narkotik gətirmisinizsə, deməli, ora pul aparırdınız. Nağd pul idi? Dəstənizəsə səninlə evdə olan həmin keçəl başçılıq edirmiş. Xatırlayırsan?

– Hansı keçəl?

– Onun adını mənə sən deyəcəksən.

– Ay əclaf! – Qarayev qışqırdı. – Müharibə gedir, sənsə düşmənlə sərhəd keçirsən, pul daşıyırsan?

– Daşıyır, – Cəfərov təsdiqlədi. Qarayev oyunu anlayıb ona düzgün qoşuldu, – bundan başqa, bizim

dağlar vasitəsilə yolu göstərirmiş. Bizim hərbi məğlubiyyətlərimizin günahkarı onun kimi satqınlardır. Bəlkə o, tanklara da yol göstərirmiş, beləsi doğma anasını da satar.

– Doğru deyil, – Manafov dedi, – heç biri doğru deyil.

– Bəs nə doğrudur? – Cəfərov cəld soruşdu. – Mən səni eşidirəm, danış.

– Mən heç bir tanka yol göstərməmişəm.

– Amma digər tərəfin quldurlarına göstərmisən, hə? Cavab ver.

Manafov yenə üzünü çevirdi.

– Onlara yolu Ömər göstərirdi, – o, narazılıqla bildirdi, – mənim bura nə dəxlim var?

Cəfərovun hesabı doğruydu. Manafov üçün ən ağır cinayətdə belə ittiham olunmaq satqın hesab olunmaq qədər dəhşətli deyildi. Bunu kamerada məhbuslar ona heç vaxt bağışlamazdılar. Ən yaxşı halda onu zorlayacaqdılar və ya oğru dililə desək, “xoruz”a çevirəcəkdilər. Azərbaycan kişisi üçün bu, ölümdən, ən qorxunc əzab-əziyyətdən və

alçaltmalardan daha dəhşətliydi. "Xoruz", hələ mümkün arvadı və uşaqları bir yana, öz nəslini, atasının, anasının, bacı və qardaşının adını rüsvay edirdi. O, toxunulmaz sayılırdı. Manafov qorxdu, diksindi. O anlayırdı ki, əgər Cəfərovun dediklərini kimsə bilsə, onun ümumi kamerada heç bir şansı olmayacaq. Cinayətkarlar arasında müharibədə öz yaxın və doğmalarını itirən çox idi və belə bir xəyanəti onlar bağışlamazdılar.

Bəzən hətta hakimiyyət, oğru aləminin vətənpərvər coşqunluğunu bildiyindən məhbuslara, öz günahlarını döyüş meydanında yumaq imkanı verərək onları qəsdən amnistiyaya buraxırdılar. Mühakimə olunan quldurlar arasında müxtəlif insanlar var idi.

Bəziləri doğrudan da, döyüşə gedib qəhrəmancasına vuruşurdu, bəzilərisə hər cür imkandan istifadə edib qaçır, yenə də qarət və zorakılıqla məşğul olurdular. Bəziləri, bunu kişilik borcu sayaraq vətən uğrunda həlak olurdular. Quldurlar cəmiyyətin artığı hesab olunurdular. Kriminal artıq olsalar da, onların arasında vətənpərvərlər də olurdu, əclaflar da. Görünür, insan təbiətinin mahiyyəti belədir.

Buna baxmayaraq hətta döyüş meydanından qaçan yaramazlar belə düşmənlə danışığa girən adamı müdafiə etməzdilər. Onun taleyi həll olunmuş olardı.

– Deməli, Ömər bələdçi olub? – Cəfərov dəqiqləşdirdi.

– Hə, – Manafov qısaca cavab verdi.

– Siz beş nəfər olmusunuz. Doğrudur?

– Hə, əvvəl dörd idik, sonra keçəl peyda oldu.

– Bu keçəl kimdir? Adı nədir?

– Biz ona Aleksandr Petroviç deyirdik. O özünü belə təqdim etmişdi.

– Dağlarda da ona belə müraciət edirdiniz?

– Əlbəttə. O komandir idi.

– Harda görüşürdünüz?

Manafov yenə susdu.

– Səndən soruşuram!

– Marneulidə. – Bu, Gürcüstanın ənənəvi olaraq, çox sayda azərbaycanlıların yaşadığı rayonuydu. Orda ermənilər də yaşayırdı. Bu, erməni və azərbaycanlıların qarşılaşa bildikləri özünəməxsus “neytral zona” idi.

– Sərhədə getməyə orda qərar vermişdiniz?

– Yox. Əvvəlcə, Aleksandr Petroviçi gözlədik. O gəlib dedi ki, sərhədə Qarabağ vasitəsilə gedəcəyik. Əvvəlcə, Ömərlə mən imtina etdik, amma o qışqıraraq hamıya Qarabağ vasitəsilə getməyi əmr etdi. Sənəd göstərdi. Onda həm erməni zonasından, həm də Azərbaycan zonasından keçməyə beş nəfərlik buraxılış var idi.

– Nə buraxılış?

– Sərhədə və döyüş bölgələrinə keçmək üçün. Bizim buraxılışlarımız DİN-dən idi.

– DİN-dən olduğunu dəqiq xatırlayırsan? Bəlkə onlar saxta olub?

– Həqiqiydi. Bizi bir neçə dəfə yoxladılar. Mən hətta öz nömrəmi yadımda saxlamışdım. Gülməli olduğu üçün – bir-iki, bir-iki, bir-iki. – Cəfərov buraxılışın nömrəsini yazdı. Onsuz da xoşagəlməz bu iş daha böyük bir qalmaqalın cizgilərini cızırdı.

– Bəs Marneuliyə necə gedib çıxmışdınız?

– Bizi ora göndərmişdilər.

– Kim?

– Bunu sənə deməyəcəyəm, – Manafov inadkarlıqla dedi, – istəyirsən, tikə-tikə doğra, deməyəcəyəm. Bunun bizim işə aidiyyatı yoxdur.

– Yaxşı. – Cəfərov artıq coşmağa hazır olan Qarayevi əlilə tutub saxladı, emosiya nümayiş etdirmək vaxtı deyildi. – Orada birlikdə Aleksandr Petroviçi gözləmisiniz. Doğrudur?

– Hə. O gəldi və biz birlikdə Qarabağa getdik. Stepanakertdən maşınla keçdik. İki dəfə sənədlərimizi yoxladılar. Hər şey qaydasındaydı. Mən çox qorxurdum. Ömər də qorxurdu. Axı öyrənsələr, dərhal öldürərdilər. Deyəcəkdilər ki, azərbaycanlılar casusdur. Biz maşında oturmuşduq, heç düşmədik. Yalnız Aleksandr Petroviç düşüb sənədləri göstərirdi. Hər yerdə də buraxırdılar. Sonra Azərbaycan zonasında saxladılar. Yenə sənədi göstərəndən sonra buraxdılar.

– Arxa çantalarınızda nə var idi?

– Pul. Dollar, – Manafov həvəssiz cavab verdi, – mən hətta Ömərə qaçmağı təklif etmişdim. Bu qədər pulla

Bakıda şah kimi yaşamaq olardı. Amma o, keçəldən yaman qorxurdu.

– Sizinlə gedən digər yol yoldaşlarınızın adı nəydi?

– Vartan və Armen. Soyadlarını bilmirəm. Sadəcə olaraq, Aleksandr Petroviçə Qarabağdan keçmək üçün həm azərbaycanlı, həm də erməni bələdçilər lazım idi.

– Çobanı niyə öldürdünüz? Onun günahı nəydi?

– O, Armeni tanımışdı. Deyəsən, çoban onun atasını tanıyırdı. Armen qışqırdı ki, atəş açmasınlar, amma birinci Ömər atəş açdı. Çobanı o öldürdü.

– Bəs oğlanı kim vurdu?

– Vartan.

– Sonra sərhəddə İran sərhədçiləriylə atışmanız olub.

– Yox, – Manafov təəccübləndi, – əksinə. Onlar bizi çox yaxşı qarşıladılar. Maşında üç nəfər gəlmişdi. Amma sərhədçi deyildilər, yerli sakinlər idilər. Onlar pulu götürüb dedilər ki, yük hazırdır. Sonra Aslandüzə maşın gəldi. Aleksandr Petroviç mənə əmr etdi ki, yüklə birgə

Bakıya gedim və burda onu gözləyim. Mən də gəldim. Başqa heç nə bilmirəm.

– Evdə sizinlə olan üçüncü adam kim idi? O öldürülənin adı nəydi?

– Əliyar. Firmanın rəhbəri o idi. Yükü ona gətirmişdik və mən Aleksandr Petroviçi gözləyirdim. O dünən səhər gəlmişdi. Yaman deyinirdi. Deyirdi ki, iranlılar sərhədi bağlayıb. İndi yalnız Qarabağ vasitəsilə keçmək olar. Başqa yol yoxdur. Orda kimsə həlak olub. Amma mən kim olduğunu bilmirəm.

– Bəs yükü Bakıda kimə verməliydiniz?

– Bilmirəm. Məncə, Aleksandr Petroviç deyirdi ki, maşınlar Batuma tərəf gedəcəklər. Orda, limanda yükü boşaldacaqlar.

– Dəqiq Batuma? Səhv salmırsan ki?

– Niyə səhv salıram? Mən Türkiyəyə gedəndə bir dəfə Batumda olmuşam. Çox gözəl yerdir.

– Türkiyəyə niyə getmişdin? – Qarayev soruşdu. Zeynalın əhvalı o qədər korlanmışdı ki, bu etiraf ağzından çıxdı. O həyəcanlandı.

– Elə-belə gəzməyə getmişdim.

– Sən yalan danışanda dərhal hiss olunur, – Cəfərov ona hədə-qorxu gəldi, – ona görə bizə yalan danışmaq lazım deyil. Türkiyəyə Aleksandr Petroviçlə tanış olmaq üçün getmişdin. Sən onunla Marneulidə yox, Türkiyədə görüşmüsən. Düzdür?

Mirzə Lautonun ona göstərdiyi şəkli xatırladı. "Bu uşaqlara afərin, – o düşündü. – Əla işləyirlər, hazırlıq mərhələsində cinayətkarlara aparıb çıxarırlar. Bu keçəli tapa bilsəydilər?! O, belə böyük miqyaslı cinayətin təşkilatçılarına aparan əsas teldir". Cəfərov artıq şübhə etmirdi ki, quldurların həm Azərbaycanda, həm Ermənistanda, həm də Gürcüstanda əlbir olduqları adamlar var.

– Sizə kim dedi ki, Türkiyədə? – Manafov yenə qorxmuşdu. Müstəntiq həddən artıq çox şey bilirdi. Demək olar ki, hər şeyi bilirdi.

– Bəs sən elə bilirsən ki, burda axmaqlar işləyirlər? Sizin haqqınızda heç nə bilmirik? – Qarayev söhbətə qarışdı. – Yalnız düzünü de, əclaf. Yalnız düzünü.

– Deyərəm, – Manafov başını aşağı saldı.

– Yaxşı, – Cəfərov istintaqı bitirməyə qərar verdi, – sabah yenə görüşəcəyik. Yaxşı olar ki, səni Türkiyəyə kimin göndərdiyini bizə deyəsən. Bu, bizim ümumi marağımızdadır.

Gözətçilər Manafovu aparandan sonra Cəfərov rəqəmlər yazılan kağız parçasını Qarayevə uzatdı.

– DİN-ə get, yoxla gör, belə bir nömrəylə buraxılış nə vaxt və kimə verilib. Və bununla birlikdə həmin gün verilmiş bütün buraxılışların siyahısını mənə gətir. Həm əvvəl, həm də sonrakıları, başa düşdün?

Qarayev kağızı götürüb otaqdan çıxdı. Cəfərov Kazımova zəng etdi.

– Deyəsən, çox böyük işimiz olacaq, – o öz rəisinə məlumat verdi, – böyük qalmaqal olacaq. DİN-dən kimsə quldurlara sərhədi keçmək üçün buraxılış verib.

– DİN-də buraxılışları kimin verdiyini aydınlaşdıra bilmisən? – Kazımov maraqlandı.

– Qarayevi göndərmişəm. Mənə zəng etməlidir. İndi işə qayıdıram.

– Cəld ol. Vəliyev artıq əsəbiləşir. Təhqiqatın gedişiylə maraqlanır. Onun belə əsəbiləşdiyini heç vaxt görməmişdim. Əmr edib ki, sən şəxsən ona məruzə edəsən. Ona görə cəld gəl.

– Yaxşı. Hələ heç bir yenilik yoxdur ki? – Cəfərov soruşdu. – Bəlkə bu qaçanla bağlı sizə zəng ediblər?

– Yox, heç kim zəng etməyib. Məncə, o, şəhərdə gizlənir. Biz bu tipin dərhal saxlanılmasıyla bağlı məlumat vermişik. O nə cənub, nə də şimal sərhədinə gedib çatmağa macal tapmaz. Bəs onda hardadır?

– Bəs Qarabağ istiqamətinə getsə, necə? – Cəfərov ehtimal etdi. – Onda ermənilərin də döyüş bölgəsindən keçməyə imkan verən buraxılış var.

– Nəzərə almışıq. Orda da hamını xəbərdar etmişik. Hətta Gəncə və Şəki-Zaqatalaya gedən yolları kəsmişik. Yox, o dəqiq şəhərdədir. Maşını da burdadır. Yaxşı axtarmaq lazımdır.

– Axtararıq, – Cəfərov burnunun altında dedi.

– Əsas şəhərdə onlarla əlbir adamların olub-olmadığını aydınlaşdırmaqdır, – Kazımov davam etdi, –

onlara buraxılışı kimin verdiyini biləndə əlaqələrini tapmaq xeyli asan olacaq. Uzun sözün qısası, tez gəl.

Cəfərov dəstəyi qoyub şəhər polis rəisinin yanına getdi ki, ondan maşın istəsin. Şəhər polis idarəsindən respublika prokurorluğuna on dəqiqəlik yol var idi.

İşə gələndə onu, aşağıda növbətçi milisin yanında rəngi dəhşətdən ağappaq olmuş İbrahim Qarayev qarşıladı.

DİN-in binası prokurorluğa yaxın yerləşdiyi üçün o elə indicə küçəylə yuxarı qalxırdı.

– Nə olub? – Qarayevin görkəmi Cəfərovun xoşuna gəlmədi. – Buraxılış kimin üçün imzalanıb?

– Orda ad yoxdur, – Qarayev gözlərini dəhşətlə böyüdüb ətrafa boylanaraq pıçıltıyla dedi: – Amma şöbə rəisi mənə dedi ki, onlar prokurorluğa şəxsən Vəliyevin tapşırığıyla göndərilib. Beş ədəd təmiz blank.

Cəfərov nədənsə kolxoz sədrini xatırladı.

"Bu, əclafların bütün şərəfli insanlara qarşı müharibəsidir", – deyəsən, Hümbətov belə demişdi.

# XXIII HİSSƏ

Tamara sevgidən doymurdu, sanki onun aclığını çəkmişdi. Onlar mehmanxana çarpayısına güclə yerləşmişdilər. Qadın uzandığı yerdə siqaret çıxardı. Birdən Dronqo soruşdu:

– Sənin dostun yoxdur?

Tamara siqaretini çəkib öskürdü, çeçədi və daha sonra soruşdu:

– Bu belə aydın bilinir?

– Sən başa düşmədin. Mən, sadəcə, sual verdim.

– Mənim ərim var idi, – o, quru tərzdə bildirdi, – onu keçən il Suxumidə öldürdülər. O, Şalva Ruruanın qardaşı oğluydu. Düşünürəm ki, daha sualın yoxdur.

– Bağışla.

– Hə, – o, tavana baxaraq cavab verdi, – mən tamamilə tənhayam. Dostum yoxdur. Yeganə ən yaxın və əziz dostum beş yaşlı oğlumdur. Ondan başqa heç kimim yoxdur.

Onlar susdu. Birdən Tamara soruşdu:

– Nə vaxt gedirsən?

– Bu gün. – Bəzən o hətta özünə qarşı da amansız olurdu. – Deyəsən, mən aydınlaşdırmalı olduğum hər şeyi aydınlaşdırdım.

– Səni qaçaqmalçıların problemi narahat edir?

– Daha çox narkotik maddələr.

– Başa düşürəm. Sən DTK-dansan?

– İndi DTK yoxdur.

– Yaxşı, özüm bu adları qarışdırıram, hərçənd, DTK-ya bir neçə il əvvəl gəlmişəm. Hələ bu təşkilat mövcud olanda. Onda hakimiyyətə Qamsaxurdiya gəlməlidi və fəal ehtiyatda olan zabitlərin sayı sürətlə artırdı. Bəzilərini hətta gizli işləməyə hazırlayırdılar. Gülməlidir, hə?

– O qədər də yox, – Dronqo ciddi cavab verdi, – mən Qamsaxurdiyanı bir az tanıyırdım. O, indi təqdim edilən kimi pis şəxsiyyət deyildi. Bəzi qəzetlər onu hətta "gürcü faşisti" də adlandırmışdı. Amma o özlüyündə öz xalqını, öz torpağını çox sevirdi və bütün gürcülər üçün

xoşbəxtlik və müstəqillik arzulayırdı. Sadəcə, onda alınmadı. Onu hələ SSRİ dövründə seçmişdilər və o manevr etməyə, biclik etməyə, yenə şəraitə uyğunlaşmağa məcbur olmuşdu. Sonrasa uğursuzluqlar başladı, bütün rejimdə pozuntular və deqradasiya başladı.

– Sən Gürcüstanı yaxşı tanıyırsan, – qadın ona nəzər salaraq dedi.

– Bu sualdır, yoxsa təsdiq?

– Elə-belə dedim. Kişi kimi etiraf et, sən gürcüsən?

– Yox. Doğru sözümdür.

Qadın dirsəkləri üstündə qalxıb onun gözlərinə baxdı.

– Bilirəm ki, gedəcəksən. Bilirəm ki, heç vaxt görüşməyəcəyik, – qadın pıçıldadı, – ərimdən sonra həyatımda heç kim olmayıb. And içirəm. Elə bilmə ki, mən mehmanxanada əcnəbilərin dalınca qaçıram.

– Mən heç belə düşünmürdüm. Həm də, bundan sonra hansı əcnəbi belə vaxtda Batuma gəlmək istəyər. Mən, deyəsən, bütün mehmanxanada təkəm.

Tamara gülərək başını yastığa atdı.

– Səndən həmişə hansısa ətirin iyi gəlir, – o dedi, – hansısa adət etmədiyim kəskin qoxudur. Coşğun, kübar, həyasız və cazibədar. Bu nədir?

– “Fahrenheit”. Onu özümlə bütün dünyada gəzdirirəm.

– Maraqlı qoxudur.

Dronqo güldü.

– Niyə gülürsən? – Tamara azca incik səslə soruşdu.

– Deyirlər kişilər gözləri, qadınlarsa burunlarıyla sevirlər. Qoxuya görə. Bəlkə doğrudan da, “Fahrenheit” kömək edir. Necə bilirsən?

– Ola bilər. – O, çarpayının yanındakı masanın üstündə duran saata baxdı. – Bura bax, artıq saat on birdir. Məni axtaracaqlar. Durmaq lazımdır.

– Hə.

– Hərdən Batumu yadına sal.

– Hə.

– Başqa sözün yoxdur?

– Tamara, – o ciddi tərzdə dedi, – bu gün səhər sən mənim həyatımı xilas etdin. Doğrudanmı, elə düşünürsən ki, mən bütün bunları unuda bilərəm. Həyatımda ikinci dəfədir ki, qadın məni xilas edir.

– İkinci. Bəs birinci necə olub?

– O həlak oldu.

– Bağışla. Artıq vaxtdır. – O, cəld ayağa durub vanna otağına keçdi. Dronqo yataqda qaldı. Başı o qədər də bərk ağrımırdı.

Bu gün öz doğma şəhərini tərk etdiyi üçüncü gündür və “müqavilənin” şərtlərinə görə özü haqda məlumat verməliydi. Dəniz şəhəri olan Batum tamamilə istirahətə yarayırdı. Və təqibçiləri də ona heç bir irad tuta bilməzdilər. Bircə onlara zəng etmək lazım idi. Ürəyində yaxınları üçün narahat idi. Amma başa düşürdü ki, Vladimir Vladimiroviç situasiyanı necəsə dəyişə bilər. Amma bunu yalnız şüuru deyirdi. Hisslərisə soyuq, praqmatik ağlın sferasından kənarda qalmışdı və o narahat olmağa davam edirdi.

Tamara vanna otağından çıxdı. Bədən üzvlərinin iri olmasına baxmayaraq, fiqurası qüsursuz idi. Dronqonun üzündə biixtiyar rəğbət ifadəsi oyandı. Görünür, qadın onu doğru anladı, bir qədər qızarıb dəsmalla örtündü və xahiş etdi:

– Üzünü çevir.

Dronqo artıq ona baxmadan vanna otağına keçdi. Üzünü qırxana kimi situasiyanı hərtərəfli düşünməyə vaxtı oldu. Narkotik yüklər limandan, faktiki olaraq bu yerlərin gizli sahibi Şalva Ruruanın razılığıyla keçirdi. Ümumi hərc-mərclik şəraitində, bütün sahilyanı limanlarda geniş yayılmış hal olan intizamsızlıqda, Gürcüstanın indiki vəziyyətində, kiminsə tərəfindən ciddi nəzarətə ümid etmək avamlıq olardı. Amma Tamaranın bura gəlişi bunun əksini deyirdi. Dağılma və tənəzzülün ən çətin şərtlərində işləyən gürcü çekistləri – onları hələ də belə adlandırırdılar – öz adamlarını bütün sahil boyu ən təhlükəli cinayətkar qrupun içinə yeridə bilmişdilər. Amma həm Batumda, həm də Moskvada rəqiblərin peyda olması bütün işləri korlayırdı. Lauton haqlıydı, burda

ədəbdən kənar bir vurnuxma gedirdi. Sanki narazı qalan rəqiblər itirdiklərini bərpa etməyə çalışırdılar. Mixo və Arçil Qogiyanın qətli onların açıq-aşkar imzası, Zaqafqaziyadakı hadisələrə marağıydı.

İndi bu işlə Gürcüstan hüquq-mühafizə orqanları ciddi şəkildə məşğul olarkən o, rahatca gedə bilərdi. BMT-nin ekspertlər komitəsinin və İnterpolun gizli qaydalarına görə belə məsələlərin həllində üstünlük həmişə yerli hüquq-mühafizə orqanlarının tərəfindəydi. Hərçənd, bu orqanların cinayətlə mübarizə arzusu və səriştəsi böyük şübhə doğursa da, ümumi prinsipə qeyd-şərtsiz əməl olunurdu. Əgər ölkənin hüquq-mühafizə orqanları və cəmiyyəti cinayətlə mübarizə aparmaq istəmirsə, heç bir agent durumu düzəldən deyil. Dərman qəbul etmək istəməyən xəstəni müalicə etmək olmaz. O ölümə məhkumdur.

O, hamamdan çıxanda Tamara artıq əynini geyinmişdi.

– Mən zəng etmək istərdim, – Dronqo xahiş etdi.

– Hara?

O, öz şəhərinin adını dedi. Birinci dəfə.

Tamara qaşlarını qaldırdı, amma heç nə demədi.

– Yaxşı. Mənim kabinetimdən zəng edə bilərsən. Sənə şəhərlərarası telefonu verərəm. Daha yaxşısısa özüm zəng edim, sifariş verim, tez bağlayacaqlar.

– İndi geyinərəm.

Onlar birlikdə aşağı düşüb restoranda nahar etdilər. Səhər yeməyi zamanı Tamara zəng etmək üçün masadan uzaqlaşdı. Onlar restorandan çıxanda Şarovun örtülü cəsədinin xərəkdə aparıldığını gördülər.

– Nə olub? – mehmanxananın hollunda olan kənar şahidlər soruşurdular.

– İnfarkt, – ağ xələt geyinmiş adamlar hamını sakitləşdirirdi. Tamaranın yanından keçərkən onlardan biri dedi:

– Hər şey qaydasındadır. Çox sağ ol. – Tamara gözlərini yumdu. Dronqo uzun müddət Şarovun aparıldığı xərəyə baxdı.

– O yerli deyildi, – Dronqo xatırladı, – Moskvadan idi.

– Hə, – qadın razılaşdı, – biz əminik ki, bütün əlaqələr ordadır. Kimsə “Minqrel qrupunu” Şalvanın üstünə yönəldib. Bunun arxasında çox böyük adamlardan biri durur. Sən axı bura bunun üçün gəlmisən?!

– Demək olar ki.

– Sən mənim sualıma cavab vermədin – sən hansı təşkilatı təmsil edirsən?

– İnterpol.

– Hər şey doğrudur. Mən belə də düşünürdüm. Sən ya casus olmalıydın, ya beynəlxalq polis. Ya da quldur, amma yox, bu istisnadır. Quldur mənim xoşuma gəlməzdi.

– Çox sağ ol. Bəs sizin fikrinizcə “Minqrel qrupunun” arxasında kim dayana bilər? Əgər onlar Şalva Ruruanın qarşısına əlcək atmağa qərar veriblərsə, çox böyük himayədarları olmalıdır.

– Bilmirəm. Amma məncə himayədar Moskvadadır. Şalva Mixonun ən yaxın adamıydı. Onlar Mixonun, bütün Rusiyada tanınan PAK və “Ampeks” firmalarını birlikdə təsis ediblər. İndisə kimsə Mixonu

öldürür və Şalvanın hakimiyyətinə iddia edir. Başa düşürsən?

– Başa düşürəm. Düşünürsən ki, köklər Moskvadadır?

– Düşünmürəm, əzizim bilirəm. Bizim adamların ələ keçirdiyi şəxs Şarovla birlikdə gəmiyə hücumda iştirak edib. Bu, Tsxaltubodan göndərilən yaraqlıydı. O danışıb ki, Batuma Şarovla birlikdə gəlib. Daha bir yekəpər, keçəl kişi olub, amma bunlar onu tanımırlar. Gəmiyə hücum əmrini o verib.

– Bu nə vaxt olub?

– On gün əvvəl. Sonra keçəl, bir neçə nəfər götürüb Ermənistana gedib. Bunlarsa siqnal gözləyirmiş. Və iki gün əvvəl o siqnalı alıblar.

– Mixonu nə vaxt öldürüblər? – o artıq nəsə anlayaraq soruşdu.

– İş də bundadır. Moskvada Mixonun ölümü hücum üçün siqnal olub. Onların əsas məqsədi narkotiklər olub. Qalanını sən bilirsən. Gedək, danışığı sifariş edim.

Onlar təmtəraqlı vestibüldən keçib xidməti hissəyə döndülər. Soldan ikinci kabinet bağlıydı. Tamara açarı çıxardı.

– Keç, – onu dəvət etdi.

Kiçik kabinet kifayət qədər təmiz və səliqəliydi. Masadan sağda asılmış qadın və uşaq şəkli diqqəti çəkirdi.

– Oğlundur?

– Hə, – qadın qürurla dedi, – o artıq hər şeyi anlayır. Saymağı, oxumağı bilir.

– Allah saxlasın. Ona bizdən daha yaxşı bir zamanədə böyüməyi arzu edirəm. O vaxta kimi bütün bunlar bitəcək və insanlar normal yaşamağı öyrənəcəklər.

– Düşünmürəm, – o, inadla etiraz etdi, – hərdən mənə elə gəlir ki, bu müharibələr heç vaxt qurtarmayacaq.

– Belə danışma.

– Yaxşı, qanını qaraltmayacağam. Hansı nömrədir?

O, nömrəni dedi. Qadın kiməsə zəng edib uzun müddət gürcücə nəsə xahiş etdi. Tamaranın nitqi qalın səsilə xüsusilə gözəl alınırdı. Nəhayət, o, dəstəyi qoydu.

– Əlaqə yoxdur, amma söz verdilər ki, yaradacaqlar. Otur, gözlə.

Qadın oturub siqaret çıxardı.

– Sən çox çəkirsən, – Dronqo yumşaq tərzdə qeyd etdi.

– Ərimin ölümündən sonra belə oldu...

Onlar susdular.

– Oğlunun adı nədir? – Dronqo soruşdu.

– Tengiz.

– Sən həmişə onun haqqında düşün. Bu yaşamağa kömək edir.

– Bilirəm.

– Deməli, sən belə hesab edirsən ki, yeni narkotik yük partiyaları Ermənistandan gələcək? – o hər şeyi axıra qədər aydınlaşdırmalıydı, bundan başqa, bu yolla qadının fikrini dərhal yayındırmaq olardı.

– Yox. Daha uzaqdan. Qarabağ dəhlizindən. Orda sərhədin mühafizə olunmayan böyük bir hissəsi var. Yüklər də elə ordan gəlir. Daha sonrasa Ermənistandan bizə, Batuma gəlir. Burdan da dənizlə Türkiyəyə gedir.

– Bəs bu keçəlin adı nəydi, bilmirsən?

– Məncə, heç kim bilmir.

– Deməli, onlar paralel şəbəkə yaratmağa çalışır, öz əlaqələrini qurmaq istəyirlər. Bəs bu kim ola bilər?

– Siz daha asan müəyyən edə bilərsiniz. Bizim təhqiqatımız Gürcüstan daxilində baş verir. Sizin üçünsə bütün planet təhqiqat obyektidir.

– Bəs “Minqrel qrupu?” Orda bilə bilərlər?

– Onlarla da işləyirlər. Amma hələ ki dəqiq bir şey yoxdur. Biz elə bilirdik ki, onun haqqında bizə sən danışa bilərsən. Hətta elə hesab edirdik ki, sən ordan gəlmisən. Sonra Tiflisdən necə gəldiyini yoxladıq və dəqiq aydınlaşdırdıq ki, Moskvadan gəlmisən. Vizanı bizim səfirlikdə sənədləşdiriblər. Onlar təsdiqləyiblər. Onda biz belə qərara gəldik ki, sən ya casussan, ya da böyük bir cinayətkar. İnterpol heç ağlımıza da gəlmirdi, – Tamara etiraf etdi.

– İndi bilirsən.

– Heç vaxt İnterpol əməkdaşı görməmişdim, – qadın etiraf etdi, – onlar hamısı belə ağıllıdırlar?

– Mən özümü ağıllı kimi göstərirəm. Əslindəsə elə axmağam ki. Hətta səndən imtina etmək istəyirdim.

Tamara gülüb siqaretini külqabıda söndürdü.

– Hərdən mənə zəng edə bilərsən, – o sanki nəsə xahiş edirmiş kimi dedi.

– Söz verirəm.

– Və bir daha bu qədər gürcü çaxırı içmə. Aftandilin evindəki axşamdan sonra ayaq üstə dura bilmirdin.

– Bu adət etmədiyimə görəydi. Mən o qədər də çox içmirəm. Amma belə çaxırı görəndə özümü saxlaya bilmədim. Deyəsən, sən haqlısan – bir daha belə bir şey olmayacaq. Mən özümü çox pis aparırdım?

– O qədər də yox, dözmək olardı.

Telefon zəng çaldı. O, dəstəyi qaldırdı.

– Hə, – o dedi, – hə, sifariş vermişik.

Onun şəhərilə bağlantı qurmuşdular. Onuncu və ya on birinci çağırışdan sonra xəttin o biri başında dəstəyi qaldırdılar.

– Kimdir danışan? – çox narazı səs eşidildi, bu həmin məxmər səsli yaramaz deyildi.

– Mənə təklif olunmuşdu ki, zəng edim, – o dedi.

– Danışan kimdir?

O, bir qədər susdu. Tamaraya nəzər saldı.

– Kimin danışdığını siz bilməlisiniz. – Doğrudanmı “məxmər səsli” onu aldadıb? Qorillaları isə aeroportdadır?

– Hə, bu sizsiniz? – birdən həmsöhbəti dedi. – Hə, mənə demişdilər ki, siz zəng edəcəksiniz. Yaxşı, mən dəstəyi verim.

– Daha bir neçə söz əlavə etməyi də unutmayın.

– Eşidirəm.

– Mən orda olmadığım müddətdə nəsə olsa, hamınızın qulağını kəsəcəyəm. Belə də çatdırın.

Qafqazda bu şərəfsizlik rəmziydi.

O biri tərəfdə dəstəyi qoydular. Dronqo qadına baxdı. Qadın soruşdu:

– Orda problemləriniz var?

– Hə, orda yaxınlarım, ailəm var.

– Arvadın? – o öz sualını saxlaya bilmədi və ya saxlamaq istəmədi.

– Mən evli deyiləm. Orda bacımın ailəsi var.

– İndi başa düşdüm. Siz bu şəhərdənsiniz.

– Hə.

– Bu ki çox yaxındır.

– Bu heç nəyi dəyişmir, – o, kədərlə dedi, – biz hətta eyni şəhərdə yaşaya bilərik. Və görüşmərik. Bizim spesifikliyimiz belədir.

– Başa düşürəm, – qadın növbəti siqareti çıxardı. – Nə vaxt getmək istəyirsən?

– Elə indi. Tiflisə gedən qatar nə vaxt çıxır?

– Üç saatdan sonra, – Tamara öz saatına baxdı.

– Deməli, üç saatımız var. Şəhərə çıxaq, – Dronqo təklif etdi, – əlbəttə ki, əgər sən mənimlə görünə bilərsənsə.

Növbəti üç saat ərzində onlar demək olar ki, heç nə danışmadılar, sanki vacib olan hər şey deyilmişdi. Üç saatdan sonra Tamara onu vağzala ötürdü. Düz qatarın yanında onun yanağından öpüb pıçıldadı:

– Əlvida.

Və bu onun sonuncu sözü oldu. Bir dəqiqə sonra qatar onu Tiflisə aparırdı.

## XXIV HİSSƏ

Bu gün Bağırov Moskvada Rubinçiklə görüşürdü.

Mixeyev möcüzə nəticəsində, Mixonun öldürüldüyü həmin mənfur gecədə liftə girən hündürboylu kişini görmüş adamı tapmışdı. Təsvirlərə görə o, Semyonovanın qonşusunun sözlərindən tərtib olunmuş fotorobotla üst-üstə düşürdü.

Bu gün Dronqo Tiflisdən Aeroflot reysiylə Moskvaya uçmağa çalışırdı. Tamarayla ayrılıq həm kədərliydi, həm də ağır gəlirdi. Sanki kimsə mahnını ifanın elə əvvəlində kobudcasına yarımçıq kəsmişdi. Davidə zəng etmədi, başa düşürdü ki, o, Moskvaya qardaşının dəfninə gedib.

Bu gün Bakıda Cəfərov nəhayət ki, buraxılışların respublika baş prokurorunun müavini Ənvər Vəliyevin tapşırığıyla verildiyini öyrəndi. Və cinayətkarların qonşu respublikalarda da himayədarları olduğunu təsdiqləyə bildi.

Deməli, onların aksiyaları koordinasiya olunmuş və dəqiq düşünülmüşdü.

Həmin gün türk firmasının anbarına hücum və baş verən atışma haqqında öyrənən Lauton və Dyulua ilk dəfə olaraq, Türkiyədə əldə olunmuş materiallardan istifadə edərək aktiv fəaliyyətə başladılar.

Bu gün Tamara öz oğlunu çimizdirərkən ona adını belə deməyən naməlum adamı xatırlayırdı.

Bu gün Şalva Rurua otuz doqquz dərəcə qızdırmayla yataraq özünü çoxsaylı mühafizəylə əhatə etmişdi. O əmin idi ki, onu öldürməyə gələcəklər.

Bu gün... bir sözlə, bu gün vacib və qeyri-vacib, əhəmiyyətli və önəmsiz bir çox hadisələr baş verirdi. Amma qoca Vikenti Alekseyeviç üçün bu gün onun uzun və çətin həyatında ən yaddaqalan gün idi.

Vikentinin yaşadığı Klinovsk şəhəri Moskvadan qırx yeddi kilometrlik məsafədə yerləşirdi. Bu, anlaşılmazlıq nəticəsində şəhər adlanan sakit, səliqəli Moskvaətrafı qəsəbəydi. Onlar sülhpərvər və poetik adı olan "Bahar" küçəsində yaşayırdılar. Vikenti Alekseyeviç evinin

qabağındakı skamyada oturub təsadüfi keçənləri seyr etməyi xoşlayırdı. Yaşı artıq səksəni haqlamışdı, amma qırx üçüncü ildə yaralanmağına rəğmən gözü və qulağı hələ sözünə baxırdı. Onların altımərtəbəli kərpic evi şəhərdəki ən məşhur binaydı. Əvvəla, burda öz zamanında Şərəf ordenli Sergey Reçistıy yaşamışdı. İkincisi, daha sonralar burda, sonradan paytaxta yaxşı vəzifəyə getmiş şəhər icra hakimi də bir müddət yaşamışdı. Onların binasındakı üçotaqlı mənzillər bir çox paytaxt binalarındakı mənzillərə xas olmayan quruluşuyla fərqlənirdi. Ümumilikdə, yüz kvadrat metr sahədən ibarət olan mənzillərin altmış iki kvadrat metri yararlı sahə sayılırdı. İki böyük eyvanı və hər bir xanımın arzusu olan on beş kvadrat metrlik sahəyə malik mətbəxi var idi. Və nəhayət, üçüncüsü, bina bir də onunla məşhur idi ki, "Balçuq-esteyt" firması üçüncü mərtəbədə mənzil satırdı və bütün qonşular səbirsizliklə binalarına kimin köçəcəyini gözləyirdilər. Kimsə öyrənmişdi ki, mənzil Klinovsk üçün ağlagəlməz məbləğə – otuz səkkiz min dollara satılırdı. Əlbəttə ki, indi hamı Klinovsk milyonçusunun gəlişini gözləyirdi.

Vikenti Alekseyeviç milyonçular haqqında olan bu söhbətləri sevməzdi. O öz həyatını şərəflə yaşamışdı, övladları, nəvələri, indi də nəticələri var idi. Böyük Vətən müharibəsi əlili kimi aldığı təqaüd normal idi. Ona bundan artığı heç lazım da deyildi. O, qızıyla yaşayırdı və bütün pulunu ona verirdi. Ona görə milyonlar və milyonçular haqda söhbətləri sevməzdi. Tanrıya şükür ki, "snikers" və "koka-kola"dan başqa, Klinovskada demək olar ki, əsaslı dəyişikliklər baş verməmişdi. Moskvanı dolduran xarici maşınlar da bu yerlərə nadir hallarda gəlirdi.

Yaxın zamanlardan etibarən o, tez-tez evlərinin qarşısından keçib vağzala tərəf gedən hündürboylu bir kişini görürdü. Bu kişinin əlində tez-tez kiçik, amma çox gözəl bir çamadan olurdu, sanki onun sahibi diplomat və ya bank işçisiydi. Vikenti Alekseyeviçə bu sirli adamın məhz nə işlə məşğul olduğunu bilmək çox maraqlıydı, amma soruşmağa utanırdı. Özü də Klinovsk kimi kiçik şəhərcikdə yaşamaqlarına baxmayaraq, hər halda naməlum adama yanaşmaq yaxşı deyildi.

Bir dəfə hündürboy kişi onların həyətindən keçəndə qoca təsadüfən arxasında iki qonşunun söhbətini eşitdi.

– Ora bax, ora bax, Mixaylovna, səninki getdi, – “Süpürgə” ləqəbli deyingən qonşusu dedi.

– Yaxşı adamdır, – Mixaylovna hörmətlə dedi, – pulu da vaxtında ödəyir, nazlanmır. Sakit adamdır, evə qadın gətirmir. Hətta təəccüblənirəm, bəlkə xəstədir. Hərdən ona zəng gələnə kimi evdə yatır. Amma həmin gün səhər iki çamadanla gəlmişdi. Gördüm ki, əhvali-ruhiyyəsi yaxşıdır: “Necəsən?” – deyə soruşdum. O isə mənə dedi ki, istəyirsiniz, sizə yeni paltaryuyan maşın alım, univermaqdakı alman istehsalı olan maşını. Dilim tutuldu. Daha ona heç nə demədim. O, sabahısı gün gedib həmin maşını aldı.

– Bəxtəvərsən, Mixaylovna, – paxıl qonşusu ah çəkdi, – belə kirayənişini Tanrı göndərib.

– Bəyəm mən pisəm? Doğma anası kimiyəm. Paltarını da yuyuram, yeməyini də bişirirəm. Deyir ki, bu yaxınlarda gedəcək. Amma hələ ki pul ödəyir, mənə nə lazımdır, heç nə. O razıdır, mən razıyam.

Mixaylovnanın evi un məmulatları satılan dükanın yanında yerləşirdi. Birdən qocanın yadına düşdü ki, çörək almağa söz verib. Yuxarı qalxıb yanıyla qaçan nəticəsindən xahiş etdi:

– Vitek, get nənəndən pul istə. De ki, baba çörək almağa gedir.

Oğlan başını tərpədib evə qaçdı. Onun yeddi yaşı var idi və başa düşmürdü ki, nənəsi, Vikenti Alekseyeviçin qızı onun babasına niyə ata deyir. Axı onlar ər-arvad olmalıydılar. Oğlana izah edə bilməzdilər ki, Anyanın əri o doğulmazdan on beş il əvvəl həlak olmuşdu. O yüksək səviyyəli montajçıydı.

Uşaq pulu gətirdi. Qoca nəticəsinin əlindən tutub tələsmədən dükana getdi.

Elə bu an enlikürək, möhkəm bədənli, saçları qısa vurulmuş tanımadığı bir adamın tələsik addımlarla Mixaylovnanın evinə sarı getdiyini gördü. Evin pəncərələri açıq idi. Mart ayı olmasına baxmayaraq, o, evin havasını dəyişməyi xoşlayardı. Qoca, pəncərələrin birində kirayənişini sezdi.

Qoca, Mixaylovnanın evinin yanındakı skamyada oturdu. Uşaqsa yerdə soxulcan gördü və bu cəlbedici obyektin hara gedəcəyiylə maraqlanmağa başladı. Qoca, nəfəsliyin altında oturmuşdu. Naməlum adam öz pəncərələrini heç vaxt açmırdı, yalnız çoxlu siqaret çəkəndə ev sahibəsinin təkidiylə nəfəsliyi azca aralı qoyurdu.

Vikenti Alekseyeviç artıq yoluna davam etmək istəyirdi ki, birdən diqqətini çəkən sözlər eşitməyə başladı.

– Ryaboy salam göndərdi, – qonaq kirayənişinə müraciətlə dedi, – soruşur ki, pul hanı?

– Kursk vağzalında. Hamısı saxlama kamerasındadır. İki yüz min dollar.

Bu məbləği eşidən qoca az qala skamyadan yerə yıxılacaqdı. İlahi, nə böyük puldur, o isə fikirləşirdi ki, onların binasına milyonçu köçə bilər. Mixaylovnanın kirayənişininin pulu on dəfə artıq idi.

– O sənə iki yüz min ödəmək istəyirdi? – qonaq şübhəylə soruşdu.

– Məncə, yox. O, pulu Ryaboya göndərmək istəyirdi. Birlikdə hansısa əməliyyatı hazırlayıblar. Mixosa pulun bir

hissəsini mənə verməyi qərara alıb ki, Ryaboyu aradan götürüm. O bilmirdi ki, məni elə Ryaboy göndərib, nəsə qaydasında olmasa, Mixonu öldürüm deyə. Elə də alındı. Mixo mənə mehmanxanada görüş təyin etdi ki, mən Nyu-Yorka uçum. Mənsə orda onun işini bitirdim. Düzdür, çıxanda balaca bir problem yarandı, növbətçi qadın məni gördü. Amma bu daha qorxulu deyil. İki gündən sonra onu da tapdım. O, indi məni heç vaxt tanıya bilməyəcək.

– Bəs Lazarevlə necə əlaqə saxlayırsan?

– Həftədə bir dəfə ona özüm zəng edirəm. Bu axmaqlara inanmaq olmaz, hamı nəyisə düzgün etmir. Ryaboyun adamlarını necə pis vəziyyətdə qoyduqlarını eşitmisən?

– Bilirəm, onların qulaqlarını kəsiblər.

– Elədir – qulaqlarını. Yəqin ki, Lazarevin adamları ələ veriblər. Ya da axmaqlıqlarından ağızlarından qaçırıblar. Yox, yaxşısı budur, mən bu sakit yerdə yaşayım. Bu şəhərdə heç təhlükəsizlik orqanı da yoxdur. Məncə, iki milis var, onlar da əlildir. Bu yer elə mənə görədir. Sizsə pulu Kursk vağzalından götürə biləsiniz. Yeşiyin nömrəsi...

Vikenti Alekseyeviçin yaxşı yaddaşı varmış. O başa düşürdü ki, həm yeşiyin nömrəsini, həm də kodu eyni zamanda yadında saxlaya bilməyəcək. Ona görə yalnız yeşiyin nömrəsini yadda saxlamaq lazım idi. Elə belə də etdi. O, skamyada donmuş şəkildə oturmuşdu, qulaqlarına inanmırdı. Divarın o üzündə onun yalnız filmlərdə gördüyü iki əclaf, iki quldur söhbət edirdi. Belə bir hadisə haqda kimsə danışsaydı, heç vaxt inanmazdı. İki quldur açıq şəkildə insanların qətli və çox böyük pullar haqda danışırdılar. Qoca, onların qulaqlar haqda nə danışdığını dərk etmədi, amma bilirdi ki, yaxşı heç nə danışmayacaqdılar. Və bu cür adamlar onların şəhərində yaşayır, onlarla eyni havada nəfəs alır, onun qonşusu Mixaylovnanın evində qalırdı! Qoca veteranı qəzəb bürüdü. O artıq nəfəsliyə qalxıb onların necə bir yaramaz olduqları barədə qışqırıb aləmə car çəkmək istəyirdi ki, öz nəticəsini gördü. Uşaq gülə-gülə qaçmağa can atan soxulcanı izləyirdi. Qoca qorxdu. Özünə görə yox, o artıq heç nədən qorxmurdu. Uşağa görə. Bu, qızının birinci nəvəsiydi. Və onunla risk edə bilməzdi. Buna görə də ürəyini tutaraq arxasındakı

mənzildə gedən söhbətə ixtiyarsız olaraq qulaq asa-asa skamyada oturub qaldı.

Evdə söhbət edənlərin heç ağlına belə gəlmirdi ki, onların bütün danışığını nəfəsliyin düz altında oturan qoca eşidir. Bu, hər bir peşəkarın həyatında yalnız bir dəfə baş verən hadisəydi. Bir pillə aşağı və ya bir pillə yuxarı olmaqla. Ömründə bir dəfə möcüzə baş verir və insanın inanılmaz dərəcədə bəxti gətirir. Ölümdən bir tük qədər məsafədə olarkən xilas ola bilir. Və ya elə bir hadisə baş verir ki, nadir bir kombinasiyayla qarşı-qarşıya gəlirsən və anlayırsan ki, bu uğursuzluqda öldürücü bir şey var.

Ryaboyun Moskvaya göndərdiyi peşəkar qatil ələ keçməmək üçün əlindən gələni etdi. Onu tanıya biləcək hər kəsi tərəddüdsüz öldürürdü. Şəhərdən əlli kilometr uzaqda yaşayırdı ki, onu tapa bilməsinlər. O ən sadə bir yerdə mənzil kirayələmişdi, sadə həyat tərzi sürürdü, içmirdi, özünə diqqət çəkməməyə çalışırdı, aldığı pulları demək olar ki, xərcləmirdi və heç vaxt əlaqəyə şəxsən özü girmirdi. Yalnız telefonla və öz zəngindən sonra kontakta girirdi. Elə görünürdü ki, hər şeyi nəzərə alıb. Onu tanıya və ya ələ

keçirə bilməmələri üçün demək olar ki, hər şeyi. O ən xırda detallara qədər planlar düşünür, özündən sonra heç bir iz qoymamağa çalışırdı. Amma indi bu cür axmaqcasına ələ keçmişdi. Divarın o üzündə oturan qoca onun bütün səmimi söhbətlərini eşidirdi. Belə bir uğursuzluq hərdən baş verirdi. Və bütün peşəkarlar bunu bilirdilər. Elə onlar məhz bu cür hallarda bütün bacarıqlarını nümayiş etdirməliydilər. Çünki bu cür situasiyada sağ qala bilmiş adam hesab edə bilərdi ki, "güllə iki dəfə eyni yerə düşmür".

– Ryaboy ikinci gürcü üçün sənə təşəkkürünü bildirir. Arçilə görə.

– Məncə, bu ən çətin işim idi. Onun əla mühafizəsi vardı. Yaxşı ki tüfəngim yanımdaydı. Yoxsa, heç nə alınmazdı.

– Gəl, bitirək, bütün gürcülər səni şəhər boyu axtarırlar. Ryaboy xahiş edir ki, sən evə qayıdasan. Pasportun özündədir?

– Pasportla bağlı qaydasındadır.

– Onda aradan çıx. Amma Moskvadan yox. Başqa şəhər seç, məsələn Kiyevi. Amerikaya ordan da təyyarələr

uçur. Bir də diqqət et ki, gürcülərin əlinə düşməyəsən. Onlar sənin də qulaqlarını kəsəcəklər.

– Amma Lazarev daha hansısa iş haqda danışırdı. Bir heykəltəraşı da aradan götürmək lazımdır. Azərbaycanlıdır. Məndə onun şəkli var. Lazarev otuz min verəcəyini vəd edib. Mən işi görməmiş gedə bilmərəm. Elə Ryaboy özü də bu sifarişi təsdiq edib.

– Onda bu işdən sonra yoxa çıx. Bu heykəltəraşı nə vaxt aradan götürmək fikrindəsən?

– Elə sabah. Və bir daha bura qayıtmayacağam. Artıq hər şeyi hazırlamışam, narahat olma. Bəs özün Nyu-Yorkdan necə gəlmisən? Moskvadan?

– Mən hələ dəli olmamışam. Aeroportda daim bizim rəqiblərin adamları dayanır, bütün gələnləri yoxlayırlar. Ona görə Leninqraddan, lənət şeytana, Sankt-Peterburqdan gəlmişəm.

– Onda hər şey doğrudur. Bəs özün necə gedəcəksən?

– Nə çox sual verirsən, Saplya? Həddən artıq maraq göstərirsən.

– Uzun yaşamaq üçün. Bəlkə elə çıxışlar var ki, onları mən də bilməliyəm.

Qoca daha dinləmək istəmədi. Qorxmuş uşağı götürüb çörək dükanına tələsdi. Sonra dayanıb milis idarəsinə tərəf döndü. Rayon şöbəsində qocanın nə istədiyini uzun müddət anlamadılar. Sonra başa düşdülər ki, söhbət cinayətkarlardan gedir. Hərçənd, növbətçi əmin idi ki, dollarlar və kəsilmiş qulaqlar haqda danışan qoca ağlını itirib. Vikenti Alekseyeviç az qala ağlayacaqdı – həyatında ilk dəfə ona inanmırdılar. Uşaq da bərkdən ağlayırdı. O, bu yad insanların arasında neylədiklərini anlamırdı. Yarım saat sonra Cinayət-Axtarış İdarəsinin rəisi qocanı dinləyərkən anladı ki, söhbət çox böyük hadisələrdən gedir. Və o zaman üç əməkdaşını qocanın dediyi həmin evə göndərdi. Amma artıq gec idi. Axmaq növbətçi Mixaylovnanın evinə zəng edib orda quldurların, dollarların və kəsilmiş qulaqların olub-olmadığını soruşmağa macal tapmışdı. Əlbəttə ki, Mixaylovna uzun-uzadı gülmüşdü və onun gülüşünü kirayənişini də eşitmişdi. Qadın da ona hər şeyi danışmışdı.

Kirayənişin tələsdiyindən heç onu öldürmədi də. Sadəcə çamadanını götürüb dərhal qapıdan çıxmışdı. Ona görə milis gələndə evdə qorxmuş ev sahibəsindən başqa heç kim yox idi. O, yavaş-yavaş anlamağa başlayırdı ki, kirayənişini heç də özünü göstərmək istədiyi kimi adam deyilmiş. Cinayət-Axtarış İdarəsi rəisi bütün yolları yoxlamağı tapşırmışdı, amma kirayənişin heç harda yox idi. İki saat sonra məlumatları yoxlayarkən aydın oldu ki, kirayənişin axtarışda olan qatilə çox oxşayır. Daha üç saat sonra qəzəblənmiş Mixeyev şəhərə gəldi. O, yeni təfərrüatları araşdıraraq qocanı uzun müddət sorğu-sual etdi.

Həyatında ən böyük səhvi etdiyini anlayan şəhər şöbəsinin növbətçisi işdən kənarlaşdırılmışdı. Milis əməkdaşları bütün şəhər boyu yoxa çıxan qatili axtarırdılar. Amma əlbəttə ki, heç nə tapmadılar. Nə kirayənişin, nə onun qonağı, nə də çamadanlar tapıldı. Qoca Kursk vağzalındakı yeşiyi də xatırladı. Mixeyevin tapşırığıyla vağzala Cinayət-Axtarış İdarəsinin operativ qrupu göndərildi. Əmr olunmuşdu ki, orda peyda olan istənilən adam ələ keçirilsin. Mixeyev başa düşürdü ki, təqibdən belə ustalıqla qaça bilən

muzdlu qatili yaxalamaq üçün əllərinə unikal şans keçmişdi. Və onlar öz şanslarını belə bacarıqsızlıqla qaçırmışdılar.

Yeganə ümid şəhərə gələn qonağa qalmışdı. Qocanın danışıqlarından və ev sahibəsinin ifadəsindən belə çıxırdı ki, növbətçi evə zəng edərkən qonaq artıq evdə olmayıb. Deməli, o, təsadüfi şahidin onların bütün söhbətini eşitdiyini bilmədən gedə bilərdi. Busa o demək idi ki, o, mütləq vağzalda peyda olacaq. Saxlama kamerasında on dəqiqəlik texniki fasilə elan edib yeşiyi ehtiyatla açdılar. Cinayət-Axtarış İdarəsinin xadimə paltarı geyinmiş əməkdaşları guya zibil təmizləyirdilər. Yeşikdən, Moseşvilinin iyirmi ədəd yüzdollarlıq dəstləri olan çamadan çıxdı. Bunun əvəzinə ora saxta pullar olan çamadan qoydular. Üzərinə hər ehtimala qarşı aşkar etmə sistemi də yapışdırdılar.

Mixeyevin əməkdaşları çamadanı "Kontinental Bank"ın işçilərinə göstərərkən onlar əmin etdi ki, bu, Mixonun ölümündən əvvəl aldığı və onun nömrəsindən yoxa çıxan pulla dolu çamadandır. Bundan iki nəticə çıxarmaq olardı: Ya Saplya – qoca onun ləqəbini də yadda saxlamışdı – pulu mənimsəyib, ya da o, mehmanxanaya

gələnə kimi çamadan artıq orda olmayıb və Mixo bu pulu başqa birinə ötürə bilib.

Vağzalda operativ briqada növbə çəkməyə davam edirdi. Mixeyev Çijovu yanına dəvət edib Rafael Bağırovun özünə zəng etdi.

– Sizi Kiyev rayonu Cinayət-Axtarış İdarəsinin rəisi narahat edir, – Mixeyev özünü təqdim etdi. Bağırov çox məşhur adam idi. Bir dəfə onu hətta ölkə Prezidentiylə birlikdə göstərmişdilər.

– Sizə nə lazımdır? – Bağırov ikrahla soruşdu. Nazir və baş nazirlərlə ünsiyyətə alışdığından hansısa cılız milis məmuruyla danışmaq istəmirdi.

– Biz görüşməliyik, – Mixeyev xahiş etdi, – çox vacibdir.

– Kimin üçün vacibdir? – Bağırov kinayəylə soruşdu. – Təəssüf ki, bu gün artıq gecdir. Ola bilsin, mən sizi gələn həftə qəbul edə bilim. Telefonunuzu saxlayın, katibim qəbul vaxtını sizə bildirər.

– Yaxşı, – Mixeyev sakitcə razılaşdı. – Sizi daha ağıllı bilirdim.

– Bu nə deməkdir? – deyəsən Bağırov birinci dəfə özündən çıxdı.

– Söhbət sizin həyatınızdan gedir. Bu çox ciddi işdir, Rafael Mamedoviç, – Mixeyev mümkün qədər inandırıcı şəkildə dedi.

Bağırov susdu. Uzun müddət susdu. Düz bir dəqiqə. Nəhayət, dedi:

– Lənətə gələsiniz, yaxşı gəlin.

– Hara? Evdə olacaqsınız? – Mixeyev dəqiqləşdirdi.

O, Bağırovun maşınına zəng etmişdi. Nömrəni də çətinliklə Dövlət Dumasından tapmışdı.

– Yox. Ünvanı sizə deyərəm. Amma gözləyin. Telefonlar dinlənilə bilər. Həm də sizin özünüzü təqdim etdiyiniz adam olduğunuza mənim təminatım yoxdur. Belə edək – öz kabinetinizdə olun, yarım saat sonra mənim adamım sizin ardınızca gələcək.

Bağırov dəstəyi asdı. Digər tərəfdə nəsə şaqqıldadı.

– Çox ehtiyatlıdır, – Mixeyev qeyd etdi, – onsuz da biz hamımız ondan çoxdan şübhələnirdik, amma sübut

edə bilmirdik. Əlbəttə, elə indi də heç nəyi sübut edə bilməyəcəyik, amma heç olmasa onu bir az sıxarıq. Bu da az deyil.

– Bəs niyə onu xilas etməyə gedirsiniz? – Çijov anlamadı. – Qoy bu Saplya onu izləsin. Bir quldur o birini aradan götürür. Bizimçün nə fərqi?

– Jenya, – Mixeyev narazılıqla dedi, – diletant kimi düşünürsən. Əvvəla, şəhərimizdə Vəhşi Qərbin ənənələrinin hökm sürməsinə yol vermək olmaz. İkincisi, Bağırov çox məşhur və hörmətli adamdır. Onunla həmişə xoşluqla dil tapmaq olar. Axı hər şey hamıya məlumdur. Və bizim sabah nəyə görəsə Azərbaycan qruplaşmalarının köməyinə ehtiyacımız olduqda Bağırovun yanına gedəcəyik. Əgər bu, şəxsən onun və ya adamlarının marağına toxunmursa, o həmişə kömək etməyə hazırdır. Özün "mühafizəçilərinin", evinin yanında sənə hücum edən quldurların öhdəsindən necə gəldiklərini görmüsən. Məsələ burasındadır ki, belə quldurlar mafiyaya lazım deyil. Beləəri ona normal işləməyə mane olurlar. Və onların da belə avaralardan bizim qədər zəhlələri gedir.

– Sizi dinləyəndə adama elə gəlir ki, mafiyadan yaxşı heç nə yoxdur.

– Sadəcə olaraq, bunlar bizim gerçəklərimizdir. Mütəşəkkil qruplarla iş görmək məhəllələrdə at oynadan cibgir yeniyetmələrlə işləməkdən daha yaxşıdır. İnsanlar küçələrdə və bina girişlərində zorakılıqdan daha çox qorxurlar, nəinki daha böyük ziyan vuran bankirlər və maklerlərdən, – Mixeyev inandırıcı tərzdə dedi.

Düz yarım saat sonra Bağırovun adamları gəldilər. Dəbdəbəli "BMW"-də onları Rafael Mamedoviçlə görüşə apardılar. Artıq axşam saat on bir idi.

## XXV HİSSƏ

Qarayevin məlumatını dinləyən Mirzə Cəfərov bu sarsıdıcı işin nəticələrini dəqiqliklə təsəvvür edə bilirdi. Amma geriyə yol yox idi. Və o birbaşa İmran Kazımovun kabinetinə qalxdı.

– Nə olub? Qanın qaradır, – Kazımov soruşdu.

– Döyüş bölgəsinə buraxılışların kimin tapşırığıyla verildiyini öyrənə bildik. – Mirzə heç oturmadı.

Kazımov nəsə hiss etdi, qaşlarını çatdı.

– Konkret soyadı bilirsən?

– Bilirəm, – o hər sözün necə çətinliklə başa gəldiyini hiss edirdi.

– Kim?

– Respublika baş prokurorunun müavini Ənvər Vəliyev. – O, bu cümləni birnəfəsə dedi.

Kazımov ayağa qalxdı, Cəfərova baxmadan pəncərəyə yaxınlaşdı. Dayanıb DİN və prokurorluq binaları arasında yerləşən məktəbə baxdı. Sonra soruşdu:

– Dəqiq məlumatdır?

– Tamamilə. Vəliyevin tapşırığına əsasən beş təmiz blank verilib.

– Onları prokurorluqda kim qəbul edib?

– Vəliyev.

– Bəs səndən başqa bu haqda daha kim bilir?

– İbrahim Qarayev. Nizami rayonunun müstəntiqi. DİN-ə buraxılışları yoxlamaq üçün o getmişdi.

– Nazirliyin özündə buraxılışları nəyə görə yoxladığınızı bilirlər?

– Deyəsən, hələ yox.

Kazımov, nəhayət, üzünü ona döndərdi.

– Mən Vəliyevi tanıyıram, – o sanki düşünürmüş kimi pauzalarla danışırdı. – Onun qüsurları çoxdur. Amma bu... Yox, bu ola bilməz. Mən buna əminəm. Nə etməyi düşünürsən?

– Respublika prokurorunun qəbuluna getmək istəyirəm.

– Yox, – Kazımov qəti şəkildə etiraz etdi, – əvvəlcə mən şəxsən Vəliyevlə danışacağam. Hər şeyi aydınlaşdırmaq lazımdır. Bu daha düzgün olar.

Cəfərov susdu. O, Kazımova baxır və belə hallarda nə demək lazım olduğunu bilmədiyindən susurdu.

– Mənə güvənmirsən? – Kazımov birdən soruşdu.

– Mən indi kimə inanmaq lazım olduğunu da bilmirəm, – Cəfərov sakitcə dedi, – amma sizə əlbəttə ki, inanıram.

– Qarayev hardadır?

– Mənim kabinetimdə.

– Ora get və mənim zəngimi gözlə. Vəliyevlə özüm danışacağam, – Kazımov özü üçün çətin problemi həll etmiş kimi qətiliklə dedi.

Cəfərov daha heç bir söz demədən sakitcə kabinetdən çıxdı.

Kazımov telefona yaxınlaşdı. Kresloda oturub fikrə getdi. Əgər Vəliyev bu addımı düşünülmüş şəkildə atıbsa, onda Kazımov onun təkcə ən qatı düşməni olmayacaq. O həm də təhlükəli şahid olacaq. Və onda o bu gün evinə qayıtmaya da bilər. Amma Cəfərovla Qarayev qalır. Bundan başqa, nəsə Vəliyevin cinayətkarlarla birbaşa əlaqəsi olduğuna inanmağa mane olur. Əlbəttə, Vəliyev kifayət qədər şöhrətpərəst və ehtiyatlı adamdır. Amma o, quldurlarla iş birliyinə girməz. Bu onun işi deyil. Kazımov dəstəyi qaldırdı.

– Eşidirəm, – Vəliyevin səsi gəldi.

– Yanınıza gələ bilərəm? – Kazımov xahiş etdi. – Məndə dünənki hadisəylə bağlı məlumat var.

– Gəlin, – Vəliyev dərhal izin verdi.

Qəbul otağında katibədən başqa heç kim yox idi. Heç kimi buraxmamağı xahiş etdikdən sonra Kazımov kabinetə girib qapını möhkəm bağladı.

– Yeni nəsə var? – qonaq stullarının birinə əyləşəndən sonra Vəliyev soruşdu. Kazımov kreslolara, ümumiyyətlə, yaxınlaşmadı. Onlara yerləşmək çətin idi, durmaqsa ondan da çətin idi.

– Cəfərov ələ keçirilmiş quldurn dindirib, – Kazımov qısaca bildirdi, – bir çox təfərrüatı öyrənib.

– Yaxşı. Amma ən əsası qaçan quldurn tapmaqdır, – Vəliyev vurğuladı, – bu ən vacibidir.

– Hə, – Kazımov razılaşdı, – bəlkə o, şəhərdə hardasa gizlənir. Onun maşınını respublika yollarında tapmaq mümkün olmayıb. O axı yoxa çıxa bilməz.

– Siz nə demək istəyirsiniz?

– Bu quldurun Bakıda öz əlaqələri və himayədarları olmalıdır. O hardasa yaxında gizlənib.

– Siz bu himayədarları tapa bilərsiniz?

– Sizin köməyinizlə, Ənvər Mamedoviç, – nəhayət, Kazımov dedi.

– Bu gün tapmacalarla danışırsınız, – Vəliyev xoşagəlməz tərzdə gülümsündü, – düşünürsünüz ki, mən o quldurú bağ evimdə gizlədirəm?

– Yox.

– Onda niyə mənim köməyimlə? Yoxsa mən yenə kiməsə zəng etməliyəm?

– Döyüş bölgəsindən sərhədə keçmək üçün onlara buraxılışları kimin verdiyini yoxlamışıq, – Kazımov boğuq səslə dedi. – Bizə beş ədəd təmiz blank göndərilib...

Sükut çökdü. Vəliyev hər şeyi anladı. Onun da haqqını vermək lazımdır. O, zərbələri qarşılamağı bacarırdı. Rəngi ağardı, qalstukunun düyününü azca boşaltdı, köynəyinin birinci düyməsini açdı.

– Belə hesab edirsiniz ki, cinayətkarın həmin himayədarı mənəm? – Vəliyev sakit tərzdə soruşdu.

– Yox. Amma siz kimin üçünsə bu buraxılışları istəmisiniz. Kimin üçün?

Vəliyev susurdu. Şəhadət barmağıyla sağ gicgahını ovuşdurdu. Başı dəhşət ağrıyırdı.

– Məni elə kabinetimdə sorğu-suala tutursunuz? – respublika prokurorunun müavini süni şəkildə gülümsədi.

– Ənvər Mamedoviç, siz məni çoxdan tanıyırsınız, – Kazımov bir qədər incik halda dedi. – Əgər mən sizi ələ vermək istəsəydim, bu məlumatla ya Prezident Aparatına, ya da respublika prokurorunun yanına gedərdim. Doğrudanmı, bu sizə aydın deyil?

Vəliyev susdu. Amma Kazımovun dediyini də dəyərləndirib başa düşdü ki, o haqlıdır. Bunu anlamaq həddən artıq çətin idi, çünki tabeçiliyində olan biri qarşısında etiraf etmək məcburiyyətindəydi. Bu isə özündənrazı və qürurlu bir adam üçün dözülməz əzab idi.

– Mənə Sadıxov zəng etmişdi, – Vəliyev, sanki dişi ağrıyırmış kimi üz-gözünü turşutdu.

– Nazir müavini? – Kazımov dəqiqləşdirdi.

– Hə. O, buraxılış üçün təmiz blanklar xahiş etdi. Mən də ona göndərdim. Dünəndən hökumət telefonuyla ona zəng edirəm, amma kabinetində yoxdur. Evdə deyirlər ki, bağ evində gecələyib. Katibəsisə deyir ki, tezliklə gəlməlidir. Amma o hələ də işə gəlməyib.

– Təmiz blankları o istəmişdi? – Kazımov dəqiqləşdirdi.

Vəliyev başıyla təsdiqlədi.

– O bunu kiminsə tapşırığıyla edib? – Kazımov amansız idi.

Vəliyev cavab vermədi. Yalnız gülümsədi.

– Siz Sadıxovun arxasında kimin dayandığını bilirdiniz? – Kazımov artıq Vəliyevin cavab verməyəcəyini anlayaraq yenə soruşdu.

– Guya siz bilmirsiniz, – birdən Vəliyev dedi, – bütün şəhər, bu nazirliyi, eləcə də onlarla digərini kimin idarə etdiyini bilir. Mütləq soyad demək lazımdır? Onsuz da biz ona heç nə edə bilməyəcəyik.

– Paşayev? – Kazımov bu soyadı deyə bildi.

– O, – Vəliyev də cavab verə bildi. Bu onların hər ikisi üçün sadəcə kişilik nümayişindən daha artıq bir şey idi. Bu, hər şeyin deyilə biləcəyi həqiqət anıydı.

– Onun yanına getmək lazımdır, – deyəsən, artıq heç nədən qorxmayan Kazımov təklif etdi.

– Dəli olmusunuz, – Vəliyev son anda təşvişə düşdü, – o sizi məhv edər. Sadəcə deyəcək ki, biz cinayətkarlarla əlaqədəyik. Və biz heç nəyi sübut edə bilməyəcəyik. Sadıxovsa öz sözlərindən imtina edəcək. Deyəcək ki, məndən, ümumiyyətlə, heç bir sənəd almayıb. Onda biz heç nə edə bilməyəcəyik.

– Deməli, Sadıxovu tapmaq lazımdır, – Kazımov yekunlaşdırdı, – mən müstəntiqlərə tapşıracağam ki, Sadıxovun bağına gedib onu yaxalasınlar. Məncə, belə düzgün olar.

– Ola bilər, – Vəliyev ümidsizcə dedi, – necə bilirsiniz, elə də edin. Biz bu işə boğaza kimi batmışıq, mən daha bunun içindən çıxa bilməyəcəyəm. Adamlarınızı göndərin.

Kazımov ağır-ağır ayağa durub qapıya tərəf getdi.

– İmran Quliyeviç! – birdən Vəliyev onu çağırdı. Kazımov geri çevrildi.

– Hər şeyə görə çox sağ olun, – prokuror müavini dedi. Kazımov heç nə demədən kabinetdən çıxdı. Dərhal

Qarayev və Cəfərovun onu gözlədiyi kabinetə girib əmr etdi:

– Təcili adamlarınızı götürüb yerli sənaye nazirinin müavini Sadıxovun bağ evinə gedirsiniz. Vəliyev DİN-dən buraxılışları onun xahişiylə sifariş edib. Amma çox operativ olun! Aydındır?

On dəqiqə sonra iki “Volqa” Şüvəlan qəsəbəsinə doğru şütüyürdü. Cəfərov Qarayevlə birlikdə birinci maşında oturmuşdu. Tez-tez saata baxırdı. O həyəcanlanırdı, başa düşürdü ki, Sadıxovu öz bağında tapmaq necə vacibdir. Nazir müavininin bütün günü işə gəlməməyi onu narahat edirdi.

Qırx dəqiqədən sonra bağa çatdılar. İt bərkdən hürürdü, böyük dəmir darvazanı gözətçi açdı.

– Ev sahibi gedib, – üzü tüklü, altmış beş yaşlarında qoca bildirdi. – Səhər tezdən gedib.

– Öz maşınında? – Cəfərov dəqiqləşdirdi.

– Yox, – gözətçi heyrətləndi, – onun dalınca dostları gəlmişdilər. Hansısa başqa maşın idi. Mən əvvəllər onu burda görməmişəm.

– Bəs şefin ailəsi?

– Onlar şəhərdədirlər.

– Axtarış üçün sanksiya götürmək lazım idi, – Qarayev pıçıldadı, – bəlkə elə burda yazaq? Yoxsa qalmaqal olacaq?

– Hirslənmə. Deyəsən, nazir müavinlərinin bağlarını axtarmaq xoşuna gəlir, – Cəfərov zarafat etdi – gəl, bir az həyətdə gəzək.

– Zəhmət olmasa, bizə su gətirin, – Cəfərov xahiş etdi. Qoca başını yelləyib evə tələsdi. Cəfərov həyətə göz gəzdirdi.

Hər şey ideal səliqədəydi. Sakitlik idi. Evin yanında şefin "Volvo"su dayanmışdı.

Qoca mineral su butulkası gətirdi. Əvvəl Cəfərov içdi, sonra stəkanı Qarayev götürdü.

– Bəs niyə şefin maşını qarajda deyil? – Mirzə maraqlandı. – Yağış yağa bilər, bu gün səhərdən hava pisdir.

– Orda başqa maşın var, – qoca laqeydliklə cavab verdi, – dünən gecə gətiriblər. Deyəsən, kimsə ona atəş açıb. Özüm baxmışam.

– Nə maşın? – Cəfərov belə bir uğura inanmağa cürət etmədi.

– Mənim bu xarici maşınlardan başım çıxmır, – qoca laqeyd halda dedi, – mən hələ də onları bir-birindən fərqləndirə bilmirəm.

– Gedək, qarajı bizə göstər, – Cəfərov təklif etdi.

– Olmaz, şef dalaşar, – qoca etiraz etdi.

– Heç nə olmayacaq, – Cəfərov onu sakitləşdirdi, – biz şefinlə razılığa gələrik. Gedək, aç.

Onlar qocanı beş dəqiqə dilə tutdular, nəhayət, o deyinə-deyinə açarları gətirdi. Kilid uzun müddət açılmırdı. Qarajın darvazaları xoşagəlməz cırıltıyla açıldı. Dərinlikdə "Prins Deyvo" dayanmışdı. Dünən Cəfərovun gördüyü həmin maşın. Heç bir şübhəsi yox idi. Maşının nömrəsi də həminkiydi.

– Maşını kim gətirib? – o, ciddi tərzdə gözətçidən soruşdu.

– Bilmirəm, qaranlıq idi, heç nə görmədim, – gözətçi özünə bəraət qazandırdı, – Allaha and içirəm, heç nə görməmişəm. Bu mənim işim deyil.

– Evdə telefon var?

– Var, – gözətçi sevindi, – gedək evə.

Onlar üçlükdə evin geniş holluna daxil oldular. Qoca ikinci mərtəbəyə qalxıb telefonu gətirdi. Bu peyk telefonuydu.

Cəfərov cəld nömrəni yığdı.

İmran Quliyeviç Kazımov bu vaxt öz kabinetindəydi. Zəngi eşidib cəld dəstəyi qaldırdı.

– Bəli.

– Bu mənəm, – Cəfərov həyəcanlanırdı. – Biz dünənki cinayətkarın maşınını tapmışıq. O, heç hara qaçmayıb. O burdadır.

– Harda? – Kazımov əvvəlcə inanmadı.

– Burda, Sadıxovun bağında. Dünən gecə gətiriblər. Başa düşürsünüz, bu həmin “Prins Deyvo”dur. Mən nömrəni yadımda saxlamışdım.

– Bağda axtarış aparın, – Kazımov tapşırıq verdi, – sonra bütün lazımi sənədləri qanuniləşdirərik. Əgər nəsə tapsanız, mənə məruzə edin. Bağ sahibi özü hanı?

– O, səhər tezdən gedib, deyəsən, dostlarıyla. – Deyilənlərin mənası Cəfərova indi çatdı.

– Hara gedib? Hansı dostlarla? Onu işdə gözləyirlər! – Kazımov bağırdı. – Hər şeyi aydınlaşdırıb zəng edin. Sadıxov buxarlana bilməz.

– Yaxşı, – Cəfərov dəstəyi asdı və bu vaxt küçədən maşın siqnalı eşidildi.

Onlar darvazaya tərəf atıldılar. Bu, İnterpol missiyasının cipiydi.

Lauton və Dyuladan başqa maşında daha bir azərbaycanlı oturmuşdu, yerliydi.

– Siz burdasınız? – Cəfərov təəccübləndi. – Sizə burda nə lazımdır?

– Cəld olun, gedək, – Dyula xahiş etdi, – biz Sadıxovun və sizin dünən qaçan quldurunuzun da harda olduğunu bilirik.

Artıq heç nəyə təəccüblənməyən Cəfərov Qarayevə əmr etdi ki, bağda axtarışa onsuz başlasınlar. Özüsə İnterpolun əməkdaşları olan maşına əyləşdi.

– Tanış olun, – Dyula dedi, – bu adam, İnterpolun yerli bürosunun rəisi vəzifələrini icra edir, – o, tanımadığı adamı göstərdi. – Biz, onlar Sadıxovu aradan götürənə qədər ora çatmalıyıq.

O, qaza basdı.

## XXVI HİSSƏ

Bu gecə Dronqo nəhayət ki, Moskvaya gəlib çətinliklə yol maşını tapdı və Vladimir Vladimiroviçin evinə getdi. Aeroportlarda demək olar ki, rəsmi reket sistemi qurulmuşdu. Rəsmi olaraq, artıq şəhərdə mövcud olmayan taksidə gediş haqqı bütün sivil aləmdə ən yüksək həddəydi.

Bu gecə gecəyarısına bir neçə saat qalmış dörd sərnişini olan cip Bakının digər bağ evləri qəsəbəsi olan

Zaqulbada yerləşən hökumət bağına yaxınlaşdı. Ənənəyə görə orda dövlətin ali rəhbərləri qalırdılar.

Bu gecə Lazarev nəhayət ki, Ryaboydan irimiqyaslı müharibə aparmaq üçün razılıq aldı. Bu, bütün Qafqaz qruplaşmalarının liderlərinə qarşı amansız hərəkat demək idi.

Bu gecə prokuror Morozov vətəndaş Mixail Quramoviç Moseşvilinin həddən artıq qanlı və dolaşıq qətl işindən kənarlaşaraq məzuniyyətə getməyə qərar verdi.

Bu gecə Artur Sarkisyan ona Los-Ancelesdə üç yüz min dollara təklif olunan villanı almaq haqda prinsipial bir qərar qəbul etdi.

Nəhayət, məhz bu gecə Mixeyev və Çijovun bütün dünyada məşhur heykəltəraş olan Rafael Bağırovla görüşü baş tutdu. O, bu görüşə yeddi saat qalmış, bir neçə televiziya proqramı, üç qəzet və bir jurnal sahibi olan cənab Rubinçiklə şəhərdə hamı üçün son dərəcə vacib olan danışıqları yekunlaşdıra bilmişdi. Rəsmi olaraq, cənab Rubinçik sadə kommersiya cəmiyyətlərindən

birinin sədri hesab olunurdu. Kütləvi informasiya vasitələrisə onun çoxdankı və daimi əyləncəsiydi.

Rubinçik Bağırova hörmət edir və onu çox yüksək dəyərləndirirdi. Heykəltəraşın kəskin zəkası, perspektivi görmə və lazımi adamları seçmə bacarığı onun xoşuna gəlirdi. Rubinçik Bağırovun əlaqələri haqda yaxşı bildiyindən onunla həmişə ehtiyatla davranırdı. Deyirdilər ki, Bağırovun ofisində ən görkəmli yerlərdə onun prezidentlərlə, eyni zamanda respublikanın indiki prezidentilə, baş nazirlərlə, o cümlədən indiki baş nazirlə, merlərlə, elə indiki merlə də şəkilləri asılıb. Rubinçiksə lazımi adamların təsirini və onların daimi işgüzar əlaqələrini qiymətləndirməyi hamıdan yaxşı bilirdi.

Yəhudi qrupunun rəhbəri azdanışan, böyük başı olan, gözləri daim yarımqapalı bir adam idi. Elə bu görkəminə görə onu filin[1] sözündən gələn Filya deyə çağırırdılar, o bundan heç incimirdi. Onun əsl adı İsaak

[1]Yapalaq-red.

Aronoviç idi, amma dostlarının onu Filya kimi çağırması xoşuna gəlirdi.

Bağırov şəhərdə yaranmış situasiya haqda ona uzun-uzadı və ətraflı danışdı. O heç nəyi gizlətmədi. Əvvəla, Filya Rubinçikdən heç nəyi gizləmək olmazdı. İkincisi, bu iqtisadi baxımdan sərfəli deyildi.

Rubinçik həmişə olduğu kimi sanki mürgüləyirmiş kimi gözləri qapalı halda dinləyirdi. Amma hərdən göz qapaqlarının altından diqqətli və kəskin baxışı görünürdü.

– Düşünürəm ki, biz sülh bağlamalıyıq, – Bağırov öz nitqini yekunlaşdırdı.

Rubinçik gözlərini azca açdı.

– Bəs Lazarevlə Mansurov danışıqlara getmək istəyəcək? – o, ehtiyatla soruşdu.

– Biz istərdik ki, siz şəhərdə ən hörmətli insan olaraq bizim vasitəçimiz olasınız, – Bağırov ehtiramla dedi.

Rubinçik məmnunluqdan gözlərini yumdu. O, vasitəçi olmağı xoşlayırdı. Hər iki tərəfdən pul almaq olardı.

– Çox çətin işdir, – burnunun altında dedi, – siz bir-birinizin o qədər adamını öldürmüsünüz ki. Amma Lazarev heç nəyi həll etmir. Biz Ryaboya çıxmağa yol tapmalıyıq.

– Sizin Amerikada yaxşı əlaqələriniz var. Siz onu tapa bilərsiniz.

– Mən çalışaram, bəs ona daha nə təklif edim?

– Sülh. Bu lazımsız hesablaşmalar olmasın. Müharibədən hamı əziyyət çəkir. Əziz İsaak Aronoviç, siz ki bilirsiniz, bizim nə qədər adamımız var. Əgər həm gürcü, həm də azərbaycanlı qruplaşmalar eyni vaxtda hərəkətə keçsə, paytaxtda qanlı hadisələr olacaq. Biz heç kimə işləməyə imkan verməyəcəyik. Siz ki məni başa düşürsünüz, bu təhdid deyil. Sadəcə olaraq, biz işi bu həddə çatdırmaq istəmirik. Bütün bunlar bizim nəyimizə lazımdır ki?

– Siz Lazarevi layiqincə qiymətləndirmirsiniz. Onun Moskvaətrafı çoxsaylı qrupları var, – Rubinçik yüngülcə etiraz etdi, – və onlar savaşmağı bacarır. Orda çoxlu zabitlər, desantçılar var. Sizə çətin olacaq.

– Elə buna görə biz sülh istəyirik.

– Bəs Artur Aşotoviç nə düşünür? – Rubinçik Sarkisyana həmişə şübhəylə yanaşırdı. Görünür, buna səbəb onların bütün dünyadakı çoxsaylı dostlarıydı. Əgər Rubinçik və mafiyasının əlaqələri onu dünyada maliyyə və bank kapitalı üzrə nəhəng gücə çevirmişdisə, ikinci yerdə, əminliklə Artur Sarkisyanın adamlarına bağlı qruplar dururdu. Xüsusən də hər iki liderin xaricdəki milli diasporlarla yaxşı əlaqələri var idi. Bağırov bunu bilir və anlayırdı ki, hər iki güclü milli birliklə dost əlaqələri saxlamaq nə qədər vacibdir.

– O, danışıqlara razıdır, – Bağırov cəld cavab verdi.

– Lap yaxşı, – Rubinçik yenə gözlərini yumub qısa qollarını qarnının üstünə qoydu. – Bəs sülh bərqərar olacağı təqdirdə biz hansı faizi alacağıq?

– On faiz, – Bağırov cəld cavab verdi, – bu məsələ Quram Xotivarilə razılaşdırılıb. – O, bunu hər ehtimala qarşı dedi ki, Rubinçik alverə başlamasın.

Amma Rubinçik gözlənilmədən asanlıqla razılaşdı. O heç adəti üzrə olduğu kimi mübahisə də etmədi.

Görünür, variantları hesablayıb hiss etmişdi ki, bu ona ödəməyə razı olduqları maksimal rəqəmdir. Maliyyə məsələlərində o dahiydi və Bağırov bunu əla bilirdi.

– Bəs əgər sizi aradan götürsələr, – birdən Rubinçik soruşdu, – işi kiminlə davam etdirəcəyik?

– Aradan götürməzlər. – Bu gizli işarələr Bağırovun xoşuna gəlmədi, yoxsa həmişə hər şeyi əvvəldən bilən Rubinçikdə hansısa məlumat vardı? – Mən çox yaşamaq istəyirəm.

– Təki, – Rubinçik gözlərini açdı, – biz hər şeyi yoluna qoymağa çalışarıq. Amma nəzərə alın, heç bir pozuntu olmamalıdır. Sülh elan olunan kimi bu əsl sülh olacaq. Məni başa düşürsünüz? Biz vasitəçi kimi hər iki tərəfin davranışlarına cavabdehik.

– Əlbəttə, başa düşürük. Və əvvəldən razıyıq. Bizim yalnız kiçik bir şərtimiz var: Arçil Qogiyanın qatilini bizə versinlər. Buna onun qardaşı David israr edir. Bizsə öz tərəfimizdən Lazarevə bu güzəştinə görə istənilən faizi ödəməyə hazırıq. Amma bu şərt mütləqdir, qatil ölməlidir, burda mən heç nə edə bilmərəm.

– Düşünərik, – Rubinçik ehtiyatla dedi, – mən Ryaboyun yanına adamlar göndərərəm.

– Bəlkə Nyu-Yorkda İzya Levinsonu da işə qoşaq? – Bağırovun da öz informasiya mənbələri var idi.

– Unudun onu, – Rubinçik azca qaşlarını çatıb əlini yellədi. – İzya sadəcə olaraq səmimi axmaqdır. O, italyan mafiozları kimi əvvəl atəş açır, sonra nəyin nə olduğunu ayırd edir. Biz ona dəfələrlə izah etmişik ki, əsl yəhudinin özünü belə aparmağa haqqı yoxdur. Kimə oldu atəş açmaq, özünü istədiyi kimi aparmaq. Amma təəssüf ki, o bizi dinləmir. Çox təəssüf.

– Sizcə o bizə kömək edə bilməz? – Bağırov hər şeyi sona qədər aydınlaşdırmalıydı.

– Rafael Mamedoviç, – sualın quruluşu Rubinçikin xoşuna gəlmirdi. O, Levinsonu aşkar şəkildə xoşlamırdı, hərçənd, belə bir şey onların aləmində nadir hal idi, – mən ki sizə həmişə deyirdim, İzya Levinsonla iş görmək lazım deyil. O çox etibarsız adamdır. Biz belələrinə “minlik yəhudi” deyirik.

– Başa düşmədim.

– Sizə məlum olduğu kimi, – Rubinçik səbirlə izah etdi, – yəhudilər çox ağıllı xalqdırlar. Fikrimcə, razılaşarsınız ki, dəhşətli tariximizə görə biz belə olmağa sadəcə borcluyduq. Bir çox ölkələrdə bizi təqib edir, öldürür, yandırırdılar. Belə şəraitdə yalnız ən ağıllılar, ən çox uyğunlaşa bilənlər sağ qalırdılar. Razısınız?

– Hə, əlbəttə. Mən həmişə sizin həmvətənləriniz haqda yüksək fikirdə olmuşam, – Bağırov səmimi cavab verdi, – amma İzyanın bura nə dəxli var? Biz ondan sadəcə olaraq, Nyu-Yorkda münasibətləri qaydaya salmaq üçün istifadə etmək istəyirik.

– Hə, iş bundadır ki, biz hamımız ağıllıyıq, – Rubinçik səbirlə sözünə davam etdi, – belə alınıb. Yoxsa biz çoxdan məhv olardıq. Ya da başqa xalqların arasında itib-batardıq. Amma min nəfər ağıllı adamın içində bir axmağa rast gəlinir. Və bu elə bir axmaqdır ki, ondan daha betəri ola bilməz. Bax İzya Levinson da həmin axmaqlardandır. O, insanları öldürür. Bu boş bir işdir, biz heç vaxt insan öldürmürük. Bu həm dinimizə, həm də

əxlaqımıza ziddir. İndi başa düşürsünüz, mən niyə İzyayla heç bir iş görmək istəmirəm?

– Razıyam, – Bağırov təbəssümünü gizlədə bilmədi, – maraqlı nəzəriyyəniz var. Bir çoxları belə şeyləri açıq deməyə utanır.

– Mən utanmıram. Mən yəhudi olmağımla və qədim bir xalqa mənsubluğumla fəxr edirəm. Niyə öz əcdadlarımın inanclarına görə utanmalıyam? Məncə, bu doğru deyil.

– Beləliklə, siz bizim Lazarev qrupuyla münasibətlərimizi qaydasına salacaqsınız?

– Mən onunla Ryaboy vasitəsilə əlaqə saxlayacağam, – Rubinçik birbaşa cavabdan yayındı, – məncə, səbəbini siz anlayırsınız. Bu ölkədə antisemitizm hələ çox möhkəmdir. Mənsə öz adamlarımı, bizim haqqımızda həvəslə hər cür iyrənc ehtimallar çap edən "vətənpərvər" nəşrlərin zərbəsi altında qoymaq istəməzdim.

Rubinçikdən belə bir təminat alan Bağırov çox yaxşı bir əhvali-ruhiyyəylə evə qayıdırdı ki, hansısa

mayor Mixeyev ona, birbaşa maşına zəng etdi. Xotivarilə söhbətdən sonra bildi ki, ona əvvəllər tanış olmayan bu Mixeyev Mixonun qətlinin təhqiqatıyla məşğuldur. Bu isə həm vacib, həm də maraqlıydı. Qərar qəbul edib öz adamlarını Mixeyev və Çijovun ardınca göndərdi. Amma yolda onun "BMW"-sini içində şübhəli adamlar oturan iki maşın izləməyə başladı. Maşını dəyişməli və qonaqları ara həyətdən keçirməli oldular. Axmaq vəziyyətdə qalan təqibçilərsə izlədikləri adamların olduğu maşını axtara-axtara bütün şəhəri dolanmaq məcburiyyətində qaldılar. Hərçənd, Mixeyev deyirdi ki, bu adamlar onları rəqiblərdən qoruyan Quramın adamlarıdır. Amma Bağırov ürəyində belə hesab edirdi ki, onun adamları düzgün hərəkət ediblər. Çünki belə vacib işdə o, şəxsi təhlükəsizliyini hətta öz müttəfiqi Quram Xotivariyə də etibar etmirdi. Bu həddən artıq şirnikləndirici iş idi. O da təhlükəliydi. Həm Bağırov, həm də adamları üçün.

Mixeyev və Çijovu liftlə böyük beşotaqlı mənzilə qaldırdılar. O, burda məşhur, bahalı geyim dükanı sahibəsi olan sevgilisiylə yaşayırdı. Əlbəttə ki, mağazanı

da, mənzili də Bağırov öz puluna almışdı, amma qadının da haqqını vermək lazımdır. O, Bağırovun kifayət qədər sadə həyatını rəngarəng edərək onun bütün xərclərinin əvəzini verirdi. Lyuba əsl xəzinəydi və Bağırov onu sədaqətinə və üzüyolalığına görə çox yüksək dəyərləndirirdi.

Xotivarinin adamlarının onları izlədikləri barədə Mixeyevin sözlərini dinləyən Bağırov heç nə demədi. Adamlarının kifayət qədər dəqiq işləyib hər iki qonağı lazımsız "quyruq" olmadan gətirmələri ona xoş idi. Mixeyev və Çijovun silahlarını əvvəldən götürən adamları otağı tərk etdilər. Üçlükdə qalanda Bağırov qonaqlardan soruşdu:

– Sizdə hansı informasiya var?

– Bizə dəqiq məlumdur ki, – Mixeyev ciddi şəkildə dedi, – sizə sui-qəsd olacaq. Biz həm sifarişçinin, həm də hökmü icra edəcək killerin adını bilirik.

Bağırov Rubinçiklə az əvvəl olan söhbətini xatırlayıb təşvişə düşdü. Deyəsən, o da qruplarında mümkün lider dəyişikliyinə işarə edirdi.

Bunun hüquq-mühafizə orqanlarıyla Rubinçik qrupunun birgə planlaşdırılmış aksiyası olduğunu güman etmədiyindən növbəti sualını verdi:

– Bütün bunları mənə niyə deyirsiniz?

– Sizi xilas etmək üçün, – Mixeyev sakitcə cavab verdi, – bundan başqa, mənə bəzi məlumatlar lazımdır.

– Məni ələ almaq istəyirsiniz? – Bağırov güldü. – Məncə, heç nə alınmayacaq.

– Sadəcə olaraq məlumat mübadiləsi. Bu sizin də marağınızdadır.

– Yaxşı, – Bağırov dedi, – qiymətinizi deyin. Məndən sizə konkret nə lazımdır? Mən artıq sizin bura məni xilas etmək üçün gələn xeyirxah insanlar olduğunuzu bilirəm.

– Siz bizi məsxərəyə qoysanız, biz, sadəcə, çıxıb gedəcəyik, – Mixeyev asta-asta dedi, – və inanın ki, bu dəfə zərərçəkən biz olmayacağıq.

– Bəsdir, – Bağırov qəzəbləndi, – işarə vurmağınız da kifayətdir! Nəyə görə gəldiyinizi deyin.

– Biz tamamilə dəqiq aşkar etmişik ki, – Mixeyev Bağırovun qəzəbini qulaqardına vurdu, – məhz bu gün sizə sui-qəsd həyata keçiriləcək. Qatil şəhərimizə Nyu-Yorkdan göndərilmiş hansısa Saplyadır. Sizin qətlinizlə bağlı xüsusi sifarişi o həyata keçirəcək. Onun hesabında Mixo, Arçil Qogiya və başqalarının qətli var. Məncə, bu çox ciddidir.

– Onu kimin göndərdiyini bilirsiniz? – Bağırov cəld soruşdu.

– Bilirik.

Çijov Bağırovun reaksiyalarını maraqla izləyirdi. O hələ sakit idi. Amma sol əli biixtiyar hansısa marşı çalmağa başladı. Sanki əlin sahibi mahnının ifasına bu əsəbi tikdən başlamışdı.

– Onda niyə susursunuz? – Rafael Mamedoviç soruşdu.

– Biz bilmək istəyirik ki, niyə həmin gün vətəndaş Moseşvili "Ukrayna" mehmanxanasında tək olub? – Mixeyev soruşdu. – Şeremetyevoya taksini kimin üçün sifariş edib? Niyə bankdan böyük məbləğdə pul götürüb?

– Yaxşı, – Bağırov düşünüb razılaşdı, – mən sizə bu haqda danışacağam, amma siz də mənə həmin killeri tutan adamın adını deyəcəksiniz. Hərçənd, mən yüz faiz əminəm ki, həmin adamın adını özüm də səhvsiz deyə bilərəm. Amma istənilən halda informasiya üçün nəsə ödəmək lazımdır. Burda sizinlə razıyam. Mixo ona çox mane olan Ryaboyu aradan götürmək qərarına gəlmişdi. Nyu-Yorkda yaşayan Vaxtanqla razılığa gəlmişdi ki, o öz adamını göndərsin. Vaxtanqsa satqın çıxdı. O, Mixoya Amerikada xəyanət etdi və Moskvaya Ryaboyun adamı gəldi. Bizim Mixosa heç nədən şübhələnmirdi. Həmin gün o qəsdən tək qalmışdı ki, heç bir şahid olmasın. Vaxtanqın qasidi ona yarım milyon dollar aparmalıydı. Biz Şeremetyevoda hər şeyi deputat otağı vasitəsilə sənədləşdirmişdik ki, o adam rahat çıxıb gedə bilsin. Belə güman olunurdu ki, Vaxtanq bu pula killer tapa bilər. Mixo mehmanxanada gözləyərkən yanına Ryaboyun göndərdiyi qatil gəlir. Gerisini özünüz bilirsiniz. Hər şey çox sadədir. – Bağırov təmkinlə və sakit səslə danışırdı. Hətta Vaxtanqın xəyanəti haqqında danışanda da o

özündən çıxmadı, səsini qaldıraraq qəzəbli görünmədi. Xəyanət həm çox dəhşətli, həm də adi bir hadisəydi. Bağırov onun haqda elə danışırdı ki, sanki bu hər gün olurdu. Dərindən düşünülsə, o bəlkə də haqlıydı. Çünki canavar qanunlarına görə öz dostlarını mümkün olan ən yüksək qiymətə satmaq lazım idi.

– Bəs müharibə niyə başladı? – Mixeyev soruşdu. – Mixo və Ryaboy nəyi bölə bilmirdilər?

Bağırov yüngülcə gülümsədi.

– Məncə, mən lazım olduğundan daha artıq danışdım, – o, əllərini yellədi. – Mən başqa heç nə bilmirəm. Mixo mehmanxanada öldürülüb, pullar və onun qatilisə yoxa çıxıb. Bunlar mənə məlum olanlardır.

– Mən sizə bu hekayənin davamını danışacağam. Saplya Mixonu aradan götürən həmin adam idi. O, Moskvaya Ryaboyun tapşırığıyla gəlib. Bir neçə gün bundan qabaq o, Lazarevdən bir heykəltəraşı aradan götürmək haqda tapşırıq alır. Azərbaycanlını. Məni başa düşürsünüz?

Bağırov heç nə demədən başını yellədi.

Mixeyev ayağa qalxdı.

– Təşəkkür edirəm, Rafael Mamedoviç. Söhbətin təfərrüatı əlbəttə ki, bizim aramızda qalacaq. Özümə və həmkarımın adına təminat verirəm.

– Hər şeyi sirr kimi saxlamaq vacib deyil, – Bağırov yumşaq şəkildə bildirdi. – Biz artıq Mixoya kömək edə bilməyəcəyik, mənim rəqiblərimsə bizim bugünkü söhbətimiz haqda bilə bilərlər. Bəlkə qanlarında adrenalinin miqdarı artar və birdən infarkt keçirərlər. Düşünürəm ki, siz mənim adımı bu qəfil infarktlarla əlaqələndirməzsiniz.

– Əgər infarkt olsa, əlbəttə, yox, – Mixeyev görüşərkən ciddi tərzdə dedi.

Onları başqa maşında geri qaytardılar, sanki Xotivarinin adamları Mixeyev və Çijovun məhz hara getdiyini izləyə bilərdilər. Jenya bütün yolboyu susdu. O ilk dəfə anlayırdı ki, onlar həddən artıq kirli işlərlə məşğul olurmuş. Xəyanət adi hal sayılırdı, gizli sövdələşmələr normal iş idi, belə bir informasiya mübadiləsisə hər iki tərəfə sərf edirdi. Heç kim bunda pis heç nə görmürdü. Və

bu ən qorxulusuydu. Sanki hansısa bir gözəgörünməz iblis əclaflar üçün bu qanunları yaratmışdı və onlar hamısı bu qanunları dinməzcə icra edirdi. Bu kədərli və bir qədər də iyrənc idi. Əlbəttə ki, o, Mixeyevə heç nə demədi. İqnatyeviç əməliyyatı çox gözəl aparmışdı – istədiyi informasiyanı almış, eyni zamanda da iki rəqib quldur arasına da mismar çalmışdı. İndi, Lazarevi nə vaxt aradan götürəcəklərini gözləmək qalırdı. Bağırovun üzündən belə görünürdü ki, çox gözləməli olmayacaqlar.

Bu an onların maşını Kiyev rayonunun Cinayət-Axtarış İdarəsinin binasına yaxınlaşarkən Kursk vağzalında, Saplyanın qonağının təsvirlərinə bənzəyən bir saxlama kamerasının yanında peyda oldu. O, ona lazım olan yeşiyin yanından o yana-bu yana keçib ətrafa göz gəzdirdi. Hər şey sakit idi və daha bir yoxlama dairəsi vurub yeşiyə yaxınlaşaraq onun qapısını kodla açmağa başladı. Və bu an sanki yerin altından çıxmış Cinayət-Axtarış İdarəsi əməkdaşları tərəfindən yaxalandı.

– Siz həbs olunursunuz, – ona yaxınlaşan Steklov dedi, – çamadanı verin.

Artıq səhər idi. Moskva vaxtı ilə yeddiyə on bir dəqiqə işləmişdi.

## XXVII HİSSƏ

Onlar şəhərə maksimal sürətlə daxil oldular.

– Siz Sadıxov haqda hardan bilirsiniz? – Cəfərov soruşdu.

– Bizdə onun şəkli var idi, – qarşıya diqqətlə baxan Dyula cavab verdi. – Amma biz onları sizə göstərməmişdik. Vaxtından əvvəl əsəbiləşdirmək istəmirdik. Bu haqda yalnız o bilirdi.

Dyula yanında oturan İnterpol əməkdaşını göstərdi.

– Adınız nədir? – Cəfərov qabağa əyilərək soruşdu.

– Elmar Ağayev! – o qışqırdı. Cip çox böyük sürətlə şütüyürdü.

– Məmnun oldum. Mən də Mirzə Cəfərov, respublika prokurorluğunun mühüm işlər üzrə müstəntiqi.

– Bilirəm, – Ağayev gülümsədi. – Sizin anbardakı rəşadətiniz haqda bütün şəhər bilir.

– Deməli, onlarda Sadıxovun şəkli olub. Niyə onu mənə verməyiblər?

– O, Türkiyədə bir nəfərlə olub. Onlar istəməyiblər ki, siz o şəkli vaxtından əvvəl görəsiniz. Bu həm onlar, həm də sizin üçün çox təhlükəliydi.

– Paşayev? – Cəfərov soruşdu.

Ağayev dişlərini sıxıb başını yellədi.

– Bəs indi hara gedirik?

– Şəhərdən başqa istiqamətə, – Ağayev izah etdi. – Sumqayıtın yaxınlığında, Pirəküşkül qəsəbəsində Paşayevin qapalı təsərrüfatı var. Sadıxovu səhər ora aparıblar. Onlar qorxurlar ki, Vəliyev Sadıxova qarşı ifadə verər.

– Siz bunu da bilirsiniz?

– Əlbəttə. Sizin müstəntiq DİN-ə gələndə mənim əməkdaşım da ordaydı. Deyəsən, Qarayev idi.

Cəfərov başını tərpətdi. Hər şey öz yerini alırdı. İnterpol əməkdaşlarının, Paşayevlə Sadıxovun birgə şəklini ondan gizlətmələri xoşuna gəlmədi. Amma başa düşürdü ki, doğru hərəkət ediblər. Əgər onlar bu

buraxılışları tapmasaydılar, bu şəkillərdən başqa heç bir sübutları olmayacaqdı. Amma "dişbatmaz" Paşayev üçün Türkiyədə çəkilmiş şəkil ciddi ittiham sayıla bilməzdi. Hətta o, şəkildə dünən Cəfərova atəş açan cinayətkarlarla birlikdə olsaydı belə. Onda o heç nə sübut edə bilməzdi və ən yaxşı halda onu orqanlardan uzaqlaşdırardılar. Pis haldasa – Cəfərov anlayırdı ki, Paşayev üçün o heç nədir. Və çox yüksək vəzifəli insanların öldürüldüyü bir şəhərdə müstəntiqi aradan götürmək çox rahat işdir. Bunun üçün ucuz qiymətə kifayət qədər qatil tutmaq olardı. Müharibədən qayıdan qəzəbli və əzabkeş əsgərlər killerlərin sırasını çox yüksək səviyyədə artırırdılar. İnsan həyatının heç bir dəyəri yox idi. Bir neçə min dollara qatil tapmaq olurdu.

– Nə etməyi düşünürsünüz? – Cəfərov Dyuladan soruşdu.

– Əvvəlcə Sadıxovu tapmalıyıq.

Dyulanın haqqını vermək lazımdır, o, yad şəhərdə maşını ideal şəkildə sürürdü. Arxada Cəfərovla yanaşı əyləşən Cerald Lauton demək olar ki, heç bir narahatlıq

əlamətləri göstərmirdi. O artıq Moskva və Batumda baş verən hadisələr haqda məlumat almışdı. Bütün bu hadisələr bir zəncirin halqalarıydı və hər yerdə yeni satış bazarları və narkotik yüklərin daşınması üçün yeni kanalların açılması uğrunda amansız mübarizə gedirdi. Onu yalnız bir adam maraqlandırırdı – həm Bakıda, həm də Batumda öz təqibçilərinin əlindən belə asanlıqla qaça bilmiş həmin keçəl. O, Qafqazdakı fəaliyyət üzrə koordinator idi və Lautonu çox maraqlandırırdı. Türkiyə, İran və Pakistan vasitəsilə Avropayla daimi əlaqələr saxlayan adamlara yalnız onu tapmaqla çıxmaq olardı. Bu, hansısa quldurun və ya onun himayədarlarının həbsindən daha vacib idi. Lauton məhz narkomafiyanın əlaqələrini tapmalıydı. Və dəqiq bilirdi ki, öz tapşırığını yerinə yetirmək üçün həmin keçəli tapmalıdır.

Maşın şəhərə daxil oldu.

– Yuxarı yolla, – Ağayev metrodan sağ tərəfi göstərdi. – Ordan Sumqayıt yoluna daha tez çıxarıq.

Dyula razılaşıb sağ istiqaməti götürdü. Belə yollarda deyəsən, cip ən yaxşı hərəkət vasitəsiydi.

– Bu keçəl kimdir ki? – Cəfərov maraqlandı. – O sanki mənə sataşırmış kimi həmişə məndən qaçır. Mən çox istərdim ki, onunla görüşüm.

– Biz özümüz bilmirik, – Ağayev cavab verdi. – Onlar belə hesab edirlər ki, o bura xaricdən göndərilmiş koordinatordur. O, narkotik yüklərin Gürcüstandan Türkiyəyə, ordan da Avropaya getməsi üçün yeni kanal yaratmaq istəyir. Yükü İrandan Türkiyəyə aparmaq olmaz, çünki hazırda türklər öz sərhədlərini möhkəmləndirir. Orda kürdlərə görə həmişə gərginlik var.

– Hə, bilirəm, – Cəfərov oturacağa söykənərək situasiyanı götür-qoy etməyə başladı.

Əməliyyatda uğursuzluq olsa, buna görə məhz o cavab verəcək. Uğur halındasa Paşayevi məhz o həbs etməlidir. Bax, bunu etmək çox çətin olacaq. Birinci, ona görə ki, Paşayevin çoxsaylı mühafizəsi var. İkincisisə, o, deputat olduğuna görə respublikanın ali qanunverici orqanı olan Milli Məclisin razılığı lazımdır. Əvvəldən düşünmək olar ki, bir çox deputatlar Paşayevin təhqiqat orqanlarına təslim edilməsinin əleyhinə olacaqlar. Bütün

bu əks nüansların çoxluğundan hətta qəzəbləndi də. Belə çıxırdı ki, bu Paşayev doğrudan da, dişbatmazdır. Cip sürətini azaltmadan nəhayət ki, Sumqayıt yoluna çıxdı. Pirəküşkülə və ya indiki adıyla Müşfiqabada yarım saata çatdılar. Qəsəbədə cip əvvəlki hərbi hissələrə gedən yola dönüb qəfil dayandı. Orda ənənəvi olaraq Sovet Ordusunun ehtiyat qüvvələrinin düşərgələri və motoatəş diviziyasının iki polkunun istinad məntəqələri yerləşirdi.

Lauton kəskin, adət etmədiyi qoxu duydu. O çeçədi, öskürdü.

– Bu nədir? – heyrətlə soruşdu. – Bu nə qoxudur?

– Yaxında toyuq emalı kombinatı var, – Ağayev ingilis dilində izah etdi.

– Burda həmişə belə iy olur? – Lauton təəccüblə soruşdu.

– Həmişə.

– Burda necə yaşamaq olar? Yazıq camaat necə yaşayır?

– Öyrəşiblər, – qaşqabaqlı Ağayev qəsəbə tərəfi göstərdi. Cip növbəti gölməçəni uğurla adlaya bildi. Mart

ayındakı yağışlı havalar keçmiş hərbi şəhərciklərə gedən yolu keçilməz etmişdi.

Onlar daha iyirmi dəqiqə dolanıb nəhayət, fasadında möcüzəvi şəkildə qırmızı ulduzlarını saxlamış xaraba görkəmində olan kiçik evlərə yaxınlaşdılar.

Cəfərov evlərə tərəf getmək istəyərkən Ağayev onu saxladı.

– Baxın, – o yavaşca dedi, – orda "UAZ" və "Volqa" dayanıb. Deməli, evciklərdə kimsə var. Özünüzlə silah götürmüsünüz?

Cəfərov silahını çıxardı.

Ağayev ehtiyatlı, tam əyilmiş vəziyyətdə evciklərə tərəf getdi. Lauton, Dyula və Cəfərov silahlarını hazırlayıb onu gözləyirdilər. Mövcud vəziyyətə görə İnterpol əməkdaşlarına göndərildikləri ölkəyə silahla gəlməyə icazə verilirdi. Uçuş zamanı silah pilota təhvil verilir və yerə endikdən sonra geri alınırdı. İndi onlar üçü də şərti siqnalı gözləyirdilər.

"Doğrudanmı, yenə atəş açmaq lazım gələcək?! – Cəfərov əsəbi halda düşündü. – Biz hamımız kovboya

çevrilirik, tariximizsə səfeh və pis qurulmuş vesternə dönür". O, getdikləri beş evdən ibarət bu hərbi şəhərciyə səfərlərinin tarixini nəzərdə tutmurdu. O, öz xalqının tarixi barədə düşünürdü.

Birinci evcikdən kiminsə qışqırığı və atəş səsi gəldi. Sonra daha bir qışqırıq eşidildi və səs kəsildi.

– Cəld ora, – Lauton təklif etdi.

Onlar demək olar ki, qaçaraq evciyə tərəf atıldılar və içəri az qala giriş qapısını qıraraq girdilər. Ağayev arxası onlara tərəf dayanmışdı. Mirzə birinci bunu gördü. Daha sonra o, çarpayıda oturan və öz dəhşətlərini gizlətməyən iki oğlan gördü. Ağayevin qarşısında, stulda dünən Cəfərovun əlindən qaça bilən və dağlarda Manafovla birlikdə olan həmin keçəl oturmuşdu. Uğurunu dərk edən Cəfərov karıxmış və xoşbəxt təbəssümünü gizlədə bilmədi.

– Silah çıxarmaq istəyirdi, – Ağayev keçələ tuşlanmış tapançanı tərpətmədən izah etdi, – o başa düşsün deyə, havaya atəş açmağa məcbur oldum.

– Salam, Aleksandr Petroviç, – Cəfərov yorğun halda dedi, – nəhayət ki, görüşdük. Sizi çoxdan axtarıram.

Keçəl ona qəzəblə baxsa da, heç bir cavab vermədi.

– Koordinator o olub, – Ağayev öz əsirini göstərdi. – Amma o, Aleksandr Petroviç deyil. Ümumiyyətlə, nə rusdur, nə də bizim respublikaların vətəndaşı. O yunandır – Konstantin Papadopulos, deyəsən, sizin əsl adınız beləydi, – o, Aleksandr Petroviçə müraciət etdi.

O, heç nə demədən susurdu.

– Məni də tanımırsınız? – Lauton ingiliscə soruşdu. – Doğrudanmı tanımırsınız?

– Tanıyıram, – yunan cavab verdi. – Amma bura niyə bu heyvan sürüsüylə gəlmisiniz? Özünüzə layiq müttəfiqlər tapa bilmirdiniz?

– Bu insanlar sizi tapmaq və həbs etmək üçün əllərindən gələni ediblər, Papadopulos. Hərçənd, düşünürəm ki, heç bu da sizin soyadınız deyil. Oyun bitdi. Biz israr edəcəyik ki, sizi Fransa və ya İtaliyaya təslim etsinlər. Orda ayağınızda çoxsaylı cinayətlər var. Hərçənd, Azərbaycanda da fərqlənməyə macal tapmısınız.

– Bəsdir, – yunan üz-gözünü turşutdu, – nə təslim? Burdakılar barbardır, vəhşidir. Onlar nəyisə izah belə edə bilmirlər.

– Ona görə siz paralel dəhlizi məhz burda yaratmaq fikrinə düşdünüz? – Lauton dəqiqləşdirdi.

– Mən sizi başa düşmürəm.

– Siz hər şeyi çox gözəl başa düşürsünüz. Sizin adamlarınız Batumda Şalva Ruruanın gəmisinə hücum edib onun adamlarını öldürüblər. Erməni və azərbaycanlılardan ibarət birləşmiş bələdçi-cinayətkar qrupa da siz rəhbərlik etməklə İrana lazımi məbləğdə pul daşımısınız. Aslandüzdə malın alışını və bura göndərilməsini də siz təşkil etmisiniz. Türkiyədən bura göndərilmiş koordinator da məhz sizsiniz. Mən hətta bilirəm ki, siz Türkiyəyə Nyu-Yorkdan gəlmisiniz. Sizi kimin göndərdiyini deyim?

“Aleksandr Petroviç” əlini yellədi.

– Məsxərəyə qoymaq lazım deyil, Lauton. Mən sizin necə işlədiyinizi bilirəm. Etiraf edirəm – mən uduzdum, amma bu hələ heç nə demək deyil.

– Sizi bura kim göndərib?

– Sizin məni sorğu-suala tutmağa ixtiyarınız var? Sizin vəzifəniz məni yerli dövlətin polis orqanlarına təhvil verməkdir. İşə başlayın, qoy onlar məni sorğu-sual etsinlər.

– Gözləyirəm, – Lauton səbirlə dedi.

– Heç kim, – həmsöhbətinin əsəbləri dözmədi, – heç kim göndərməyib.

– Siz yeni dəhliz yaratmaq istəyirsiniz. Məhz buna görə Gürcüstanda “Minqrel qrupu”yla əlaqə qurmusunuz, Azərbaycanda bir qrup nüfuzlu şəxslə münasibət yaratmısınız. Siz rus mafiyasının Nyu-Yorkdan göndərdiyi qasidsiniz, – Lauton hər bir sözü vurğulayaraq deyirdi. – Sizi Zaqafqaziyaya Ryaboy göndərib.

Yunan qəzəblə ona baxdı.

– Özünüzü başqalarından ağıllı sayırsınız, cənab Lauton?

– Ən azından, sizdən ağıllıyam, Papadopulos. Biz İnterpola sorğu göndərmişik. Sizin barmaq izlərinizi

götürən kimi nəhayət, əsl adınızı da biləcəyəm, axı Papadopulos da sipərdir, düzdür?

– Lənətə gələsiniz, – yunan artıq laqeydliklə dedi, – nə istəyirsiniz edin.

– Bu adamlar kimdir? – Ağayev heç nə anlamayan oğlanları göstərərək soruşdu. Onlar yalnız əcnəbi nitq eşidirdilər və birdən ağıllarına gəldi ki, casusluqda ittiham oluna bilərlər.

– Mənim "mühafizəçilərim", – yunan yerə tüpürdü, – belə axmaqlarla işləmək məcburiyyətindəyəm.

– Bəs Sadıxov hanı? – Dyula soruşdu.

– O bu gün səhər uçdu.

– Hara?

– O tamamilə bir heçlikdir. Qorxaq və vecsizin biridir. Nəyinizə lazımdır?

– Cavab verin, – Lauton tələb etdi.

– Moskvaya, – yunan həvəssiz cavab verdi.

– Dyula, Moskvaya bildir ki, onu orda yaxalasınlar, – Lauton xahiş etdi və əsir cinayətkara sarı dönüb

dəqiqləşdirdi: – Siz Paşayevin tapşırığıyla burdasınız. Doğrudur?

– Ola bilər. Amma onsuz da onu ələ keçirə bilməyəcəksiniz. Həddən artıq vacib fiqurdur. Yeri gəlmişkən, mənim bütün sənədlərim ondadır. O, mənim pasportumu götürüb söz vermişdi ki, Moskvaya getmək üçün viza düzəldəcək. Əgər çox istəyirsinizsə, mənim pasportumu ondan götürə bilərsiniz. Görək, buna necə nail olacaqsınız.

– Biz onları hara apara bilərik? – Lauton soruşdu. – Xəbərdarlıq edirəm: bu tip çox təhlükəlidir.

– Milli Təhlükəsizlik Nazirliyinin həbsxanasına, – Ağayev təklif etdi. – Nazir müavini Rasim Paşayeviçin artıq hər şey haqda məlumatı var. Məncə, o etiraz etməyəcək.

– Onda getdik.

Onlar hamısı birtəhər iki maşına doluşdular ki, hər üç qulduru özləriylə apara bilsinlər. Lautonun təklifinə görə yunanın əlinə qandal keçirildi. Bütün yolboyu heç nə demədən dodaqlarını dişləyərək oturmuşdu. Milli

Təhlükəsizlik Nazirliyində onları artıq gözləyirdilər. Rasim Paşayeviçin tapşırığına görə quldurların hər birini ayrı-ayrı kameralara saldılar ki, bir-biriləriylə ünsiyyət saxlaya bilməsinlər. Ağayev situasiyanı qısaca məruzə edib Paşayevin yaşadığı, hökumət tərəfindən ayrılan bağ evinə getmək üçün icazə istədi.

Milli Təhlükəsizlik Nazirinin müavini cavab vermədi. O düşünürdü. Bağa İnterpol və prokurorluq işçilərinin gəlməsi mütləq qalmaqal yaradacaqdı. Onun qonşuluğunda prezidentin, spikerin, baş nazirin bağları vardı. Rasim Paşayeviç özü Milli Təhlükəsizlik Naziriylə bir evdə yaşayırdı. Belə xidməti bağlarda bir evi iki nəfərə verirdilər. Ya da çoxmərtəbəli binada ev verirdilər. Onlar Paşayevi həbs edə bilməzlər, yalnız bir neçə saatlığa saxlaya bilərlər. O da ən son variantda. Amma əgər pasport tapılsa, onda Paşayevin günahı sübut olunacaq.

Nazir müavini tərəddüd edirdi. O, uğursuzluq halında nəticənin nə olacağını başa düşürdü. Amma geri çəkilmək gec idi. Həm də yaraşmazdı. Ona, içində iki əcnəbinin olduğu dörd cüt diqqətli göz baxırdı.

– Bəlkə Vəliyevə zəng edəsiniz ki, o, sanksiya versin? – Cəfərov onun tərəddüdünü anladı.

– O verər? – Rasim Paşayeviç inanmadı.

– Zəng edin, – Mirzə xahiş etdi, – məncə, verər.

Nazir müavini hökumət telefonunun dəstəyini qaldırıb Vəliyevin nömrəsini yığdı.

– Axşamınız xeyir, Ənvər Mamedoviç, – danışarkən daxili gərginlik keçirirdi, – sizi Rasim Paşayeviç narahat edir. Bizim işimizə görə. İndi İnterpolun əməkdaşları və sizin xüsusilə mühüm işlər üzrə müstəntiqiniz yanımdadır. Bizim Beyləqanda birlikdə olduğumuz. Hə, Cəfərov. O, Paşayevin evində axtarış aparmağa icazə istəyir. O isə indi bağdadır. Necə bilirsiniz, bunları ora buraxmaq olar?

Əgər indi Kazımov Vəliyevin yanında oturmasaydı, o qəti rədd cavabı verərdi. Amma Kazımovun yanında... O, dəstəyi tutub susurdu...

– Bağışlayın, – Rasim Paşayeviç dedi, – heç nə demədiniz. Ora gedə bilərlər, ya yox?

“Nəticə etibarilə, – Vəliyev düşündü, – bəlkə də bu yaxşılığadır”.

– Hə, – o, sakitcə dedi.

Rasim Paşayeviçə elə gəldi ki, səhv eşidib.

– Siz axtarış üçün sanksiya imzalayacaqsınız?

– Deputatın evində axtarış aparmaq olmaz, – Vəliyev rəvan səslə danışırdı. – Amma onlar ora gedə bilər. İstisna hallar olur. Bu məhz həmin haldır.

– Siz məsuliyyəti öz üzərinizə götürürsünüz?

Vəliyev anladı ki, hər şey indi həll olunur. Və Kazımovun baxışını gördü.

“Batdım”, – o, ümidsizcəsinə düşündü.

– Götürürəm, – birtəhər deyə bildi.

Rasim Paşayeviç dəstəyi asdı.

– Gedə bilərsiniz. Elə indi gedin. Allah elə etsin ki, səhv etməyəsiniz. Yoxsa, uşaqlar biz bir daha öz kabinetlərimizdə işləməyəcəyik. Yeri gəlmişkən, bu sizə də aiddir, – o, Lauton və Dyulaya müraciətlə dedi. Lauton tərcüməni eşitdikdən sonra dedi:

– Mən yerli elitanın nümayəndələrinin belə qüdrətli olduqlarını təsəvvür etmirdim. Qoy bu mənim səhvim olsun. Mən onsuz da gedəcəyəm. Deyəsən, indi Namiq Aslanın qətliylə bağlı informasiya sızmasının hardan olduğunu bilirəm.

Onlar MTN-in binasının pilləkənləriylə aşağı düşdülər. Son zamanlar nazirliyin həbsxanasından qaçışların artmasıyla bağlı binanın ətrafına hündür hasar çəkmiş və əlavə postlar qoymuşdular...

– Rasim Paşayeviç haqlıdır... – Birdən Cəfərov dedi. – Əgər səhv etsək, başımızı kəsəcəklər. Ola bilsin ki, sözün əsl mənasında.

## XXVIII HİSSƏ

Moskvaya gələn Dronqo Vladimir Vladimiroviçə Batum səfərinin bütün detallarını ətraflı danışdı. Yalnız Tamarayla münasibətləri haqda danışmadı. Bunun Batumdakı səfərinə dəxli yox idi və bu haqda danışmamaq da olardı. Əsl kişi kimi o, qadınlarla olan

münasibətlərini kimə gəldi danışmağı sevməzdi. Bunu, kirli əllərlə toxunmağın qadağan olduğu son dərəcə şəxsi iş sayırdı. Hətta bundan 15-20 il əvvəl də öz qələbələrilə öyünən kişilərin ədəbsiz söhbətlərində belə iştirak etməzdi. Bunu bayağı və nalayiq məşğuliyyət sayırdı.

Öz növbəsində Vladimir Vladimiroviç də Moskvada iki güclü birləşmə arasında genişlənən müharibə haqda danışdı. Hərçənd, Ali Təhqiqat Komitəsi və İnterpolun məlumatına görə bu müharibə tezliklə bitəcəkdi. Hər iki tərəf öz mübahisəli məsələlərini danışıqlar yoluyla qaydaya salmaq üçün vasitəçilər axtarırdılar.

– Artıq şübhə yoxdur ki, – Vladimir Vladimiroviç deyirdi, – müharibə Zaqafqaziyada yaranan yeni dəhliz uğrunda başlayıb. Ryaboy-Lazarev qrupu Qafqaz qruplarının öz vətənlərindəki ənənəvi yerlərinə hücum etmək qərarına gəliblər. Şalva Ruruanın gəmisinə hücum, Bakıdakı son hadisələr, cinayətkarların narkotik yük dolu anbarlarını müdafiə edərək müqavimət göstərmələri bununla izah olunur. Maraqlı bir mənzərə alınır.

Azərbaycanın özündə çox qüdrətli biri Rafael Bağırov və adamlarını bu ləzzətli yem təknəsindən uzaqlaşdırmaq istəyir. Gürcüstanda da təxminən eyni situasiya yaranıb. Orda da “minqrel qrupu” köhnə rəhbərlər olan David Qogiya, Mixail Pomeşvili, Zurab Axvledianiyə qarşı vuruşurdu. Kənardan lazımi dəstək olmadan Şalva Ruruanın adamlarına hücum etmək mümkün olmazdı. Və nəhayət, Moskvadakı qətllər. Hər şey Moseşvilinin qətli ilə başladı. Düşünürəm ki, o da öz növbəsində Ryaboyun qətlini hazırlayırdı. İş burasındadır ki, bir neçə gün əvvəl, demək olar ki, Mixo öldürülən kimi Nyu-Yorkda onun yaxın dostu Vaxtanq öldürülüb. Biz elə bilirdik ki, bunu Ryaboyun adamları edib. Amma qatilin oraya Moskvadan Arçil Qogiyanın əmrilə getdiyini öyrənəndə bizim təəccübümüzü təsəvvür et. Vaxtanq, sadəcə olaraq, Mixonu ələ verib və bunu da həyatıyla ödədi.

– Onların qrupunda sizin adamlarınız var, deyəsən – Dronqo dedi.

– Bizim heç bir adamımız yoxdur. Amma Federal əks-kəşfiyyat xidmətinin və DİN-in demək olar ki, bütün

cinayətkar qruplarda uğurla istifadə edə biləcəkləri agentləri var. Vaxtanqın ölümündən sonra əsl müharibə başladı. Hamı Quram Xotivarinin Ryaboyun yaraqlılarını ələ keçirib məhv etməsiylə bağlı uğurundan danışır. Bundan başqa, Lazarevin müavini və faktiki olaraq, sağ əli Zıkov da Qogiyanın adamları tərəfindən güllələndi. Rəqib də öz növbəsində bu qətlə, ənənəvi olaraq, Qafqaz qruplaşmalarıyla yaxşı əlaqələr saxlayan Qara Vasilini və Arçil Qogiyanın özünü öldürməklə cavab verdi.

İndi onlar daha sonra nə edəcəklərini düşünürlər. Amma bizdə olan məlumata görə hər iki qrup həlledici döyüşə hazırlaşır. Eyni zamanda sülh də istəyirlər. Burda, Moskvada bunun üçün yəhudi mafiyasını idarə edən Rubinçik qrupu işə qoşulacaq. Mənə Bakıdan zəng etmişdilər. Orda yoxa çıxmış yerli sənaye nazirinin müavini Sadıxovu axtarırlar. Qarabağ dəhlizində fəaliyyət göstərən birləşmiş cinayətkar qruplaşmaya buraxılışları məhz onun tapşırığıyla sənədləşdiriblər. Qüvvələrin koordinasiyası lazımdır. Ordasa hələ də müharibə gedir. Hərçənd, Federal əks-kəşfiyyat xidməti həm erməni, həm

də Azərbaycan tərəfilə münasibətləri nizama salıb. Bu zəhrimarla təklikdə mübarizə aparmağın çətinliyini hər iki ölkə bilir. Və bu məsələylə bağlı hərəkətin zəruri koordinasiyasına və istənilən əlaqəyə girməyə hazırdır. Gürcü tərəfinə gəlincə, onlar çoxdan öz limanlarında narkomafiyaya qarşı kifayət qədər aktiv fəaliyyət göstərirlər. Sənin danışdığın kimi Şalva Ruruanın dəstəsinə onun qardaşı oğlunun arvadının yeridilməsi mənim sözlərimi təsdiq edir. Qüvvələrin daha böyük koordinasiyası lazımdır – yalnız bu halda biz müəyyən uğura nail olacağıq, – Vladimir Vladimiroviç sözünü bitirdi.

– Mən nə etməliyəm?

– Sadıxovu tapmalısan. O bir neçə saat bundan əvvəl Moskvaya uçmalıydı. Onu mütləq tapmaq lazımdır. Onda hansısa dövlətin pasportu və vizası ola bilər və əgər o harasa uçsa, biz çox dəyərli şahidi itirəcəyik. Odur ki, sənin tapşırığın şəhərdə təcili onu axtarmaqdır.

– Başa düşürəm.

– Bəs niyə bacının ailəsi haqda soruşmursan? – Vladimir Vladimiroviç gülümsədi.

– Bilmirəm. Mən rezidentlərin sözlərinə güvənməyə adət etmişəm. Siz dediniz ki, hər şey qaydasında olacaq. Ona görə də heç nə soruşmuram.

– Onlar indi Sankt-Peterburqdadırlar. Bu da ünvanları. Onlara çətinliklə də olsa, ikiotaqlı mənzil almışıq. Ərini işə düzəltmişik. Sənin bacın hələ evdə oturur. Başa düşürsən, onlar üçün evə qayıtmaq çox təhlükəlidir. Yaxın bir neçə ay ərzində sizin Zaqafqaziyada vəziyyət çox ağır olacaq. Və sən doğmalarına tərəf boylanmadan işləməlisən. Yalnız bu halda bizim şansımız olacaq. Razısan?

– Onlar normal yerləşib?

– Özü də necə! Bacın sevincdən ağlayırdı. Deyir, uşaqlara Leninqradı çoxdan göstərmək istəyirmiş. O belə də deyir – Leninqrad. Yeri gəlmişkən, sən də heç vaxt Sankt-Peterburq demirsən.

– Bu, mənlik deyil. Mən əvvəlki kimi mühafizəkaram, – Dronqo Vladimir Vladimiroviçə əlini

uzatdı. – Bacımın ailəsinə görə təşəkkür edirəm. O mənim tez-tez olan səfərlərim zamanı çox xiffət edir, amma məncə hər şeyi düzgün başa düşür.

– Bunlar Sadıxovun adətən qaldığı ünvanlardır, – həmsöhbəti Dronqoya mehmanxanalar və mənzillər olan siyahı uzatdı, – mümkün qədər dəqiq yoxla. Sadıxov yaxşı bilir ki, onu axtaracaqlar. Əlbəttə ki, o peşəkar deyil, amma belə bir işə girişibsə, deməli o qədər də diletant deyil. Belə görünür ki, o, yeni mafiyanın ən önəmli fiqurlarından biri olub. Hərçənd, buna Bağırovun özünün necə reaksiya verəcəyi məlum deyil. Sadıxovu onun adamları da axtara bilərlər. Bizdə olan məlumata görə Bağırov bu gün təcili Bakıya uçur. Görünür, şəhərdə nə baş verdiyini yerində araşdırmaq istəyir. Amma onun orda çox layiqli, ondan heç nədə geri qalmayan, hətta bəzi şeylərdə üstün olan rəqibi var. Bəlkə Asif Paşayev adını eşitmisən?

– Əlbəttə, eşitmişəm, – Dronqo təsdiqlədi, – Azərbaycanın ən zəngin adamlarından biridir. Yadıma gəlir, bir neçə ay əvvəl Moskvada qəbulların birində

onunla qarşılaşmışdım. Azərbaycanın mədəniyyət naziri Rusiyanın hansısa görkəmli xadimi haqda danışarkən əlavə etmişdi ki, o, Bruney sultanından da zəngindir. Onda ordakılardan biri zarafat etmişdi: doğrudanmı, o, Paşayevdən də zəngindir? Əlbəttə, yox, nazir də belə cavab vermişdi. Bruney sultanı Paşayevlə müqayisədə kasıb adamdır. Bu tipə elə o zaman fikir vermişdim.

– Bu hətta şişirtmə olsa belə, o qədər də böyük şişirtmə deyil. İstənilən halda, Sadıxovu tapmağa çalış. O, Paşayevə gedən açardır. Onun ən etibarlı adamıdır. Ona görə də Sadıxovu Bakıda aradan götürməyərək ona şəhərdən qaçmağa imkan verdilər. Yeri gəlmişkən, mən məlumatdan belə başa düşdüm ki, Lauton və yerli hüquq-mühafizə orqanları nümayəndələri, sənə Batumda haqqında danışılan həmin keçəli ələ keçiriblər. Məlumata görə o özünü yunan kimi qələmə verir, amma əsl adını hələ bilmirik. Zaqafqaziyada özünü “Aleksandr Petroviç” kimi, Fransa və İtaliyadasa “Konstantin Papadopulos” kimi təqdim edib. Düşünürəm ki, barmaq izlərini götürəndən sonra, nəhayət, bu əclafın əsl adını biləcəyik.

Amma onun, Ryaboyun və ya rus mafiyasının Nyu-Yorkdakı digər qruplarının Zaqafqaziyada bütün işi koordinasiya etmək üçün göndərdiyi qasid olduğu artıq şübhə doğurmur. İndi o tutulandan sonra bir çox şeylər, nəhayət ki, aydınlaşacaq.

– Hə, mənə Batumda onun haqqında danışıblar. Qafqaz respublikaları kimi qəliz regionda belə əminliklə fəaliyyət göstərə bilirsə, o hörmətə layiqdir. Orda tez-tez yerlilər belə başlarını itirir, osa belə arsızlıqla bütün sərhədləri keçə bilir. Lauton onu yerli hökumətə təhvil vermək istəyir?

– Əlbəttə. Onunla başqa neyləməlidir ki?

– Qorxuram ki, bu səhv iş ola. Belə görünür ki, keçəl yaxşı hazırlıqlıdır. Ona qarşı ən yaxşı müstəntiqləri işə qoşmaq lazımdır. Onu danışdırmaq asan olmayacaq.

– Bunu nəzərə almışıq. Onu Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına aparıblar. Məncə, ordan qaça bilməz.

– Əmin olmayın, – Dronqo dedi. – Bakıda ən yaxşı həbsxanalardan qaçış halları artıq olub. Hər cür tədbir görmək lazımdır ki, bu təkrarlanmasın.

– Biz Lautona lazımi təlimatı göndərərik, – Vladimir Vladimiroviç razılaşdı.

Bir neçə dəqiqə sonra Dronqo Sadıxovun qalmağı sevdiyi “Savoy” mehmanxanasına gedirdi. Əlbəttə ki, qaçaq nazir müavini orda olmadı. Dronqo şəhərin ən yaxşı otellərini bir-bir yoxlamağa başladı. Sadıxov heç harda yox idi. Dronqo hər ehtimala qarşı şəhər hakimliyinə də getdi. Azərbaycan səfirliyinin mehmanxanası onun yanında yerləşirdi. Ora gələn qonaqların siyahısını da yoxladı. Sadıxov orda da yox idi. Son ümidi ona səhər verilmiş iki ünvana qalmışdı. Bunlar Paşayevin Moskvada “hər ehtimala qarşı” aldığı mənzillərin ünvanı idi. Biri “Mir” prospektində, digərisə Ostojenkada yerləşirdi. Mənzillərin birində təmir gedirdi və ustalar şefin qəfil peyda olan qonağının – Dronqo özünü belə təqdim etmişdi – nə istədiyini anlaya bilmədilər. İkinci mənzilə artıq variantları götür-qoy

edərək gedirdi. Şeremetyevonun deputat otağına məlumat vermək lazım idi. Sadıxov özünün nazir müavini vəsiqəsindən istifadə edərək ordan uça bilərdi. Böyük ehtimal ki, o mütləq belə edəcək, yoxsa özüylə götürdüyü pulları başqa cür apara bilməzdi. Dronqo liftlə yuxarı qalxıb qapının zəngini basdı. Qapının arxasından kiminsə addım səsləri gəldi. Kimsə əmin, ziyalı səslə soruşdu:

– Kimdir?

Bu səsi eşidən Dronqo yumruqlarını düyünlədi. Bu, ona həmin səhər zəng edən məxmər səsli əclaf idi.

– Sizə təcili teleqram var, – o, kobudluqla cavab verdi.

Heç nədən şübhələnməyən Sadıxov "gözlükdən" baxıb sakitcə qapını açdı.

Demək olar ki, dərhal üzünə dəyən güclü zərbənin təsirindən yerə sərildi. Yıxılmaqdan sarsıntı keçirərək fikirlərini toplamaq üçün başını buladı. Dronqoya baxdı.

– Siz kimsiniz? – o öz yumşaq, ziyalı səsilə soruşdu. – Özünüzü niyə belə aparırsınız?

– Siz məni təbii ki, tanımadınız. – O, qapını örtüb kilidin dəstəyini çevirdi.

– Bağışlayın, amma mən sizi birinci dəfədir, görürəm, – Sadıxov yerdən qalxdı. O, böyük hamam xələtindəydi.

– Amma ikinci dəfədir, söhbət edirsiniz. Mən Dronqoyam.

Dəhşətdən Sadıxovun ağzı açıldı. Bağlandı. Sonra yenə açıldı. Dronqo yaratdığı effektdən həzz alırdı.

– Axı mən sizi xəbərdar etmişdim ki, məni təhdid edən yaramazı tapacağam.

O qolaylanıb Sadıxovun üzünə daha bir ağrılı zərbə endirdi. Sadıxov qışqıraraq yerə sərildi. Bu dəfə zərbə daha ağrılıydı. Üzündə aydın şəkildə göyərti görünməyə başladı.

– Xoşunuza gəldi? – Dronqo onun üzərinə əyilərək soruşdu. – Ayağa qalxın. Narahat olmaya bilərsiniz. Mən daha sizi vurmayacağam.

Sadıxov xüsusi məyusluqla ayağa durub birdən otaqda stolun üstündəki "diplomata" tərəf atıldı. Dronqo

da onun ardınca atılıb “diplomatı” əlilə divanın üstünə tullaya bildi. Sonra Sadıxovu itələyərək divana yaxınlaşdı. “Diplomatı” götürüb açdı. İçində bir neçə dəstə puldan başqa “Valter” tapançası da var idi.

– Başınız yaxşı işləyir, – Dronqo tapançanı götürərək gülümsədi. O, qoruyucunu yoxladı, darağı şaqqıldatdı. – İndi divana oturun, – tapançanı havada oynadıb əmr etdi. – Sadıxov gözlərini ona tuşlanmış silahdan çəkməyərək sakitcə oturdu. – Ən zəhləm gedən şey kiminsə məni təhdid etməsidir, – Dronqo davam etdi. – Sizin elə xoş səsiniz var ki onu tanımamaq mümkün deyil. Mən sizə bir neçə sual verəcəyəm. Əgər onlar məni qane etsə, cavablarınızı nəzərdə tuturam, onda sakitcə çıxıb gedəcəyəm. Hətta bütün pullarınızı da saxlayacağam. Əgər qane etməsə... Ən yaxşı halda sizi öldürəcəyəm. Ən pis haldasa rəqiblərə təhvil verəcəyəm. “12 Stul”u xatırlayırsınız? Siz ki ziyalı adamsınız, mütləq xatırlayırsınız. Deməli belə, sizə rəqib firmanın – “Bezençuk və nimfalar”ın çox əsəbi sahibləri var. Onlar, Bakıda, İran sərhədi və Qarabağ arasında yeni dəhlizi

məhz kimin yaratmaq istədiyini çoxdan axtarırlar. Onların əlinə düşsəniz, başa düşürsünüz, halınız necə olar?

Sadıxov təlaşla başını tərpətdi. O öz həyatı üçün qorxduğundan demək olar ki, artıq heç nəyi dərk etmirdi.

Dronqo bunu başa düşürdü. O, bardan konyak şüşəsi çıxarıb Sadıxova atdı, ardınca bir stəkan da tulladı.

– İçin. Bəlkə sakitləşərsiniz.

Sadıxov butulkanı açıb stəkanı tam doldurdu və onu su kimi birnəfəsə başına çəkdi.

– İndi mənim suallarıma cavab verin, – Dronqo razılıqla dedi. – Siz mənim haqqımda hardan bilirdiniz?

– Asif Paşayev demişdi. O, nömrənizi verib zəng etməyi əmr etmişdi, – Sadıxov cəld cavab verdi. Konyak doğrudan da, yaxşı təsir göstərmişdi.

– Bəs o hardan tanıyır?

– Bilmirəm. Amma onun DİN-də öz adamları var. Deyəsən, daxili işlər nazirinin müavini sizin haqqınızda danışıb.

– Bəs məni izləyən adamlar kim idi?

– Paşayevin şəxsi mühafizəsi. Onlar on beş nəfərdir.

– Siz İnterpoldan olan müşahidəçilərin gəlişindən niyə bu qədər qorxmuşdunuz?

– Biz qorxmamışdıq. Sadəcə olaraq, istəmirdik ki, siz onlarla görüşəsiniz. Bizə demişdilər ki, siz, bağışlayın, əla ekspertsiniz. Və sizi ya qorxutmaq, ya da aradan götürmək olar. Biz qərara aldıq ki, hələlik birincini sınaqdan keçirək. Paşayev deyirdi ki, sizi öldürmək olmaz. Siz hələ bizə lazım ola bilərsiniz.

– Keçəl kimdir?

– Bilmirəm. Biz onu Aleksandr Petroviç deyə çağırırıq. Biz onunla Türkiyədə tanış olmuşuq. Ora Paşayevlə birlikdə getmişdik.

– Bəs o, Türkiyəyə hardan gəlib?

– Nyu-Yorkdan. Paşayev keçən il ora gedəndə onların nümayəndəsilə razılığa gəlmişdi. Onlar da Aleksandr Petroviçi göndərdilər.

– Nə haqda razılığa gəlmişdi?

– Birgə fəaliyyət haqda... – Sadıxov bir qədər duruxdu.

– Zəhmət olmasa, daha konkret. Mənim vaxtım azdır.

– Hə, hə, əlbəttə. Biz sərhəddə yeni dəhliz yaratmaq istəyirdik. Keçən il Türkiyədə erməni tərəfin nümayəndələrilə görüşmüşdük. Razılaşmışdıq ki, yükləri dəhlizdən sərhədə birlikdə keçirək. Hər şeyi razılaşdırmışdıq.

– Siz dəqiq nə vaxt görüşmüsünüz?

– Keçən il, deyəsən, yazda.

– Axı o vaxt həmin hissə hələ işğal olunmamışdı. Siz hardan bilirdiniz ki, məhz bu dəhliz işğal olunacaq.

Sadıxov susurdu.

– Sizdən soruşuram, cavab verin, – Dronqo səsini qaldırdı.

– Biz elə danışmışdıq... – Sadıxov çətinliklə dedi, – biz danışmışdıq ki, həmin dəhliz işğal olunacaq.

– Necə? – eşitdikləri insan məntiqinin adət etdiyi normalara sığmırdı.

– Onlara sərhədə çıxmaq lazım deyildi, – Sadıxov dəhşətdən az qala boğularaq tələsik izah etdi. O başa düşürdü ki, bu etiraflardan sonra artıq məhkumdur. O başqa bir şeyi də başa düşürdü. Əgər o indi hər şeyi danışmasa, qarşısında dayanan bu qisasçı onu güllələyəcək. – Amma biz hər şey haqda danışmışdıq. Əsas o idi ki, onlar sərhədə yaxın stansiya olan Horadizi ələ keçirsinlər. Biz razılığa gələ bildik. Füzuliyə tanklar yeridiləndə bir neçəsi Horadiz tərəfə dönmüşdü. Bu vaxt biz stansiyada panika yaratdıq, bizim adamlar qışqırırdı ki, bura yüzlərlə tank yaxınlaşır. Stansiyanı müdafiə edən komandirə stansiyanın təhvil verilməsi haqda yanlış əmr gəldi. Sonra onu güllələdilər. Nəticədə biz həmin dəhlizi əldə etdik.

– Deməli, Horadizin işğalı hər iki mafiyanın birləşmiş aksiyasıydı! – Dronqo eşitdiyinə inanmadı.

– Hə, – Sadıxov ümidsizcəsinə dedi, – biz hər şeyi əvvəldən hazırlamışdıq. Bizə dəhliz lazım idi. Hərbi nöqteyi-nəzərdən erməni hissələrinə oranı işğal etmək lazım deyildi. Ora nahamar yerlərdir, sərhədi müdafiə

etmək demək olar ki, mümkün deyil. Biz də öz növbəmizdə stansiyanı təslim etməyə bilərdik. Amma biz yeni dəhlizi məhz orda yaratmaq istəyirdik. Ona görə belə alındı.

– Qulaq asın, Sadıxov. Siz iblisin özüsünüz. Bədbəxt insanlar – həm ermənilər, həm azərbaycanlılar – inanırlar ki, torpaq uğrunda, azadlıq uğrunda vuruşurlar, sizsə bu vaxt mafioz işlər təşkil edirsiniz. Siz ümumiyyətlə, Allaha inanırsınız?

– Bunun nə dəxli var? – Sadıxov dartındı. – Guya digər rayonların necə təhvil verildiyini siz bilmirsiniz. Birini təhvil vermək lazım idi ki, Bakıdakı hakimiyyət dəyişsin. Digəri, dağlardakı yeganə yolu minalardan təmizləyib özünə ev tikmək üçün və ora rahat yol salmaq üçün partlayıcılardan istifadə etmiş icraiyyə komitəsinin sədri üzündən verildi! Həmişə də belədir. Bizdən nə istəyirsiniz? Elə bilirsiniz, ermənilərdə belə hallar olmur? İstədiyiniz qədər. Öyrənin, görün Stepanakertdə balıq və kürü hardandır. Axı orda dəniz yoxdur. Və ya benzin.

Onların ki neft emal edən zavodları yoxdur? Mənlik burda nə var ki?

– Bilirsiniz, – Dronqo kədərlə dedi, – bu müharibədə mənim ən çox erməni və azərbaycanlıların sadə insanlarına yazığım gəlir. Onları bir-birilərinə qarşı qaldırıb indi onların qanıyla varlanırlar. Siz it oğlusunuz.

– Bunu niyə mənə deyirsiniz? – Sadıxov əsəblə soruşdu. – Elə bil təkcə mən beləyəm. Qalanları belə deyil? Nə satdığının nə fərqi var – narkotik maddə, neft, pambıq, metal, onsuz da hamı hər şeyi satır. Situasiya belə alınıb.

– Lənətə gələsiniz! – Dronqo nifrətlə dedi. – Onda niyə müharibəni dayandırmırsınız? Niyə insanlara demirsiniz ki, daha bəsdir, vuruşmaq lazım deyil. Biz ticarət etmək, almaq, satmaq istəyirik, vuruşmaq yox. Yox, siz xalqı müharibəyə qəsdən itələyirsiniz. Bilirsiniz ki, yalnız müharibə şəraitində, müdafiə olunmayan sərhədlər halında özünüzü yaxşı edəcəksiniz və siz həmvətənlərinizin qanı bahasına varlanırsınız. Şəxsən siz uşaqların qanı bahasına, qadınların və qocaların əzab-

əziyyəti bahasına var-dövlət yığırsınız. Məhz siz xalqları bir-birinə qarşı qaldırır, düşmən obrazı yaradır, qonşular haqda yalan və böhtan yayırsınız. Erməni və azərbaycanlıların iki mafiyası heç vaxt bu müharibəni bitirməyə imkan verməyəcək. Müharibə sizi yedizdirir, o sizin gücünüzdür.

O, tapançanı qaldırdı.

– Mən təəssüflənirəm ki, sizə söz verdim, – Dronqo qəzəblə dedi, – yoxsa, sizi güllələyərdim. Bu torpaqda yeri olmayan vəhşi bir məxluq kimi. Sizin pulunuz var. İstədiyiniz ölkəyə rədd olun! Amma bir daha öz vətəninizdə görünməyə cürət etməyin. Sizin kimilərinin vətəni olmur. Sizin vətəniniz budur – içi dollarla dolu çamadan! – o, “diplomat”ı Sadıxovun üzünə çırpdı. Pul dəstələri bütün otaqlara sovruldu. Tapançanın darağını çıxarıb cibinə qoyaraq onu bir kənara atdı. Sonra cəld addımlarla sanki fikrini dəyişəcəyindən qorxaraq qapıya yönəldi. Artıq liftdə bu əclafı güllələmədiyinə təəssüfləndi. Amma gözlərini yumaraq iradəsi hesabına

özünü sakitləşdirdi. Bu gün o ilk dəfə olaraq, saçında ağarmış tüklər gördü.

## XXIX HİSSƏ

Həmin səhər Boris Qriqoryeviç Lazarev yaxşı əhvali-ruhiyyədə oyandı. Dünən məlum olmuşdu ki, “Qamma Bank” keçən il ərzində üç milyon məbləğində təmiz gəlir əldə etmişdi. Nəzərə alınsa ki, bütün pullar Ryaboy və Lazarevin cibinə gedir, o qədər də pis məbləğ deyil. Hərçənd, mərhum Zıkov da var idi. Amma o artıq hesaba alınmırdı. Onun dul arvadına ərinin ölümündən sonra onsuz da çox şey qalmışdı: Moskva və Sankt-Peterburqda mənzillər, İspaniyada villa, dəbdəbəli maşınlar, böyük bağ evi, Amerikanın “Kemikl-bank”ında ciddi bir məbləğ. Zıkovun on iki il əvvəl vurulduğu keçmiş toxucuya daha nə lazım idi ki? Düzdür, onun əri və uşaqlarının atası ölmüşdü, amma bu, əldə etdiyi həzzə görə kompensasiya kimi bir şey idi. Həzzə görə həmişə nəsə ödəmək lazım gəlirdi. Lazarev öldürülən Zıkova görə təəssüflənsə də, əlbəttə ki, alınan gəlirin heç bir

hissəsini dul qadına və ya uşaqlarına vermək fikrində deyildi. Ölülər həmişə haqsızdırlar. Bu halda Zıkov pis vəziyyətə düşdüyünə görə özü günahkar idi. Mühafizəsiz gəzirdi, dəbdəbəli restoranlarda olmağı xoşlayırdı. Və nəticədə belə axmaq vəziyyətə düşdü.

Lazarev bu gün Saplyanın Bağırovu da öldürəcəyini xatırlayırdı. Əhvalı buna görə lap yaxşıydı. O, səbirsizliklə sonuncu yenilikləri gözləyirdi, artıq ağlında mərhumun qəbri üzərində söyləyəcəyi matəm nitqini hazırlayırdı.

Səhər vanna otağında üzünü qırxarkən özü özünə göz vurdu. İşlər əla gedirdi. O heç kimin edə bilmədiyini etmişdi. O, Arçil Qogiyanı aradan götürmüşdü, bu gün də Rafael Bağırovun növbəsiydi. Bundan sonra şəhərdəki bütün qruplar qarşılarındakının kim olduğunu biləcək. Laxlayan Sarkisyan hamıdan qabaq onun yanına gəlib bankını təhvil verəcək. Deyirlər, onun bankı “Qamma Bank”dan xeyli güclüdür. Lazarev bunu xatırlayıb qaşlarını çatdı. Eybi yox, o özünü sakitləşdirdi, bu hələlik belədir. Axşam hər şey əksinə olacaq. Əlbəttə, Saplya

dahidir. Mixo və Arçili necə aradan götürdü! Bir nəfər belə əla qatilin varsa, deməli, minlərlə əlaltın var. Ryaboy haqlıdır: əsas odur ki, insanlarla işləyəsən, daha düşmən tərəfə keçmək üçün fürsət gözləyən beyinsiz icraçılara fikrini yönəltməyəsən. Bu gün Dövlət Dumasında iclas olduğundan Lazarev cəld səhər yeməyini yeyib evdən çıxdı. Yanında, həmişəki kimi iki köməkçisi var idi. Daha bir neçə nəfər həyət boyu səpələndi.

“Sabahdan bu təhlükəsizlik tədbirləri lazım olmayacaq, – Lazarev gülümsəyərək düşündü. – Onlar sülh istəməyəcək, onlar diz çökərək şərəfli təslim haqda yalvaracaqlar”. O, telefon dəstəyini qaldırıb bankda Zıkovun yerinə qoyduğu ən yaxın köməkçisi Mixailin nömrəsini yığdı.

– İşlər necədir? – Lazarev soruşdu.

– Hər şey qaydasındadır, – o, Mixailin arxayın səsini eşitdi, – bankda ümumi hesabat qurtarıb.

– Bilirəm, – o, dəstəyi asdı. – Musiqini qoş, – sürücüyə dedi.

Sürücü maqnitofonun düyməsini basdı.

Maşın birbaşa Dövlət Dumasının binasına tərəf gedirdi. Lazarev qalib görkəmiylə maşından düşdü. Ani olaraq onu əhatə edən cangüdənləri Dövlət Dumasının deputatını binanın girişinə qədər müşayiət etdilər. İçəri yalnız Lazarevlə birlikdə girə bilən "köməkçiləri" buraxırdılar. O öz kabinetinə tələsirdi. Orda artıq hədsiz dərəcədə hündürboy, Valya adında, iyirmi yaşlı bir məxluq onu gözləyirdi. Lazarev bütün müqavilələrdən qəsdən vaz keçirdi ki, qızı özüylə Kanar adalarına aparsın. O bilirdi ki, qız bakirədir. İndi onun düzgün bədən quruluşuna fikir verərkən düşündü ki, öz prinsipinə xəyanət etməli olacaq. O qədər gözləmək lazım deyil. Yaya hələ çox var, qızısa Kanar adalarına aparmaq vacib deyil. Orda onunla darıxdırıcı olacaq. Yaxşısı budur, onu orda lazımi şəkildə əyləndirə biləcək təcrübəli birini götürsün. Daha yaxşısı iki nəfər götürməkdir. Yanında qadın bədənlərinin itaətini hiss etmək xüsusi həzdir.

O, ciddi tərzdə Valyaya baxdı.

– Mənə zəng ediblər?

– Yox, – qız qızardı. Boris Qriqoryeviç onun xoşuna gəlirdi. Həm də ondan bir qədər qorxurdu.

– Yaxşı. – O adəti üzrə olduğu kimi qızın belinə əl çəkdi, o da yüngülcə qızardı.

“Axmaq, – Lazarev məyusluqla düşündü, – bu qədər vaxtı niyə gözləmişəm ki? Hansısa diribaş bir oğlan tapılacaq və qız bir gün işə hamilə vəziyyətdə gələcək”.

O qorxdu, doğrudan da, axmaqlıqdır.

Kabinetində ideal səliqə-sahman hökm sürürdü. Hər iki köməkçisi – Lyonya və Vadim qapının yanında oturub qıza göz qoyurdular. Lazarev Mansurova zəng etdi.

– İşlərin necədir?

– Pis, – Mansurov kobud adam idi, – Xotivarinin adamları işləməyə imkan vermirlər. Dünən mənim uşaqlarımdan ikisini elə döyüblər ki, xəstəxanaya düşüblər. Yataqxanadan mənim qızlarımdan ikisini aparıblar. Bilirsən necə qızlar idi?! Özüm kənddən gətirmişdim, instituta düzəltmişdim.

Bu, Mansurov qrupunun peşəsinin bir hissəsiydi. Onlar gənc və təcrübəsiz əyalət qızlarının şəhərə gətirilib fahişəyə çevrilməsinə nəzarət edirdilər. Paytaxta gələn kənd qızları daha qiymətli sayılırdı. Onların bir çoxu bakirə olduqlarından nədənsə müştərilərə daha çox xoş gəlirdi. Belə qızları ehtiyatla qoruyurdular. Hətta institutlara düzəldirdilər ki, sonradan yaxşı bir qiymətə ciddi firmaların birinə referent kimi satsınlar. Təbii ki, qız dərhal şirkət sahibinin məşuqəsi olurdu.

Valyayla da belə alınmışdı. Hərçənd, Mansurov ən yaxşı qızını bir qəpik də almadan Lazarevə hədiyyə etmişdi. Artıq üç ay idi ki, Valya təcrübəli Natella Georgiyevnanın yanında katibə-referent olaraq işləyirdi. Və əgər Valya yalnız çay süzüb onu Lazarevə təqdim edirdisə, qalan bütün işləri təcrübəli Natella Georgiyevna görürdü. O, Lazarevlə artıq on beş il idi ki, işləyirdi. O zaman Lazarev kafedrada gənc elmlər namizədi, osa həmin kafedranın aspirantıydı. Bədxahlar onların çox yaxın olduqlarını danışırdılar. Daha sonra Lazarev onu birjada direktor təyin etdi. Amma Dövlət Dumasına düşdükdən sonra anladı ki, ağıllı və təcrübəli,

sədaqətinə şübhə etmədiyi bir köməkçi olmadan bu qədər işin öhdəsindən gələ bilməyəcək. Başqa namizəd ola bilməzdi. Və Natella Georgiyevna deputatın baş köməkçisi oldu. Ədalət naminə demək lazıdır ki, bütün işi o təkbaşına görürdü. Və öhdəsindən də çox gözəl gəlirdi. Lazarev ona Amerika prezidentinin aldığı maaş qədər pul ödəyirdi və hər iki tərəf bir-birindən razıydı. Gəncliyində o, doğrudan da, Natellayla bir neçə dəfə görüşmüşdü. Amma o, Lazarevin arzularının qadını deyildi. Bundan başqa, o, yataqda da olduqca quru, soyuq və çəkingən idi. O vaxtdan onların yalnız dost münasibətləri qalmışdı. Hərçənd, o, şefinin bir çox sirlərindən xəbərdar idi.

– Qızlarına yaxşı nəzarət edəydin! – Lazarev bağırdı. – Qızları qaytarıblar?

– Qaytarıblar, – Mansurov özünü saxlaya bilmədi, – indi onlar nəyimə lazımdır ki? Səhərə kimi başlarına nə oyunlar açıblar. Orda bir alay qafqazlı olub. İndi neyləyim onları?

– Geri göndər. Diqqət et ki, boşboğazlıq etməsinlər, – Lazarev ciddi şəkildə dedi, – bizə milis lazım deyil.

Özümüz ayırd edərik. Bunu kimin etdiyini araşdır və mənə zəng et. Özüm ölçü götürərəm. – O, dəstəyi asdı. Kabinetə əlində məcməyi olan Valya daxil oldu. O, çay gətirirdi.

– Qoy, çıx! – o kobud şəkildə əmr etdi.

Lənət şeytana, Lazarev düşündü, bir dəfə onu da oğurlayıb bütün komandayla üstünə düşəcəklər. O isə axmaq vəziyyətdə qalacaq. Qız artıq qapıya çatırdı.

– Gözlə, – onun səsi gəldi.

Qız geri çevrildi.

– Bura gəl, – Lazarev əmr etdi.

Qız stola yaxınlaşdı.

– Yaxınlaş.

Qız bir neçə santimetr də irəlilədi.

– Daha yaxın.

Qız daha bir neçə addım atıb onun kreslosunun yanında durdu. O, qızı kobud bir şəkildə öpməyə başladı. Qız bunu gözləmədiyindən inildədi. Bu da Lazarevi daha da coşdurdu.

O, qızı stolun üstünə yıxıb yubkasını dartmağa başladı. Qız heç nə anlamırdı, yalnız ətrafa boylanırdı. O, qızın kalqotkasını cırmağa başladı. Şalvarının düyməsini açdı. Qız birdən onun nə etmək istədiyini anlayıb qışqıraraq əllərilə üzünü tutdu. Səsə gələn Natella Georgiyevna qapını açarkən birini stolun üzərində uzanmış, digərini də şalvarsız vəziyyətdə gördü.

– Bağla qapını, – o, heyvani bir şövqlə dedi, – mane olma.

Qadın bu səhnəyə, Parisin Yelisey meydanından aldığı bahalı “Kristian Dior” markalı eynəyinin arxasından sakitcə baxırdı. Bir neçə saniyə baxdı və sakitcə kabinetdən çıxıb ehtiyatla qapını bağladı. Qızı zorlayandan sonra onu özündən itələdi. Qız tarazlığını itirib yerə yıxıldı. Bərk dəydi və səssiz ağlamağa başladı.

– Niyə ağlayırsan, axmaq, – Lazarev qışqırdı. – Bitdi. Hər şey yaxşıdır.

Qız ağlamağa davam edirdi.

Lazarev özünü qaydaya saldı, şalvarını bağladı. Saçını düzəldib kabinetdən çıxdı.

– Ona kömək et, – o, Natella Georgiyevnadan xahiş etdi.

Qadın dəsmal və su dolu çaynik götürüb kabinetə girdi. Hər iki cangüdən yerindən sıçrayıb nə baş verdiyini anlamadan gözlərini şefə zilləmişdi.

– Oturun, – o narazılıqla əlini yellədi, – ayaqyoluna gedirəm.

O, qəbul otağından dəhlizə çıxdı.

Kabinetdə Natella Georgiyevna ehtiyatla hönkürən Valyanı ayağa qaldırdı.

Lazarev ayaqyoluna girib kabinə keçdi. Şalvarını çıxardı. Alt paltarındakı bir neçə qan ləkəsinə məyusluqla baxdı.

“Bu axmağı lənətə gəlsin, – Lazarev əsəbiliklə düşündü. – Evə zəng etmək lazım gələcək ki, yeni alt paltarı gətirsinlər”.

Onun kabinetində isə artıq stulda oturmuş Valya hələ də ağlayırdı.

Kimsə onun qəbul otağına gəlib qapıları cəld Amerika istehsalı olan uzadılmış kilidlə bağladı.

O, hələ də məyusluqla alt paltarına baxırdı. Sonrasa qətiyyətlə şalvarını geyinib əllərini yumağa getdi.

“Zəng etmək lazım gələcək, – Lazarev qərar verdi. – Ona nə olub görəsən? Yəqin Mansurovun məlumatı onu belə həyəcanlandırıb. Bir də qızın iniltiləri. Ona nəsə hədiyyə etmək lazımdır. Hansısa bir oyuncaq – məsələn, “Jiquli” və ya İspaniyaya istirahətə göndərər. Deyirlər, martda ora yaxşı olur”. Kimsə ayaqyoluna girib Lazarevin yanında dayandı. O, gələnə fikir verməyib əllərini yumağa davam edirdi.

Natella Georgiyevna ehtiyatla əyilib qızın çəkmələrini çıxarırdı. Ona izah etməyə çalışırdı ki, cırıq kalqotkanı çıxarmalıdır.

– Biz yenisini almaq üçün adam göndərərik, – o, sakitcə bədbəxt qızı inandırırdı.

Amma qız ağlamağa davam edirdi. Sanki cırıq kalqotka bakirəliyindən daha böyük bir itkiydi. O, insanlara inamını itirmişdi.

Lazarev əllərini yumağa davam edirdi. Buranın sabunu çox pisdir, – o əsəbiliklə düşündü, – tapşırmaq

lazımdır ki, bura yaxşı sabun qoysunlar. Lap onun hesabına olsa da.

Lazarevin cangüdənlərindən biri olan Vadim dəhlizə çıxmaq istədi. Qapıya yaxınlaşıb sağ layını itələdi. Qapı açılmadı.

Lazarevin sağında dayanan adam sanki ona heç bir əhəmiyyət vermirdi.

Birdən Valya nəsə anlayıb Natella Georgiyevnadan soruşdu:

– Nəyə görə? O niyə belə etdi?

Və yenə hönkürdü. Qarşısında dayanan qadın üz-gözünü turşutdu. O belə hesab edirdi ki, hər şeyin əvəzini vermək lazımdır.

Lazarev ayaqyoluna daha kiminsə yaxınlaşdığını və dəstəyə nəsə etdiyini eşitdi. Maraqlıdır, o niyə qapının ağzında qurdalanır? Doğrudanmı, qapını aça bilmir?

Vadim qapını möhkəm dartırdı. Amma o açılmırdı. O, Leonidi çağırdı.

– Kimsə qapını bağlayıb! – o qışqırdı.

Hər ikisi Lazarevin kabinetinə qaçdı. Ora girəndə ağlayan, cırıq kalqotka və əzik donla oturmuş Valyanı gördülər. Heç nə anlamadan yenidən dəhlizə aparan qapıya tərəf atıldılar.

Naməlum adamın içəri girmək istəməyərək qapının arxasında dayanmağı Lazarevin xoşuna gəlmədi.

"Təzələrdəndir?" – Boris Qriqoryeviç narazılıqla düşündü və özü qapıya tərəf addımladı.

Vadim və Lyonya qapı laylarından heç olmasa birini yerindən çıxarmaq istəyirdilər. Onlar artıq ciddi nəsə baş verdiyini anlamışdılar. Lazarev qapıya yaxınlaşıb dəstəyi dartdı. Qapı yenə açılmadı.

"Yəqin, dəstəyi yeyilib, – o artıq hirslənməyə başlayırdı. – Bu axmağın üzündən alt paltarını batırdı, indi də ayaqyolunda ilişib qalıb". Arxasında səs gələndə geri çevrildi.

Valya nəhayət ki, Natella Georgiyevnanın ondan nə istədiyini anlayıb ehtiyatla çəkməsini çıxardı. Utandığından qızara-qızara kalqotkasını da çıxardı.

Natella Georgiyevna telefona yaxınlaşdı.

– İndi sürücüdən xahiş edərəm, mağazadan yenisini alar, – o, sakit şəkildə dedi, – daha yaxşı olardı ki, sən də onunla gedib hər şeyi özün seçəsən. Məncə, Boris Qriqoryeviç etiraz etməyəcək.

Lazarev səsboğucusu olan tapançanın ona tuşlandığını gördü. O hər şeyi dərhal başa düşdü – bağlı qapını da, dəhlizdə addım səslərini də, sağında dayanan adamın fısıltısını da. Qatil sakitcə nişan aldı.

– Niyə? – Lazarev qışqırmaq istədi. – Bu ədalətsizlikdir!

Amma dəhşət içində susdu.

Qatil tətiyi basdı.

Lazarev ayağının altından yerin qaçdığını hiss etdi. İkinci, yoxlama atəşini o eşitmədi. Qatil onun üzərinə əyilib qana bulaşmamağa çalışaraq ehtiyatla çiynindən tutub qaldırdı və unitaza tərəf sürüdü. Cəsədi elə orda ayaqları yuxarı vəziyyətdə qoydu. Sonra qapıya yaxınlaşıb üç dəfə döydü. Qapı demək olar ki, dərhal açıldı və o dəhlizə çıxdı. Sonra kilid şaqqıldadı və sükut çökdü. Yalnız yarım saatdan sonra Vadim və Lyonyanın ağlına gəldi ki, ayaqyoluna

baxsınlar. Orda Dövlət Dumasının deputatı Boris Qriqoryeviç Lazarevin cəsədini tapdılar.

## XXX HİSSƏ

Onlar hökumət bağına da dördlükdə getdilər. Milis əməkdaşları Ağayev və Cəfərov vəsiqələrini çıxarana kimi onların cipini uzun müddət içəri buraxmadılar. Yalnız üzərində tanış "DİN" və "Prokurorluq" sözlərini görəndən sonra adəti üzrə olduğu kimi hərbi təzim verib naməlum maşını buraxdılar.

Onlar bağa girəndə qarşılarına, içində iki cavan kişinin oturduğu qara rəngli "Volqa" çıxdı. Maşının nömrəsi yox idi. Lauton təşvişlə keçib gedən maşının arxasınca baxdı, amma heç nə demədi.

Sonra onlar daha beş dəqiqə Asif Paşayevin bağını axtardılar. Nəhayət, evi tapıb ona yaxınlaşdılar. Ətrafda sakitlik idi. Lauton maşından düşüb döngədəki kolların yanında təzə əyləc izləri sezdi və məyusluqla alt dodağını dişlədi. Doğrudanmı, onlar gecikdilər?

Evdə sakitlik idi. İstirahət edənlər mart ayında soyuq axşamları şəhərdəki dəbdəbəli evlərində keçirməyə üstünlük verdiklərindən hələ bura gəlmirdilər. Milli Təhlükəsizlik Nazirinin yaşadığı evin sağ yarısı qaranlıq idi. Asif Paşayevin yaşadığı sol tərəfdəsə giriş qapısının önündə lampa yanırdı.

Onlar qapıya yaxınlaşıb zəngi basdılar.

Ətrafa ölü sükut çökmüşdü.

Dyula ehtiyatla qapının dəstəyini dartdı. Qapı açıq idi. Lauton içəri girmədi. Aralarında ən təcrübəli olduğundan o artıq nə baş verdiyini bilirdi. Hollda işıq yanmırdı, yalnız pilləkənin yanındakı stolüstü lampa ətrafı tutqun şəkildə işıqlandırırdı. Cəfərov və Ağayev yuxarı qalxdılar. Asif Paşayev yataq otağında uzanmışdı. Öz çarpayısında elə uzanmışdı ki, sanki yatırdı. Boğazından keçən qırmızı şırım olmasaydı. Kimsə onları qabaqlayıb onu boğmuşdu.

– Cəld aşağı, – Cəfərov hər şeyi anladı, – həmin nömrəsiz qara “Volqa”nın ardınca gedin.

Ağayev və Dyula aşağı qaçdılar. Cipin mühərriki gurladı və maşının əyləci döngədə cırıldayaraq darvazaya tərəf şütüdü.

Lauton evə girdi. Cəfərov pilləkənlə aşağı düşürdü.

– O öldürülüb? – Lautonun əsəbləri həqiqətən, dəmirdən idi. O bu cümləni rusca deyə bildi.

– Hə, onu boğublar, – pillələrdə oturan Cəfərov kədərlə təsdiqlədi. – Biz gecikdik.

– Yunanın pasportunu tapmaq lazımdır, – Lauton xatırlatdı, – biz buna görə burdayıq. – O, bu dəfə ingiliscə danışırdı.

– Cəfərov bu cümləni başa düşmədi. Yalnız “pasport” sözünü başa düşdü. Onlar yenidən yuxarı qalxdılar, mərhumun pencəyinin ciblərinə, yazı masasına baxdılar. Pasport heç harda yox idi.

– Onu axtarmaq lazım deyil, – Cəfərov əlini yellədi, – onlar elə onun ardınca gəlmişdilər. Biz onsuz da burda heç nə tapa bilməyəcəyik. Başa düşürsünüz, onlar pasportu götürüb gediblər.

O, rusca danışdığından Lauton onu başa düşmürdü.

Yenə əyləc səsi gəldi. Ağayev və Dyula Nilaşinin olduğu cip gəldi. Onlar evə girdilər.

– Tapmadınız? – Cəfərov soruşdu.

– Yox, – Ağayev cavab verdi. – Ola bilsin, onlar Bilgəh tərəfə gediblər, biz onları tapa bilmədik.

– Polis çağırmaq lazımdır, – Dyula dedi.

– Əlbəttə, – artıq karyerasının bitdiyini anlayan Cəfərov laqeydliklə dedi. Asif Paşayevin qətlini ona heç kim bağışlamaz. Bu sondur.

– Necə düşünürsünüz, – o, Dyuladan soruşdu, – qoy cənab Lauton desin, onu kim öldürüb?

Dyula tərcümə etdi. Lauton cavab verdi:

– O deyir: ya özününkülər – həddən artıq bildiyinə görə: ya da başqaları – yenə eyni səbəbə görə. Amma onun fikrincə bunu başqaları edib. Cənab Paşayevin fəaliyyəti onları bezdirib.

– Siz hər şeyi hardan bilirsiniz? – Cəfərov yenə pilləkəndə oturdu. – Əlbəttə, Paşayevin fəaliyyəti onları bezdirib. O axı oğruydu. Mafiyayla onun öz oyununu

oynamağa qərar verib. Quldurlarsa belə şeyləri bağışlamır. Onlar da göstərib ki, Zaqafqaziyada əsl ağa kimdir.

– Şəhər milis şöbəsindən adamlar çağırın, – Cəfərov laqeydliklə Ağayevə müraciət etdi, – artıq burda bizlik bir iş yoxdur.

Lauton birdən ona yaxınlaşdı. Əyilib əlini onun dizinə qoyaraq nəsə deməyə başladı.

– O deyir ki, – Ağayev tərcümə etdi, – siz çox şərəfli və prinsipial adamsınız, cənab Mirzə Cəfərov. O sizinlə tanış olmağıyla fəxr edir. Bura gələnə kimi onu əmin ediblər ki, burda bütün milis və prokurorluq işçiləri satılıb, şərəfli insanlar, ümumiyyətlə yoxdur, hüquq-mühafizə orqanları çoxdan mafiyayla qovuşub. O, çox sevinir ki, bu məlumatlar yalan çıxıb. Sizin kimilər, cənab Cəfərov öz xalqının adını uca edir.

Mirzə ayağa durub bir neçə pillə aşağı düşdü. Lautonla yanaşı dayandı. Lauton təntənəli şəkildə əlini ona uzatdı. Səbəbi bilinməyən anlaşılmaz bir həyəcan yaşayan Cəfərov da əlini ona uzatdı. Onlar möhkəm əl tutdular. Sanki burda, Asif Paşayevin bağında onu ilk dəfə hansısa

mükafatla təltif etmişdilər. Stolüstü lampanın tutqun işığında, Elmar Ağayev və Dyula Nilaşinin ruhlandırıcı baxışları altında o öz mükafatını alırdı. O bu bir neçə gün ərzində ilk dəfə olaraq gülümsədi. Sanki doğrudan da, çox vacib və lazımlı iş gördüyünü dərk edirdi.

– Ona deyin ki, – Cəfərov Dyuladan xahiş etdi, – mən də əcnəbilər haqda öz fikrimi dəyişdim. Mən onları həmişə köpmüş hind toyuqlarına bənzədirdim. Sən demə, onlar yaxşı uşaqlar imiş.

Dyula bu cümləni uzun müddətə tərcümə etdi və “köpmüş hind toyuğu” əvəzinə “səfeh qaz” ifadəsini işlətdi. Amma mənа aydın idi və dördü də şən halda bərkdən güldülər.

Bu zaman aeroport yoluyla iki maşın gedirdi. Bu, Moskvadan Bakıya indicə gəlmiş Rafael Bağırov idi. O artıq Paşayevin ölümü haqda məlumat almışdı. Buna görə elə maşında əla fransız konyakından bir qədər içdi. Onun zövqünü bilən sürücü həmişə maşında bu içkidən iki şüşə saxlayırdı.

Radioda Dövlət Dumasının deputatının qətliylə bağlı qəzəbli fikirlər səsləndirirdilər. Mafiyaya, deputatın qətlinə qarşı qəzəbli səslər ən çox Lazarevlə əlaqəli kommersiya strukturlarından gəlirdi. Onlar başa düşürdülər ki, sülhə getməli olacaqlar.

Telefon zəng çaldı. Bağırov dəstəyi götürdü. Bu nömrə praktik olaraq, heç kimə məlum deyildi.

– Salam, əziz Rafael Mamedoviç, – o, Sarkisyanın səsini eşitdi, – sizin belə tez uyğunlaşa biləcəyinizi düşünmürdüm. İstənilən halda sizi təbrik edirəm. Quram Xotivari heç Lazarevin ölümü haqda bilmirdi, ona birinci mən dedim.

– Çox sağ olun, – o, diqqəti dəyərləndirməyi bacarırdı. Artur Sarkisyanın bankıyla əlaqələri möhkəmləndirmək lazım gələcək.

– Siz yəqin ki, hələ Rubinçiklə danışmağa macal tapmamısınız. Əlbəttə ki, daha heç kim sülh istəməyəcək. Biz onları darmadağın edəcəyik.

– Yox, – Bağırov etiraz etdi, – mən Rubinçiklə danışmışam. Artıq qəti sülh olacaq. Aramızdakı bu

müharibəni bitirmək lazımdır. Qoy axmaqlar vuruşsun, bizə müharibə lazım deyil.

– Əlbəttə, – Artur Sarkisyan dərhal razılaşdı, – sizə olan rəğbətimi bilirsiniz.

– Qarşılıqlıdır, əziz Artur Aşotoviç, qarşılıqlıdır. “Onlarda hesab da açmaq olar”, – Bağırovun ağlına gəldi.

Dəstəyi təzəcə yerinə qoymuşdu ki, daha bir zəng gəldi.

– Rafael Mamedoviç, – Filya Rubinçikin sakit səsi gəldi, – bu mənəm. Siz hələ sülh yaratmaq fikrindən vaz keçməmisiniz ki?

– Yox, nə danışırsınız. Bəyəm mən qeyri-ciddi adama oxşayıram? Mənim təklifim qüvvədə qalır.

– Mən artıq Ryaboyla danışmışam. O belə hesab edir ki, situasiya bir qədər dəyişib. O, sülhə razıdır. O xahiş edir ki, sizin səlahiyyət hüdudlarınız haqda razılıq əldə olunana kimi bütün fəaliyyətinizi dayandırasınız. Mən vasitəçi ola bilərəm?

– Siz həmişə bizə kömək edirsiniz, – Bağırov həssaslıqla dedi.

– Nə danışırsınız! Bəyəm bu köməkdir? Bu, sadəcə, dostca xidmətdir. Siz Lazarevin öldürüldüyünü eşitmisiniz? Deyirlər, Dövlət Dumasının ayaqyolunda öldürüblər. Təsəvvür edirsiniz, cinayətkarlar necə həyasızlıqla iş görüblər?

– Hə, – Bağırov təmkinlə dedi, – təsəvvür edirəm.

– Sizi təbrik edirəm, Rafael Mamedoviç. Düşünürəm ki, Ryaboy sizin bütün şərtlərinizi qəbul edəcək. Sağ olun.

– Salamat qalın, – o, dəstəyi asdı.

Bu gün onun baş nazirlə görüşü olmalıydı. İndi onlar artıq dövlət əmlakı oğrusu olan Asif Paşayevdən canlarını qurtarandan sonra danışmaq daha asan olacaq. Baş nazir Bağırovun ona dediyi hər şeyi edəcək. Nəticə etibarilə, o qeyri-adi heç nə istəməyəcək.

Birdən Davidi xatırladı. "Qoca, bu Saplyanı tapmasa getməyəcək, – Bağırov kədərlə düşündü. – Quramla razılığa gəlmək lazımdır ki, Saplyanın yerinə kimisə qoysun. Qoy David inansın ki, onlar Arçilin qisasını aldılar. Amma Saplyanı mütləq tapmaq lazımdır. O, əlbəttə ki, qaçıb, amma kim bilir, Ryaboy öz sifarişini ləğv edəcək, ya yox...

Deməli, bu Saplyanı tapıb uzun boynunu üzmək lazımdır. Bu qatilin şəkilləri artıq milisdə var".

Maşınlar şəhərə girirdi.

SON

Vətəndaş Mixail Quramoviç Moseşvilinin açılmamış qətli, pis işinə görə töhmət almış müstəntiq Yevgeni Çijovun üstündə qaldı.

Kiyev rayonunun prokuroru Morozov çoxdan gözlədiyi vəzifə yüksəlişini alıb Moskva şəhər prokurorunun müavini oldu.

"Qamma Bankda" yeni prezident seçildi. Bu, Boris Lazarevin keçmiş sağ əli Mixail Nikitin idi.

Rusiyanın ən iri bankı Artur Sarkisyanın "Kontinental Bank"ı hesab olundu. Deyirdilər ki, mafiya öz pulunu onun bankına yatırır, amma ola bilsin ki, bütün bunlar yalnız şayiədir.

ABŞ prezidenti Bill Klinton Moskvaya may ayındakı səfəri zamanı Boris Yelsin və Yuri Lujkovla birlikdə dünya

şöhrətli heykəltəraş Rafael Bağırovun emalatxanasına da baş çəkdi.

David Qogiya “Praqa” restoranında hansısa məşhur killerin öldürülməsindən sonra, nəhayət, Tiflisə qayıtdı.

Federal əks-kəşfiyyat xidmətinin məlumatına görə Hollandiyada qanuni oğruların yeni toplantısı gözlənilir. Toplantıya sədrliyi, Nyu-Yorkdan olan keçmiş SSRİ vətəndaşı Ryaboy etməliydi.

Cinayət-Axtarış İdarəsi rəisi Konstantin Mixeyev pis işinə və cinayətləri açma səviyyəsinin aşağı olmasına görə DİN orqanlarından qovulmaqla təqaüdə göndərildi.

Göstərdiyi rəşadət və qəhrəmanlığa görə müstəntiq Mirzə Cəfərov bir aylıq maaşı qədər mükafat aldı.

Sağlamlığına qovuşan Şalva Rurua nəinki limanın, eləcə də şəhərin əsl ağası oldu. Deyilənə görə, onun birinci köməkçisi öldürülmüş qardaşı oğlunun arvadı olan gözəl bir qadın idi. Amma heç kim heç vaxt bu qadını görməyib.

Beyləqan rayonunun prokuroru daha məsuliyyətli vəzifəyə təyin olundu və Şamaxı şəhərinin prokuroru oldu.

Bununla yanaşı Rəhimov baş ədliyyə müşaviri rütbəsi də aldı.

Dərhal bir neçə maddəylə ittiham olunan Zeynal Manafovu Bakı şəhəri Daxili İşlər İdarəsinin istintaq təcridxanasının kamerasında özünü asmış vəziyyətdə tapdılar.

Cerald Lauton və Dyula Nilaşi Fransaya geri qayıtdılar. Belə deyirlər ki, onlar Parisə üçlükdə uçublar. Dronqo adıyla tanınan BMT-nin ekspertlər komitəsinin keçmiş əməkdaşı da onlarla olub. Deyirlər ki, o, sadəcə olaraq, Fransada dincəlmək istəyirmiş. Heç olmasa, bir neçə günlüyə.